ŞAKİR QABISSANLI

MAKEDONİYALI İSGƏNDƏR AZƏRBAYCANDA OLUBMU?

Bakı – "Təknur" – 2013

Redaktorlar: **Veysəl Nərimanlı**
Qələndər Xaçınçaylı

Şakir Qabıssanlı (Həmzəyev Şakir Ağacan oğlu).
«Makedoniyalı İsgəndər Azərbaycanda olubmu?»
Bakı - «Təknur» -2013. 280 səh.

Kitabda fateh İsgəndər haqqında tarixə məlum olmayan, lakin tariximizdə olan maraqlı məlumatlar verilir. Müəllif İsgəndərin Azərbaycana gəlişini, müharibədən deyil, Ziyarətdən doğulduğunu oxuculara çatdırır. Onun dünyanı fəth etməsi, dəlillərlə, coğrafi xətlərlə keçdiyi yolları işıqlandırılır. Bundan əlavə Nuh haqqında "xaç"ın tarixi, dünyanın ilk hacılığının Azərbaycanda olması haqqında ətraflı məlumatlar verilir, eləcə də İbrahim dininin məlum olmayan sirlərini oxuculara maraqlı faktlarla çatdırılır.

ISBN: 978-9952-445-03-9

© ŞAKİR QABISSANLI

Bu kitabı, mənim həyatda zəngin bir ziyalı kimi formalaşmağımda, daxili aləmimdə mənəvi zərlərin cilalanmasında böyük rolu olan, pərəstiş etdiyim müəllimim Bəhlul Kərim oğlu Əlicanova və böyük qardaşım (mərhumlar) Sabir Ağacan oğlu Həmzəyevə, yəni ensiklopedik biliyə malik olan bu iki şəxsiyyətə ruhən itfah edirəm!

Müqəddəs və əziz doğmalarım, "60" yaşım olsa da, mən sizləri bir an da olsa unutmadım. Sizin "aləmi bərzəx"də qərar tutan ruhlarınızla hər zaman ruhən təmasda oldum. Şadam ki, belə bir xoşbxtliyi Allah mənə nəsib edib, sizlərin ruhunu şad etmək üçün, sizin mənə bəxş etdiyiniz təfəkkür zənginliyindən doğulan, tarixə məlum olmayan qeyri-adilikdən yaranan bu əsəri, butada olan mənəvi zərləri kimi ruhən sizlərə itfah edirəm! (Hər üçümüz tarixçi olduğumuz üçün, bu üçlüyün mənəvi dünyasından, biliklərindən doğuldu bu əsər) Siz məndən cismən uzaqlaşsanız da, ancaq tək bircə təsəllim qalıb. Hər gün mən sizlərə bir addım yaxınlaşıram...

Ruhunuz şad olsun mənim əzizlərim!

Ş.Qabıssanlı

Şakir Qabıssanlı yaradıcılığına rəğbət göstərib, qiymətləndirib rəy verdikləri üçün, aşağıdakı elm xadimlərinə öz minnətdarlığımı bildirirəm.

RƏYÇİLƏR AMEA-SI.

Budaq Budaqov	*Akademik, coğrafiya elmləri doktoru, professor*
Vəli Əliyev	*AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor*
Nəriman Əliyev	*Azərbaycan Respublikasının əməkdar memarı, professor, memarlıq doktoru, Beynəlxalq Ekoenergetika akademiki, Şərq ölkələri Memarlıq Akademiyasının müxbir üzvü*
Arif Quliyev	*AMEA-nın müxbir üzvü, texnika elmləri doktoru, professor*
Adil Qəribov	*AMEA-nın müxbir üzvü*
Bahadur Tağıyev	*AMEA-nın müxbir üzvü*
Əlikram Tağıyev	*AMEA-sı fəlsəfə elmləri professor*
Məhərrəm Qasımlı	*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat institunun direktor müavini, filologiya elmləri doktoru, professor*
Qurban Bayramov	*AMEA filologiya üzrə fəlsəfə doktoru, professor*
AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşları:	
Emil Kərimov	*tarix üzrə fəlsəfə doktoru*
Tahir Şahbazov	*tarix üzrə fəlsəfə doktoru*
Pirağa İsmayılzadə	*tarix üzrə fəlsəfə doktoru*
X.S.Qasımov **D.M.Əzimli**	*AMEA-sı, tarix üzrə fəlsəfə doktoru*

MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT XADİMLƏRİ

Siyavuş Kərimi	*Milli Konservatoriyanın rektoru, professor*
Eldar Mansurov	*Əməkdar incəsənət xadimi, bəstəkar*
Habil Əliyev	*Respublikanın xalq artisti, Şöhrət və Milli İstiqlal ordenli*
Əlibaba Məmmədov	*Respublikanın xalq artisti, Şöhrət və Milli İstiqlal ordenli*
Alim Qasımov	*Respublikanın xalq artisti, Şöhrət ordenli*
Arif Babayev	*Respublikanın xalq artisti, Şöhrət və Milli İstiqlal ordenli. Professor*
Mələkxanım Əyyubova	*Respublikanın xalq artisti, professor*
Ağaxan Abdullayev	*Respublikanın xalq artisti, Şöhrət ordenli, dosent*
Mənsum İbrahimov	*Milli konseratoriyanın dosenti xalq artisti, Şöhrət ordenli*
Zamiq Əliyev	*Respublikanın xalq artisti, professor*
Səkinə İsmayılova	*Respublikanın xalq artisti, dosent*
Vamiq Məmmədəliyev	*Respublikanın əməkdar artisti, dosent*
Əhliman Rəhimov	*Sənətşünaslıq üzrə fəlsəfə doktoru. Aşıq*
Firuz Əliyev	*Respublikanın xalq artisti, dosent*

MÜXTƏLİF ELM XADİMLƏRİ

Rəcəb Əliyev	*ADPU-nun "Türk və Şərqi Avropa xalqları tarixi və tarixin tədrisi metodikası kafedrasının müdiri*
Fikrət Nəbiyev	*AMEA, fəlsəfə doktoru hüquqşünas*
Hacı Hacıyev	*tarix elmləri doktoru, professor*
Mehman Məmmədov	*filologiya elmləri doktoru, professor*
Veysəl Nərimanlı	*texnika üzrə fəlsəfə doktoru*
İlham İlham	*Azərbaycan Kooperasiya İnstitunun humanitar işlər üzrə prorektoru*
Tahir Tayisoğlu	*siyasi elmlər doktoru, şair, respublikanın əməkdar jurnalisti*
Heydər Hüseynov	*Fizika-riyaziyyat elmləri namizədi, dosent*
Qismət Yunisoğlu	*Kənd təsərrüfatı elmlər namizədi*
Malik Rəcəb	*Təhsil problemləri qəzetinin baş redaktoru, yazıçı*

ÖN SÖZ
BƏŞƏRİYYƏTİN BEŞİYİ-QABISSANDIR-İNKAR EDİLMƏZLİK SİNDROMU

Aydın səmada çimşək kimi çaxan bu ifadənin müəllifi Həmzəyev Şakir Ağacan oğlu (Şakir Qabıssanlı) ilə mən gənclik illərində Qabıssan rayonunun Cəyirli orta məktəbində birgə-işlədiyimiz vaxtdan tanış olmuşam. Bizim təzadlı-münaqişəli(mübahisəli) dostluğumuz "35" ildən çoxdur ki, davam edir. Qeyri adi florik, heç bir məntiqə (o dövrün elmi məntiqinə) sığmayan fikir və hərəkətləri onu mənim üçün anlaşılmaz və arzuolunmaz adama çevirmək dərəcəsinə gətirirdi. Qeyri ənənəvi fikirlər, arzular və vulkanik hərəkətlər onu bizim gözümüzdə qəribələşdirdi. O vaxt kənd rayonlarında işləyən ali təhsilli mütəxəssislər Orduya çağırışdan möhlət hüququna malik olsalar da, Şakir müəllim hər vəchlə hərbi xidmətə can atırdı. Bu arzusuna görə biz ona istehza ilə "general" deyərdik. Sonralar hər kəs öz yolu ilə getdi. 2007-ci ildə biz onunla uzun ayrılıqdan sonra yeniden görüşdük. O gündən mən Qabıssanlı cazibəsinə düşdüm və onun təfəkkür tərzinə, xalq fəlsəfi fikrinə açdığı "çığırdan" çıxa bilmədim. Nədir bu cazibələrin sirri. Yadıma Şəms Təbrizi və Cəlaləddin Rumi "Cazibəsi" düşdü.

Bu "görmədiyimizi"-aşkar həqiqətləri göstərən insana minnətdarlıq hissindən doğan cazibədir. Məlumdur ki, ətraf aləm haqqında məlumatın 90% gözlə əldə edilir. İnkas edən obyektiv reallıq ağılla dərk edilib biliyə çevrilir. Bu yolun nöqsanı A.A.Bakıxanov tərəfin-

dən göstərilir:-“ Bir çox bilikli adamların düşüncələri öz fəzilətərinə baxmayaraq bu işdə (dərk etmədə) avamlarınkından da qüsurludur”.

Sonralar bu böyük insan etiraf etmişdir ki, dünyanı dərk etməyin ikinci və hər kəsə nəsib olmayan yolu-bəsirət-fəhm yolu, ilahi vəhy yolu vardır. Tam həqiqətə çatmaq üçün bu iki yola vaqif olmaq lazımdır. Mən inandım ki, Şakir müəllim dünya həqiqətlərini İlahirəbbi tərəfindən bəxş edilən “bəsirət gözü” ilə görür və oxucusuna çatdırır. Mən böyük müəllim Sokratın ölərkən söylədiyi-“xalqın etiqadı elmədir, mənimki isə cəhlə. Adamların cəhalətinə qəti dəlil onların elmə inanmağıdır”. Ş.Qabıssanlı yaradıcılığı ilə tanışlıqdan sonra onun tədqiqat orjinallığını söykəndiyi mənbələrdə gördüm. Bu mənbələr elmdən daha qədim və “bakirə”-toxunulmamış mənbələrdir. Bunlar aşağıdakılardır.

1. İnsan bədii təfəkkürünün ilkin mənbəyi-mağara və qayaüstü abidələri.

2. Xalq folklor nümunələri.

3. Azərbaycan xalça və kilim naxışlarındakı süjetlər.

4. Mifoloji mətnlər və əfsanələr

5. Xalq mahnıları-şikəstələr və onların zirvəsi muğamlar

6. İlk səmavi kitablar-“Zənbur”, “Tövrat”, “İncil”və “Quran”

7. Toponimlər üsulu da orijinaldır

Tədqiqt üsulu da orijinaldır:

1. Sözlərin kodlaşmış mənasının açılması

2. Bu açılışlardan yaranan Söz-kod tənlikləri və onların orijinal həlli.

3. Məntiqi-idrakı düşüncənin bu həqiqətlərə söykənən hökmü.

O, bu üsulla gəldiyi nəticə ilə sübut edir ki,-opnnonent, mənim fikirlərim budur, əyər inkar edə bilmirsənsə doğruluğunu qəbul et.

Ən qlobal sual:-Nə üçün bəşəriyyət başlanğıcını "Qabıssan"dan, Azər-Bey-Candan götürüb? Ş.Qabıssanlı: "-Dünyanın ilk kralı Aser-Odun(Mənası Azər Odu) olmuşdur. Azər-bey-can İbrahim(ə)-ın və ya "... Adəm və Həvva dörd qoşa çaydan birində olmuşlar. Bunlar: Hind-Qanq, Fərat-Dəclə, Amu Dərya-sır Dərya, sonuncu "Kür-Araz"

Əvvəlki üç adlarda dünyaya aid heç bir əlamət nə toponim, nə tarixi, nə də mifoloji yoxdur. Kür-Araz aralığını Xəzər və onun ətrafı, Xəzərin sahilindəki Qabıssan qayalarındakı 7min işarə və sözlərə əsasən-ilk insan Adəm və Həvvanın məskəni hesab etsin. Dünyanın 17 ölkəsində mövcud olan Qabıssan tipli qayaüstü işarələrindən yalnız Qabıssandakı işarələr dünyaca məşhur alim Tur Heyerdal təəccüblənmişdir Nə üçün?

Ş.Qabıssanlı cavab verir:

"_Nədir bu işarələr ki Heyrdalı Təəccübləndirib" bunlar, xaç-bərabəryanlı iki perependikulyar xətt-qövs, səkkiz xətt (Nuh tufanına işarə -Özü, qadını, uç oğlu və üç gəlini) ağac, əyri qayıq, qayığın ucunda günəş, dorda quş, yuxarıda tək ulduz..

Bunların kodunu açdıqda Nuh tufanının əlamətləri və ondan çıxan nəticə-Bəşəriyyətin başlanğıcını Qabıssandan götürürməsinə hec bir şübhə qalmır.

1. Xaç-göy, yer, İnsan, ölüm-allaha ayıtma
2. Qövs-Yer-Göy, iki yarımdərə-Cövzə-oraq
3. Ağac-Şəcərə,nəsl və onun qolları
4. Səkkiz xətt (yuxarıda izah etdik)
5. Dorda quş-müjdə
6. Dorun ustə tək ulduz-İbrahim(ə) ilk üz tutduğu Rəbbi-təkallahlığa işarə
7. Qayığın uc hissəsində günəş-azadlığa çıxma
8. Əyri qayıq ən qədim qayıqlar (Sübut olunub ki, bu qamış qayıqlar Hacıqabul ərazisindən tədarük olunan qamışdan hazırlanmış)

Bu işarələrin kodu-açılışı, Ş.Qabıssanlıya görə sübut edir ki, Qabıssan(Daş) və Dağıstan(iç) dünyanın ilk yaşayış məskənidir. Bu nəticə dünya tərəfindən də etiraf olunur. Etiraf edilir (təsdiq edilib) ki, Adəmin cənnətdən atıldığı yer Azərbaycan (Urmiya gölü sahili) olmuşdur. Salyan, Şamaxı və digər ərazilərdə, arxeoloji qazıntılar nəticəsində tapılan küp qəbrlər, Qarabağda tapılan açıq (səma altında) qəbr-komplekslər və əvəzsiz Azıx mağarası dediklərimizin müasir elmi təsdiqidir. Ş.Qabıssanlının orjinal və orjinal olduğu qədər də cəsarətli və təkzibolunmaz fikri –yüz illər kimsənin mahiyyətinə varmadığı "Zərdüşt"lik dini və Zərdüşt" yox, "Zərduş"ların vətəni Qabıssan və Dağıssan-Abşeron-olmuşdur. Zərduş" din deyil sivilizasiyadır. Zər1-qızıl , ilk dəfə taxıla da "qızıl", "zər" deyilib. Zər2-əkmək, əkin, təkrar əkmək, Zər3-107sm-dən (hündürlük) əkilib. Duş1-sağım, təkrar sağın, Duş3-əkin üçün çiyindən asılan torba.

Demək zərduşluq-həyat tərzi-sivlizasiyadır. Əkin-

çilik və maldarlıqla məşğul olanların sivilizasiyası İbtidai icmadan sonrakı ilk əmək bölgüsü. Cəmiyyətin rüşeyimi. Hər sivlizasiya mənəvi təkamülə bağlıdır. Bu sivlizasiyanın mənəvi əsası İbrahim(ə) dini idi. İnadla Rəbbini axtaran, ulduzlara, Aya, Günəşə üz tutan İbrahim Nəhayət tək və ulu Rəbbini –Allahını tapan İbrahim. Deməli"Qurani-Kərim"də xəbər verilən İbrahim dini Zərduşların dini olmuşdur. "Hədid" surəsini 26-cı ayəsində deyilir:- "Həqiqətən biz Nuhu və İbrahimi göndərdik və peyğəmbərlik (məqamı) və (səmavi) kitabı o ikisinin nəslində qoyduq. Beləliklə onların bəziləri doğru yola düşdülər, çoxu isə itaətsiz qaldılar"

Qabıssanlı sual edir:-hardadır bu kitab və bu din?-Özü də bütün əsərlərində təkzibedilməz dillərlə, məntiqiq nəticələri ilə sübut edir ki, bu din-təkallahlıq yolunda ilk yolçu-peyğəmbər olan İbrahimin zərduşlara gətirdiyi (İlahi tərəfindən) Zənd-Əvəstəda (Avesta) təsbit olunan dindir. "Bəqərə -130"da göstərilir:"Biz onu bu dünyada (peyğəmbərlik imamlıq və hikmət üçün seçdik və onu axirətdə (də) mütləq saleh(bəndə) lərdən edəcəyik" Deməli zərduşların peyğəmbəri İbrahım(ə)ın vətəni Odlar, Övlliyalar, müqəddəslər yurdu Azərbaycan-Qabıssan-Dağıssandır. Türk-Oğuz soyumuz haqqında Şakir müəllimin fikirlərindəki doğruluq o dərəcədədir ki, insan bu vaxta qədər həmən həqiqətləri görmədiyinə təəccüb edir.

Nuhun böyük oğlu Yafəsin böyük oğlunun da adı Türk olmuşdur. Onun oğlu Oğuz-əslində Ağaz-olmalıdır. Mənası-başlanğıc, soyun, nəslin binövrəsi, ilki. Yəni Türk qövmunun başlanğıcını qoyan deməkdir. Maraqlıdır ki, böyük Hind filosofu və ictimai xadimi Cəvahirlə

Nehru özünün "Dünya tarixinə nəzər" əsərində qeyd edir ki, türklərin-oğuzların yurdu (isbat edildi ki, (Ş.Q) bu Qabıssan-Azərbaycan-Altaylardır) dünya insanlığının "qarışqa" yuvasıdır. Zaman-zaman dolan bu "Yuva" vulkan kimi insanlarını dünyanın dörd bir tərəfinə (Svatstika) "püskürmüşdür". Ş. Qabıssanlı tədqiqatının geniş bir sahəsi Zərduş-ların peyğəmbəri-peyğəmbərlər atası sayılan İbrahimə (ə) həsr qeyd etmişdik İbrahimin ilahi görüşlərinin ifadəçiləri olan atəşpərəst rahiblər-muğlar ilk avazlı duaların-muğamların-yaradıcısı olmuşlar. Onların məna-məzmun və çalarlarının (xalq mahnılarının) öyrənilməsinin ilk (köklü) təşəbbüsçüsü olan Qabıssanlının nəticələri çox orjinal və heyətamizdir. O, müqayisə edir ki, İbrahimlə bağlı

1. Beytüllətiq-Qədim Kəbə-Qədim Allah evi.
2. Beytülmüqəddəs-Qüdsün adı
3. Beytül hərəm-Məkkəyə(Kəbəyə) verilən ad.

Bu adların hamısında "Bey", İbrahimin beyət etdiyi "Beyzəyə-Günəşə" işarədir deyir. O yerlər ilahi əmrlə İbrahim(ə) Kənana köçəndən sonra öz yurdu Azərbey-cana işarədir. Azərbaycan toponimləri də Nuh və İbrahimin əsl yurdunu istinat verir.

Nuha-Şəki, Baba dağı-Həzrət baba, Şah dağ ilk ibadət yeri Qəblə-Qiblə (Qəbələ), İsmayıllı torpağı İsmayıllı, Həzrət baba yolundakı Şeytana daş atılan məqam və s doğurdan da buranın dünyanın və ilk qibləgahı olduğuna sübutdur.

Bəzən yuxarıdakı həqiqətləri "elm" qəlibinə salanlar bu həqiqətlərə şübhə edə bilərlər. Bunlar həqiqə-

ti aşkarlanmağın ikinci-ilahi vəhy yolunun (vergi) olmasını qəbul edə bilməyənlərdir. Həqiqəti görmək istəməyənlər belə tədqiqat üsulunu möhümat və ya cəfəngiyyat adlandırırlar.

Fikrimizin təsdiqi üçün dünya elm tarixindən bir necə misal gətirmək istərdim. Dünyanın ən gənc-nakam-fransız riyaziyyatçısı Evaris Qalua 21 yaşında dueldə öldürülüb. Həmin gün axşam o, səhərə qədər ilahi vəhy ilə adi şagird dəftərində öz riyazi nəzəriyyəsini riyazi vəsiyyəti -işləyir və səhərə yaxın qurtarır. Dəfələrlə ali texniki məktəbə imtahan verən , nüfuzlu "akademiklər" tərəfindən məhz riyaziyyatdan qeyri-kafi qiymət olan Qalua sonralar həmən alimlər. "Riyaziyyat səmasında doğan günəş adlandırır və onun "Qolua meydanı" deyilən nəzəriyyəsindən gen-bol istifadə edirdilər. Yəqin çoxları bilir ki, D.İ.Mendeliyevin "Elementlərin dövrü sistemi" cədvəli də alimə vəhy yolu ilə aşkar olunmuşdur. Görkəmli Avstrya alimi, nəzəri fizika üzrə Nobel mükafatçısı Maks Plank heç bir elmi dəlilə söykənmədən XX əsrin əvvəllərində dahiyanə bir fikir-gələcək kvant fizikasının məhək daşı söylədi: "Hər bir atom enerjini porsiyalarla (poylarla) şüalandırır və porsiyalar da udur. Şüalanan enerjiyə "enerji kvantı" deyilir. İlahi tərəfindən vəhy alınan bu fikir o qədər təsdiq olunub ki, onun doğruluğuna yalnız nadanlar şübhə edər. İlahi vergi ilə yazan, yaradan elmi kəşflər edən minlərlə insan göstərmək olar. Mənim qənaətimcə bəşəriyyətin tarixi, İbrahim peyğəmbər və muğam-xalq mahnıları eləcə də "Dədə Qorqud" haqqındakı həqiqətləri Ş.Qabıssanlı təkcə elmə söykənməklə deyil, İlahi vergi yolu ilə fəth etmiş və bizləri min il-

lərin yanlışlıqlarına yenidən baxmağa vadar etmişdir. məsələn. “Nar, nar, nar gilə” xalq mahnısının kodunu Qabıssanlı belə açır: I Nar-Günəş, II Nar gilələri-Ulduzlar, III Nar-İlahi-Rəbb. Yəni Ay-Günəş ulduzlar-sizi və məni yaradan tək Allaha-Yara mahnısını təkallahlığı və İbrahim(ə) ın ona gedən yolunu min illərdir o, bizə ərz edir biz isə onu adi bir sevgi nəğməsi hesab edirik. Ş.Qabıssanlı ilk dəfə olaraq muğam və xalq mahnılarımıza bu konteksdən yanaşmış və çox qaranlıq mətləblərə aydınlıq gətirmişdir. Ş.Qabıssanlı yazır ki, nə üçün soysuz-köksüz “haylar” yüzlərlə xalq mahnısı içərisindən “Sarı gəlin” mahnısını təşnədirlər. Böyük Nizami Gəncəvi yazır:

“Oda səcdə edən atəşpərəslər
Günəş üçün oda sitayiş eylər”

Bəşər tarixində ilk sivlizasiya olan, “Zərduştliğın” inancı od-atəş-Günəş olub, yəni “Sarı gəlin”- “Saçı” hörülməyən, bütün Yer üzünə yayılan “Sarı gəlin”-Günəş. Haylar “Sarı gəlini” mənimsəməklə ilk svilizasiyanı mənimsəmiş olur. Nəcabətsiz köklərini dünya tarixinin əvvəlinə bağlamaq istəyirlər. Bu xalq mahnısının “kodunu” açmaqla Şakir müəllim həm qədimliyimizi qorumuş, həm də bədnam soysuzlara əsl soylarını göstərmişdir ki, bu onun böyük xidmətidir.

Əsrlərlə gözümüzün görüb, qulaqlarımızın eşitdiyi incə mətləbləri Qabıssanlı elə məharətlə açır ki, insan bu həqiqətləri görə bilmədiyinə görə az qala gözlü “kor “ demək istəyir.

Məsələn ana abidəmiz olan “Dədə Qorqud” dasta-

nının 1300 illiyin qeyd edən yüzlərlə "akademikdən" biri fikir verməyib ki, 7-8 əsrlərdə, Hadisələrin cərəyan etdiyi Azərbyacan və onun ətrafında onlarla dövlətlər mövcud olub. Necə olur ki, aqil babamız onlardan bəhs etməyib? Və ya Dastanında işlədilən onomastik və toponomik adlar 7-8 əsrlərdə artıq işlənməyən , arxaik sözlər idi. Bir daha əsərin daha qədimlərdə formalaşmasını sübut edir. Deməli əsər qəbilə-(yönələn, üz tutulan mərkəz)-tayfa münasibətlərinin hakim olduğu və qədim türk dilində danışılan bir dövrün məhsuludur söylənilən Qabıssanlıya və əks arqumentlər çox cılız görünür. Bu da Şakir müəllimin vətəndaş xidmətlərindən biri və köklüsüdür. Bu qısa məqalədə Şakir müəllimin yaradıcılığını əhatə etmək gülünclük olardı. Onun xalq tədbiqi sənət haqqında, xalq mahnıları, şikəstələr və muğamlar haqqında geniş bəhs etmək gələcək tədqiqatçıların borcudur. Xalq, mütləq qeyrəti çəkən onun həqiqətlərini tapıb üzə çıxaran qeyrətli ziyalı və vergili insan (fenomen) Şakir Qabıssanlıya, bu tikanik işlərinə görə minnətdarlıq edirəm. Sonda Ş.Qabıssanlının işıq üzü görəcək "Makedoniyalı İsgəndər" Azərbaycanda olunmu əsəri inanıram ki, xalqımızın tarixinə, dünya tarixinə yeni ağlagəlməz əvəzi olmayan töhfələr bəxş edəcəkdir. Yüzlərlə alimlərin birmənalı baxışlarına, fikirlərinə əks arqumentlərlə yeni baxışlar, fikirlər bəxş edəcəkdir.

İbrahimov Ramiz Balayar oğlu
Qabıssan (Qobustan) rayonu
A.Quliyev adına Cəyirli kənd orta
məktəbinin ali kateqoriyalı baş müəllimi.

İSGƏNDƏR QURAN AYƏLƏRİNDƏ (KƏHF SURƏSİ)

Kəf surəsi ayə 83

(Ya Peyğəmbər) Səndən Zülqərneyn barəsində soruşurlar, de: "Tezliklə sizin üçün onun barəsində (Qurandan) ayələr oxuyacağam.

Ayə 84. Həqiqətən biz ona yer üzündə qüdrət verdik və onun ixtiyarında (istədiyi) hər şeydən (elm, qüdrət və imkanlar kimi) Səbəb və vastələr qoyduq.

Ayə 85. O da bir yol və səbəbin arxasında (yer üzünün qərb istiqamətinə) getdi. Bu ayələr çox məqamlardan xəbər verir.

Açaq bu ayələrin gizli sirlərini.

Ayə 86 Nəhayət günəşin batdığı yerə (ehtimal ki, Afrikanın qərbinə okean sahilinə) çatanda, günəşi (sanki) isti və palçıqlı çeşmədə batan gördü və orada (kafir) bir tayfa tapdı. Dedik: Ey Zülqərneyn, (onların barəsində ixtiyar sahibisən) ya əzab verər və yaxud onların haqqında gözəl bir yol tutarsan.

Sonuncu ayədə göstərilən bu kafirlər kimlərdir və onların kafirliyinin qayəsi nələrdir? Açaq bunları N.Gəncəvinin söz xəzinəsi ilə sübut edək ki, şair heç də bunları xülya ilə deyil, ayələr ilə vəhdətdə yazmışdır.

Şah gəlib o kəndə çatdığı zaman,
Görmədi pişvaza çıxan bir insan.
Çox idi o kənddə Allahlıq edən,
Hamısı uzaqdı dindən, əqildən.
Palçıq bir küp qoyub evinə hərə,
Küncüt yağı töküb həmin küplərə.

Yağla dolu küpə insafsızlıqdan
Onlar salardılar bir nəfər insan

Demək bu tayfanın özünə məxsus Allaha zidd qayda qanunları varmış. Bu qanunlar da, onların dinə zidd, şeytana xidmət əməllərindən xəbər verərdi. Onların bu əməlləri vəhşiliyin son həddindən xəbər verirdi ki, Quran ayələrində həmin vəhşiliklər xüsusi şəkildə qeyd edilmişdir.

Üstündən otuz gün, qırx gün keçərkən
Kəsib alardılar başı o küpdən.
Baş dönüb qupquru kəllə olardı,
Bədənsə necə var elə qalardı.
Bu quru kəlləni sanaraq rəhbər,
Ondan alardılar hər şeyi xəbər.

Qədim atəşpərəstlərdə bir adət var idi. Onlar qəbirlərin baş daşlarına üç dəfə vurmaqla ruhlar ilə danışar, onların inancına görə ürək istəklərini çatdırardılar. Bu tayfalar isə, yazıq bir insanı xüsusi bir küpdə vəhşicəsinə min bir əzabla öldürər və onun kəlləsi ilə yerə deyil, inanca görə, göylə əlaqəsi var deyə kəlləsini döyərdilər. İnanca görə istəklərini ruhi dünyadan xəbər alardılar.

Quru baş kəlləni çubuqlayaraq,
Hərdən sorardılar ondan bu sayaq:
"Yaxşımı keçəcək bizim gecəmiz?
Nələr görəcəyik sabahkı gün biz"
Dəyərmiş sabahkı müqəddəratdan:
Hansı yollar ilə gedəcək cahan.

Quran ayələrinə görə bunlar idi, İsgəndərin kafir bir tayfa ilə qarşılaşması. Qurana görə İsgəndərin qarşısında iki yol var idi, hər iki yolu İsgəndərin öz ixtiyarına vermişdi. Rəbbi 1-ci yol onları məhv etmək, yer üzündən silmək, 2-ci yol isə onları tərbiyə etmək, düz yola istiqamətləndirməyi öhdəsinə götürdü.

Görüb bu adəti müdrük xilaskar
Dedi ki, bu sirdə div əli var,

Div burada pis rəhbərlərə deyilir ki, bu rəhbərlər heç vaxt xalqını xoşbəxtliyə aparmaz. Əksinə xalqını hakim və məzlum təbəqələrə bölər. Ona görə ki, Allah belə insanların beyinlərini, qulaq və gözlirini görünməz möhürlə, möhürlənmişdi.

Əmr etdi ki kəllələr bütün qırılsın,
Yağla dolu küplər tez sındırılsın.
Onları təlqinlə dinpərvər etdi,
Allah və peyğəmbər yolu öyrətdi.

İsgəndər onlara Allahı və peyğəmbəri tanıtdırdı və onlara inam yaratdı

Bir təmiz qəlbini böyük İsgəndər
Burada onlara eylədi rəhbər.
Ölkənin işini qaydaya saldı
Yenə də gethaget səsi ucaldı.

N.Gəncəvi Quranla aldığı məlumatları sanki bir vəhdətdə görür və onları çox ustalıqla, mən deyərdim

ki, peyğəmbərcəsinə bir-birinə bağlayırdı.

Kəhv surəsi ayə 89

Sonra (yer üzünün şərq istiqamətinə) bir yol səbəbin dalınca getdi.

Ayə 90. Nəhayət günəşin çıxdığı yerə (yer üzünün şərqinin ən son yaşayış məntəqəsinə) çatanda, gördü ki, günəş müqabilində onlar üçün heç bir örtük (paltar hazırlamaq, ağac əkmək, kölgəlik qurmaq və ya onların vastələrini düzəltmək istedadı) vermədiyimiz bir qövmün üzərinə doğur.

Ayədən aydın olur ki, İsgəndərin getdiyi səbəb təbii ki, Adəmin, Nuhun, İbrahimin vətəni, Baba dağı ətrafı cənnət bağı olan (dörd tərəfi) Quba, İsmayıllı və Qəbələ olmuşdur. O, İbrahim xanəgahlarını keçərək Baba dağında şeytana daş atma mərasimində iştirak edib. Örtüyü (ağac əkmək) olmayan yer isə Daş Ağaz (oğuz) dediyimiz yer isə Qədim Qabıssandır.

Ayə 92. Sonra o, yer üzünün şimal istiqamətinə səfər etmək məqsədi ilə bir səbəbin arxasınca getdi. Təbii ki, bu da Dərbənd və Dağıssan, sonra isə ruslarla döyüşə getməsidir ki, bir səbəb dalınca da bu oldu.

Ayə 93. Nəhayət iki səddin arasına yetişəndə, onlardan aşağıda (ya qabaqda və onların yaxınlığında düşüncələrinin darlığı və dillərinin fərqliliyi səbəbindən) heç bir söz anlamayan bir tayfa gördü.

Ayə 94. Onlar(bir yolla) dedilər. “Ey Zülqərneyn həqiqətən (Nuhun oğlu Yafəsin nəslindən olan) Yəcuc və Məcuc (adlı iki tayfa) bu yerdə fəsad törədirlər (bizi öldürür, var yoxumuzu qarət edirlər). Bizimlə onlar arasında bir sədd düzəltməyin üçün sənə bir xərclik (muzd) təyin edək.

Ayə 95. (Zülqərneyn) dedi: "Rəbbimin, barəsində mənə imkan və qüdrət verdiyi şey (plan cızmaq, memarlıq və lazımı vastələri tədarük görmək qüdrəti sizin maliyyə köməyinizdən) daha yaxşıdır. Buna görə də mənə (işçi) qüvvə (si) ilə kömək edin ki, sizinlə onların arasında əzəmətli bir sədd qurum.

Ayə 96. Mənə böyük dəmir parçaları gətirin. "Nəhayət elə ki, iki dağın arasını (dəmir parçaları düzməklə) bərabərləşdirdi (dəmir divarın hündürlüyü dağların başı ilə bir oldu), dedi: "(Demirlərin arasına yanan maddə töküb böyük ocaqlar qalayaraq) üfürün. "Nəhayət hamısını (əridib) od (kimi) edəndə, dedi: "Onun üzərinə (aralarındakı deşiklər) tökmək üçün mənə ərimiş mis gətirin".

Ayə 97. Beləliklə (Yəcuc və Məcuc tayfaları) bir daha onun üstünə çıxa bilmədilər və onda bir dəlik açа bilmədilər.

Bəli, bu bir sıra tarixçilərin, səyyahların dedikləri, yazdıqları Səddi Dərbənd", (Səddi İsgəndərdir). Şimal N dairəsində, Şərqin son ucunda. Yəcuc Məcuca gəldikdə baxaq lüğğəti terminlərə.

Yəcuc-Məcuc (əsli ibranicədən) 1) Əfsanələrdə-qısaboylu, qəddar bir tayfa. 2) qorxunc dəhşətli Bax ə.f. lüğ səh 270 Yafəs, Yafəs oğlu Türk isə Nuhun övladları və vəlihədidir (Nəslin rəhbəri). Türkün (Yafəs oğlu) vətəni isə, Türkan və Bilgahdır. Nuhun üç övladı Qabıssandan üç istiqamətdə nəsilləri ilə dünyaya yayılmışlar.

1)Yafəs oğlu Türk orta asiya istiqamətində. 2) Sami-Təbriz, Misir, Hindistan istiqamətində, Hamı isə Dağıssandan şimala üz tutmuşlar.

İbrani dili isə Yəhudilərə məxsus dildir.

İbrani- 1) Yəhudi. 2) Qədim yəhudi dili

İbra-bərat alma qurtarma Bax.Ə.f.lüğ səh 230.

Dünyanın ilkin bəraət olan, qurtulan şəxsi İbrahim olmuşdur ki, yeddi gün odun içində yanmaqla, sonda salamat qalıb, peyğəmbərliyini qazanmışdır, Rizvan mələyin köməyi ilə.

Bax bunlar qeydsiz sübut edir ki, İsgəndər həqiqətən Azərbaycanda olmuşdur. Bunları danmaq, Quranı danmaq, onun ayələrini danmaq deməkdir.

Ayə 98 (Zülqərneyn dedi: " Bu (əməl) mənim Rəbbim tərəfindən (onun vədi yetişənə kimi) bir rəhmətdir. Beləliklə Rəbbimin (Səddin viran olması və ya Qiyamətin qopması barəsindəki) vəd yetişəndə (Allah) onu alt üst edəcəkdir. Mənim Rəbbimin vədi həmişə haqq və sabitdir".

Ayə 99. Və o (səddin aşacağı, dünyanın axırının əlamətlərinin görünəcəyi) gün onları (Yəcuc və Məcusu və ya dünyadakı bütün insanları özbaşına) buraxarıq ki, bir-birinə (qarışaraq dəniz kimi) dalğalansınlar (və bəşəriyyətə hərc-mərclik hakim olsun) və (Qiyamət yetişəndə) sur (ikinci dəfə) çalınar. Beləliklə onların hamısı təəccüblü bir şəkildə toplayaraq (cəsədlərinin zərrəciklərini torpağın içindən yığıb) canlandırar. Bərzəx ruhlarını onların bədənlərinə daxil edər və məhşər səhnəsinə gətirərik..

Ayə 100. Və o gün kafirlərə Cəhənnəmi aşkar və qorxulu bir şəkildə göstərərik.

Bunlardır İsgəndər Zülqərneyinnin həqiqətləri ki, Quran ayələrində kodlar əsasında verilmişdir. Əlbəttə düzgün dərk edib başa düşənlər üçün.

Yəcuc Məcusun Çində də olması fikirini yürüdən-

lərə onu bildirmək istərdim ki, düzdür onlar da qədim Türk tayfaları olmuşdur. (Qısa boylu). Ancaq onların İsgəndərlə bağlı əlamətləri olmayıb və İsgəndər də öz növbəsində onlar üçün heç bir sədd tikdirməyib. Çində bir sədd var ki, onu da nə zaman, kimlər tikdirib, o da tarixə məlumdur. Bunları bir-birinə qarışdırmaq olmaz. Şirvanda və Azərbaycanın bəzi bölgələrində yüzlərlə, bəlkə də minlərlə qızıla həris insanlar, xəyallar aləminə bağlanaraq İsgəndərin basdırdığı (qoşunları ilə) qızılları, sərvətləri axtarmışlar və indi də axtaran və axtarmaq arzusunda olanlar vardır. Bütün bunlara səbəb isə, hansısa zərurətlərə olmuşdur? İsgəndərin Azərbaycanda olması, üç odu (Atəşgah, Pirallahı, Yanardağ) və Xanəgahları, Bibiheybəti, Qabıssan qayalarını ziyarət etməsi heç də reallıqdan kənar olmamışdır. İsgəndər haqqında xalq dastanlarında da məlumatlar və işarələr verilmişdir ki, bunlar heç də təsadüfdən doğulmamışdır. Qabıssanda Xanəgah yaxınlığında qədim qəbirstanlıqda, ayrıca avropanın müxtəlif qədim xaç nişanələri (müxtəlif formalarda) olması da bizlərə çox şeyləri işarə edir. Bütün bunların şəkillərini real şəkildə öz əsərlərimdə şəkillərlə işıqlandırmışam. XII region, romalılar, Yunanlar və s burada olmuş və əlamətləri də vardır. Tarix elmi üçün yeni araşdırılma mövzusu kimi buna ehtiyac vardır.

MÜQƏDDİMƏ

İsgəndər və onun Azərbaycanda olması haqqında çox alimləri dinlədim, mühazirələrinə, mülahizələrinə qulaq asdım. Bu mülahizələr sonda Əlinin Zülfüqar qılıncı kimi iki haçaya bölündü. Bir qisim alimlər avropanın antik tarixçilərinə, alimlərinə əsaslanaraq onun Azərbaycanda olmasını qəti inkar etdilər. Ancaq bu inkar etmə, heç də qaneedici olmadı, həm mənim üçün həm də oxucularım üçün. Digər bir qisim alim isə, onun burada olmasını təsdiq etdilər. Bu təsdiq etmələr də köklü əsalara söykənmədi. Belə ki, İsgəndərin sonda Azərbaycanda olmasını sanki havadan asılı vəziyyətdə gördüm. Bu mövzuya qayıtmağımın da səbəbi məhz bu mahiyyət oldu. Dünya şairi N.Gəncəvinin "İsgəndər" haqqında yazdıqlarını, çəpərindən kənara çıxmayan bəzi alimlər onun şair xülyası olmasını önə çəkdilər. N.Gəncəvinin əsərdə döyüş sahnəsinin təsviri, tarixi hadisələri reallıqla verməsi, məkanların ən məşhur səyyahlardan daha qabarıq və dəqiqliklə verməsi və başqa cəhətlər həmin alimlərin fikirlərinin özünün cəfəngiyyat olması təsvirini mənə bəxş etmiş oldu. Əslində N.Gəncəvi İsgəndər haqqında öz dövrünə qədər olan ədəbiyyatlardan xəbərdar olmasını önə çəkir, onların yazdıqlarını onu qane etmədiyini oxuculara çatdırır. Özünün daha real "İsgəndər"naməsinin yazılmasına ehtiyac duyulduğunu vurğulayır. Şair dahiyanə təfəkkürə söykənərək yazır:

Mən elə başladım bu şux dastanı,
Coşdurur sazının səsi dünyanı.

Yəni mənim İsgəndər haqqında yazdığım dastanın qarşısında yazılanlar, mənim dastanımın bil ki, kölgəsidir.

Ən doğru sözlər ki, oyadır maraq,
Tarixdən onları bir-bir alarıq,
Düzdüm dastanıma, əsər yaratdım,
Ağla sığmayanı büsbütün atdım.

Şair bununla oxuculara çatdırır ki, mənim yazdıqlarım şair təxəyyülünə deyil, dövrümün tarixi zərlərinin mahiyyətinə söykənir. Nə qədər yalançı, nə qədər yabancı olasan ki, bu fikirləri xülya adlandırasan.

Təqdimi, tarixi tutmayın nöqsan,
Nöqsana məcburdur hər tarix yazan
Bu Çin ipəyinin naxış evində
Maninin fırçası düşmüşdür bəndə.

Yəni "Şərəfnamə" elə sənətkarlıqla işlənmişdir ki, məşhur sənətkar Mani bunun qarşısında heyran qalmışdır.

İsgəndər haqqında heç bir əsərdə
Məlumat görmədim yığcam bir yerdə.

Demək beytlərdən aydın olur ki, N.Gəncəviyə qədər İsgəndər haqqında məlumatlar kortəbii və pərakəndə şəkildə olmuşdur.

Ən qədim tarixi əsərlərdən mən,
Yahudi, nəsrani, pəhləvilərdən

Ən inci sözləri əlimə saldım,
Qabığı ataraq, məğzini aldım.

Demək şair İsgəndər haqqında yazılanları bir-bir təhlil edərək real fikirləri qəbul etmiş, süni bəzəkləri isə, inkar edib, kənara tullamışdır.

Müxtəlif dillərdən yığdım çox sözlər,
Bunlardan düzüldü yazdığım əsər.

N.Gəncəvi əsəri yazarkən təkcə öz dilində olan sözləri deyil, müxtəlif dillərdə olan fikirləri, hətta sözləri bir-bir təhlil etmiş həqiqi məna və mahiyyətləri ortaya qoymuşdur. Sanki şair gələcəkdə onu xəyal şairi adlandıranları qamçılamaq üçün bir öncədən görən kimi öz fikirlərini gələcək nəsillərə çatdırmışdır.

Şerimdən atsaydım bəzəkli donu,
Azacıq zəhmətlə yazsaydım onu,
Bu böyük fatehin sərgüzəştindən
Bir vərəq yazmaqla bitirərdim mən.

Demək N.Gəncəvi bu əsəri bir şair kimi deyil, əksinə dahi bir tədqiqatçı kimi qələmə almışdır. Doğrudan da bu əsərə mən öz şəxsi prizmamdan yanaşdıqda, şairin elə tarixi beytləri vardır ki, hər bir beytdən bir əsər yazmaq olar. N.Gəncəvi elə bir dahidir ki, onun əsərlərini nə qədər tədqiq etsən onun nüvəsinə çatmaq qeyri mümkündür.

(Yer kürəsi özü, boşqabın içində olan zərdir. Buna cövza deyirlər, yəni əkiz qardaş. Dünya ilkin olaraq yer

və göy timsalında ana bətnində, buta içində zər olmuşdur və zahirən indi də varıdr)

Bu baxımdan mən özümü N. Gəncəvinin ilkin sələfi sayıram. XII əsrdə doğulan qeyri adi möcüzələrə XXI əsrdə özümün məntiiqi nəticəm ilə Gəncə və Qabıssan vəhdətində özünə qovuşdurdum. Bunlardır yenidən doğulma mahiyyəti İsgəndərnamənin mahiyyəti, İsgəndərdə deyil, onun qəhrəmamnlığında deyil, onun dünyaya məlum olmayan mahiyyətindədir. Quranda verilən işarəsindədir, Tövratla vəhdətdə. Bunu da N. Gəncəvi gizli kodlarla bizə çatdırmışdır.

Şahlığa ucadan vurdurdu təbil
İyirmi yeddiyə çatınca yaşı,
Peyğəmbər olaraq, ucaldı başı,
İsgəndər o gün ki, peyğəmbər oldu,
Onun tarixinə bir naxış vuruldu,
Dinə yol göstərən bir hikmət oldu
Din üçün etdi çox dəlillər icad
Bu dünya üzünü elədi abad.

Burada böyük şair, çox böyük bir məqama, məsələyə toxunur ki, bu da antik tarixin, əntik kodlarından biridir. Eys Ibn Ishak. Ibrahim p.ə oğlu İshakın oğlanları, İbrahimin nəticələri idi əkiz qardaş Eys və Yaqub. Bəşəriyyətin ilkin peyğəmbərləri. Həmin Eys hal-hazırda Ağdaşda , Ağca maya kəndində Veys baba kimi müqəddəs ocağıdır. Qəbr ziyarəti kimi ora ziyarətə gəlirlər, zamanında dünyanın ilkin şahları oraya ziyarətə gəlirmişlər. Həmin rayonda da, yəni Ağdaşda Nehrə Xəlil kəndi vardır. Əslində Nöhrə Xəlil olmalıdır. Nöh-

qoqquzuncu astranomiyaya görə yəni ərşi fələk. Xəlil isə Allahın elçisi deməkdir. Bu adların hər ikisi İbrahim p.ə.aid, ona bağlı adlardır ki, əsərlərimdə geniş şəkildə yazmışam.

Təkcə bu beytlərdən bir analitik kitab yazmaq olar. Böyük bir tarixi mahiyyətin, kod açarlarıdır bu beyt. Bütün bunlar İsgəndərin atasına bağlı olan mülahizələrdir ki, qələmə aldım.

İsgəndər hələ uşaq ikən dayələrdən yəhər, yüyən və ipək kağız aldı ox nişan almaq üçün.

Böyüdü öyrəndi qılınc vurmağı,
Qızmış aslanlarla qarşı durmağı.
At minmək zövqündən ləzzət alınca,
Düşdü şəhriyarlıq, şahlıq dalınca.

Uşaq yaşlarında qəhrəmanlıq nişanlarını qazanmağa çalışırdı İsgəndər. Bu işlərə onu hədsiz istəyi və həvəsi idi vadar edən. Bunlar onun ilkin istedad nümunələri idi ki, ətrafındakıları heyrətə salırdı. O, həm təlimləri izləyir, həm də onları həyata keçirməyə çalışırdı yorulmadan.

And olsun İbrahim sufiyə,
İman gətirdiyim haman sufiyə
İbrahim dinini doğru yol bildi
Atəş sözlərini dillərdən sildi
Aqillər məsləhət gördülər ona,
Oradan tərpənsin Azərbaycana.

Bu beytlər heç də təsadüfən deyil, həqiqi tarixi zərurətdən doğulmuşdur.

And olsun keçmişin rəhbərinə,
Bizim dinimizin peyğəmbərinə
Bu gözəl mırasim, bu ayin, bu yol
Ulu babalardan qalmış əmin ol.

Bəli keçmişin rəhbərlərinin səcdə etdiyi din, peyğəmbərlərin imanı İbrahim olmuş, Nahun tufanından sonra dünya – dininin keşikçisi İbrahim olmuş, İsgəndər də bu dinə səcdə etmiş və mühafizə etmiş, yalançı ayinlərdən bu dini təmizləmişdir. Məhz buna görə də o peyğəmbərlik qazanıb, Quran ayələrində özünə yer almışdır.

Ulu babalardan qalmış, əmin ol

Ulu-ilkin əvvəlinci deməkdir. Dədə Qadir (Qorqud) dasatnında yazıldığı kim, "Ulaş oğlu Qazan xan". Yəni, ilkin nəslin, əlbətdə bəşəriyyətin ilkin nəslinin ilkin Qəhrəman oğlu Qazan xan mahiyyətində nəzərdə tutulmalıdır. Nuhdan sonra, dünya dininin rəhbəri İbrahim olmuşdur ki, məhz İsgəndər də bu dinə xidmət etməyə bilməzdi. İsgəndər kimi məğlub edirdisə, fərqi yoxdur. Onun sivilizasiya xəttini qəbul edənlərə tərəddüdsüz şahlığı yenidən ona bəxş etdirirdi. Bu İsgəndəri siyasətinin ədalətli ana xətti idi.

A.A.Bakıxanova görə, İsgəndərnamə adı ilə məşhur və tarixi bir əfsanədən, ibarət olan farsca qədim bir kitabda yazılmışdır. İsgəndər səfəri əsasında Bakıya gəlir. O, əsrin qəhrəmanlarından sayılan Bakılı Sədan, şəhəri bəzəyib əyanlar və əhali ilə onu qarşılayır. İsgəndəri şəhərə gətirib ona lazım olan xidmət göstərir. Sədan,

İsgəndərin və onun qoşunun yaxşı atlara ehtiyacını bilib, çoxlu at bəxş etdirir.

Firuz adlı bir dövlətli şəxs, İsgəndərə qarşı 40 min qoşun toplayır. Bələd olduğdan sonra bu işdən vaz keçir, ona öz böyük ilxısını bağışlayır. Bakıda İsgəndərin kəşfiyyatçısı Badpay adlı bir şəxs olmuşdur. Badpay adının mənası piyada, yel kimi sürətli adam mənasındadır. Badpayın təsvirlərindən (kəşfiyyatçı kimi) biri, Firuzun təsviri olmuşdur.

"Bunların arasında (camaatın) çin atlazından bir çadır qurmuş və bir qədər camaat onun ətrafına taplanmışdır. Çadırda, turanlı qırmızısaqqal bir qoca oturmuşdu, onun əynində pələng dərişindən qaftan başında isə, dövrəsi qızıl zəncirdə tikili bəbir dərisindən bir papaq və qarşısında da böyük əsa var idi. "Gülüstani İrəm" səh 38 "İsgəndər Nüşabə ilə görüşdən" sonra oradan Əlbürüz dağına (Qafqaz) hərəkət edir. Şirvandan ötüb Dərbənd keçidinə çatır. Burada hələ şəhər yox idi, ancaq möhtəşəm bir qala var idi, qalanın adı "Sərir" idi. Sərir-ilkin, möhtəşəm mənasındadır" İsgəndər Keyxosrovun taxtı olan qalaya getdi. Bu qalaya "darvaza" deyilir. A. A.Bakıxanov İsgəndərin Şirvandan Dərbəndə keçməyini düz vuğulayır və fikirlərini birbaşa Quran ayələrinə bağlayır.

Səririn əmiri onu qarşıladı. İsgəndər buradan qızıl taxtı, mağaranı, dağları və bir çox qəribə şeylər gördü. Oradan çölə qayıdıb bir həftə ovla məşğul oldu. Sonra Rudbar yolu ilə Xalxala, oradan Gilana və daha sonra Rey mülkinə getdi.

Yunan mənbələrinə görə İsgəndər haqqında İlkin yazını e.ə əsrdə Roma tarixçisi Kvint Kurtsi yazmışdır.

Yazdığım hadisələri o da qələmə almış, lakin həqiqi formaları dəyişdirərək yazmışdır. (St A.A. Baxıxanov). O, Nüşabəni Amazon gözəli kimi qeyd etmişdir. Qədim tarixçilər şimal əhalisini skif adlandırmışdılar. N.Gəncəvi də Rusların yeddi soy olmasını öz əsrində çox müdrikcəsinə qeyd etmişdir. Yeddi soyu isə, xüsusi mövzu kimi tədqiq olunmalıdır. Kvint Kurtsi İsgəndərdən təqribən dörd yüz il sonra bu kitabı yazmışdır.

Dərbəndnamə və sair kitablarda da İsgəndərin Dərbənd səddini təmir etməsi haqqında izahat verilmişdir.

Dərbənd xalq arasında indi də "Səddi-İsgəndər" surəsi adı ilə məşhurudur. Diqqətlə baxılsa Quranda da bu məsələ qeyd edilmişdir. (kəhf surəsi). Bu məsələ əsərdə geniş izah edilir və ya bu barədə geniş məlumat verilir.

Skifə gəldikdə isə, bu söz və ya ad "Skif" deyil, əslində Silklər olmalıdır.

Silk-4-cü məna ictimai təbəqə bax.ə.f.lüğ səh 366 Yəni dövləti olmayan, yaranmayan ictimai təbəqə ki, bu da təmiz mənada antik dövrə bağlanır. Antik dövlətləri də hansılardır ki, qeyd etmişik.

Bu məsələ barədə Tövratda qeyd edilmişdir. Skif tayfası, Yafəsin oğlu Məcuc nəslindən nəşət etmişdir. Nəşər-hasil olma, yetişmə, törəmə, vücuda gəlmə, inkişaf. Bax.ə.f.lüğ səh 447

Yafəs kimin oğlu və vətəni haradır, bunlar barədə əsərlərimdəı geniş məlumatlart vermişəm. Yafəs sırf türk, Azərbaycan adıdır, əlbəttə, Hami, Sami ilə birlikdə, sonda Nöh (Nuh) olmaq şərtilə. Yəcuc və Məcuc haqqında da Qurani Kərimdə geniş məlumat verilmiş-

dir. Eronim və başqalarının təfsirinə görə Məcuc kaspi, yəni xəzər dənizinin sahilləri yaxınlığında Yəcuc isə bunlardan daha uzaqlarda, şimalda yaşamışlar. Hər iki tayfa "skif" hesab olunur. İki müqabil olan nöqtə də xəzər dənizi və Qaytaq dağlarıdır. Yaxud –xəzər ilə Qara dənizdir. Qara dəniz Dədə Qorqud dastnında qeyd edilən Ümman dənizə (Xəzər) görə böyük dəniz mənasında "Qara" dəniz kimi başa düşülməlidir. Qara "26" "mənalı söz olub, bir mənası Qara böyük" deməkdir. Qaraca Çoban. Qara böyük, Ca- isə məkan deməkdir. Yəni məkanın əyalətin baş çobanı.

İslam və erməni tarixçilərindən bir çoxunun verdiyi məlumat... Sədd xarabalarının varlığı və xalq arasındakı şöhrəti, başqa əlamətlər və Kvint Kursinin-Coğrafi cəhətdən rabitəsiz olsa da-İsgəndərin Qafqaza gəlməsi haqqındakı bəyanatı, onun bu ölkəyə (Qafqaza) gəlməsini və səddin onun əmri ilə tikilməsini aydın bir surətdə göstərilir. Bəzi tarixçilər və alimlər bu xüsusda şübhələnmişlər, onlar dünyanın vəziyyətindən lazımı dərəcədə xəbərdar olmadıqları və öz təsəvvürlərini başqalarının fikri ilə qarışdırdıqları üçün belə olmuşdur.

Katib Çələbi "Cahannümə" adlı əsərində Makedoniyalı İsgəndərlə, İsgəndər Zülqərpeynin başqa-başqa şəxslər olduğunu iddia edir. Onun fikrincə İsgəndər Zülqərpeyn İbrahim p.ə. müasiri olmuşdur. A.A. Bakıxanov yazır:

"Katib Çələbi kimi bir alimin fikrinə təəcüb edilməlidir, o öz iddiasını doğruluğunu heç bir dəlil və sübut gətirmədən bu məsələni açıq-açığına inkar edir. İsgəndərin Zülqərneynlə bağlılığını önə çəkirlər.

E.ə.331 döyüşü danilmazdır. O zamanlar hər iki Azərbaycan şahənşahlığı məhz Kəyan olmuş, Daralar da bu padşahlığın çahənşahları olmuşdur. Alban dövlətinə gəldikdə Alban dinə bağlı ad olmuşdur.

1) Al- ocağ, peyğəmbər ocağı,

2)Bani-onu quran, təməlini qoyan.

Kəyan isə şahlığ məkanı mənasında olmuşdur.

Zərdüşt adı ilə, İbrahimi Daranın ulu babası Kəctəb (Gəsştab) qəbul edib, iki il danışdıqdan sonra İbrahim dinini ona qəbul etdirə bilmişdir. Ondan sonra bu din yeddi dövlətə, yetmiş iki xalqa qəbul etdirilmişdir. İsgəndərin buraya hücumu isə, A.A. Bakıxanovun əsərlərində qeyd edildiyi kimi, bu hadisədən 1500 il sonra olmuşdur. Təsadüfü deyildir ki, I Dara özünü Pars (Fars) budağının doqquzuncu şəcərəsi saymışdır.

Isgəndərin Azərbaycanda olmasını təsdiq edən amillərdən bir də, onunla bağlı bu sikkələrin (qızıl) tapılmasıdır. (Qəbələdə). Təbii ki, ilkin baxışda bu sikkələr ticarətlə əlaqələnəcək və bu ideya önə çəkiləcək. Saymaq olar ki, o dövrün natural təsərrüfatla bağlılığı, ticarət əlaqələrinin geniş olmaması, yeddi dövlətin və yetmiş iki xalqın olması heç də bu fikrə dərin rəvac vermir. Belə olan halda 2-ci məsələ ortaya çıxır ki, bu sikkələr onların buraya ziyarətə gəlməsi ilə bağlı ola bilər. Bu sikkələrin Şirvanda tapılması da bunlara sanki təsdiq gətirir. Qəbələdə bazar düzü, lahıc toponimin mahiyyəti, orada ilkin (dünyada) kanalizasiyanın yapılması dediklərimizə təsdiqedici təkan verir. İsgəndər haqqında çoxlu rəvayətlər də bunlara təsdiq gətirir. Olmayan bir şey zamanında xalqın yaddaşına hakim kəsilə bilməz. Mərəzədə Çalav kəndində Y.Sezarın

pulunun tapılması (qədim kərvansarada) da, xüsusən Gərdman(Girdman) dövlətinə, Baba dağına gedən yolda olması da, təsdiqedici amil kimi ortaya çıxır. Bəli onlar, Qabıssan qayalarına, üç odu (od məkanı)ziyarət etdikdən sonra İbrahim xanəgahları boyunca hərəkət etmişlər. Ümbakidən, Hacıqabuldan, Mərəzə Qabıssan yolu ilə Qəbələyə doğru hərəkət etmiş, son intiha Nuha(Şəki) olmuşdur ki, Şəkidə də Yunan yazısı olan daş vardır. Bütün bunlar uydurma deyil, real həqiqətlərdir. İsgəndər N.Gəncəviyə görə, İbrahim dininə görə Kəyana hücum edibsə, onun ilkin məkanı Gərdmana (Alban dövlətinə) gəlməyə bilməzdi. Bundan əlavə Şirvanda və başqa bölgələrdə onun xəzinəsinin qalması ideyası da, heç də təsadüfü xarakter daşımır. Onun və qoşununun getdiyi yollarda XII legionun və Yunanların nişanlıları, burada olmasını təsdiq edən maddi sübutlar (qəbirlər) vardır, əlbəttə onlara məxsus işarələrlə vəhdətdə.

Altmışıncı illərdə, bundan əvvəlki nəsillərin dilində, aşığların söylədiyi nağıllarda da, İsgəndərin dastanlarda lazımınca yer tutmasını önə çəkmək istəyirəm. Diqqət yetirin dastandakı işarə bağlılıqlarına:

Əgər bu dünyada ömr etsən yüz il,
Əlində təşbehin düzülhadüzül.
Nuh da ömr eylədi min doqquz yüz il,
Sanasan ki, bir gün, bir axşam qaldı.

Sual olunur dastanda Nuh haqqında çoxlarının bilmədiyi bu məlumat haradan, hansı mənbədən və hansı xalqdan, nəsildən qaynaqlanır? Diqqət yetirək 2-ci bəndə:

Qul Allahquluyam, ay nəsib eylə
Şəcəcərdən baş verib, ay nəsib eylə
İsgəndər mülküdü, aynası beylə,
Nə Cəmşid padşah, bə də Cam qaldı.

Diqqət yetirin bu iki bənd şer parçaları başdan-başa açılmayan kodlarla dolu olmaqla yanaşı, bir başa odlar yurdu, Azərbaycanla bağlı işarələridir.

1)İlkin olaraq dastan bir çox sahələrində Nuh haqqında məlumatlar verməklə, Nuhun burada, bu məkanda olmasına işarə verir. Həm də işarə verir ki, baxın dünya ədəbiyatlarına, bu dastanlara qədər Nuh Haqqında Dini kitablardan başqa, heç bir mənbədə məlumat yoxdur. Demək Nuh haqqında İlkin söhbətlər onun öz vətənindən qaynaqlanmışdır.

2-ci bənddə Allahın qulu dedikdə özünü bu yolda fəda edən Nuhdan sonra din rəhbəri İbrahim p.ə işarədir ki, on altı il bu yolda min bir əzaba dözüb sonda peyğəmbərliyini qazandı.

Ay nəsib eylə

1) Nəsib-qismət, tale

2) Nəsib-əsil, nəcib, soylu, əsli-nəsəbi olma Bax.ə.f.lüğ səh 473

Eylə

1) Eyn-bir adamın əsli, sırf, xalis, gözlə görünən varlıq

2) Eyd-Qurban bayramı, eydi fətr-orucluq bayramı, eydi-fəsh pasxa bayramı(dini) Bax.ə.f.lüğ səh 163.

Sib(ğət)

Məzhəb din "din" isə burada işarədir. Bax.ə.f. lüğ səh 564

Sibt-nəsil budağı

Şəcərə işarəsi isə ağac olub, yəni bəşəriyyət öz budaqlarını, şaxələrini, yayılmasını buradan almışdır. (Qabıssan qayalarında və xalça işarələrində bunlar vardır və göz oxşamaqdadır).

İsgəndər mülküdü, aynası beylə

İsgəndərin düzəltdiyi (Aristotellə birgə) ayna, günəşin əksi kimi qəbul edilir. (Aynada günəş kimi bərq vurub, şüalar saçır). Bə burada həm işarə, beylə vəhdətdə günəşə bağlanır.

Nə Cəmşid padşah, nə də cam qaldı.

Cəmşid isə, İsgəndərin Cəmşid taxtına və camına baxması, və ziyarət etməsinə işarədir ki, əsərdə bunu geniş yazmışam. Əlbətdə gələcək axtarışlar, folklor və şifahi xalq yaradıcılığında tapıntılar mənim dediklərimin, yazdıqlarımın bir daha təsdiqinə təkan verəcəkdir.

Nəhayət sonda onu bildirrəmək istəyirəm ki, Yunanların Azərbaycanda olmasını təsdiq edən amillərdən biri də, onların Qabıssan (Qobustan) qayalarında yazdığı işarələr ola bilər? Lakin bu barədə İ.Cəfərzadə və C. Rüstəmovun əsərlərində qeydlər verilməmişdir. Onların qeydlərinə görə, burada latın qrafikası ilə, ərəb hərfləri ilə, və s. yazılar olduğu halda Yunanların yazı və işarələri olmaya bilməzdi. Necə ola bilər ki, Şəkidə (Nuhada) olsun

Burada olmasınI? Əlbəttə bunları iki səbəbdən izah etmək olar. 1-ci 1950-ci illərdə M.Bağırovun göstərişi

ilə Qabıssan qaya aşlarının bir qisminin evlər tikməsi üçün daşınıb aparılması səbəbindən, yəni o daşların içərisində elmə məlum olmayan mənbələrin məhf edilməsi? 2-ci variant isə, tədqiqatların aparılmasında olan çatışmamazlıqlar və boşluqlar ola bilər. Onu da qeyd edim ki, öküz işarəsi başda olmaqla, Qabıssan qayaüstü işarələrinin və xalça işarələrinin XXI-əsrdə belə, bir işarəsi də, primitiv baxışlardan kənarda təhlil edilməmişdir. (İ.şarənin mifoloji fəlsəfi təhlilindən söhbət gedir). Demək olar ki, Şirvanın bütün bölgələrində İsgəndər haqqında xatirə təsəvvürləri (nəsillərdən nəsillərə keçməklə) vardır, indidə onun adı çəkilir və misralar söylənilir, nağıllarımızın qəhrəmanı kimi qeyd edilir. (Başqa bölgələri bilmirəm). Yazdıqlarım ümumilikdə İsgəndərin Azərbaycanda olmasını heç də qəti şəkil də inkar etmir.

Sonda isə Qabıssanlıların bir el misalını oxuculara çatdırmaq istəyirəm. Mərəzədə "Diri Baba" türbəsinin arxasında bir qədim bulaq var (sərin sudur). İsgəndər bu ərazidə qoşunları ilə birlikdə susuzluqdan əziyyət çəkirlər. Nəhayət əsgərlərin bir qrupu bu suyu tapır. Hamılıqla bu suan içirlər. Rəvayətə görə suyun mənbəyi olan dağ dilə gəlib uca səslə deyir. "Ey İsgəndər məndə zamanında sizin kimi bir insan idim. Sonda mən ölmək əvəzinə, Allahın istəyilə mənə nida gəldiki bu su qurtarana qədər sən dağ olaraq qalacaqsan. Həmin nidaya görə mən "Aləmi bərzəxdə" ruhlar olan səma yeri dostlarıma, qohumlarıma qovuşa bilmirəm". Ona görə də ruhlar olan yer kimi bura Diri Baba adı verilib. Yəni bunlar hansısa bir əfsanədən doğan, reallığa bağlanır.

İbratəmiz söhbət "Nur" çırağıdı,
Yanır Qabussanda "Şəm" Hümbəti var
"Şəm" bir Şirvandı övliyadı o,
"Qabussan" söyləyir şəhadəti var.

Bilal Şirvani

İSGƏNDƏRİN DÜNYAYA GƏLMƏSİ

İsgəndərin kimliyi haqqında müxtəlif təzadlı fikirlər vardır. Lakin bu fikirlər heç də konkret, mütləq şəkildə öz həllini tapmamışdır. Dahi şair Nizami Gəncəvidə bu məsələyə baş vurmuş, eşitdiklərini, oxuduqlarını özəl əsərlərində bir daha işıqlandırmışdır. Mən də həmin əsərdən götürdüklərimi, seçdiklərimi oxuculara çatdırmağı özümə borc bildim.

Belə nəql edir bu rəqəmi rumlar:
Bir qadin varmış çox yoxsul, dindar.
İki canlı idi, tapmadı çarə,
Yurdundan, ərindən düşdü avarə.

Beytlərdən aydın olur ki, İsgəndərin anası sanki İsa anası Məryəmin əzablı həyatını yaşamışdır. Naməlum səbələrdən evindən, elindən uzaq düşmüş bir qadın olmuşdur ki, bunu rumlular söyləyib.

Doğmağın zamanı yetişdi artıq,
Kəsdi taqətini ikicanlılıq.
Doğarkən can verdi bir xarabədə,
Ölərkən körpəni andı yenə də.

Həyatda ölümlər müxtəlif olduğu kimi, əlbətdə doğulmalar da müxtəlif olur. Hər kəs ona bəxş olunmuş bir bürc altında doğulur. Bu bürclər də insanın dərk etmədiyi müxtəlif talelər bəxş edir. Onu da yalnız və yalnız Yaradan bilir, ona görə də, cümlə insanları həyata bəxş etməklə ruzisini, sifət cizgilərini, ömür yaşını və

s. insan zəruriətlərini o bəxş edir. Şairin yazdığı kimi, rəvayətlərə əsasən İsgəndərin də həyati bəxş etdiyini qənaət etmişdir.

“Məndən sonra səni kim bəsləyəcək?
Hansı bir canavar səni yeyəcək?”
O zənn etməyirdi ki, pərvərdigar
Bir zaman edəcək onu tacidar
Nə qədər xəzinə güləcək ona,
İqbal qonacaqdır şən qucağına

Deyilənlər rəvayət olsa da, N.Gəncəvi dahi bir şair onu sanki mütləq həqiqətə çevirir. İsgəndər bəlkə də bu həyatı yaşamayıb, ancaq belə həyatı yaşayanlar olmuşdur desək heç də yanılmarıq.

Həsrətlər içində qadın verdi can
Köməksiz uşağı yar oldu yəzdan

Yazda (yəzdan) Allaha məxsus.

Şüurla , hünərlə işlətdi qafa,
Dünyanı fəth etdi o Qafdan-Qafa.

Bəli, həyatda belə aqibətləri yaşayanlar olub. Oddan kül törəyib, küldən də od. Çöllərdə doğulan kimsəsiz uşaqlar olub taqəti olmayan ana ona analıq etməyib. Belə olan halda ya uşağı vəhşi heyvanlar parçalayıb, ya da heyvanlar ona himayədar olub. Hər halda hər ikisi faciə və ya dəhşətdir. Ancaq bu uşağı heyvanlar parçalamadı, əksinə bu uşaq qəribə, ağlagəlməz bir həyata

nəsib oldu.

Feyləqus çıxarkən ov üçün düzə,
Qadın ölən yerlə gəldi üz-üzə.
Gördü bir qadındır yurdsuz, yuvasız,
Başının üstündə bir körpə yalqız.
Sorur barmağını o körpə uşaq,
Ana həsrətiylə dişləyir barmaq.

Feyləqus (Fillipp) bu mənzərədən dəhşətə gəlir, ətrafındakılar da onunla birlikdə.

Nökərlərə əmr etdi tacidər;
Qadının dəfninə məşğul oldular.
Kimsəsiz körpəni götürdü yoldan,
Daldı bu heyrətli işə bir zaman
Böyütdü, bəslədi verdi tərbiyə,
Vəlihət eylədi Oğlumdur deyə.

Bu beytlərdən bir həqiqət işartısı duydum, arayıb tapdım və son nəticədə bir qərarda dayandım. Tarixdə İsgəndərin nə bacısı, nə də qardaşı hallanmayıb, adı ilə tanınmayıb. Əlbəttə, hər bir rəvayətin arxasında bəlkə də bilmədiyimiz neçə həqiqətlər yatır. Rəvayətləri rəvayət kimi qəbul etməklə yanaşı, onun arxasında duran həqiqətləri də arayıb-araşdırıb tapmaq lazımdır. Rəvayətdir deyib kənara tullanmaq idraka yad olan bir elementdir.

Zərdüştlərdə var başqa rəvayət,
Verir İsgəndəri Daraya nisbət.
Vurdum tarixləri mən bir-birinə,

Baxdım Firdovsinin əsərinə:
Hər iki rəvayət məncə pozuqdur
Uydurma sözlərdir, həqiqət yoxdur.

Bəli, Nizami Gəncəvi "63" yaşında, müdriklik vaxtında yüksək məsuliyyətlə, bütün tarixləri, yazılanları ələk-fələk etmiş, daha dolğun bir əsəri ortaya qoymaq üçün əlindən gələni etmişdir. Naşı alimlər bu vəziyyətləri qiymətləndirmək əvəzinə, onu xəyali bir əsər kimi qələmə alırlar, qiymətləndirirlər.

Şair zərdüşlərin rəvayəti deməklə, zərdüştü peyğəmbər kimi deyil, qoca kişi kimi deyil, sarı dəvə kimi deyil ilkin svilizasiyanın yaradıcıları kimi qələmə alır.

Dastan sözünün lüğəti mənası da bunu təsdiq edir.

Das-oraq, çin deməkdir.
Tan-tən-can deməkdir.

Ümumi məna əkinçilərin yaradıcılığı mənasında. Bu haqda yazılanları şair qəbul etməmiş(rəvayəti). Onlar yabancı fikirlər adlandırmaqla, daha real bir məsələni önə çəkir.

Ən yaxşı bir qoca rəvayət edir,
O köhnə şahlardan hekayət edir.
Feyləquş qəsrində bir gözəl varmış,
Bəzəkli gəlintək azad yaşarmış,
Saray bu dilbərlə olmuş müəttər,
Qıvırcaq saçları, qara bir ənbər.
Bir gecə bağrına basdı hökmran

Şahın xurmasından bar verdi fidan.

Doqquz aydan sonra, gələcək dünyanın qəhrəmanı dünyaya gəldi. İsgəndər dünyaya gəlməmiş ən mahir münəccimlər ulduz falına baxdılar. Əsəd bürcündə doğulan bir uşaq idi. İsgəndərin taleyi nurdan da parlaq göründü münəccimlərə

Belə xoş fal ilə dünyaya gəldi,
O bağda belə bir fidan yüksəldi.
Təqvimdən bəxtini təyin etdilər,
Qoyuldu uşağın adı İsgəndər.

İsgəndərin dünyaya gəlməsi haqqında fikirlər bunlardan ibarət olmuşdur.

Yunanısatan idi onun məskəni,
Makedoniya idi doğma vətəni.
Qanunlar qoyardı yeni və parlaq,
Ulu babasıydı Eys İbn-İshaq.

Dahi şairin bu fikirlərini, dünya tarixindən nə qədər kənarda qalasan ki, tədqiq etmək əvəzinə, araşdırmaq əvəzinə xülya adlandırasan. Bütün bunlar ancaq ayrı-ayrı tarixçilərin fikirləri ilə deyil, məntiqi tarixin, məntiqi nəticəsi ilə açılmalı, təhlil edilməli, araşdırılmalıdır. Əgər bu tarixi kodlar olmasaydı, N.Gəncəvi bunları özündən necə uydura bilərdi ki, adi bir müəllim (məlumatı çox olan və araşdırmanı bacaran) bunları qəbul etmiş və təhlil etməyə baş vurmuşdur. Əgər bunlar bir səyyah, dərviş kimi araşdırılsa görün tarixə

hələ məlum olmayan tarixi xəzinələr bəxş edilmiş olar. Maraqlı burasındadır ki, İsgəndərin şəxsi tarixindən indiyə qədər, bu günə qədər nəsillər İsgəndəri burada Azərbaycanda unutmamış və nəsillərdən-nəsillərə xatirələr kimi, bir-birinə ötürmüşlər, özü də şifahi şəkildə. Bir onu bilirəm ki, o dövrün toponimləri, adları ilkin qaynaqlarını atəşpərəstlərdən almış və onların dillərində də tarixə mənaları ilə düşmüşdür. Qabıssandan düz Alyaskaya qədər latın Amerikası, bu ad lat-büt mənasında, Amir-münbit torpaq mənasında məhz onların dilindən mənası ilə götürülmüşdür. Bütün bunlar da istər istəməz sivilizasiyanın haradan başlanmasına sanki hökm verir. Bunların məntiqi nəticəsinə söykənib, İsgəndərin əslinin buraya bağlanmasına sanki lüzum verir. Təsadüfü deyildir ki, onun vətəninin ilkin adı Makedoniya deyil, Məqduniyyə olmuşdur. (Məğrur yer mənasında).

İSGƏNDƏR FATEHDİR, YOXSA PEYĞƏNBƏR

Dünyada ilk dəfə Qərblə Şərqi birləşdirmək ideyasını həyata keçirmək istəyən Makedoniyalı İsgəndər haqqında çox sözlər danışılmış və müxtəlif təzadlı fikirlər söylənilmişdir. Bu fikirlərin ən yüksək zirvəsini dahi şairimiz Nizami Gəncəvi tutmuşdur. Mən də onun əsərlərindən ilham payımı tutaraq, İsgəndərin Azərbaycanla bağlı olan rəvayətləri, əfsanələri, həqiqətləri qələmə almağı özümə borc bildim. Gəlin belə bir suala cavab tapaq: İsgəndər nə üçün İranda (Bəlxdə) Atəşgahı yandırdı? İskəndər Şimali Azərbaycanda olubmu? Olubsa, nə məqsədə gəlib? Zülqərneyn sözünü açmaqla bu suallara cavab vermək olar. Çalışacağam ki, cavablarımla oxucuların etimadını qazanım.

İsgəndər Yunanlı olduğu halda, nə üçün Şərqdə bu qədər sevilir? Bunun səbəbi nədir? Yoxsa, Şərqin öz İskəndəri olub?

Düzdür, bu məsələyə dahi filosof tarixçi A.A.Bakıxanov toxunub. Ancaq qeyd edəcəyimiz rəvayətlər, həqiqətlər göstərir ki, İsgəndər birdir, o da Makedoniyalı İskəndərdir. Öz dövrünə görə ən müdrik hökmdar, ən böyük məlumata malik olan alim, həm də qoşunu, xalqı, əsgərləri tərəfindən qəbul edilən Peyğəmbər İsgəndər eyni şəxsdir. Onun haqqında hədsiz çox olan rəvayətlər istər-istəməz bir neçə İsgəndərin olmasına zəmin yaradır.

Filippin oğlu İsgəndər e.ə. 356-323 illərdə yaşamışdır. Cəmi 33 il ömür sürmüşdür. Ancaq 33 ildə heç

bir sərkərdənin keçmədiyi yolu keçmişdir. İsgəndərin baş tərbiyəçisi Aristotelin (Ərəstun) atası Hikomaxos olmuşdur. Aristotel ilə birlikdə ondan dərs almışdır. Aristotel onun filosof dostu, həm də həyatında sadiq yoldaşı və silahdaşı olmuşdur. Siyasət və elm aləmində kamala çatdıqdan sonra İsgəndərə Allah tərəfindən vəhy gəlir ki, sən bütün dünyaya həqiqəti yaymaq üçün peyğənbər seçilmisən. Əmr olunur ki, yer üzünü dolanıb, qaranlıqda yaşayan xalqları işıqlığa çıxartsın. Peyğəmbərliyin əlamətləri:

1) Vəhy-Peyğəmbərin ürəyinə ilham olunan fikirlər;

2) Tənzil-allah tərəfindən ona göndərilən əmrlər;

3) Əmr-xeyir, savab işləri görməyə təşviq;

4) Vəhy-Pis işlərdən yayındımaq əmri.

Vəhyə görə, dünyanın hər bir cəhətinə uyğun dörd ekspedisiya mövcuddur: Böyük Qərb okeanına gedən Qərb ekspedisiyası, Cənub və Şərq ekspedisiyası və Şimal ekspedisiyası. Şimal cəhətində, o, nəhayət, çoxdan bəri axtardığı şeyi-gözəl dövrlər quruluşunu tapır. Bu ölkədə nə zalım var, nə məzlum, nə hakim var, nə məhkum. İnsanlar bərabərdir. İsgəndər ən yaxşı cəhətləri burada görür. Gizli səs ona müraciət edir və geri qayıtmasını tapşırır. Qayıdarkən İsgəndər «Şəhrizur»da ağır xəstəliyə tutulur, payız girdikdə isə ölür. İsgəndər Əsəd bürcündə (Şir) doğulmuşdur.

Ey tanrı dünyaya sənsən padişah!
Biz kiçik bəndəyik, sən böyük Allah!

Tək sənə sığınır, hər yüksək, alçaq,
Hər varlıq yoxluqdur, sən varsan ancaq!

Bəli, varlıq yoxluqdur. 33 ildə hər şeyə çatdı və ulu dərgaha qovuşdu. İsgəndərin ölümü haqqında başqa bir mülahizə də vardır. Çingiz xanın nəvəsi, Batı xanın, anası deyir: «Oğlum Batı, nəbadə yad qızlarla səfərə çıxasan. Yadında saxla ki, Fateh İsgəndəri, düşmənlərinin qızları səfərdə zəhərləyib öldürdülər.»

Ehtimal olunur ki, onun şərabına zəhər qatıblar. Bəli, Allah dərdi verməzdən əvvəl səbr verir. İsgəndər heyrətamiz bir yaddaşa malik şəxsiyyət olmuşdur. 50 min nəfərdən ibarət ordunun hər bir döyüşçüsünün adını əzbər bilirmiş. O, öyrənmədiyi yerə heç vaxt hücum etməzdi. Güclü kəşfiyyatdan sonra, həmin yeri asanlıqla fəth edirdi. Təsadüfü deyil ki, müasir NATO qoşunları indi də İsgəndərin taktikalarından istifadə edir. İsgəndərə qədər bütün ölkələr Daraya xərac verirdi, eləcə də yunanlar. Dövrünün ən qüvvətli dövləti idi İran. Əvvəlki adı Kəyan olub. İsgəndər Kəyanlılara hörmət edirdi. Lakin Zərdüştlüyü qəbul etmirdi.

* * *

Dünyada ilk dəfə qızıl sikkəni İsgəndər vurdurmuşdur. Gümüşün üzərinə qızıl suyu çəkməyi ilk dəfə o, həyata keçirmişdir. Dünyanın ən qiymətli kitablarını yunan dilinə tərcümə etdirirdi. Əsl dahilik, vətəni sevmək bu idi. Qapıda üç dəfə təbil vurmağı da o tətbiq etmişdi. Dünyada ilk dəfə güzgünü İsgəndər, Aristotel ilə birlikdə icad etmişdir. Buna ulduz güzgüsü deyilirdi. Peyğəmbərliyi 27 yaşında qazanmışdır. İsgəndər Alla-

hı, dini çox sevir, yalançı dinləri isə lənətləyirdi. İsgəndər dağıdıcılıqdan əvvəl, böyük qurucu olmuşdur.

Bulqar şəhərini o, etdi bərpa,
O, şəhərin adıdır əslində Bün-qar.
(indiki Dərbənd)

Şeirdə Dərbəndə yaxın olan Quba ərazisinə eyham vurulur.

İsgəndər ekvator xəttindən biri şimal, digəri Cənub qütbünə tərəf xətlər çəkdi, dünyanı dörd yerə böldü.

Dünyaya gəlmədən əvvəl xaçpərəst,
Çəkdi bu dünyaya xaç kimi bir xətt.

Həmin bu dördbucaq ətləsi xətlə
Həndəsi ölçünü keçirdi ələ.

Ətləsi xətt-ekvator xəttindən çəkilən xətlərə işarədir. Beytin mənası budur ki, İsgəndər həmin bu dörd xətlə geometriya elmini yaratdı.

Dörd bucaq üstünə bir də artırdı.
Bu doqquz fələyə beş növbər vurdu.

Burada dörd bucaq - İsgəndərin ekvator xəttinin üstündən keçən qütblər dairəsi ilə dörd yerə böldüyü dünyaya işarədir. Yəni, İsgəndər bu dördbucaq dünya üzərində elə bir nağaraxana qurdu, daha doğrusu, elə bir əzəmət sahibi oldu ki, səsi, tərifi doqquzuncu fələyə çatdı.

O, rübi-məskunu etdi aşikar-mənası belədir: qədim ərəb coürafiyaşünasları yeri dörd hissəyə bölərdilər. Bunlardan yalnız birində yaşayırdılar. Misranın mənası: dünyanın dörddə birinin məskun olmasını geometriya vasitəsi ilə İsgəndər müəyyən etdi:

Xaç-Xak. (Xak torpaq deməkdir).

İnsan, göy, yer, torpaq, çürümə, Allaha qovuşma

Dini mənası (açılmayıb). Xaçın, dini mifologiyaya görə, 20-ə qədər çıxarılışı var.

İsgəndərin ulu babası Eys İbn-İshaq olmuşdur. Əsli Misirdəndir. İsgəndəriyyə şəhərini salmağının səbəblərindən biri də bu idi. İsgəndərin ən böyük müdrikliyi onda idi ki, lazımi qüvvəni yaratmadan müharibələrə girməzdi. Hətta məğlub etdiyi Dara, (müharibədən əvvəl) xərac istərkən etiraz etmədi, müharibədən əvvəl. O nə qədər müdrik olsa da, hamı ilə məsləhətləşir, xüsusi ilə münəccimlərlə, həndəsi təxəyyüllə qərar verirdi. Hətta bu qərarları yuxusunda da tapırdı. Uşaq yaşlarında dayədən kaman, ox alıb kağızı, ipəyi nişan alardı. Gənc yaşlarında aslanlarla qarşı-qarşıya dururdu. Atası Filipp onunla fəxr edirdi. Nizaminin dili ilə desək:

Ağıllı övladla ata fəxr edər,
Çünki mübarəkdir seçilmiş gövhər.

O, İsgəndərin böyük gələcəyinə varlığı ilə inanırdı. Bilirdi ki, onun arzularını həyata keçirəcək. Belə də oldu. İsgəndər ustadına söz vermişdir ki, Ərəstun onun vəziri olacaq. O, inanırdı ki, İsgəndər böyüyəndə dünyanın fatehi olacaq. İsgəndərə həndəsi üsullarla qalib gəlməyi öyrətmişdi.

Hər bir döyüş İsgəndər üçün şahmat oyunu idi. O şahmat üsulları ilə planlar qururdu. Ərəstunun razılığı olmadan İsgəndər quşu belə şişə çəkməzdi. Göstərişlərin əksəriyyətini ondan alırdı. İsgəndərin birinci döyüşü zəncilərlə olmuşdur. Bu döyüşdən sonra zəncilərin əli ilə hədsiz zinət toplamış, sayı-hesabı bilinməyən xəzinələr yaratmışdır. Bu döyüşdən sonra, onun məharəti, şücaəti dünyaya yayılmış, çox yerdə onun məğlubedilməzliyi qəbul edilmişdir. Həmin döyüşün təsvirlərinə nəzər yetirək:

Gəldi qurd ağzından sübhün nəfəsi,
Keşikçi itinin kəsildi səsi.

Mənası, qurd ağzı - yalançı səhər, dan yeri deməkdir. Yəni, sübh açılmağa başlayanda, keşikçinin itinin səsi kəsilir və yatır.

Coşdu toppuz, yağdı mancanaq daşı,
Əyildi öküzün, balığın başı.

Yəni elə şiddətli müharibə oldu ki, enən gürzlərin qüvvətindən yerin altında öküzün və balığın (gav mahinin) başı əyildi.

Bəli yer öküzü udduğu zaman,
Pusqudan sıçradı qapqara aslan.

Dini rəvayətə görə, yer Gavmahinin, o da suyun üzərində durur. Günəş də gedib haman suda batır. Yəni gövhərə bənzəyən dünəşi gavmahi uddu, nəticədə qaranlıq çökdü.

Dəvənin zəngindən, fil güzgüsündən,
Sədəf şivə doğdu inci doğurkən.

Şərq mifologiyasına görə, yağış dənizə ildırımsız yağanda sədəflər dürrə, ildırımla yağanda isə şəvəyə hamilə qalır. Beytin mənası: müharibədə dəvələrin boynundan asılan zənglərin ildırım kimi səsindən, fillərin üstündə olan güzgülərin şimşək kimi parıltısından dəniz sədəfləri dürr əvəzinə şəvəyə hamilə qalır.

Maral buynuzuna göndən zeh çəkər,
Qarışqa başını dırnağa tikər.

Maral buynuzundan ilk dəfə İsgəndər ox, yay düzəltmişdir. Maral buynuzundan qayrılmış yay və yabanı eşşək gönündən hazırlanmış kirişlə elə düzgün ox atıla bilər ki, qarışqanın başını ayağına tikər.

Fillərin yanınca gedən piyadə,
Hər yerdə yüz fili salırdı bəndə.

Şair burada şahmat oyununun gedişlərindən istifadə edir. Şahmatda piyada filin yolunu kəsə bilər. Təsvirlərdən aydın olur ki, düyüş nə şəklində gedir. Döyüşü həndəsi gedişlərlə quran İsgəndər necə məğlub ola bilərdi? İsgəndər bütün qələbələrinin mənbəyini Həndəsədən, Riaziyyatdan, şahmatdan və Fəlsəfədən alırdı. İsgəndərin qoşunlarının hərbi geyimləri kərkədan dərisindən tikilirdi. Dəbilqəsi çin poladından hazırlanırdı. Qılınc dəyəndə özünə qayıdar, ya da, sınardı. Onun mindiyi at hədsiz gözəl və qıvraq idi. Qır at adını

ilk dəfə onun atı qazanmışdı. Hətta özü atın üstündə şəkillərini daşlarda çəkdirərdi. Bir dəfə İsgəndər daşda rəssama atının üstündə şəklini çəkdirir. Şəkil hazır olanda ətrafdakıları şəklə baxmağa dəvət edir. Bəzisi bəyənir, bəzisi bəyənmir. Rəssam məyus olur. İsgəndər deyir, məyus olma, indi atın əsl qiymət vericisi gələcək. Atını gətirdir. Minir atın belinə sürür şəklə tərəf. At özünü və İsgəndəri görəndə ayaqlarını şahə qaldırıb bərkdən kişnəyir. İsgəndər gülür və rəssama deyir: «Mənim atım bunlardan ağıllıdır». Şəkil öz qiymətini aldı. İsgəndər çox yüksək məişət zövqünə malik idi. Onun yerə sərdiyi xalçalar zürafə dərisindən olardı. çulları təmiz daş-qaşla bəzənərdi. Dəvələrin zınqırovları, bir-birinə bağlanan karvan ipləri təmiz qızıldan olardı. İstədiyi adamlara qızıl saplarla tikilmiş paltarlar bağışlayardı. Kənizləri və nökərləri fil sümüyündən naxışlar taxardı. Bundan sonra ilk dəfə o, Daraya məktub və xəzinə göndərir. Dara isə bundan çox kədərlənir ki, bu qədər zinət ona haradandır?

Bəli, ilk dəfə dünyadan bac alan Dara bu hədiyyədən qorxdu. Elə bil gələcək qorxulu faciəsini anlayırdı. Bildi ki, bu hədiyyənin və məktubun arxasında güc və hikmət var. Yanılmamışdı Dara.

İsgəndər:

Filosoflar ilə edər məsləhət
Dünyaya əqlindən verərdi qismət,
Ərəstun qədəhə, Əflatun cama,
Təzə mey tökürdü qan dama-dama.

Artıq Misirin zəngin xəzinəsi İsgəndərə xidmət

edirdi. Müharibənin qalib şərtlərinin əsası bunlar idi. Üstəgəl, Yunanıstanın Üqlidisi İsgəndərə həndəsəni mükəmməl öyrətmişdi. Üqlidis e.ə. IV əsrdə yaşamış yunan alimi idi. Riyaziyyatçıların başçısı sayılırdı. İsgəndər Zül Qərneyn onun şagirdi olmuşdur. Riaziyyat və Həndəsəyə dair bir çox əsəri ərəb və Avropa dillərinə tərcümə olunmuşdur. Burada istər-istəməz Ə.Xəqaniyə istinad edirik.

Hörümçək həndəsi olduüu üçün,
Yediyi, içdiyi haramdır hər gün.

Burada Ə.Xəqani hörümçəyin hördüyü torların həndəsi fiqurlar şəklində olduğuna və hörümçəyin cücüləri tutub qanını sorduğuna işarə edərək demək istəyir ki, riyaziyyat və həndəsə alimlərinin sözünə inanma, onlar yalnız maddi aləmin şəkillərilə məşğuldurlar. Mənəvi dünyadan xəbərsiz olduqları üçün hörümçək kimi insafsız olurlar.

* * *

Bundan sonra İsgəndər Daraya xərac verməkdən imtina etdi. Üstəgəl, əmr etdi ki, ona verilən bac geri qaytarılsın. Bundan sonra İsgəndər Kəyanın fəthinə qərar verdi. Artıq İsgəndərin əkdiyi ağac ətrafa sığmırdı və məmnunluğundan tez-tez şikara çıxardı. Bir dəfə ov zamanı qəribə bir mənzərənin şahidi olur. Görür ki, iki kəklik möhkəm vuruşur. Biri digərinin başını deşir, digəri caynağı ilə o birisinin sinəsini dəlir. İsgəndər maraqla onlara sarı gəlir, kəkliklər ona əhəmiyyət vermir. Çünki burada qalibiyyət döyüşü gedirdi. Nəhayət, bir

kəklik digərini öldürür. Sonra uçub bir qayanın üstünə qonur. Bu anda bir qartal həmin kəkliyi qəflətən çaynağına alıb havaya qalxır. Onu da məhv edir. İsgəndər bu mənzərəni Daranın məhvi kimi qiymətləndirir. Onda güclü inam yaranır ki, Daranı məğlub edəcək. Öz-özünə deyir, onda qiymətli tac, məndə isə qılınc var. İsgəndərin buna haqqı da var idi. Gələcəyin Suvorovu kimi. Suvorov Alpı keçərkən əsgərlər getmək istəmir. Alpın sal, sıldırım buzlu aşırımlarından keçmək yüz faiz ölüm demək idi. Onda Suvorov qoşuna belə müraciət edir: «Getmirsiz öz işinizdi, onda məni burada öldürüb basdırın, sonra nə istədiyinizi, edə bilərsiniz».

Əsgərlər Suvorovu hədsiz dərəcədə sevdiklərindən buna razı olmurlar. Ona görə də ölümü gözlərinin altına alıb Suvorovla birgə Alpı keçir və qalib gəlirlər.

İsgəndər Daranın üstünə qızıla görə yox, yalançı Atəşgaha görə gedib.

Mey camıma namərd ağı süzsün mənim?
Gərdənimə həmaillər düzsün mənim?
Mərd boynumu namərd əli qucmaqdansa,
Mərd qılıncı birdəfəlik üzsün mənim.

Ə.Xəqani

İsgəndər bilirdi dağ var, ondan nə dilərsən nida gələr. Bu arzusu barədə kahindən soruşur. Gələn nidaya əsasən İsgəndərin qələbə çalacağını xəbər verirlər. Ömumiyyətlə, hər bir hökmdarın münəccimi, öncəgörəni olur. İsgəndər bu haqda sərkərdə və qoşunu ilə məsləhətləşir. Daraya xərac verməyəcəyini bəyan edir. Cavab belə olur:

Bir maral aslanla çıxdı meydana,
Özü yer təmizlər zəif qurbana.

Sərkərdələr İsgəndərə deyir:

Onun seyrangahı hərəmxanədir
O, bir kin bəsləyir, sən din bəsləyirsən
Sən bir mələksən, o, bir Əhriman.
Sən qılınc vurursan, o, qədəh tutan,
Arasan ölkəni, bütün ordunu,
Bir nəfər tapılmaz ki, sevsin onu
Heyvanlar onunçün sevir aslanı,
O, qonaq sevəndir, şikar zamanı

Bu beytdən sərkərdələrin xarakterini bilmək olar.

Atan Filipp qılıncını qınından çıxartmazdı, aslan kimi olsa belə. Amma sənin qılıncından daşlar qan ağlayır. Ulduz falları göstərir ki, sən dünya fatehi olacaqsan.

Həndəsi hərflər, cizgili xətlər
Bildrir sənindir şanlı bir zəfər.

Həndəsi xətt Ərəstunun atasının İsgəndərə vermiş olduğu qalibiyyət və məğlubiyyət cədvəlinə işarədir. Bu ərəfədə dünyada ilk dəfə güzgünü İsgəndər kəşf etdi. Əvvəl qızıl və gümüşü qəlibə tökdülər, lakin bu qəlibdə özlərini düz görmədilər. Dəmirçi sonradan seyqəllə dəmiri qarışdıraraq istənilən güzgünü əldə edə bildi. Bu güzgüdə hər şey təbii görünürdü. Güzgü də həndəsi yolla əldə edilmişdir. İlk dəfə İsgəndər güzgüdə özünü öpmüşdü.

Gəlinlər bu rəsmə ehtiram üçün,
Güzgünü öpərlər baxarkən hər gün.

Bəli, yağış damcıları buluddan yağar.
Böyük çay olunca dənizə axar.

İsgəndər artıq damcıları dənizə qovuşdurmuşdu. O, yenilməz və məğlubedilməz idi. Bu ərəfədə Dara qasid göndərib İsgəndərdən xəracını istəyir.

Bildirir ki, pars (fars) sözləri ilə sərkeşlik etsə, çəkəcək ziyan. İsgəndər qəzəblənərək qasidi təhqir edir. Bildirir ki, mən şahlara tac verdiyim halda, miskinə xərac vermərəm.

Bəli, İsgəndər məğlub etdiyi şahlarla fateh kimi rəftar edir. Yenidən onları öz taxtında oturdurdu. Qeyd edir ki, məndən Misiri istə, amma bac istəmə...

Makedoniyalı İsgəndər ölümlə mübarizədə

Beləliklə, İsgəndər ilə Dara arasında ideoloci müharibə başlayır. Dövlətlər bir-biri ilə müharibə aparmazdan əvvəl, ideoloci müharibə aparırlar. Siyasət də təbii ki, böyük dövlətlərə məxsusdur. Balaca dövlətlər isə siyasət aparmır, sadəcə idarəçilik edirlər. Dara bu xəbəri eşitcək qəzəblənir. İsgəndəri özü ilə müqayisədə milçək adlandırıb, ikinci qasidi göndərir. Qasidlə bir top (çovqan), bir çuval küncüt də göndərir.

Qədimdə insanlar bir-birinə məktub əvəzinə əşya göndərirdilər. Öz fikirlərini həmin əşyalar vasitəsi ilə bir-birinə bildirərdilər. Buna predmet yazısı və ya əşya

yazısı deyilir. Əlifba icad edilməmişdən qabaq bu, əsas yazı forması olmuşdur.

Qasid ədəb ərkanla İsgəndərə təzim edir, şirin və yağlı sözlərlə danışır. İsgəndər dərhal başa düşür ki, bu yağlı sözlərin arxasında ağır bir fərman durur. Qasid çovqanla bildirir ki, sən hələ uşaqsan, bu ağır yükün altına girmə. Küncüt isə Daranın çoxluq təşkil edən qoşunu mənasını verirdi. Yəni sən onunla bacarmazsan. İsgəndər dərhal küncütü çölə tökdü. Quşlar bir anda küncütləri dənlədi. Yəni sənin də qoşunun belə dənlənilәcək. Çovqana qalanda, mən bundan sonra dünyanı bu çovqan kimi özümə çəkəcəm. Bir çuvala üzərlik doldurub qasidə verdi. Dara küncüt qədər qoşun çıxartsa, mənim də qoşunum budur. El arasında üzərliyi bədnəzərdən qorumaq üçün yandırarlar. Lakin son dərəcə acı olduğundan quşlar onu yeməz. Dara İsgəndərə küncüt göndərmişdi, İsgəndər dedi ki, onu mənim quşlarım yeyər, yəni sənin qoşununu, mənim əsgərlərim yox edər. İsgəndər isə Daraya üzərlik göndərdi və bununla demək istədi ki, mənim qoşunumu düşmənin quşları yeyə bilməz.

Dara bu cavabları aldıqdan sonra dərhal müharibəyə hazırlaşır. Yunanıstana doğru hərəkət edir... N. Gəncəviyə görə Daranın qoşunu 900 min nəfər olub. Avropa mənbələrinə görə isə 200 min nəfər olub. İsgəndərin isə birinci ehtimala görə 600 min, ikinci ehtimala görə isə 50 min əsgəri olub. Mən Nizaminin fikrinə şərik qoşuluram. Müharibə səhnəsi bu mülahizənin təsdiqinə yönəlir. Qoşunların getdiyi yollarda bir dənə də göy ot qalmır. Döyüş yerinə çatarkən, kəşfiyyatçılardan məlumat gəldi ki, düşmən qoşunları sərxoşdurlar.

Əgər şah hücuma keçsə, mütləq qələbə çalacaq. İsgəndər bunu şərəfinə sığışdırmadı. Əgər mənim qılıncım qınından çıxmasa, mənə heç kəs sərkərdə deməz. Bu şəkildə Daradan taxt-tacı alsam, hamı mənə qəddar və zalım deyər ki, bu da mənə şərəf gətirməz.

İsgəndərin bayrağında əjdaha şəkli var idi. Bu şəkil elə təsvir olunmuşdur ki, istər-istəməz düşməndə heyrət yaradırdı. Baxanlar ikinci dəfə baxmaq istəmirdi. Döyüşün ilk anlarında səhnə elə qurulmuşdu ki, hər iki tərəf İsgəndərin şücaəti ilə rəğbətlənirdi. Düşmən əsgərlərində də İsgəndərə rəğbət yaranırdı. Çünki Dara öz ideyasını hər cəhətdən, zülm, zorakılıq əsasında qurmuşdu. Bu isə, ona məğlubiyyətdən xəbər verirdi. Hər şeyi bilən adam gətirilir. O, əvvəlcə Daranı tərifləyir, sonra isə deyir.

Keyxosrov dünyadan edərkən səfər,
Cəvahir camından vermişdi xəbər.

İran mifalogiyasında Keyxosrovun gövhər bir camı varmış ki, dünyanın bütün hadisələri, həm keçmiş və həm də gələcək onda əks edilirmiş. Yəni Keyxosrov ölərkən Daranın əhvalını öz camında görüb xəbər vermişdi.

Qızıl öz vəznini versə arpaya,
Qızıl qiyməti ilə çıxar ortaya.

Yəni, sən qızılsan, İsgəndər arpadır. Əgər, sən özünü İsgəndərə bərabər etsən, dəyərsiz arpaya qızıl dəyərini vermiş olarsan, belə ki, qızılın arpa ilə çəkilməsi arpanı

qızıl qiymətinə qaldırır. Dara bu sözlərdən məst olur və ruhlanaraq deyir:

Kimdir bu bac verən Rumlu İsgəndər,
Óca tacıdara olsun bərabər.

Mənim əslim-köküm var. Mənim babamın yurdunu heç kim məndən almağa niyyət elməz.

Bunu Azərbaycan dilində açmasına istiqamətlənək. Əvvəla, İran sözü yoxdur. Bizim ədəbi dilimizdə Ərəb, Fars lüğəti də bunu təsdiq edir:

1. İrab-qorxutma vahiməyə salma
2. İrad 3) kirə və məhsul gətirən mülk və ya əkin.
3. İradi - könüllü
4. İraə 1) Göstərmə göstəriş. 2) Təqdim etmə.
5. İrani - iranlı (məna yoxdur) (yuxarıdakılarla müqayisə)
6. İrq-kök-nəsil. Sinonimləri müqayisə etdikdə soy-kök məhsuldarlığa yönəlir. Yəni dəmiyədən suvarma-ya, Qabıssından İrana və ya İrada. Bu inkişafın yoludur. Əslini itirən haramzadadır, fikri məhz buradan yaranıb (Atəşgaha görə). İstər istəməz bu məsələdə dayanaraq, başqa bir dinə aydınlıq gətirməli oluruq. İncil-Xristian-lığın müqəddəs kitabı (haradan doğdu?).
1. (İbrahimdən sonra!)
2. İncila - 1) Aşkar olma, zahir olma. 2) Parlama, cilalanma.
3. İncila - köçüb getmə, uzaqlaşıb getmə (sual ha-radan getmə, nə üçün getmə), (Haqqa, gəlin dini-dinə qaytarın).
4. İncilbəxş - parlayan, işıqlanan, işıq verən (Sual

nədir tək ulduz (Günəş)).

Xaç xristianların simvoludur. Ensiklopediyada bu haqda heç bir məlumat yoxdur. Xaç-Şərqdə xak kimi qəbul olunur. Mifoloji baxımdan dini mahiyyət daşıyır.

İnsan-Yer-Göy-torpaq, çürümə

Bütün bunlar xristianlıq dinindən qabaq olmuş, şərq mifologiyasının əsas arqumentlərindəndir. Qaya-üstü rəsmlərdə və xalçalarda müxtəlif formalarda öz əksini tapır.

* * *

İsgəndər Daraya cavabında deyir:

And olsun yeri-göyü quran Tanrıya,
Ki, ondan bu yer-göy olmuşdur maya.
Tanrıdan bir kimsə tutmasa xəbər,
Demək başında yox şüurdan əsər.
And olsun keçmişin rəhbərlərinə,
Bizim dinimizin peyğənbərinə.

(O, dövrün peyğənbəri İbrahim idi).
And olsun İbrahim sufiyə!
İman gətirdiyim haman sufiyə!
O, İran xalqına əl taparsam mən,
Silirəm, Zərdüştün dinini yerdən.
Nə atəş qoyaram, nə atəşgədə.
(Bakidə Atəşgah olub)
Odlar da şölədən yanar bu dərdə.
Bu gözəl mərasim, bu ayin bu yol

Ulu babalardan qalmış əmin ol.

Bəli, bu beytlərdən tarixin bir çox pəncərələri açılır. Qabıssanda (Bakidəki) Atəşgah olub. İrandakı isə, dəyişilərək Atəşgədə olub. Kökü İbrahim peyğənbərə şamildir. Demək, İrandakı sonradan yaranan Atəşgədədir.

Dara o qədər varlanıb, arxayınlaşmışdır ki, özünün xüsusi Allah evini yaratmışdır. Nizami Gəncəvi çox gözəl qeyd edirdi ki, İsgəndərin dini isə hamımızın peyğənbəri İbrahimdir dinidir, ona zidd gedən başını itirməlidir. Bu dövrdə xaçpərəstlik yox idi. Ancaq qayaüstü təsvirlərdə və xalçalarda xaç işarələri var idi. Çərdüştlər də iki yerə bölünmüşdülər. Əsil zərdüştlər və saxta zərdüştlər. Bunları fərqləndirmək lazımdır.

Bütün bunlardan sonra İsgəndər Daraya həcvlər yazaraq deyir:

Qoyuna verilməz dələmə suyu,
Onda öz qanı var, görəcək bunu.
Bir qab şərabın var, saxla can başla.
Sındırarsan onu, çarpışma daşla.
Unutma od ilə doludur cahan,
Söyüdü qoru bu odlu tufandan.
Get öylə bir ov tap zəifdir məndən,
Yağ çıxmaz bu aslan böyrəyindən.
Heç mümkün deyilsə meyvəni dərmək,
Budaqdan asılmaq nəyinə gərək?

Dara, sən mənim üstümə gəlirsən ki, atamdan qalan mülkü əlimdən alasan? Bunu görməyəcəksən. Sənin güvəndiyin taxtı mən tabuta çevirəcəyəm.

Bilirəm bax budur fikrinin canı!

Tutmaz bir tərəzi uni bütmanı.

Yəni iki düşmən iki batmanlıq daş kimidir ki, hərəsi tərəzinin bir güzündə bir-birinə qarşı durmuş, biri o birsindən aşağı və yuxarı olmur. Beləliklə iki hökmdarın ideoloji müharibəsi həqiqi müharibəyə zevrilir. Müharibə elə bir dəhşətli hal almışdır ki, ata oğulu oğul atanı tanımırdı. Oxlar bir-birinə sarınırdı. Qalxanlar yerdə o qədər çox idi ki, yer görünmürdü, elə bil yerə xalça döşənmişdi. Yay çəkən əllər qabar bağlamışdı. Qoşun o qədər çox idi ki, qarınca uçmağa yer tapmırdı. Bu ərəfədə könüllü-könülsüz, məhəbbət və nifrət hissləri qabarmağa başladı. Dara qoşununda inamsızlıq və Daraya nifrət özünü biruzə verməyə başladı. Sərkərdələrin ikisi, İsgəndərə gizli yol tapdılar və bildirdilər ki, onlar Daranı öldürə bilərlər. Əvəzində isə İsgəndər onların istəyini təmin etməlidir. Isgəndər onların istəyini təmin edəcəyini vəd etdi və fikirə gedərək düşündü:

"Dovşanı hər bir yerin- məsəl var,
Yenədə o yerin tazısı tutar!"

Elə bir vəziyyət yaranmışdır ki, əsgərlər hər iki tərəfdən səhərin açılacağını istəmirdilər. Acizanə ümid edirdilər ki, bəlkə iki hökmdar barışdılar. Həmin sərkərdələr Daraya ümid edirdilər ki, səhər qələbə zalacaqlar. Dara isə barışmaq istəyirdi. Növbəti döyüş başlandı, hər iki tərəfdə sanki qan gücü yaranmışdı. Düyüş o qədər canlı keçirdi ki, insanlar civə kimi yerini dəyişir və ya qazırdılar. İnsanların müəyyən hissəsi boğazına keçən oxlardan ölürdü. Yara qorxulu olmasa

da bu vəziyyətdə insan nəfəs ala bilmirdi. Meyidlərdən elə bil dağlar yaranmışdı. İnsanlar o qədər qorxu içindəydi ki, heç kəs yaralı yoldaşına, hətta ata oğula, oğul ataya kömək edə bilmirdi. N. Gəncəviyə görə, bu düyüş səhnəsində həmin sərkərdələr Daraya tərəf atlarını sürərək, hərə öz qılıncını sağdan və soldan Daranın böyrünə sancırlar. Onlar Daranı öldürdükdən sonra, İsgəndərin yanına gəlib verdiyi sözü xatırlatdılar. İsgəndər Daranın öldüyünü (xəyanət nəticəsində) biləndə bərk sarsıntı keçirdi. Belə qalibiyyəti özünə sığışdırmırdı. Sərkərdələr qana bulaşmış Daranı ona göstərirlər. Sanki tikanlı bir arı fili yemişdi. İsgəndər Daranın başını dizi üstə qoyur. Bu ucuz şəkildə öldürülməyə daxildən əzab zəkdiyini biruzə verirdi. Dəhşət idi dünyaya meydan oxuyan Daradan cansız bir cəsəd qalmışdı. İsgəndər ağlaya-ağlaya deyir:

Kiçiklik edərdi sənə İsgəndər
Heyhat, mən qocaman dənizlər aşdım,
Köksümə qədər qana bulaşdım,
Təəssüf, azmadım bu yollarda mən,
Atımın dırnağı qopmadı nədən?
And olsun hər qəlbi bilən sərrafa,
Daraya ürəkdən istərəm şəfa.

İsgəndər Daranın üstünə dinə görə getmişdi!

Dara ölümündən qabaq, yaxınlarından birinə öz vəsiyyətini etmişdi. Əgər məğlub olsam bunları İsgəndərə çatdırın. O, demişdir. “Ey İsgəndər, sən qalib gəlsən, Kəyan ölkəsinə ziyan vurma. Onu viran qoyma.

Sonra mənim hərəmxanama toxunma, hörmətini saxla, onları təhqir etmə. Üçüncüsü isə qızım Rövşənəni incitmə, onu süfrə yoldaşı et. Onun gözəl əl qabiliyyəti, xörək bişirmək qabiliyyəti və yüksək mədəniyyəti var."

Könlümü çevirmə Rövşənəyimdən,
Təbii işıqla günəş olur şən.

Yəni qızımdan Rövşanədən məhəbbətini əsirgəmə. Həyat məhəbbətlə gözəlləşir.

Gecənin güzünə qaranlıq axdı,
Bağdadı kaxsız və kərxsiz buraxdı.

Yəni çərxi-fələyin gözü kor, üzü qara oldu ki, İranı, Bağdadı saraysız və qalasız, kərixsiz qoydu. Yəni bu yerləri özünə tabe etdi.

Dünyadan al günəş qanad çəkincə,
Yaqut uzdu şəva qondu sevincə.

Yaqut – günəş, günəşli gündüz, şəvə - qaranlıq gecə deməkdir. Yəni günəş batdı, gecə oldu.

Əbləq atlı səhər gəlib üfüqdən,
Axuru zəməndə yerləşdirərkən.

Əbləq atlı səhər – sübh vaxtı göyün iki rəngli olmasını bildirir, çəmən göy, səma deməkdir. Yəni günəş dan yerinin ala qranlığından çıxıb yüksələrkən.

Göy günbəz altında gəl qurma büsat,
Kəhrəba qələdə yaramaz nişan.

Göy günbəz - səm güy, kəhrəba qələ - yer, dünya deməkdir. Yəni bu dünyada şadlıq, sevinc məclisi qurma.

Üzünü kəhrəba kimi saraldar,
Əlbəsən laciviərd bir rəngə çalar.
Yəni dünya vəfasızdır, bu günkü al yanağını sabah saraldar, bu günkü toy paltarını sabah matəm libası ilə əvəz edər.

Etsin mey özümü unudan kimi,
İki məğz yaratsın mənə dan kimi.

Dan – elə dan yeri deməkdir. Dan yaxud, sübh iki cür olur, birincisinə yalançı sübh, ikincisinə həqiqi sübh deyilir. Beytin mənası: elə şərab var ki, məni özündən çıxartsın, İki məğzi etsin – beynimi ikiqat işıqlı etsin.

İsgəndərin ən mühüm xüsusiyyətlərindən biri,düşməni məğlub etdikdən sonra əsirləri nəzərdən keçirirdi. Bu dəfə də əsirləri nəzərdən keçirərkən, üç qadının qarşısında dayanır. Ona deyirlər bunlar, Daranın anası, arvadı və qızıdır. Daranın anası dərhal örpəyini çıxararaq, onu İsgəndərin ayaqları altına atır.

İsgəndər əyilib örpəyi götürmək istəyir. Bu zaman sərkərdələrdən biri etiraz edərək deyir: "Ey fateh, Siz nə edirsiniz? Düşmənin anasının qarşısında niyə əyilirsiniz?" İsgəndər deyir: "Bil ki, o, anadır. Ana hamının anasıdır. Mən öz İsgəndər əxlaqıma süykənirəm". Sonra üzünü Daranın anasına tutaraq deyir: "İstə məndən

diləyini"

Daranın ansı deyir: "Səndən xahiş edirəm, mənlə şah ansı kimi, gəlinimlə şah arvadı kimi, nəvəmlə şah qızı kimi rəftar et." İsgəndər bunların hamısını qəbul edir.

Bəzən belə deyirlərki İsgəndərin dünyanı tutmaq üçün ömrü çatmadı. Əslində bu belə deyil, İsgəndər Daranı məğlub etməklə, dünya hökmranlığını qazanmışdı. Artıq dünyada ona rəqib qalmamışdı. Daraya bac verən dünya, artıq İsgəndərə tabe idi. İran ona bac veməli olur.

Daranın ulduzu olunca nihan,
İsgəndərə qaldı bütün bu cahan.

İndiki hesablamalara görə, o dövrdə İsgəndərin şəxsi varidatı altımış milyard dollardan artıq idi.

Cins ərəb atları- yəhəri qızıl,
Xəta qulamları – kəməri qızıl.

Dünyanın bütün əntiq malları onun iqamətgahında idi. Bundan sonra dünyada ilk dəfə İsgəndərin adına qızıldan sikkə vurdular. İsgəndər İrandan qaçan bütün sərkərdələri geri çağırıb onlara çoxlu qızıl verdi və özünü dünyanın hökmdarı elan etdi. Heç bir sərkərdənin rütbəsini əlindən almadı. Belə olan tərzdə hamı onu sevməyə başladı. Hər bir ölkədə onu müxtəlif adlarla çağırdılar. Məsələn, İsgəndər, İsgəndər Zülqərneyin, İsgəndər Rumi, Makedonyalı İsgəndər, İsgəndər Kəbir, Misirli İsgəndər və s. Bu qoyulan adların məkanları Azərbaycan, Yunanıstan, İran, Suriya, Bizans, Hindistan

və başqa yerlərdi. Bütün bunlara görə oxucu çaşqın qalmasın. Çoxluq təşkil edən İsgəndərlərin səbəbi bunlardır. Əslində İsgəndər birdir. İsgəndər Zülqərneyn isə, Azərbaycana aiddir. Bunu sonrakı yazılarda izah edəcəyik.

İsgəndər Daranı öldürən iki sərkərdəyə qızıl və zinət vəd etmişdi. O, heç vaxt öz vədinə naxələf çıxmamışdı. Kimə nə vəd edirdisə, onu yerinə yetirərdi. O, sərkərdələr nə qədər zinət istədilərsə, hamısını verdi. Necə deyərlər, qızılla teşti bir yerə qoydu. Qızıl teştə qan qusarsan misalıda oradan qalıb. Həmayillər taxılan boynuları o həmayillə bəzədilmiş kəndirlə bağladılar. İsgəndər məhkəmə mühakiməsilə, mükafatlandırdıqdan sonra sərkərdələrin hər ikisini dar ağacından asdırdı. Xainin cəzası belə olmalıdır dedilər.

Ağanı öldürən bəndəni, zinhar,
Hansı bir ağıllı kimsə bağışlar.

Bu idi İsgəndərin adilliyi. İsgəndər İranda dərhal islahatlar aparmağa başladı. Onun birinci islahatı saxta zərdüştlükdən doğan adətləri ləğv etməyə başladı. Nə idi bu saxta adətlər? O adətlər ki, Şərq əxlaqına heç cürə sığmırdı.

Muğlarda bir azar da vardı,
Hər ilin başında bir qız alardı,
Novruz ilə Səddə bayramlarında,
Ayinlər yenidən olurdu bərpa.
Ər üzü görməmiş, gəlinlər qızlar,
Evindən sevinclə dışarı çıxar,

Əllər əl xınalı, üzlər bəzəkli,
Hər yandan gəlirdi coşqun ürəkli.
Önündə al şərab, hər üzü lalə,
Muğlarla üz – üzə vurar piyalə.

Beyitin mənası, muğ atəşgədədə atəşpərəstlik dini ilə zərdüştün ayinlərin icra edərkən, həm od söndü, həm özü öldü. Səddə - Novruza əlli gün qalmış iranlıların bayram etdiyi gündür, guya od bu gün tapılmışdır. Atəşpərəstlik dininin banisi Zərdüştün iradəsi ilə keçirilən bu bayramda od yandırıb şənlik edirlər. İsgəndər bu adətləri dərhal ləğv etdi ki, hər bir gəlinin və qızın üzünü öz istəklisi və əri görə bilər.

Dünyadan sildirdi bulanlıq dini,
Saxladı ən doğru dini-ayini .
İranda əmriylə söndü hər yerdə,
Həm köhnə zərdüştlük, həm atəşgədə.

Beləliklə, N.Gəncəvi həmin dövrü çox gözəl təsvir edir. İrandakı bütün Atəşgədələr öz kükündən onsuzda uzaqlaşmışdı. Sadəcə, həmin yerlər Dara və onun ətrafı üçün əyləncələrə və varlanmaya xidmət edən bir alətə çevrilmişdi. Hər atəşgədə yandırıldıqca, onun rəhbərlərinin ahı göylərə qalxırdı.

İsgəndər əmr etdi: bu ölkə - torpaq
Tanrıya pərəstiş eyləsin ancaq.

İsgəndər daha sonra belə əmr etmişdi:

Zəndin əfsunları atılsın suya,
Alınsın yaxud bir dəftərxanaya.

İbrahim dinini doğru yol bildi,
Atəş tüstüsünü dillərdən sildi.
Aqillər məsləhət gürdülər ona,
Oradan tərpənsin Azərbaycana.

Bəli, İsgəndərin Azərbaycana gəlməsi əfsanə deyil, həqiqətdir. Hamı İsgəndəri işğalçı kimi tanıdığından, onun Azərbaycana gəlişini sual kimi qəbul edir.

Fikrimizi təsdiq etmək üçün "Qurani-Kərim"ə diqqət yetirək. (Zülqərneyin) dedi: "Bu əməl mənim Rəbbim tərəfindən (onun vədi yetişənə kimi) bir rəhmətdir. Beləliklə, Rəbbimin (səddin viran olması və ya qiyamətin qopması barəsindəki) vədi yetişəndə (Allah) onu alt-üst edəcəkdir. Mənim Rəbbimin vədi həmişə haqq və halidir".

Həqiqətən biz ona yer üzündə qüdrət verdik və onun ixtiyarında (istədiyi) hər şeydən (elm, qüdrət və imkan kimi) səbəb və vasitələr qoyduq. Məgər bunlat sübut etmir ki, Allah ona (İsgəndərə) peyğəmbər qüdrəti vermişdir. Bəli, bu faktlar fikrimizi mübaliğəsiz təsdiq edir. O bir yol və səbəbin arxasınca (yer üzünün Qərb istiqamətinə) getdi. Sonra (yer üzünün Şərq istiqamətinə) bir yol səbəbin arxasınca getdi. Mən bunları yazmaqda haqlı və məcburam. Çünki Nizaminin fikirləri ilə "Qurani-Kərim" dəki fikirlər üst-üstə düşür. O, səbəbin dalınca getdi. Hansı səbəbin dalınca? Əlbəttə, müharibə səbəbinin yox, Nizaminin dediyi pak və müqəddəs dinin dalınca. Qabusnamədə yazılan Qabıssan sözündən gütürülən Qabusun dalınca, yəni, günəşə sitayiş edən atəşpərəstlərin dini, İbrahim ocağı, Atəşgahın dalınca. Zərdüştlərin dini ocağı bura idi,

yəni Azərbaycan. Hindistanın mərhum prezdenti İndira Qandinin ziyarət etdiyi Qabıssan – Abişurun (Abşeron) ocağı da Atəşgahdır, özü də 72 ayəsi olan Atəşgah. İbrahim dinini təmsil edən Azərbaycana gəldi İsgəndər. Budur "Qurani- Kərim" də deyilən səbəb. Demək İsgəndər birinci növbədə ona verilmiş bu qədər istedada və geniş imkanlara görə Peyğəmbər idi.

Ardınca yenə "Qurani Kərim"ə diqqət yetirək: "Nəhayət, günəşin zıxdığı yerə (yer üzünün Şərq hissəsini ən son yaşayış məntəqəsinə) çatanda gürdü ki, günəş, onlar üçün heç bir örtük (paltar hazırlamaq, ağac əkmək, kölgəlik qurmaq və ya onların vasitələrini düzəltmək istedadı) verdiyiniz bir qövmün üzərinə doğur. Bəli Zülqərneynin, yer və millətlərinin əhvalatı belə idi və şübhəsis biz onun qarşısına çıxacaq şeyi (əzəldən) bilirdik. Sonra O, (yer üzünün Şimal istiqamətinə səfər etmək məqsədi ilə) bir səbəbin arxasınca getdi (91-ci ayə)".

Artıq bu fikirlər sübut edir ki, Dağıstandan sonrakı yerlər Şimal istiqaməti adlanır. Burada isə məqsəd, qızıl-zinət və xəz dərilər əldə etmək idi. Hətta belə fikir var ki, İsgəndərin qoşunları oradan o qədər var dövlət gətirir ki, basdırdıqları qızıla geri qayıdanda ehtiyac qalmır.

"Nəhayət, iki səddin arasında yetişəndə, onlardan aşağda ya qabaqda və ya onların yaxınlığında düşüncələrinin darlığı və ya dillərinin fərqliliyi səbəbindən heç bir söz anlamayan bir tayfa gördü (93-cü ayə). Onlar (bir yolla) dedilər: "Ey Zülqərneyn, həqiqətən (Nuhun oğlu Yafəsin olan) Yəcuc – Məcuc (adlı iki tayfa) bu yerdə fəsad törədirlər. (Bizi öldürür, var yoxumuzu qarət edirlər). Bizimlə onların arsında bir sədd düzəlt-

məyin üçün sənə bir xərclik (muzd) təyin edək? (94-cü ayə) "İsgəndərin cavabından qabaq bu məsələnin üstündə dayanaq. "Qurani-Kərim" də deyilir ki, Nuhun oğlu Yafəsin nəslindən olan (Deməli, Nuhun nəvə-nəticələri) bu ərazidədir. Məgər bu sübut etmirmi ki, Nuh bu ərazidə, yəni Azərbaycanda olub və onun qayığı məhz Xəzərdə qərq olub? Özü də Quba rayonu ərazisində olan Baba dağında (Həzrət babada, Şah dağının ətrafında) dəfn olunub. Bəli, yazdığımız öz təsdiqini tapır. Hadisələr məhz burada cərəyan edib. "Qurani- Kərim"lə müqayisədə başqa mülahizəyə ehtiyac qalmır: "Rəbbim" barəsində mənə imkan və qüdrət verdiyin şey (plan cızmaq, memarlıq və lazimi vasitələri tədarük gürmək qüdrəti) daha yaxşıdır. Buna görədə mənə (işçi) qüvvə (si) ilə kömək edin ki, sizinlə onların arasında əzəmətli bir sədd qurum. O səddi qurandan sonra Həcuc – Məcuc bir daha ora gələ bilmədi.

İsgəndər işğal etdiyi ülkədə, şəhərdə xalqa zidd heç bir iş görmürdü. Əksinə, hamını dinləyir və istəklərini həyata keçirməyə zalışırdı. Hətta bir nəfər İsgəndərdən bir dinar pul istəyir, İsgəndər ona deyir ki, sən məndən mənə layiq rütbə istə. Belə olan tərzdə həmin adam İsgəndərə bildirir ki, onda dünyanı mənə bağışla. İsgəndər ona cavab verir ki, sən məndən iki şey istədin. Biri məndən alçaq, digəri səndən hündür. Sən çaşqın adamsan. Necə ola bilər ki, xalq səndən aşağı olsun? Sən buna dəyməzsən.

Padşahın mövqeyi olmalı uca,
Gözlər nurlansın ondan doyunca.

İsgəndərin dahiliyi onda idi ki, o dünya hökümdarı olsa belə, dünyanı heç vaxt şəxsi istəklərinə tabe etmirdi. O, dünyanı islah etmək istədiyi üçün, dünyanın istəyinə çevrilirdi. İsgəndərin qoşunları o qədər varlanmışdı ki, bir ərazidən başqasına gedəndə, əllərində olan varidatı torpağa basdırırdılar, geri qayıdanda götürsünlər. Bəzən isə, yuxarıda qeyd etdiyimiz kimi, çoxlu varidat olduğundan onları qayıdıb götürməyə ehtiyac qalmırdı. İsgəndər harada bir zahid görərdisə, atını onun yanına sürüb, ona hədiyyə verərdi. Yoxsullara həmişə hörmət edərdi. İsgəndər Quranda deyilən kimi, gün çıxan məkanın sonuna Şirvandan Dağıstana getdi. İstəyirəm ki, bir az mətləbdən kənara çıxaq. Belə ki, N.Tusiyə görə "Dağıstan" adının mənşəyinə nəzər salaq. Əvvəllər bu ad Qohestan – Kuhestan "Dağlıq" dağıstan mənasında olan fars süzünün ərəbləşmiş formasıdır. Bu söz Azərbaycan dilində "Qəhistan" kimi də verilmişdir. N.Tusi, 1957- ci il nəşri, səh 50.

Həmin yerlər "Dəsti-Kəbir" və "Dəşti lut" səhraları arasında uzanıb gedən dağ silsiləsidir. Kontenental iqlimə malikdir. Az da olsa, gözəl vadilər vardır. Ən şöhrətlisi "Gülşən" adlanan vadidir. Geniş buğda, arpa sahələrinə malikdir. Tusi uzun müddət "Qohestanda" yaşamış, "Əxlaqi Nasiri" burada yazmışdır və lutun da adı burada çəkilir. 1) Kuhestan – Kuh – dağ. Kuhi Qaf – Qaf dağı (Qafqaz dağları) Kuhestan dağlıq yer, çox dağı olan yer. İsgəndərin məlum olduğu kimi, Dağıstanda olan yeganə qalaya hücumu olub. Lakin qaladan bir daş da qopara bilməyib. Nəhayət, qaladakılar bezib özləri təslim oldular. Əsgərlər artıq yorulmuşdular, geri qayıtmaq istəyirdilər. İsgəndər burada qoca bir Zahid-

lə tanış olur. Dünyada heç nəyə ehtiyacı olmayan Zahidin İsgəndərlə söhbəti maraqlı idi. O, İsgəndərə deyir ki, sənin hər şeyi göstərən güzgün, mənim də hər şeyi dərk edən qəlbim var. Zahid İsgəndərə xeyir-dua verir.

Yerli adamlar Nuhun Yafəsdən olan nəvəsi Yəcuc – Məcucdan şikayət edirlər. İsgəndər onların istəyini təmənnasız həyata keçirir. Bu haqda A.A.Bakıxanovun fikirləri ilə geniş məlumat verəcəyik. Beləliklə, İsgəndər burada istənilən qədər, cürbəcür qiymətli xəz dəri toplayır. İsgəndər bundan sonra əsgərlərə istirahət verir. İstirahət vaxtı əsgərlərə növbənöv yeməklər hazırlanır.

İsgəndər isə kababı xüsusi oda davamlı saxsı manqalda bişirtdirir.

Heyranla bəzənmiş saxsı güldandır,
Ancaq bu meşədən çıxan reyhandır.

Saxsı güldan - burada saxsıdan qayrılmış manqal, onun reyhan gülləri də manqalın üzindəki odlardır. Meşədən çıxan reyhan – kömürdən əmələ gələn odlar deməkdir.

Ey saqi, qırmızı süddən ver ki, hər,
Civəyə əks etsə, ona can verər.
Ver mənə, dönmüşdür qanım civəyə,
Süz düzüm dırnaqdan keçən riştəyə.

Dırnaqdan keçən riştə - zərif keçi tükündən və ya yundan əllə əyrilmiş iplikdir ki, bu, baş barmağın uzadılmış dırnağından keçirilib əyrilir. Belə iplik cəhrədə

əyrilmiş iplikdən daha incə və saf olur. Mətnin mənası: Ey saqi o qırmızı süd olan şərabdan mənə ver ki, sarılıq xəstəliyinə tutulanlar onu civə kimi içərkən rəngləri qan kimi qızarır. Mən bu saat qəmdən qana dönmüş titrəyən civəyə bənzəyirəm, dərdimi sözün dırnaqdan keçən incə və saf ipciyinə düzərəm. İsgəndər yaşadığı müddətdə geyindiyi paltarlar, geyimlər ancaq müxtəlif heyvanların zərif, xam dərisindən olurdu. Özü də Koroğlunun Qıratından neçə əsr əvvəl məhz İsgəndərin atının adı Qırat olmuşdur. N.Gəncəvi də bu haqqda öz əsərində qeyid etmişdir.

Ordunun qəlbində igid İsgəndər,
Altında Qıratı bir dağa bənzər.

İsgəndərin dirilik suyu Şirvandadır

Fateh İsgəndərin dövrünə görə ən güclü siyasət, tam bəşəri əxlaqa söykənirdi. Onda heç zaman imkana görə başgicəllənməsi olmamışdır. Dünyada ilk hökmdar idi ki, gücünün yarısı qılınca, yarısı da elmə söykənirdi. İlk Adil hökmüdar adını da məhz o, qazanmışdır. Demək olar ki, ibadət etməyin dünya miqyaslı olmasını da İsgəndər yaratmışdır. Buna görə də o, peyğəmbərliyə layiq bir şəxs idi.

İsgəndər Daranı məğlub etdikdən sonra Zərdüşt kahinlərindən miras qalmış, dini üz mənafeyləri üzün əxlaqsızlıq yuvasına çevirmiş yalançı dinlərin hamsını qadağan etdi. Onların ibadətxanalarının hamsını yandırdı. O, heç vaxt həqiqi din ocaqlarına toxunmamış, əksinə, onlara baş əymişdir.

İranda muğlardan qalmış, çirkin qadın əyləncələrini məhv etmiş, dünyada ilk dəfə çadraya bürünmənin əsasını İsgəndər qoymuşdur. Qadın yalnız ərinin yanında üzü açıq otura bilər ideyasını yaratmışdır. N.Gəncəvi İsgəndərin dinə rəğbətini təsvir edərək deyir:

Təbilçi təbilinin səsi ucaldı,
Quşların nəğməsi ətrafı aldı.
İbadət edənlər qalxdı yuxudan,
Pərəstiş etməyə düzüldü hər yan.
O, səhər yuxudan qalxdı tacidar,
İbadət etməyə verərək qərar.
Ona şəfqət edən haqqı etdi yad,
Etdi bu hikmətlə dünyanı abad.

İsgəndərin Nüşabə ilə Görüşməsi

Bu görüşün mahiyyəti haqda hər biirimiz orta məktəbdən məlumat almışıq. Lakin, yaşa dolduqdan sonra, İsgəndərin tədqiqatına başladıqdan sonra bu məlumatlar məni qane etməmiş, dahi şairin sətraltı işarələrinin fəlsəfi baxımdan yenidən işlənməsinə ehtiyac duydum. Şair ilkin olaraq Bərdənin tarixinə və onun adına, adının mahiyyətinə varır.

Təsadüfü deyildir ki, Avestada belə bir vurğu vardır. "Zərdüşt" muğların təzyiiqnə məruz qalıb, vətənini tərk edib, arvadlarından birini, oğlanlardan birini götürüb "Hərimə" gedir və oradan da Kəyana gedir(kəsə yolla)

Bəli, Zərdüşt adı ilə gedən peyğəmbərimiz İbrahim idi. Arvadlarından biri dedikdə bu Sara idi, Yəhudi qızı. Oğlanlardan biri də, İshak idi. Quranda və "İncildə" də,

ayələrdə yazılır, İbrahimə (Avrama) vəh gəldi, "arvadlarından, oğlanlarından birini götür get Kəyana" orada sənə böyük nəsil və böyük dövlət verəcəm. (Rəbbindən gələn səs bu idi). Elə də oldu, İbrahimin nəvəsi Yaqubun, Kəyandan Şama qədər (Şam Bakıdan Dərbəndə qədər olan ərazi sayılıb) qarışqanı saymaq olurdu, heyvanlarını sayıb qurtarmaq olmurdu. (Yəqub və Uveys əkiz qardaş olub. İsakın övladları). Vətənini tərk edib "Hərimə" gedir.Bərdənin ilkin adı "Hərim" olub.luğəti mənaya görə:

1) "Hərim-məhrəm yer, yaxun adamların gedə biləcəyi yer.

2) Hərəm- müqəddəs yer, ziyarətgah. Kəbə və onun ətrafı dini (İlkin Kəbəyə işarə). Bax ə.f. luğ səh səh 727-728.

Bəli, bunlar İsgəndərin Nuşabə ilə, görüşməsinin ilkin kod açarı olmalıdır.

Təsadüfü deyildir ki, İsgəndər Azərbaycanda (Azərbaycan- üç fundamental söz olub; "Azər-od, odlar məkanı, "Bey"-"Beyzə" günəşin dairəsi, beyə-beyyət etmə, can isə ruh, qəlb, istək mənasında, məkanı deməkdir) İlkin olaraq məhz Bərdədə oturub, yəni, təsadüfü deyildir ki, Türklər bura can Azərbeycan deyir) "Hərim"də .

Bəs onda nəyə görə bu yerin adı Bərdə olub Bərdə adı hansı mənanı daşıyır?

Bərdə-kölə, qul. Bax ə.l.füğ səh 52

Hara vurğulanır bu mənalardan doğulan ad. Yalnız bir mənaya vurğulana bilər, əlbətdə dini mənada.

İnsanlar özlərini Allahın qulu hesab edib, 2-ci məna isə bu yerin həqiqi adı

"Bərdar" ola bilər.

Bərdar-bar verən, çoxlu meyvə verən; 2-ci xeyir verən, mənfəət, verən Bax ə.f.lüğ səh 52

Demək Bərdar, mənfəətli, xeyir bərəkətli yer mənasında, N.Gəncəvi bunları çox qabarıq işıqlandırmışdır.

Belə, şux sevimli Gülşən harda var?
Harda var xəzinə saçan bu diyar?

Demək adla, mahiyyət öz təsdiqini tapır ki, Bərdə üç mənanı daşıyır. Bəli, bu təhlildən sonra, İsgəndəri Bərdəyə gətirdikdən sonra, onun burada fəaliyyətini təhlil edək.

Təhlildən öncə Nüşabənin adının mənasına, (nə üçün, bu qadının adı məhz Nüşabə olub) və onun kimliyinə nəzər yetirək. Açaq bu sirli-sehirli aləmi, N.Gəncəvinin dürr, ləl beytləri ilə.

Belə nəql edir söz xəzinədarı,
Köhnə xəzinənin adlı saları:

Salar beytin kodu olmaqla-başçı, rəis, komandan. Bax ə.f.lüğ səh 534 . Demək Nüşabə hansısa , qədimliyə söykənən bir qüvvənin hakimidir, rəhbəridir. (Bu baxımdan Dədə Qorqudda Salur Qazan da, əslində Salar Qazi olmalıdır. Salar komandan, Qazi isə igid, qalıb,fateh deməkdir. Demək "Qazan" da, təhrif olunmuş addır, necə deyərlər həqiqi mahiyyətcə bu şəkildə bir yamağdır).

Hakim qadın varmış, adı Nüşabə,
Uymuş il uzunu keyfə, şərabə.

Erkəksiz yaşasada bu dişi ceyran
Gözəldi, göyçəkdi erkək tovuzdan.

Çox maraqlı və ziddiyyətli beytlərdir bu dahiyanə yazılmış beytlər.

Burada keyf, şərab heç də düşündüyümüz şərab nəzərdə tutulmur. Əvvəllər bu şərab qədimlərdə "Hum" içkisi, yəni spirtsiz işki nəzərdə tutulurdu. (Avestada "Hum" içkisinə xüsusi qiymət verilir ki, Hindistanda da bu içki məşhur olub).

Şəraba (ə)- gədikdə erkəksiz yaşardı mənası ilə, birbaşa rahibəliyə vurğulanır. Erkək tovuzdan yaxşı olması ilə, birbaşa "tov" sözünə və mənasına bağlanır.

1) Tov-itaət, itaət emə,

2) Könüllü olaraq bir iş görmə,könüllü hərəkət etmə

3) Tovq-taqət, iqtidar, qüdrət bax.ə.f.lüğ səh 651.

Şərab isə:

Şər-şəriət, abə isə din qapısı mənasındadır.

Ümumi məna, Nüşabə şairin fikirlərində din rəhbəri, pərilər isə, ona itaət edən bakirə qızlar kimi təqdim olunur.

Qadınla aşardi onun hər işi
Tapşırıq almamış ondan bir kişi.

Fikirlərdən aydın olur ki, Nüçabə müqəddəs din məbədinin pak bəndəsi və rəhbəridir.

Biyara getməyə versəydi fərman
Yolunda kişilər keçirdi candan.

Beytdən aydın olur ki, kişilərin onun fərmanına görə biyara getməsi, din yolunda fədakarlığından xəbər verirdi.

Qəhrindən, kinindən onun qorxaraq,
Şəhrinə bir kişi başmamış ayaq.

Demək, Nüşabə qəhr edərdisə, onu min bəlalara düçar edərdi

Sordu: Bu şən ölkə kimindir, kimin?
Kİm burda padşahlıq edir, söyləyin?.

Bəli, İsgəndər buranın qayda qanununa rəğbət bəsləyir, dünya hökmdarı olsa belə İsgəndər harada müharibə edərdisə, oranı ikiqat abad edib geriyə dönərdi. O, ədalətli idarəetmənin tam tərəfdarı olmaqla yanaşı, güclü dini etiqata da malik olmuşdur. Ona söyləyirlər ki, bu abad yer bir qadınındır. Ona təəccüb gəlir ki, bu qadın hansı qanun-qayda və idarəetmə ilə bu qeyri-adi həyat tərzinə nail olub.

Mərdliklə bağlamış kəmər,
"Kəyan" nəsilindənəm deyə fəxr edər.

Kəmər Zərdüştlərə, zərdüştlərin(muğların) dininə məxsus olub ki, bu da İbrahim dininə bağlanır. İbrahimi Daranın ulu babası Gəctəb (gəc xasiyyətli) qəbul edib, "iki il danışıqdan sonra", İbrahimin səyindən sonra onun dinini qəbul etmiş və o, zamanki yeddi dövlətə, yetmiş iki xalqa qəbul etdirmişdir. Bu kəmərə cövza kəməri

deyilib, yəni əkiz qardaş mənasında Göy və yerin vəhdətini özündə əks etdirir. (Dügah). Yetmiş iki qara və ağ sapdan toxunurdu. (Gecə gündüzün rəmzi). Yetmiş iki isə, o zamanki yeddi dövlət və yetmiş iki xalqın (qövmün) simvolunu özündə əks etdirirdi. Kəyana gəldikdə dünyanın ilkin sahənşahlığı nəslindən nəzərdə tutulur. Bu da o taylı bu taylı Azərbaycan deməkdir.

İşləri şərabdır, çalıb çağırmaq,
Nəsilcə uca, pak hökmdar qadın.
Onları qoymazdı şəhvətə yaxın.
Azad girib gəzər orda afətlər
Pərdə arxasında keçirir həyat.

Demək bunların həyat tərzi, rahibələrin həyat tərzi olub, günlərini dini ayinlərlə keçirərdilər. (dərvişlərə məxsus).

Oturubdur o büllur taxta hər səhər,
Uca tanrısını hər gün yad edər.
Bəli, tanrı aşiqidir Nüşabə,
Riyazət çəkərdi bir ibadətlə.
O qədər dindardır bu nazlı dilbər
Öz cənnət köşkündə yatmaz gecələr.

Riyazət-zahidlik, nəfsini öldürmə. Dünyanın hər cür rahatlıq və ləzzətlərdən əl çəkib, məhrumiyyətlə ya şama bax. ə.f.lüğ səh 523

Nüşabə dövrünün din simvolu,rəmzi olub N.Gəncəvinin şah qəhrəmanlarından biri olmuşdur. Nüşabə adının özünün mənası bunu təsdiq edir. Sözün və adın

kökü "Nüş" urdur. Nüşur-dini etiqada görə qiyamətdə ölülərin dirilməsi Bax ə.f.lüğ səh 488

Demək Nüşabə dini etiqata bağlı bir qəhrəman kimi özünü təsdiq edir.

Nə gündüz əl çəkir can bəsləməkdən,
Nə gecə tanrıya səcdə etməkdən.

Nüşabə gecə gündüz Allaha ibadət edən, bir peyğəmbər nişanəsi kimi öz təsdiqini tapır.

İsgəndər bu işdən şənləndi, ancaq,
O naxşı görməyə göstərdi maraq.

Bəli bi minvalla Isgəndəri Nüçabənin qapısına (din qapısına) istiqamətləndiririk

Haşiyə

Məhrum yazıçımız müqəddəs insan Əlibala Hacızadə söyləyirdi ki, bir gün qizğınlıqla əsərimi yazarkən, o yerə çatdım ki, Şahın qəbuluna girməli oluram. Bu anda arvad qonşu otaqdan qışqırdı, Əlibala evdə çörək yoxdur, xahiş edirəm evə çörək al gətir. Mən şahın qəbuluna girməyi təxirə salıb çörək almağa getdim.

(Allah rəhmət etsin sənə, ey böyük insan)

Mən isə, yubanmadan İsgəndəri Nüşabənin hüzuruna aparıram.

Hökmdar qadına verdilər xəbər,
Mübarək fal ilə gəlmiş İsgəndər.

Demək, Nüşabə qədim və əcdad muğlara məxsus

münəccimlər əhatəsindədir ki, hər addımı fal ilə izlənir. O, durmadan İsgəndərə ilkin olaraq min bir ədava, nemətlərdən, qədim Azərbaycanın zəngin mətbəx nemətlərindən süfrə açmaqla güclü mədəniyyətə malik milli soy kökünün aliliyini nümayiş etdirir.

O qədər mərdlik üz verdi qadindan,
Tərifi dillərdə oldu bir dastan.

Ali bir zirvəyə malik olan şah sanki ali bir mədəniyyət qarşısında aciz qaldı ki, bu da Nüşabənin İsgəndər qarşısında ilkin qələbəsi idi. İsgəndərin bu işə mat qalması, dərhal el arasında bir dastana çevrildi.

Hazırlıq görüncə ucaldı göyə,
Yol aldı saraya " Elçiyəm" deyə.

Demək, İsgəndər Nüşabənin Hüzuruna İsgəndər kimi deyil, elçi pərdəarxası, yəni gizli qapalı şəkildə gedir. İlk dəfə olaraq fateh cangüdənsiz onun yanına yollanır. Bu belə də olmalı idi, Nüşabə böyük sehrə malik, qüvvəyə malik olduğu üçün İsgəndərə bunu təsir etmiş olur.

Xidmətçi qadınlar onu gördülər,
Qaçıb Nüşabəyə verdilər xəbər.
Ağıllı bir elçi gəlmişdir bizə,
Rum şahından xəbər gətirmiş bizə.

Təsdiq olunur ki, İsgəndər öz adı ilə, bura gəlməyib.

Padşahlıq taxtında oturdu xoşhal,
Əlində ətirli, gözəl portağal

Sual olunur nə üçün Nüşabə əlində portağal tutur? Əvvəla portağal lənkəran torpağına məxsus nemət olub, zamanında atəşpərəslərə görə, günəşin rəmzi idi. Bununla da o, İbrahim nəslinə məxsus olmasına işarə verir.

Elçi çox sürətlə girdi qapıdan,
Qondu taxt üstünə o qorxmaz aslan
Belindən nə qılınc açdı, nə kəmər,
Elçitək etmədi səcdə İsgəndər.

Bütün bunlar İsgəndərin şahlıq xarakterindən doğulan zərurətlər idi. O, zamanlar şahlara "uca hökmdar " deyərdilər. İsgəndər buna vərdiş etdiyindən unutmuşdu bu dünya şahlığından da uca şahlıq var ki, o da ulu tanrımızdır, Nüşabə də onun müqəddəs bəndəsidir. Bütün şahlar onun qarşısında acizdir. (Naşı tarixçilər, alimlər də uca hökmdar Hasan Paşaya Ağqövmlər (qoyun) dövlətinin başçısına, çaşıb uzun Həsən deyib böyük bir tarixi mahiyyəti təhrif etmiş oldular)

Şairin sonrakı jestlərində bunları aydın görəcəyik.

Elçinin tutduğu uğursuz işə,
Nüçabə pərt olub, düşdü təşvişə.
Bu zirək kişiyə indi nə demək,
Qoyulan ayinə əməl etməmək?
Həddini tanıtmaq gərəkdir ona:
Bu elçi saymaya bizi baxsana.

Bəli bütün bunlar İsgəndərlə Nüşabənin mənəvi döyüşü idi. Bu döyüşün qəhrəmanlarından biri, qılınca qoşuna güvənir, bağlanır, digəri isə ulu tanrıya güvənir və bağlanırdı. Bu İsgəndərin ən ağır döyüşü və sonda məğlubiyyəti olmalıdır. Görək bu həddi göstərmək nə olacaq. Bunları N.Gəncəvinin ağlagəlməz beytlərinin mahiyyətləri ilə, oxuculara çatdırıram. Bu böyük dühalığa malik hekayəti baxın sovet metodologiyası necə cılız, çılpaq, tükləri yonulmuş qaz kimi bizlərə çatdırmış, bu ilahi mahiyyəti heçə endirmişdir. Haqqı-haqqa çatdırmaq istəyəni isə sənin yazdıqların cəfəngiyatdır deyərək ilahiyə bağlanan bir ürəyi çat-çat etmişlər. Əlbəttə aidiyyatı şəxslərə məxsusdur bunlar. İnanıram ki, bunları oxuyub şeytanın hörümçək torundan özlərini qurtarıb, axirət hesabına alnı açıqlığa doğru dönəcəklər.

Nüşabə baxınca düşərək şəkkə
O bişmiş qızılı vurdu məhəkə

Demək, muğlara məxsus, cadugarlıq metodu ilə İsgəndərə tələ qurur. Xalq mahnılarından birində belə bir mahnı var. (Bax xalq mahnıları kitabına). Təbii ki, İbrahimdir dustaqlıqda olanda öz adamlarına sifariş göndərir.

Mənə hil, dırnaq və bir də mixək gətirin

Bunlar ulduzlara bağlanıb, düşmənə hücum əlamətləri idi. Avestada yazılır Zərdüşt on beş yaşında öz sehrbazlığı ilə, muğları mat-məəttəl qoymuşdur. Muğlar dəfələrlə (atəşpərəstlər) onu öldürmək istəmiş, lakin buna nail olmamışdur. Məhz bu baxımdan da, Nüşabə

muğnəslinə mənsub olub, bunları bacarırdı. Neynəmək ki, İsgəndər bunlardan xəbərsiz idi.

Diqqətlə baxınca tanıdı birdən,
Taxtında yer verdi, qəlbi oldu şən.
Bildi İsgəndərdir, dolaşır ona,
Taxtında oturmaq yaraşır ona.

Nüşabə İsgəndəri vəh ilə tanıyır, özü də çox keçmədən.

Yeddi mavi göyün səadətilə
Onun tərifini gətirdi dilə

Yəni, Nüşabə onu sehrə bağlayır sonda onu qarşısında aciz saxlamaq üçün. Baxaq Nizami dühasından, məlumatlar əsasından doğulan hikmətlərə.

Açarım var, deyə bağlı qıfılına

Nüşabə bunları ona qəlbində, qəlbinin gizli duyğuları, sirli-sehrli duyğuları ilə, ona çatdırır.

İsgəndər bir elçi kimi davrandı,
Özünü olduqca o sərbəst sandı.

Fikirlərdən aydın olur ki, İsgəndərin daxilində geri qayıdış yaranır. Dünyanın ilkin cadugarlığı muğlara mənsub olub ki, hal hazırda bunların dünyada daşıyıcı əcdadlarına məxsus (yəni muğlara) Samanlardır, Mayalılardır-Dünyanın ilkin toponimi, Şam olmuş (yəni Qabıssan), Şamaxı vəhdətilə bağlanır.

Əqsayi "Şama yəni uzaq Şam" Süryaya (ulduz) (Suriya)

Sonda isə şərqdə doğulan "Şam" qərbdə Şamanlarda tamamlanır. Sehrbazlıq və cadugarlıq ilkin olaraq qədim Qabıssanda (Qobustan) muğlara məxsus olmuşdur.

Deyir: "Ey şöhrəti dünyanı tutan,
Ən adlı kəsrlərə meydan oxuyan.

(Adlı kəslər deyəndə məğlub edilmiş Dara nəzərdə tutulur.) Dara İsgəndərdən qabaq dünyanın şahənşahı olmuşdur ki, simvolları belə bağlanan "yeddi qızıl kəmər" olmuşdur.

Nə üçün çeviridin bizdən yüyəni?
Hüzura gəlmədin, anmadın məni?
Ey harın at, bizi acizmi bildin?
Bundan da kəsgin bir qılınc kimdə var?
Sənincin məsləhət budur, gəl yola
Uca dərgahından çəkinmə gəl get
Coşduğun gündən qorx, ondan həzər et.

Bəli, öncədən görənlərin gözlərində və sözlərində güclü təsir etmə qüvvəsi olur. Görüb dərk edənlər bilir və hiss edir ki, dil hıçqırıqla boğazda qalır, ilan torbada ram olan kimi, qarşısındakının aciz bəndəsinə çevrilir. Belə qüvvəyə malik indidə insanlar var ki, bunu bilənlər-bilir, şahidi olmuş bir bəndə kimi deyirəm. Beytlərdən görünür ki, artıq İsgəndər, Nüşabənin təsir dairəsindədir.

İsgəndər deyir:

"Bu gözəl ölkənə mən ki, yol aldım,
Öz dövlət kölgəmi üstünə saldım.

Qapıma neçin baş vurmadın bir an,
Neyçin üz çevirdin mənim yolumdan?
Könlümü alırsan meyvə, şərabla,
Aldadasan noğul, reyhan kababla.

Gileylənir ki, bütün dünya mənə baş əydiyi halda, sən mənim hüzuruma gəlib baş əymədin. Axı öz dövlət kölgəni sizin üstünüzə saldım. Yəni sizin məmləkətə din üçün, səcdə üçün gəldim.

Ey cəsur padşah, eşq olsun sənə,
Elçilik edirsən özün-özünə.
Bir elşi deyilsən, hökm verənsən
Göndərilmiş deyil, sən göndərənsən

Beləliklə İsgəndər Nüşabə ilə açıq söhbət guşəsinə daxil olurlar.

Günəşə palçıqdan vurursan suvaq.
Kənizə əmr etdi: "Ver baxsın deyə.
Padşahlar rəsmini öpən ipəyə,
İpəkdə göstərdi ona bir bucaq,
Söylədi:" Əlində tut diqqətlə bax.
Bu surət, bu sima kimindir, kimin?
Sarayda hörmətlə saxlanır neçin?
Rəsmini tanıdı baxınca şəklə
Gördü almış düşmən ölkəni ələ
Qorxudan saraldı, bir saman kimi,
Sığındı allaha tutulan kimi.

Nüşabə İsgəndəri tabe etmək üçün, ona sehirli

bir ipək parçanı göstərdi. İsgəndər bu parçada bir bucağ və özünü onun içində aciz bir bəndə kimi gördü. Ona elə gəldi ki, özü və ölkəsi mühasirədədir. Biranda çaşqınlığ içərisində aciz qalıb, Allahın fağır bir bəndəsinə çevrildi.

Bu rəsmi onunçün göstərdim ki, sən
Mənim də şəklimi aydın görəsən.
Erkək tinətliyəm olsam da qadın,
Hər işi bəllidir mənə dünyanın.
Qara bulud kimi gurlasam kinlə,
Qılınc tüstüsündə yanar su belə,
Aslanlar yağından yaxaram çıraq.

Bəli, bununla Nüşabə İsgəndərə onda İlahi Bir gücün olduğunu sübut edir. Bildirir ki, mənim kinim, sənin qılıncından qat-qat kəskindir.

Nüşabə İsgəndərə onun haqqında hər tərəfli biliyə malik olduğunu çatdırır. Hətda Hindistandan Yunana qədər xaraba qoyduğu yerləri ona bildirir. Şəklini isə, onu dərin tədqiq etdikdən sonra çəkdirdiyini İsgəndərə bildirir. Məlumat verir hər bir məsələni dönədönə yoxatdırırdıqdan sonra hər bir işi qəbul edir, o cümlədən sənin şəklini. Ona çatdırır ki, sənin çəklini hikmət qüvvəmlə öz təsirim altına salıram. Səni isə dost kimi qəbul etmişəm.

Taxtımda,-dedi-sən otur namidar,
Bir taxta yaramaz iki tacidar.
Bilirsən şahmatın iki şahı var,
Hər qəlbə yeni qəm gətirər onlar.

Şahmatda iki şah göy ilə yerin şahlarını özündə əks etdirir. Ona bildirmək istəyir ki, sənin qüvvən nə qədər böyük olsa da, yeri və göyü yaradan Allah var ki, bütün varlıqların şahı da odur. Sən özün də ona tabesən. Mən isə onun bəxş etdiyi ilahi gücə malik bir insanam. Güc göstərsəm qarşımda aciz qalarsan. Şahmat oyunu (döyüşü) Faronla, Allah asrasında olan döyüş olub. Faronlar bütlərə inanıb, Allahı danıblar.

1-ci gedişi gedən piyada Allahın elçisi İbrahimdir. O, şaha və onun qoşununa hücum edir. Əlbəttə mələklərin himayəsi ilə. Faron qoşunları da ona qarşı hücuma keçir. Sonda həmin piyadanı, Allahın elçisini yeddi gün yanan oda atırlar. Nəhayət yeddinci gün tonqal yanıb qurtardıqdan sonra baxıb görürlər ki, İbrahim sağ və salamat, əli qucağında oturub, ətrafı da bənövşələrdir. Faron (şah) bu dəhşətli səhnəyə mat qalır, ürəyi partlayır. Bununla da , bir piyada Şahı mat edir. Ona görə də bu oyuna şahmat dedilər. Bu adi mat deyil, bəşəri bir mat olduğu üçün, bəşəri bir oyuna keçmişdir. Şahmat qədim oyundur, qədim dövrün ilkin yeddi dövlətinə, yetmiş iki xalqına məxsus olub ki, dünya o zamandan bu oyunu qəbul edib.

Ona görə də bizdə el məsəli qalıb(Qubada) Tatam-həm də matam mən.

Açaram bəndi bu bağlı qəlbimdən
Düyünü-düyünə necə vurum mən
Yalnız çapğın etsə hər bir pəhləvan,
Düşər bir div əlinə pəhləvan inan.

Baxmayaraq ki, İsgəndər hər bir addımını münəc-

cimlərlə izlətdirdiyi halda, bu qadının qarşısında aciz qalmışdır. Onun əsas, başlıca acizliyi özü də bilmədən Nüşabənin yanına tək gəlməsi idi. Əslində o , özü yox, onu belə etməyə Nüşabə məcbur etmişdi.

Bundan sonra Nüşabə əmr edir pərilər, zəngin bir süfrə açsınlar, elə bir süfrə ki:

Ənbərlə yoğrulmuş, dadlı yeməklər
Cənnət yeməyindən verirdi xəbər.

Yeməklər düzüldükdən sonra, Nüşabə onun qarşısına bir xonça qoydu ki, bu xonçanın içində dörd kasa var idi.

Biri ləl, o biri qızıldan dolmuş,
Biri dürr, birinə yaqut qoyulmuş.
Nüşabə dedi: "Ey böyük hökmran,
Yeyiniz, ən dadlı bu xuruşlardan.

İsgəndər özünü təhqir olmuş hesab edib, Nüşabəyə öz etirazını bildirir. Söyləyir ki, bu xuruşlarla mədə doydurmaq olarmı?

Nüşabə onu məzəmmət edir ki, bunalrı yemək olmadığı halda, bəs nə üçün bu qədər baş kəsib qan tökürsən.

Bu daşdan doyunca hər kəs ki, aldı
Yemədi, daş yenə yerində qaldı.

Başqa bir epizodda İsgəndər qalib gəldiyi yerdə, kəsdiyi başları Aristotelə göstərərək deyir, necədir ey

böyük filosof, alim?

Aristotel cavabında deyir:

Sərvət, ən böyük şöhrət,
Sonu heçdir fəqət.

İsgəndər Nüşabənin qarşısında aciz qalaraq:

Dedi: ey xanımlar xanımı qadın,
Qüvvətdə erkəkdən ucadır adın.

Bu dünya hökmdarın başqa bir acizliyi idi, Nüşabə qarşısında

Eşq olsun bu fikri sağlam qadına,
Mərdliyin yolunu göstərir mənə.

Bundan sonra İsgəndər Nüşabənin süfrəsindən doyunca yeyir və onunla əhd peyman bağlayır.

İsgəndər Nüşabəyə əks göstərərək bildirir:

Öncə bu qaşdan qaçaydın özün,
Tacımdan cəvahir parlar, doğrudur,
Padşahlar tacında cəvahir olur.
Sənin xonçandakı bu qaş-daş daşır,
Bu danlaq bu töhmət kimə yaraşır?

İsgəndər ona bildiri ki, sən mənə irad tutursan ki, sənin tacın qaş daşla dolu, bu zinətlərlə bəzəmişdir. Məgər bunlar ölçüdən kənar deyilmi?. Sənin tacındankı, xonçalarındakı daş qaşlar heç də mənimkindən geri

qalmır. Nüşabə isə əvəzində bildirir ki,

Mənim tacındakı daş-qaşlar isə etiqaddan toplanan daş-qaşlardır. Sənin ki Allaha zidd, mənimki isə Allaha etiqaddan doğulur. Bunlar heç də müqayisə edilməzdir. Sənin dövlətin şəxsi mənafeyə, mənimki isə, ehtiyaclılara bölüşdürülür.

Bu isə Nüşabənin digər bir qələbəsi idi. Bütün bunlar, hakimiyyətlə din arasında olan qeyri tarazlıq yolu idi. Necə ki, Avestada yazılır: "Divlər (Şahlar faronlar) bu dünyanı düz idarə edə bilmədilər. Bizim yolumuz isə, Allahın istəklərinə yönələn bir idarəetmə yolu olacaqdır. (Zərdüşt). Onların hakimiyyəti, cəbr, bizim hakimiyyətimiz isə ixtiyar olmalıdır".

Gedərək Nüşabə bağladı peyman
İsgəndər verməsin mülkünə ziyan.

İsgəndər Azərbaycana qılınc çəkmədi, əksinə onun dünya ziyarətgahlarını bir-bir gəzdi. Demək olar ki, Azərbaycan indiki ən məşhur ziyarətgahları ziyarət etdi. Hətta "Kəyandan" gətirdiyi qoşunu ilə birlikdə olan qızılları burada basdırıb, baba dağını, ziyarət etdikdən sonra Dağıssana keçdi və oradan daha artıq zinətlər topladı. Zənd- Əvəstada bunların işarələri kodlar əsasında verilmişdir. İsgəndər Nüşabədən ayrılıb, öz barigahına getdi.

Padşah da yuxuya tez hazırlandı,
Dörd ünsür də yatdı, qapı bağlandı.

Dörd ünsür burada-dünya və dörd divar, qapı bu-

rada qapının iki tayına bənzədilən iki göz qapağı. Yəni padşah dörd divar arasında gözlərini qapayıb, yuxuya daldı.

Günəşin əlində bir narınc vardı,
Fələk narıncının başına yordu.

Narınc-günəş, günəş kürəsi.

Yəni günəş çıxdı, üfüqi qan rəngli şəfəqə boyadı. İsgəndər Nüşabəni qonaq çağırır əlbətdə kənizləri ilə birlikdə. Böyük bir məclis qurur. Səhərə kimi şərab küpləri qalağ vurulur. İsgəndər onları böyük bir təmtaraqla, ləl-zinətlərlə yola salır.

O qədər yükləndi hər gözəl pəri
Çəkə bilməyirdi zəri, zivəri.

Budu Nüşabə ilə İsgəndərin görünüşünün fəlsəfi, tarixi mahiyyəti.Bütün bunlar bəzi alimlərin dediyi N.Gəncəvinin təxəllüyündən doğulan fikirlər deyil, əksinə bütün bunlar onun tədqiqat əsəridir. Rəvayətlər sanılsa da, bu rəvayətlərin arxasında oturan böyük həqiqətlər vardır. Sadəcə bunu görmək və dərk etmək o qədər də asan deyildir.

Necə ki, N. Gəncəvi özü yazır.

Tarixdən onları bir-bir alaraq
Düzdüm dastanıma, əsər yaratdım,
Ağla-sığmayanı büsbütün atdım
Seçdim hər düzümdən bir inci gövhər,
Vurdum bu pərdəyə yaraşıq, zivər.
Bərk təməl üstündə qurdum bir bina

Ki, ziyan dəyməsin divarlarına.
İsgəndər haqqında heç bir əsərdə
Məlumat görmədim yığcam bir yerdə.
Ən qədim tarixi əsərlərdən mən,
Yəhudi, nəsrani, pəhləvilərdən
Ən incə sözləri əlimə saldım,
Qabığını ataraq, məğzini aldım.

Demək, Nizami bu əsəri yazarkən bütün qədim mənbələrə istinad etmiş, fundamental bir əsər yaratmışdır. Belə halda buna təxəyyülün uydurulmasıdır demək, günahdan başqa bir şey ola bilməz. N.Gəncəvi dövrünün nadir ensiklopedik alimi olmuşdur. Mən bir tədqiqatçı kimi, qeyd edirəm ki, N.Gəncəvinin elə beytləri vardır ki, bu beytlərin hər birindən bir tarixi əsər yazmaq olar.

İsgəndərin almazı kəşf etməsi

Dünya fatehi İsgəndər zamanın yeddi dövlətini, bu dövlətlərin qeyri adi yerlərini qarış-qarış gəzmiş, çox qəribəliklərin şahidi olmuşdur. Bunlardan birini, insanın maraq dairəsini özünə cəlb edən bir hadisəni qələmə almağı özüm üçün vacib sandım.

Göründü zirvəsi qılınc tək bir dağ,
Əzab əziyyətdi o dağı aşmaq.

Təbii ki, hər dağ İsgəndəndərin diqqətini özünə cəlb etməyə bilməzdi. Qarşısında duran bu şiş dağ İsgəndəri çox heyrətləndirmişdir, bu dağı, çətin keçilən şiş dağı keçmək üçün yollar aradı.

Şah onu seyr etdi başdan-ayağa,
Yol gəzdi bir təhər ora çıxmağa.
Çəkdi ordusunu o dağlara sarı,
Hədsiz əziyyətlərlə yordu onları.

Həqiqətən İsgəndərin ordusu bu dağı aşarkən çox əziyyətlərə düçar oldular. Bu əziyyətlərin səbəbi heç də onun hündür, sal qayalar olması deyil, tamam başqa bir məsələ idi.

O qədər sərtdi ki, daşlar həmin gün
Dırnaqdan oldular heyvanlar bütün.

Bu daşlar elə daçlar idi ki, İsgəndər qoşunlarının atları tamam aciz qalmışdılar. Atların dərnaqları da bütün qan içində idilər.

Şah gördü bu daşlar bərkdir poladtək,
Heyvanlar yorulub əldən düşəcək.
Əmr etdi xam gönlə, dəriylə bərk-bərk
Onların dırnağı sarınsın gərək.

Atların ayaqları büs-bütün xam gön dəri ilə bərk-bərk sarındı. Dırnaqlar daşlara dəyməsin deyə, keçə ilə bərk-bərk sarındı. Bütün bunlar min-bir əziyyət bahasına başa gəlirdi. İsgəndər əmr verdi ki, atların ayaqlarını kəsən daşlar, daş parçaları yoldan yığışdırılsın, yollar təmizlənsin.

Gəlib neçə fərraş şahın yanına,
Ədəblə, hörmətlə baş əydi ona.
Bir ovuç daş verib dedilər: "Bir bax,
Bu daşlar minikdə qoymayıb dırnaq.

Onlar İsgəndərə bildirmək istəyirdilər ki, bu daşlar adi deyil, sirli daşlardır.Bunların tərkibində elə şeylər var ki, ülgücdən də itidirlər. Bu itilikdir ki, atlarda dırnq qoyub qalmayıb.

Nallardan əzabla çıxarmışıq biz
Bunlardan dad çəkib miniklərimiz.
Polad çəkiclərlə döydük o ki, var,
Polad sındı, amma sınmadı daşlar.

Artıq başa düşürdülər ki, bu daşlar adi daşlar deyil, hələ öz sirrini açmayan, heç kimə məlum olmayan daşlardır.

Şah daşa zəhm ilə bir qılınc çaldı,
Qılınc parçalandı, daş bütov qaldı.
Hansı bir maddəylə onu sürtdülər.
Qalaydan başqa şey etmədi əsər.

Artıq başa düşdülər ki, bu daşlar adi deyil, qiymətli, lazımı dəyərə malik olan, yeni kəşf olunmuş daşlardır. Tarixə məlum olmayan, yeni daşlar, qiymətli daşlar kəşf olunmuşdur.

Doğrudan bu daşlar bərkdi, itiydi,
Odur ki, bunlara şah "almaz" dedi.
Toplayıb hamını dedi hökmdar:
Tanıyan qiymətli daşlardır bunlar.

Bəli, ilk dəfə olaraq İsgəndər öz qoşunlarına, dünyanın ilkin ən qiymətli daşı olan " almazı" tanıtdırdı.

Əskərlərinə həm də onu çatdırmaq istədi ki, qızıl və almaz daşları bütün güclərin şah damarıdır.

Bunlar kara gələr, yəqin ki, bir gün,
Yığın təmizləyin yolları bütün.

Beləliklə İsgəndərin göstərişi ilə, həmin daşlar yollardan yığışdırılmağa başladı. Hətta daşları tanısınlar deyə, hər bir əsgərə nümunələr verilirdi.:

Ancaq yığılan daşlar istənilən qədər deyildi, azlıq edirdi. Əsgərlər bu daşların dərin mənbəyini axtarmağa başladılar. Axtarıb- axtarıb qəribə bir mənzərə gördülər.

Dəniztək vüstli bir dərə vardı,
Dağı dörd tərəfdən qucaqlayırdı,
Almazla doluydu o dərin dərə
Gəlirdi tastakı sutək nəzərə

Qəribə bir dərə idi, bu dərə. İstənilən qədər daşqaş var idi bu dərədə. Ancaq o daş-qaşları oradan götürmək heç də asan deyildi. Əsgərlər dərədəki qəribə mənzərəni heyrətlə seyr edirdilər. Tamah və acizlik qarşı-qarşıya durmuşdu. O, dərəyə yaxınıaşmaq ölüm demək idi. Bu sirli dərə əsgərləri mat vəziyyətində qoymuşdu.

Dərə dəniz kimi gövhər saçandı,
Ancaq ki, balığı onun ilandı.
Qaynaşır ilanlar min-min hər yanda,
İlanlar onunçün dolub bu yola
Ki, xəznə bir yerdə olur ilanla.

Bəli, almazla dolu olan bu dərə ilanlar məskəni idi. Sanki ilanlar orada qaynaşırdı. Ona görə də, heç bir əsgər ora cürət edib girə bilmirdi. Hamı çaxnaşma içərisində bu almaz, almazlarla dolu ilan məskəninə yol axtarırdı. İsgəndər düşüncə içərisində ətrafa nəzər saldı. Baxdı ki, ətraf da caynaqlarda ov tutmuş çoxlu qaraquşlar vardır.

Uçurkan quşları görəndə orda,
Öz fikir quşunu uçurtdu o da.
Əmr etdi: kök, arıq, nə olur, olsun,
Yığıb gətirsinlər düz min baş qoyun.

Bəli, İsgəndər almazları ilanlar arasından çıxarmaq üçün müdrük bir plan cızdı. Müxtəlif çəkili min baş qoyunun soydurub, cəmdəkləri parçalartdırdı. Parça-parça cəmdəkləri əsgərlər arasında bölüşdürüb, müxtəlif yerlərdə dərəyə səpdilər. Çox keçmədi ki, qaraquşlar bunları görüb dərədə olan cəmdək parçalarına hücum çəkdilər. Artıq almazlar yaş sulu cəmdəklərə yapışmışdılar. Qaraquşlar tez uçaraq cəmdəkləri götürüb havaya qalxdılar, dərədən yuxarıda hündür dağların , qayaların üstünə qondular.

Kababla, "duzu" da aldılar onlar,
Qaldı o dərədə yalnız ilanlar.

Beləliklə qaraquşlar cəmdəklə birlikdə almazları ilanlardan ayırıb, qoparıb yüksək dağların zirvəsinə qondular. Hər quşun dalınca düz on nəfər nəzarət üçün ayırmışdılar. Əsgərlər quşları atı çaparaq izləyir, onların qonduqları yeri nəzarətə götürdülər. Qaraquşlar

cəmdəkləri yedikdən sonra almazları yığıb İsgəndərin qarşısında topladılar.

Şah yığdı bir yerə almazları,
Pislər gömgöy idi, yaxşıları sarı

Bu beytlər də xəbər verir ki, almazı kəşf edənlərə məlum olur ki, bu almazlar saflaşdırmaq üçün cilalanmalıdır. Buradan da aydın olur ki, almazın ilkin kəşf edənlərdən biri də İsgəndər olmaya bilməz idi. İsgəndər zamanında, ilk dünya fatehi, şahənşahı və sonda əvəzsiz səyyahı idi desək heç də yanılmarıq. O, zaman elmə dünyaya məlum olan bütün nemətləri, maddi, mənəvi zinətləri bir-bir gəzmiş, dərk etmiş və dünya möcüzələrinə baş çəkib sahib olmuşdur. Həmin dağı aşandan sonra İsgəndər naməlum bir yerə gəlir, burada rəncbər bir gözəl, oğlanla qarşılaşır. Oğlanın vicudu, gözəlliyi onun diqqətini cəlb edir. Onu rəncbərlikdən xilas etmək istəyir. Ona sərvət, var, dövlət, hətta şahlığ vəd edir. Lakin oğlan bütün bunlardan imtina edir və öz sənətinə sadiqliyini ona bildirir.

Başqa iş bilmirəm mən,
Padşahlıq eləmək gəlməz əlimdən,
Gənclərin yatağı daim bərk olar,
Biz yumşaq yataqda olarıq donqar.
Bərkliyə öyrənib vücudum mənim,
Çox yumşaq yatağa dözməz bədənim.

İsgəndər bu cavanın hikmətli sözlərinə, sənətə sadiqliyinə heyran qalır, məftun olur. Sanki, fateh düşüncələrin-

dən bu fikirlər doğulur. "Dəhşət orada olur ki, qabiliyyətinə yad olan bir peşə sahibi olasan". Xüsusi ilə bunlardan, donqar müəllim, donqar həkim və donqar alim olasan"... Bunlar olan yerdə cəmiyyəti üfünətli bataqlıqdan kənarda görə bilməzsən. Sonda isə, donqar şahın idarə etməsindən, donqar cəmiyyət formalaşar. İsgəndər o cavandan ayrılarkən ona sonuncu sualı verir:

Səni kim qoruyur dünyada şərdən?
De nəyə etiqad eləyirsən sən?
Kimi qul bilirsən, söylə özünü?
Tikibsən hansı bir yola gözünü?

Cavan İsgəndərə üzünü tutub belə bir hikmətli cavab verir.

Gənc dedi: "Ey haqdan xəbər verən,
Peyğəmbərlik edib düz yol göstərən!
Sənin lə bir yolun yolçusuyam mən,
Mənim də qəlbimdir sənin öz qiblən.
Yaradan-Allaha mən gecə-gündüz,
Səcdəylə sürtürəm bu torpağa üz.
Sən bir peyğəmbərsən, mən allaha qul,
Odur ki, dinini edirəm qəbul.

İsgəndər bu sözlərdən məftun olub o cavanın alnından öpür.

"Afərin"! söyləyib öpdü alnından
Allahın adını eylədi bəyan.
Ona bağışladı şahənə xələt,
Allahın dinilə o tapdı qüdrət.

Nizami bu əvəzsiz beytlərini xülya, xəyal adlandıranlara cavab vermək üçün, istər-istəməz Quran ayələrinə bağlanmalı oluram. Ona görə ki, həmin şər fikirləri məhv etmək üçün aşağıdakı ayəni onlara və oxucularıma çatdırmağa özümə borc bilirəm.

Kəhf surəsi ayə 84

Həqiqətən biz ona yer üzündə qüdrət verdik və onun ixtiyarında (istədiyi) hər şeydən (elm, qüdrət və imkanat kimi) səbəb və vastələrə qoyduq.

Ayə 86. Dedik: Ey Zülqərneyn (onların barəsində ixtiyar sahibisən) ya əzab verər və yaxud onlar haqqında gözəl bir yol tutarsan.

Ayə 98 (Zülqərneyn) dedi: "Bu (əməl) mənim Rəbbim tərəfindən (onun vədi yetişənə kimi) bir rəhmətdir. Mənim rəbbimin vədi həmişə haqq və sabitdir. Bəli bu qüdrətli ayələr təsdiq edir ki, İsgəndər Rəbbinin verdiyi güc əsasında ali məqsədə xidmət etmiş bir fateh və ya peyğəmbərdir. O, dünyanın ilkin ali dini və bu dinin rəhbəri İbrahim p.ə.səcdə etmiş və onun göstərdiyi yolu öz qalibiyyətləri ilə işıqlandırmışdır.

İlkin olaraq İsgəndər Daranın üstünə iki məqsədlə gəlmişdir. 1-ci olaraq saxta atəşgədələri dağıtmaq üçün, 2-ci isə onun dövlətlərə qoyduğu bacdan azad olmaq üçün. Zənd Əvəstada (Avesta) qeyd edildiyi kimi: "İlkin üç od, "Gəzənə" düşdü". Bu üç od Günəşə səcdənin yerdə əvəzi kimi dünyanın səcdəgahlarına çevrildi. "Gəz"-dəniz sahili yulğunluğ nəzərdə tutulur. (Abbas və Gülgəz dastanına görə, Gül-müqəddəslik Gəz isə od deməkdir. Ümumi məna müqəddəs günəş)

İsgəndər də Bəlxdə başqa atəşgədələri yandırdi, üzünü İbrahim ocağı, zərduşların ocağı Atəşgaha, Pi-

rallahıya və sonda indiki Məhəmmədlidəki üç sitayiş oduna, ocağı olan ziyarətgahlara tutdu. **Yenə Zənd Əvəstəda 10-cu hadidə qeyd edildiyi kimi, "Rəbbim mənə güc, qüdrət ver, sənin yaratdığın oda üzümü tutmaqla, insanları sənə tərəf döndərim".**

Sual olunur e.ə.326 ildə hansı din olub ki, İsgəndər onu abad edib. Hansı ki, o dini dünyaya abad olan bir varlıq kimi ortaya qoyub. Əlbətdə Avropanın uydurduğu zərdüşt adı ilə olan İbrahim dinidir.

Buna görə Qurani Kərimə üz titaq, bəlkə insafsızları insafa gətirdik:

Bəqərə surəsi Ayə-150

(Bəli) və haradan çıxsan (namazda) üzünü məscidi Hərama tərəf döndər. Harada olsanız özünüzü ona tərəf döndərin ki, insanların zalımlardan (məntiqsiz söz danışanlardan) başqa birinə sizə (irad tutmağa) bir dəlili olmasın. (Müşriklər) deməsinlər ki, İbrahim dininin iddiasını etdiyi halda, onun qibləsi ilə müxalifdir" və ya kitab əhli gəlməsi vəd edilmiş peyğəmbərlərin qibləsi Kəbə olmalıdır, deməli bu şəxsə həmin peyğəmbər deməsinlər. Odur ki, onlardan qorxmayın, məndən qorxun.

Bəli, ilkin svilizasiyanın qapılarını açan, ilkin sivil, din olmuşdur ki, III Daranın ulu babası Gəctəb(-Gəsştab) (Yəni tərs xasiyyətli) iki il İbrahimi dinlənmiş sonda onun dinini qəbul etmiş və zamanında dünyanın ilkin yeddi dövlətlərinə qəbul etdirmişdir. Sonda Dara özünün süni ilkin od ibadətxanalarını (üç od) yaratmış, ana zərdüştlüyü bala zərdüştlüyü ilə inkar etmiş, dəyişdirib, eybəcərləşdirmişdir. İlkin dünya şəxsiyyətə pərəstlişliyini yaratmışdır. Dahi şair N.Gəncəvi də bu məsələni

nəzərdən qaçırmamış, əlbətdə qələmə almışdır.

Bəli, bu İbrahim idi, insanları bütpərəslikdən uzaqlaşdırıb, Allaha tərəf döndərdi.

N.Gəncəvinin dediyi kimi:

Gah Xəlil alırsan bütxanələrdən,
Gah dost yaradırsan biganələrdən.

Zamanında dünya fatehləri buraya ziyarətə gəlmiş öz nişanələrin dünyanın ilk səcdəgahı olan, Qabıssan qayalarında, xatirə kimi, nişan, xatirə və rəsm şəklində qoyub getmişlər. Əgər Pompey Qəbələdə müharibə aparırsa, XII legion müharibəyə gəlibsə, hanı onların müharibə dağıntıları , nişanələri yoxdur axı? Əgər onlar müharibə edibsə bəs nə üçün Qabıssan tarixi abidələrini dağıtmayıb,əksinə oraya xatirə nişan və yazılarını bizlərə miras qoyub gediblər. Sual olunur İndira Qandi XX əsrdə nə üçün atəşgaha ziyarətgaha gəlib, qəlbində, sinəsində ağılarını deyib. Haradan qaynaqlanır bu ziyarət?. İsgəndər nə üçün Azərbaycanda müqəddəs xatirələrdə yaşayır. Bərpa olunmamışdan qabaq, Atəşgahda günbəzin üstündə üç barmaq dik vəziyyətdə olduğu halda, nə üçün onu oradan siliblər? Sual olunur ki üç barmağ, üç pəri dastanlara görə, ustadlar naməni nə üçün üç dəfə yazır, deyir. Bunlar məgər İbrahimin üç ulduza üzünü tutmasının rəmzi deyilmi?

Digər bir baxımdan bu üç odun rəmzi deyilmi. Başqa yerdə harada var bu üç təbii od ki, dünya oraya ziyarətə gəlib və indi də gəlirlər.

Bəli bunlar təsdiq edir ki, indiki (eramizda) qibləgahlardan da əvvəl dünyanın qibləgahı Azərbeycan

olub. (Azərbaycan). Bu qibləgah İbrahim dinində doğulan qibləgah olub. Bu qibləgahda və onun ziyarətgahlarında namaz qılınıb, dualar oxunub, ağılar zikrlər söylənilib. Bunlar ümumilikdə dərvişlərin söyləmələrində (Məqal) muğamlarda öz əksini tapıb, əlbəttə müğanəsilə.

Baxaq Quran ayələrinə

Ənam sur. ayə 96-97

İbrahim məqamı, nişanələri "Bəkkə"dədir. (Bəli bu Bəkidir həm də Bakidir. (Bakı yox)

Müğanə-atəşpərəstcəsinə, atəşpərəst kimi 2) atəşpərəstlərin mərasim və ayini Bax ə.f.lüğ səh 406.

Müğ-atəşpərəst, məcmusu, mağ: zərdüşt dininə mənsub olan: 2) yol göstərən. Öndə gedən Bax ə.l.f lüğ səh 205. Bəli bu lüğəti terminlər dediklərimizə söz açarlarları kimi yol açır və fikirlərimizi bir daha təsdiq edir. Novruz bayramında da, xonçaya qoyulan əşyalardan yeddi "S" nemətlərdən biri də "Sim" dir. Sim(a) dərviş.

Qarabağ şikəstəsində deyildiyi kimi:

Əzizim kimi gözlər,
Tar çalan simi gözlər.

Tar çalan simin qırılmasını gözləmir, belə başa düşülməlidir ki, tar çalan Sim(A) dərvişi gözlər ki, ağılarla ulduzları, Günəşi, bürcləri anamız göyü və onun ərşi fələkdə oturan Rəbbini vəsf etsin. Budur İsgəndərin səcdə etdiyi dinin ana mahiyyəti. Bütpərəstlik və onun mahiyyətinə gəldikdə bu da lazımı şəkildə açılmamışdır. Əvvəla bütpərəstlik İlkin Allahın axtarılmasına

bağlanan ilkin yoldur. Bəli, min illər bu yol, təkallahlığın yəni İbrahim dininin doğulmasına qədər bir yol olmuşdur. İlkin vahid din meydana çıxdıqdan sonra dövlətlər yaranmış, (İlkin yeddi dövlət və yetmiş iki xalq olmuşdur) bu dövlətlərin mənəvi ideologiyası yaranmışdır. (İlkin bazis və üstqrum)

İlkin dövlətlərin bünövrəsi də, Kəyan (İran) və Alban vəhdətində Azərbeycan olmuşdur. Bu dövlət və dünya ziyarətgahını özündə əks etdirən məqsədli Qabıssan qaya üstü rəsmlərini çəkdirmiş və antik tarixlərini, doğulma və ölmə mahiyyətlərini, ideyasını bu qayaüstü rəsm və işarələrdə vermişdir.

1) Büt- bütpərəstlər ibadət etdikləri rəsm və ya heykəl, sənəm. Büti-Çin, Çin bütü.

2)Bütgədə-bütxanə-büdpərəstlərin ibadətgahı, məbədi

3) Büdpərəst-bütlərə sitayiş edən bax.ə.f.lüğ səh 82. Bunlardır Qabıssan qayalarını ana mahiyyəti. Dünyanın istəyinə uyğun zamanında bu sirri açılmayan qaya, qayaüstü rəsmlər yaradılmışdır. Oradakı abidələrin müəyyən hissəsi oraya gətirilmə və süni düzəltmələrdir. Ümumilikdə bunlara görə, dünya ziyarətinə görə, ziyarətgah kimi üç fundamental söz ilə Azərbeycan deyilib. (Azərbaycan yox)

Azər-od, üç od vəhdətində odlar diyarı.2-ci məna Azər-od, Azəri isə oda sitayiş edən atəşpərəstlər. Göy odu Günəş, yer odu vəhdətdə Atəşgah.

Bey-(bay) Beyə-beyyət etmə, yəni Günəşə Allahın yaratdığı bəxş etmə Günəş ona beyyət. (Təkallahlığın təməli) Şaməxi, Suriya "Şam"ının qardaşı deyil, Şəm-Günəş, onun qardaşı Şaməxi Dədə Günəşdir. Yəni səma günəşi-

nin yerdə rəmzi, ocağı, ziyarətgahı həmdə ki, Sari (Sarı) torpaq. Günəşə səcdə edənlərin torpağı, məkanı.

Can isə, istək, ruh, qəlb. 2) yaşayış həyat, qüvvət, qüdrət güc. Bax ə.f.lüğ səh 748. Azərbaycan-atəşpərəstlik dövrünün sözü olub, zahidlər abidələr ölkəsidir. Parsilərlə (muğ, atəşpərəst) məxsus olan sözdür.

İsgəndərin Rus ölkəsinə çatması və müharibəsi

Eşitdi Rusların sərdarı Qıntal-Qıntal
Ki, dövran doğurmuş başqa bir əhval,
Yeddi rus soyundan tərəqqi ordu,
Hər qövmə uyan bir yaraşıq vurdu.

N.Gəncəviyə görə, təbii ki, N.Gəncəvi də bu məlumatı mənbələrə əsasən vermişdir.

Yeddi rus soyunda tərəqqi ordu

O zaman Rusiya yeddi vilayətə bölünürdü.

Görkəmli filosof, tarixçi alim A.A Bakıxanov da bu yeddi rus soyuna da öz münasibətini bildirmişdir.

Rus əmiri kontal Rus, Aysu, Partas, Peçeneq, Alan, İlaq və Xəzərdən ibarət yeddi tayfadan topladığı doqquz yüz mindən artıq bir qoşunla İsgəndəri qarşıladı. Bir neçə gün çox şiddətli müharibə getdi, nəticədə İsgəndər qalib gəldi. Kontal on bir nəfərlə əsir düşüb sülh edti. İsgəndər xərac qoyduqdan sonra kontalı, sair əsirlərlə bərabər azad edib geri qayıtdı.

Kvint Kurtsi (Roma tarixçisi), təqribən dörd yüz il

İsgəndərdən sonra yazdığı tarix kitabında bu hadisələrin çoxunu bir qədər dəyişdirərək başqa şəkildə göstərir. Onun fikrinə görə skif həmin yeddi tayfadan ibarət olmalıdır, çünki qədim tarixçilər bütün şimal əhalisini skif adlabdırırdılar. (Kvint Kurtsi I əsrdə yaşamışdır.)

Yunan mənbələrinə əsasən Makedoniyalı İsgəndərin tarixini yazmışdır. Qey etdiyim kimi skif, əslində silk olmalıdır, yəni dövlətləri olmayan müstəqil cəmiyyətlər, tayfa birlikləri.

Rusa iki ağac qaldığı zaman,
Atlardan enərək tutdular məkan.

İsgəndər Rusların sərhədlərinin 14 km-də qərar tutdu. N.Gəncəvi Qıntal və onun əsgərlərini belə təsvir edir.

Heç zəhmət görməmiş belə bir əsgər,
Xəzinə karvanı, üstə zər, zivər,
Cilovu, yəhəri qızıldır, gövhər,
Saf büllur təbəqələr, yaqut qədəhlər.
İşləri içməkdir, kefdir hər zaman,
Bir kərə keçməmiş hərbin yanından.

Söhbətdən məlum olur ki, ruslar bolluğ içində yaşamış, heç bir müharibə təcrübəsi keçməmişdir. Təbii ki, onlar fateh İsgəndərin döyüş məharətindən xəbərsiz idilər. Dünya şahənşahı Daranın 200, 600 minlik qoşunundan qorxmayan İskəndər, rusların qoşunun sayından heç vaxt qorxa bilməzdi. Onlar haqqında İsgəndərə istənilən qədər məlumatlar verilmişdi.

Gecələr alır xoş qoxudan fərəh
Gündüzlər içkiylə qaldırır qədəh.

Biz ruslar ciyəri yeyərik bol-bol,
Qızlara yaraşır bu şərab, noğul.

Tarixən rusların çölləri dərin olduğu kimi, nemətləri də bol olmuşdur. Onların başqa yerlərin işğalına ehtiyacı olmamışdır.

İsgəndər hər bir işi tədbirlə görürdü. Münəccimlərsiz, onların qərarı olmadan heç bir addım atmazdı.

Tarixlə təqvimlə hərbə gedirlər,
Hesabda bir ayı təxir edirlər.

Yəni onlar tarix və təqvim üzüylə uğurlu-uğursuz saatı təyin etməklə hərbə başlayır və bu astronomik hesablama üçün bir ay yubanırlar.

İsgəndər öz sərkərdələrini başına toplayıb, gözəl bir məclis yaratdı. Həmin sərkərdələrin vətənləri bu yerlər idi:

Xətadan, Xütəndən, Mədayindən, Yəməndən, Abxazdan, Reydən, İstəxrdən, Keydən, Gilandan, Mazandarandan, Xorasandan, İraqdan, Rumdan, Əfrəncdən, Misirdən, Şamdan və s. yerlərdən. Sərkərdələri böyük məğlubedilməz ruha gətirdi və onları məlumatlandırdı.

Dedi: " Düşmənimiz dava görməmiş,
Aslanla döyüşə etməmiş vərdiş.
Qılıncı görməmiş hər iki əldə,
Buçağı nizəni, köküsdə, beldə.
Bunlarda tapılmaz kəskin bir yaraq,
Yaraqsız döyüşdə neylər bir qoçaq.

Bəli, rusların döyüş hazırlığı, İsgəndər döyüşçülərilə müqayisə edilə bilməzdi. İsgəndər sərkərdələrinə keçmiş qalibiyyətlərini xatırladaraq, bu qarşıdakı döyüşün daha asan olacağını məlum etdi.

Mənəm əl gəzdirən o uzaqlara,
Can almaq istərkən can verdi Dara
Kəməndi hiyləylə atdı Keyd Mana
Saldım o kəməndi öz ayağına.

Əlbəttə Dara kimi dünya hökmdarını məğlub edən İsgəndər, ruslar qarşısında aciz qala bilməz.

Zəhər ki, vücuda salır zəlzələ,
Sağalır yenə də başqa zəhərlə

Təbabətdə zəhərlənməni bədənə başqa bir zəhər vurmaqla da müalicə edirlər, burada həmin tibbi əməliyyata işarə olunur.

Orduya verdi çox padşah ürək,
Ürəksiz bir nəfər olmasın gərək!

Bəli, ağır döyüşə girdi qoşunları ilə, hərə bir tərəfdən döyüşə girdilər.

İki ordu deyil, iki dəniz qan,
Qədərcə çox idi dəniz suyundan.

Qəflətən rus ordusunda bir ağ aslan qarşıya cıxır və qəhrəmanlığı ilə meydan oxuyur. İki tərəfin fərdi qəhrəmanları öz məharətlərini göstərirdilər. Bu zaman hind qəhrəmanı onun önünə çıxdı.

Dedi: "İstəmirsən torpaqda yatmaq,
Bil mazandaranlı Zərivənd mənəm.
Döyüşdə divlərlə mən əylənənəm,
Ondakı heybətdən rus bir şey qandı,
Sərfası qarışdı, başı fırlandı.
Atı oynatmadı, çəkildi geri,
Bildi ki, mərdlikdə yox bərabəri.
Cilovu çevirid tez orduğana,
Yel kimi sovuşdu durmadı daha.

Rus sərkərdəsi, vahimə və qorxu içində geri ordusuna tərəf atını çapdı. İlkin olaraq döyüşdən qaçdı.

Aslana çevrildi arxa, arxadan
Zərbəni endirdi ona pəhləvan.
Qaçanın belini zərbəsi yardı,
Köksündən dördbaşlı nizə çıxardı.

Rus əsgərləri, İsgəndər pəhləvanlarının silahları necə oynatmasına heyran qaldılar. Onların döyüş qabiliyyəti rus döyüçülərin çox qorxuya salır. Bir neçə gün döyüş səhnəsi yarandı. Nizələr və oxlar sıx qamışı xatırladırdı. Qalxanların üstü sanki ulduzlar düzümü idi. Qalxanlarda zərbdən yer qalmamışdı, hamısı sanki naxışlarla bəzənmişdi. Yunanlar axırıncı dəfə ruslarla döyüşə girdilər.

Padşaha üz verdi səadət, zəfər,
Əzdilər Qıntalı üstün gəldilər.
Qaçmağa başladı basılan yağı,
Dünya İsgəndərə verdi şahlığı.

Ruslardan kin ilə tökdülər çox qan,
Çox oldu tutulan, ölən asılan.
Ruslardan, Bartasın aslanlarından,
Əsir düşdü yüz min qılınc oynadan.

Ruslar bu döyüşdə, çox itgi verməklə yüz min əsir alındılar. Qıntalın başına Kəmənd atıb yerə sərdilər və onu əsir götürdülər. Az bir qism qaçmağa nail oldular.

O qədər qənimət aldı İsgəndər,
Olmadı sayını bilən bir nəfər.

Hədsiz qızıl, hədsiz dərəcədə zinət şeyləri əldə edə bildi. Ancaq o, döyüşdə bir şeyə heyrət etmişdi ki, bu da dəbilqə geyinmiş qadınların şücaəti idi. Ancaq İsgəndər bu ağır döyüş qalibiyyətinə görə, bu qalibiliyyəti, zəfəri ona bəxş edən Tanrıya dua edirdi. Bütün bu nailiyyətlərin səbəbini onun verdiyi gücdə görürdü.

Bəli, İsgəndər Ruslara qalib gəldikdən sonra, oradan istədiyindən də artıq zinət şeyləri (qızıl, gümüş, xəz dərilər və s) əldə edib geri qayıdır. İsgəndər Həzrət babaya, (Baba dağı, Cəddi dağı- Cəddi baba deməkdir) ziyarəti etdikdən sonra, (hər il orada iyulun iyirmisi, avqustun onu şeytana daş atma mərasimi keçirilir, başqa vaxt qeyri mümkündür) Siyəzən yolu ilə geri qayıdır. Onun yol mərasimi Şirvandan keçməklə, geri qayıdarkən Siyəzən yolu olmuşdur. Təbi ki, buradan Türkmənistana və oradan da Əfqanıstana tərəf keçib getmişdir. Sözsüz ki, oralarda da İsgəndərin, onunla bağlı nişanələri vardır. Əgər bunlar olmasaydı İsgəndər necə dünya fatehi ola bilərdi. Məhz bu baxımdan İsgəndərin Azərbaycanda olması qeyri təbii sayıla bil-

məz. Tarixi faktlardan çox, məntiqi üslublara daha çox söykəndiyi üçün onları təkzib etmək olmur. Dünyanın ana tarixini ilkin olaraq tarixçilərin fikirlərindən daha çox dini kitablarda tapmaq olur ki, bunlar da məhz ana tarix sayılmalıdır. Ona görə ki, ilahi bunlar bəndələrin məntiqi nəticələridir. Mənə gəldikdə İsgəndərin Azərbaycanda olmamasını önə çəkənlərin fikirlərini, bütü sitayiş edənlərin təfəkkür baxımları kimi qəbul edir və onıarın dediklərini xülya adlandırıram. Onu bilirəm ki, barıt dolu tarixin çəlləyinə bu fikirlərimlə od vurub yeni partlayışa təkan verirəm.

İsgəndərin buynuzu olubmu?

İsgəndərin buynuzu var zərbi məsələni və onun doğulma səbələrini, ayrılıqda qələmə almağı vacib bildim.

Əlbəttə N.Gəncəvinin hikmətləri ilə

“İki qərn sahibi” qoymuş namını
Çünki şərqdən, Qərbdən almış kamını.

Ərəb dilində qərn sözü Şərq və Qərb mənasında da işlənir. İsgəndər Zülqərneynə “İki qərn sahibi”ləqəbini ona görə vermişlər ki, o, Şərqi də, Qərbi də fəth etmişdir.

Deyirlər ki, qoşa hörüyü varmış.
Onu kürəyinə daim atarmış.

Qərn sözü saç mənasında işlənir. Guya İsgəndər saçını başının dalında iki dəstədə hörüb burarmış, buna görə də Zülqərneyn-iki hörüklü deyirmişlər.

Deyirlər görübmüş belə bir röya,
Gündən iki qərni alıbmış guya.

İsgəndər yuxuda görübmüş ki, Şərqi və Qərbi günəşin əlindən almış, iki qərn sahibi olmuş, buna görə də ona Zülqərneyn adı verilmişdir.

Başqa rəvayətdə deyirlər yenə:
İsgəndər yaşamış iki qərinə.

Qərn sözü həmdə əsr, həm də əsrin üçdə bir mənasında işlənilir. İsgəndərin yeni eradan qabaq 356-cı ilin payızında doğulduğu və 13 iyun 323-də, yəni otuz üç yaşında öldüyü məlumdur.

İsgəndər bilmişlər o gündən bəri
Buynuzlu çəkilmiş mələkləri,
Odur ki, şübhəyə düşmüş ərəblər,
"Zülqərneyn" ləqəbi almış İsgəndər.

Əbu Məşər-adı Ömər, atasının adı Məhəmməd Bəlxlidir. Ən məşhur münəccimlərdən olmuşdur. Riyaziyyat və astronomiya sahəsində əsrinin ən böyük alimi sayılır. 886-cı ildə ölmüşdür. "Üluf" onun məşhur əsərlərindəndir. O, "Üluf" kitabında yazır ki, İsgəndər öləndən sonra yunanlar onun surətini çəkmişlər. Həmin surətin sağ və solunda iki mələk şəkli də rəsm etmişlər. Surətin üstündə iki buynuz şəkli olmuşdur. Guya İsgəndər Allah tərəfindən yaradılıb yerə göndərilmiş, bu mələklər də onun sağ-solunda qarovulçusudurlar. Sonra həmin şəkil ərəblərin əlinə keçmiş, onlar buynuzlu mələyi İs-

gəndər bilib ona Zülqərneyn (ikibuynuzlu" adını vermişlər.

İsgəndər sikkəsi üstündə buynuzlu büt şəklinin həkk edildiyi də məlumdur.

Dürdən taca bənzər qınları varmış,
İki qulağına o qın taxarmış.

İsgəndərin qulaqları çox uzun imiş, onları gizlətmək üçün o, tacın yanlarında buynuza oxşar iki balaca qın qayıtdırıbmış, tacını qoyanda qulaqlarını o qının içinə salarmış.

Məclislərin birində müxtəlif yerlərin gözəlliklərindən danışılır. Biri Xorasandan, Qurdan danışır. Oradakı qızıldan söhbət gedir. Başqa birisi Reydən, İsfahandan Firudin dövlətindən danışır. O vaxt İsfahan haqqında deyilirdi:

İsfahan, nəsfi cahan,
Qabaqda Təbriz olmasa.

Təbriz hər zaman gözəl olmuşdur. Təbriz sözünün mənasını belə vermək olar:

Təb – təbiət, xilqət, xasiyət. Riz və Riza – süd əmmək

Riz – Rizayi - bir döşdən süd əmən. Qardaşlıq mənasını verən bu süzü belə azmaq olar.

1) **Qabıssan - ilk şəm (günəşə sitayiş- Atəşpərəst).**

2) **Şam - əxi – şəmin qardaşı. Qabıssanın - qardaşı, yəni müasir Şamaxı.**

3) **Təbriz – Qabıssanın bir döşdən süd əmən**

qardaşı.

Bu üçlük tarixi nöqteyi nəzərdən ayrılmamalıdır. Dünyada ilk dəfə karvan yolları Qabıssandan Şamaxıya və Təbrizə gedib.

Nəhayət, Çindən, Xarəzmdən, o yerlərin ipəyindən müşk-ənbərindən söhbət gedir.

Müşk - ənbərin açması da maraqlıdır.

Müşk - balinanın ifrazatından hasil edilən gözəl ətir.

Ənbər – ceyranın göbəyindən hazırlanan ətir.

Biri Hindistanı tərifləyərək, deyir ki, o yerlərin odunundan ud hazırlayırlar, palçığından isə ənbər.... Qoca bir kahin isə deyir.

Dünyada Zülmata çatmaz bir diyar,
O, güzəl torpaqda həyat suyu var.

Gəlin zülmat sözünü təhlil edək. (zülmat suyu).

Zül və ma - hər ikisi ayrı – ayrı, lakin mənaca eyni olan süzlərdir.

1) **Zülal – duru və şirin su.**

2) **Zülali – yumurta ağı maddəsindən olan (kimyəvi müalicəvi)**

3) **Zülmaabad - bu dünya**

4) **Zülmat isə qaranlıq dünya və ya yer. Yəni hamıya məlum olmayan (qaranlıq) yer.**

İkinci söz (ma)

1) **Ma – su . Saf, duru su. (Mayi – zülal)**

2) **Mayi – Məin – Axan su.**

Budur bu sözün mənası. Demək kimyavi müalicəvi su. İndi bunun məkanının və indiki dövrdə adını axtaraq.

Var şimal qütbündə qaranlıq bucaq,
Ağ gümüş çeşməsi hər sudan parlaq.
O, suyu kim içsə, olur qəlbi şən,
Qurtulur ölümdən və xəstəlikdən.

Belə sözlər nəinki İsgəndərə, hətta onun hər bir əsgərinə məlhəm idi. Bu döyüşçülər ağır sınaqlardan çıxmış, çoxlu zədələr almışlar. Onun üçün də bu əfsanəvi su onların hər birinə hava-su kimi lazım idi.

Bu qiymətli suyun məkanını tapmaq üçün "Qurani-Kərim"in "Kəhf" surəsindən ütən sayımızda gətirdiyimiz sitatlara bir daha nəzər salaq:

89. " Kəhf" surəsi: " Sonra (yer üzünün şərq istiqamətinə) bir yol səbəbin dalınca getdi".

90. " Nəhayət, Günəşin çıxdığı yerə (yer üzünün şərqinin ən son yaşayış məntəqəsinə) çatanda gördü ki, günəş müqabilində onlar üçün heç bir örtük (paltar hazırlamaq, ağac əkmək, kölgəlik qurmaq və ya onların vasitələrini düzəltmək istedadı) verdiyimiz bir qövmün üzərinə doğur. Məgər bu əlamətlər Qabıssanı özündə əks etdirmirmi?

İndi də Qabıssan (Qobustan) su və ağaclıq baxımından Azərbaycanın ən kasıb məkanlarından biridir.

91. Bəli, Zülqərneynin, yer və millətlərinin əhvalatı belə idi. Və şübhəsiz biz onun qarşısına çıxacaq şeyi (əzəldən) bilirdik.

92. Sonra o, (yer üzünün şimal istiqamətinə səfər etmək məqsədi ilə) bir səbəbin arxasınca getdi. Demək Quba, Dağıstan istiqamətinə getdi. Səbəb yalnız bunlar ola bilər. Söhbət Baba dağı və o ərazidə olan şəfa ocaqlarından gedir. Sonra isə Rusiya ərazisinə qızıl və xəz

dəri dalınca gedilməsi başa düşülür. Fikrimizi təsdiq etmək üzün " Qurani – Kərim" in sonrakı surələrinə də müraciət edək.

Kəhf surəsi:

93. Nəhayət, iki səddin arasında yetişəndə onlardan aşağıda (ya qabaqda və ya onların yaxınlığında düşüncələrinin darlığı və ya dillərinin fərqliliyi səbəbindən bir süz anlamayan bir tayfa gürdü.

94. Onlar bir yolla dedilər: "Ey Zülqərneyn, həqiqətən (Nuhun oğlu Yafəsin nəslindən olan) Yəcuc və Məcuc (adlı iki tayfa) bu yerdə fəsad türədirlər.

Yəcuc – Məcuc (əsli ibranicədən)

1) **Əfsanələrdə - qısa boylu, qəddar bir tayfa; 2) Məc. Qorxunc, dəhşətli (adam). Bizi öldürür, zəmimizi biçib aparır var yoxumuzu əlimizdən alırlar. Bizimlə onların arasında bir sədd düzəltməyin üzün sənə xərclik (muzd) təyin edək?" Zülqərneyn dedi: "Rəbbimin sayəsində mənə verilmiş imkan və qüdrət sizin muzdlu köməynizdən daha yaxşıdır. Buna görədə mənə (İşçi) qüvvəsi ilə kömək edin ki, sizinlə onların arasında əzəmətli bir sədd qurum. İsgəndər bu səddi yaratmaqla burada əmin- amanlıq yaratdı. Bu əlamətlər sübut edir ki, İsgəndər Quba və Dağıstan ərazisində olub. Qabıssanlıların belə bir deyimi var. Dağıstanda Qırxlar (müqəddəslər, Övliyalar) Qabıssanda Şıxlar (müqəddəslər, övliyalar). Beləliklə, dirlik suyunu burada axtarmaq lazımdır.**

Hər quraq bir yerə çatdı İsgəndər,
Yağışdan yaşıla büründü züllər.

Qabıssan quraqlıq, Quba isə yaşıl yaylaqlardır.

Xızır iz salmışdır sanki bu yola,
Yainki gedirdi şahla qol- qola.

Bəli, Xıdır İlyasın, Xızırın, bir sözlə peyğəmbərlərin izləri olan yer idi bu məkan.

Çülbəyi bu yerə ad verdi bünyar,
Ya gedə o şəhər adlandı bünyar.

(Bünyar burada Allahın müqəddəs məkanı sayılır, yar Allaha deyilir).

Bün:

1) **Bünüvrə, təməl.**

2) Dib, altı, aşağı hissə, yəni əzəli qar olan yer. Təbii ki, burada Şah dağ nəzərdə tutulur. Qarlı baba – Qabıssanlılar belə deyirlər. Deməк, hadisələr Şah dağının ətəklərində cərəyan edir.

Su üzün dolandı bütün bucağı,
Çatmadı suya o susuz dodağı.
Əlində parladı parlayan gövhər.
Tapıldı nəhayət, aranan gövhər.
Gümüş rəngli çeşmə axırdı şən – şən
Süzülən gümüş tək daş göbəyindən.
Bu çeşmə tərifdən uzaqdı uzaq,
Bir nur çeşməsidir bu qaynar bulaq.
Qaynayır, durmayır, öz mənzilindən,
Sanki bir civədir iflic əlindən.
Yox başqa bu nur, bu günəş,
Ona həm su demək olur, həm atəş

Diqqət yetirin bu sözlərə, həm sudur, həm atəş. Həm ziyarət məkanı, həm də şəfa ocağı idi bu su, bu yerlər. Məhz xantana gedənlər bu suyu, bu ərazini dahi şairimiz N.Gəncəvi necə təsvir edibsə, onlarda eləcə təsvir edirlər. İsti suya gedən yoldaşların dediyinə görə, elə insanlar var idi ki, əsa ilə gedirdilər, lakin bir nezə dəfə suya girdikdən sonra əsaya ehtiyac qalmırdı. Sevinə-sevinə evlərinə dönürdülər. Bəli, dirilik suyu bu idi. Şəfa suyu, İsti su idi. İsgəndər bura gəldikdən sonra, doyunca bu sudan içdi. Özü də həmin suda çimdi və Qıratına da sudan içirtdərək çimizdirdi. N.Gəncəvi bu səhnəni çox gözəl təsvir edir.

Aşağı enərək dərhal soyundu,
Doyunca həm çimdi, həm də yuyundu.
Əbədi həyata çatdı arayan,
Qırata içirdi, çimdirdi onu,
Tökdü ağ qədəhə həyat suyunu.

N.Gəncəvi bu suyu ilahiləşdirərək qəhrəmanına dirilik suyunu tapdıra bilmir.

Heyvan tapmadısa, kədər yox bunda,
Heyvan tək ölmədi heyvan yolunda.

Burada birinci və üçüncü "Heyvan" abi həyat, dirilik suyu mənasındadır. Yəni İsgəndər dirilik suyunu tapmadısa da, bundan içmədi və şükr etdi ki, heyvan suyu, yəni dirilik suyu yolunda heyvan kimi ölmədi.

İsgəndər bu ərazidə başqa bir sehirli aləm tapır. N. Gəncəvi bunu belə təsvir edir.

Bir şəhər vardır, bu ölkədə çox şən,
O abad şəhərdə tapılmaz ölən.
O şəhri uca bir dağ salmış bəndən,
Şəhr əhli o dağda düşmüş kəməndə,
O dağdan səs gəlir hey zaman – zaman,
Heyrətə düşür hər eşidən, duyan.

Bu şeir parçasının izahını verməmişdən əvvəl, şairin başqa şeirləri ilə müqayisəli versək daha yaxşı olar.

O çöldə vardır büyük bir mağara,
Padşahın ordusu çatınca ora,
Ordunun yanında nə qədər yük var,
Mağara yanında yerə qoydular.

Bəli, bu mağara indiki Siyəzən rayonu ərazisindədir. Çobanlar istidə qoyunları bu mağaraya salırlar. Yerli insanların söhbətlərindən məlum olur ki, mağaranın üstündə büyük bir dağ varmış. Bu dağ isə həm Azərbaycan xalqının, həm də xarici ülkələrdən gələnlərin ziyarətinə zevrilmiş və Siyəzən rayonu ərazisində olan "Beş barmaq" dağıdır. Bu dağın bundan başqa daha üç adı da var. Xıdırzində, Xıdır İlyas və Xıdır Nəbi. Bunlar isə, Nuh peyğəmbərin sələfləridir. Belə ehtimal olunur ki, "Beş barmaq" dağı beş peyğəmbərə işarədir. Bəli, bu dağ güclü əks-səda verir. İsgəndər "Beş barmaq" dağında dahi şairin dediyi kimi təkcə səsə görə yox, müqəddəslərin adını daşıyan Ocağa ziyarətə gəlmişdir. O, vergili bir insan, elmli bir dahi idi və hər şeyi bilirdi. Öyrənməkdən heç vaxt yorulmazdı. Hətta tarixi qaynaqlar göstərir ki, burada namaz qılınan yer var-

mış. İndiki ziyarətçilər məhz həmin yerdə namaz qılırlar. Bu bir daha göstərir ki, burada peyğəmbərlərin izi var. Hətta söyləmələrə görə burada Xıdır İlyas qılıncını daşa zəkib və o yerin izi hələdə durur. Hər cümə günü oradan su çıxır. Bu dağın adına Xıdırzində baba deyilir.

Zində - 1) diri, yaşayan, 2) Ruhlu, canlı, diri baş, 3) Sağlam, Zindeyi cavid – həmişə diri olan, həmişə yaşayan. Bu söz mənaları burada qeyb olan peyğəmbərlərdən xəbər verir. Bunlar da Nuha, onun düvrünə yaxın olan peyğəmbərlərdir. Təbii ki, mağarada "300" il yaşayan, yatan peyğəmbərlərə aiddir ki, bu işarəsi ilə onlar beş nəfər və bir it olmuşdur. Xıdır Zində, yəni ölməzlər, əbədi mənasında onlaar işarədir.Nuh, İbrahim Xızır, İlyas və b. vətənləri bu ərazilər olmuşdur. Təsadüfi deyil dir ki, Ə.Xaqani də öz əsərlərində fikrini bildirmişdir.

Əgər, səfadan ayağını qoysan kənar,
Əshabi kəhf Şamda biqərar olar.

Əshabi kəhf mağara yoldaşları Xəqaniyə görə deməli "Şam"da olmuşdur. Şam da Daş Oğuz və İç Oğuz olmaqla qışlaqlar və yaylaqlar mahiyyətcə məhz Qabıssan-Quba-Dərbənd ərazi olmuşdur ki, İsgəndər də bir fateh və ya səyyah kimi buraya ziyarətə gəlməyə bilməzdi.

Bu andan ətrafı qaranlıq tutmuş,
O yandan yol izi bir dəniz udmuş.

Bu misralar Xəzər dənizinə yaxın olan yerdən xəbər verir. Demək İsgəndər burada olan bütün ziyarətgahları ziyarət etmişdi. Ona görə ki, Qabıssan qayalarında-

kı XII legionun çəkilmiş xaç şəkli ərəblərin çəkdikləri qövs şəklinin mənaları sübut edir ki, Qədim Qabıssan dünyanın ali təbəqələrinin ziyarət etdiyi yer olub.

Qabıssandan Dağıstana qədər bir neçə kəlmə İsgəndərin atı və məşhur atlar barədə qeyd etmək yerinə düşərdi. İlk dəfə "Qırat" süzünü N. Gəncəvi öz əsərində qeyd etmişdir. Demək Koroğlunun Qıratından əvvəl də Qırat olub. Koroğlunun adına gəldikdə isə ad indiyə kimi bildiyimiz kor kişinin oğlu mənasında deyil. "Kor" – sözü əslində ərəb –fars dilində kur deməkdir. Bu ad Kərroğlu deməkdir. Mənası isə, döyüşdən geri çəkilməyən, döyüşkən, döyüşdən sonra yenidən düyüşə atılan, dəfələrlə döyüşən mənasını verir. (Koroğlu dastanı belə yenidən tədqiq olunmalı və buna ehtiyac vardır). Firdovsi isə "Şahnamə" əsərində Rüstəm – Zalın timsalında əslində İsgəndərdən söhbət açır. N.Gəncəvinin dediyi kimi, "Şahnamə" dağınıq yazılmış əsərdir. Bildiyimiz kimi Rüstəmin atının adı Rəxş olmuşdur.

1) **Rəxş – 1) ağ ilə qırmızı və ya ağ – qara ilə qırmızı qarışıq rəng,**

2) **Ümumiyyətlə at. Çox sürətli gedən. Rəxşan – parlaq , parlayan, cilalı işıqlı,**

3) **Rəxşəndə - parlaq, parlayan.**

Hər yerdə o qara, o sənət əri,
Yanlış söyləmişdi doğru sözləri,
Yanlışsa yenidən vurdum bir bəzək,
O qoca şairdən üzr istəyərək.

Qoca şair - deyəndə N.Gəncəvi Firdovsiyə işarə edir. Yəni Firdovsi İsgəndər dastanını yalnış rəvayətlər

üzrə bəzəmişdi. Mən bunu doğru dastan kimi bir də bəzədim ki, bunun üçün də Firdovsidən üzr istəyirəm.

Dünyanı yumuş bu üçüncü dəniz,
Həsara dinindən etmiş tər – təmiz.

Mifoloji rəvayətə görə, üç dəniz - birinci asiman, göy ikinci – dünyanı qaplayan mühüt dənizi, üçüncü – havada sallanan dənizdir. Bunun suyu dünyanı yumaqdır.

Uca, dik başını müştəri öpər,
Onun bir nəzəri min işıq səpər.
Təslis və tərbiə cəvahir sazan,
Üçbucaq oturdan, dördülü oturan.

Yəni Müştəri ulduzu kimi yüksəkdə olan, baxışları gövhər saçan. Tərbi, dörtləmə, burada bardaş qurub oturma, təslis- üçləmə, burada məclislərdəki, üçbucaq şəklində oturma, sağda, solda və qabaqda. Həsara dini – Allahı üz ünsürdən (ata, oğul, rühul – qüts) ibarət edən xirstianlıq.

Xəbər ver, hesabdan qalmayın geri,
Səbətdə ya ilandır, ya sümükləri.

İlan kin və ədavət rəmzidir. İlanın bel sümüyü isə qədim iranlılar dostluq üçün özün də saxlardılar. Beytin mənası söylə görüm, arada dostluq var, ya düşmənçilik?

"İsgəndərnamə" adlı məşhur və tarixi əfsanədən ibarət olan farsca qədim bir kitabda yazılmışdır ki,

İsgəndər səfərlərinin birində Bakiyə (Bakıya yox) gəlmişdir. Əsərin qəhrəmanlarından olan Sədan, şəhəri bəzəyib əhali onları qarşılayır. Artıq Daranın qara müsbəti onlara məlum idi.

Əzizim eldən gedər,
Hər gələn eldən gedər,
Bir elin köç xəbəri,
Başqa bir eldən gedər.
Ş.Q.

İsgəndəri şəhərə gətirib ona lazımi xidmət göstərirlər. Sədan İsgəndər qoşununun yaxşı atlara ehtiyacı olduğunu bilib, Xəzrənguh adlanan yerdə Firuz adlı bir qocanın hədsiz ilxısı olduğunu ona xəbər verir.

Sədan – yüz dənəli təsbeh zəkənə deyilir (demək varlı axund).

Firuz – 1) Bəxtli, taleli. Qalib, müzəffər. 2) Qələbə çalmış.

Bu ilxi keçmişdə Bəhman şahın olmuşdur. Firuzun ixtiyarına keçdikdən sonra isə, Humay və Dara nə qədər istədilərsə də, qoca ilxını heç kəsə verməyib. İsgəndər Badpay adlı bir nəfəri gizlincə göndərdi ki, Firuzun vəziyyətindən xəbər tutsun.

Badpay - cəld yeriyən, sürətlə gedən mənasını verir.

Badpay gedib gürür ki, dağın ətəklərində rəngbərəng çadır qurulmuşdur. Bunların arasında Çin atlasından bir çadır qurulub və bir xeyli camaat onun ətrafına toplaşıb. Çadırda isə, turanlı qırmızısaqqal bir kişi oturmuşdu. Onun əynində pələng dərisindən qaftan, başında isə, kənarları qızıl zəncirdən tikili bəbir dəri-

sindən pabaq və qarşısında büyük bir əsa var idi. Burada söhbət Tur dağının ətəyindən qurulmuş çadırdan gedir. Tur, Musa peyğəmbərin ağladığı və ilk danışdığı (söhbət ilkdən gedir) dağın adıdır və bu barədə əvvəlki yazılarmızda məlumat vermişik.

Firuz İsgəndərin onun ilxısını ələ kezirmək niyyətindən xəbər tutur. Ona görədə ertəsi gün topladığı qırx min qoşunla İsgəndərlə müharibəyə başlamaq qərarına gəldi. Lakin o, İsgəndərin şöhrət və əzəmətindən, böyük fateh olmasından xəbər tutandan sonra təslim olur və məşhur ilxısını gətirib İsgəndərə təhvil verir.

İsgəndər Bərdədə müəyyən müddət qaldıqdan sonra oradan Əlbürz dağına (Qafqaza) hərəkət edir. Şirvandan ötüb Dərbənd keçidinə çatır. A.A.Bakıxanovun təsvir etdiyi İsgəndər yolu, eynilə "Qurani-Kərim"-də təsvir olunmuşdur. Burada hələ şəhər yox idi. Dağ üzərində möhkəm və dar bir yerdə çox möhtəşəm bir qala var idi. Bu qalada bir neçə nəfər yaşayırdı. Bunlar yoldan keçənlərə mane olurdular. İsgəndər təslim olmağı onlara dəfələrlə təklif edir, onlar isə rədd edirlər. Buna görə də fateh, hücum edərək oranı dağıtmağı əmr edir. Bu yer o qədər mühkəm idi ki, bütün qoşun 40 gün 40 gecə çalışdı, bir iş görə bilmədi. Gec-tez İsgəndərin istəyinə çatacağını dərk edən qala sakinləri təslim olmaq qərarına gəlirlər. İsgəndər onlara başqa yer verib qalanı təmir etdirdi. Orada bir qədər qoşun yerləşdirib səfərinə davam etmək istərkən, dağıq yerlərin yaxınlığında yaşayan əhali İsgəndərin yanına şikayətə gəlirlər. Əhali bildirir ki, Qıpçaqların vəhşi xasiyyətli əhalisi bu yerləri xarabazarlığa döndərir. Onlar xahiş etdilər ki, bu dağın gədiklərindən bir sədd çəkilsin. İsgəndər

çoxlu işçi toplayıb, bu gədikləri bərkitmək üçün dərısqal dağda daşdan bir sədd çəkməyə əmr verdi. Qayıtdığı zaman birinci mənzildə ona dedilər ki, bu yaxınlarda Sərir adlı çox gözəl və mükəmməl bir qala vardır. Keyxosrovun da taxtı, tacı və qəbri burada, bir mağaranın izərsindədir.

Sərir – sirr, gizli deməkdir. Demək adla düz gəlir. Onun nəslindən bir şahzadə bu yerin əmiridir.

Key – 1) şah, padşah. 2) Qəhrəman – Xosrov mənasını verir.

İsgəndər Keyxosrovun taxtı olan qalaya getdi. Bu qalaya "Darvaza" da deyirlər.

Dar – 1) Büyük ev. 2) Yer məkan, məqam.

Vazə - 1) qoyan, təsis edən.

2) Bina edən, yenidən yaradan.

Səririn əmri onu qarşıladı. İsgəndər buradakı qızıl taxtı, mağaranı, dağları və bir çox qəribə şeyləri gördü. Oradan çölə qayıdıb bir həftə ovla məşğul oldu. Sonra Rüdbar yolu ilə (Rüdbar çay kənarı yolu deməkdir.) Xalxala, oradan Gilana və daha sonra Rey mülkünə getdi.

Rus əmiri (Rusiyah - ərəb lüğətində - 1) Üzüqara günahlı, təsirli. 2) cibi boş, yoxsul. Bu da hansısa bir yerdən bu şəkildə köçənlərə aiddir.) Kontal, Rus, Aysu, Portas, Peçeneq, Alan, İlaq və Xəxərdən ibarət yeddi tayfadan topladığı doqquz yüz mindən artıq bir qoşunla İsgəndəri qarşıladı. Bir neçə gün şiddətli müharibə getdi. Nəticədə İsgəndər qalib gəldi. Rontal on bir nəfərlə əsir düşüb sülh bağlamağa məcbur oldu. İsgəndər xərac qoyduqdan sonra Rontalı digər əsirlərlə azad edib, geri qaytardı.

Kvint Kurtsi – (Roma tarixçisidir. Ehtimala görə I

əsrdə yaşamışdır. Yunan mənbələrinə əsasən Makedoniyalı İsgəndərin tarixini yazmışdır) təqribən bür yüz il İsgəndərdən sonra yazdığı tarixi kitabında bu hadisələrin çoxunu bir qədər dəyişdirərək başqa bir şəkildə güstərir. Rontalla bir yerdə əsir düşən və sonradan azad edilən Nüşabə ehtimal ki, İsgəndərə məhəbbət yetirən və onun ordusuna gələn Amazon mələkiəsimiş. Skif həmin yeddi tayfadan ibarət olmuşdur. Çünki tarixçilər bütün Şimal əhalisini Skif adlandırırdılar. Onlar yaxşı döyüşkən olurdular. Hətta uşaq yaşlarından qızların sağ döşünə dağ basırdılar ki, inkişaf, güc qola keçsin və yaxşı ox ata bilsinlər. Dərbəndnamədə və s. kitablarda da İsgəndərin Dərbənd səddini təmir etməsi haqqında izahat verilmişdir. Dərbənd xalq arasında indi də "Səddi İsgəndər" adı ilə məşhurdur. Bir çox təsvirçilərin və tarixçilərin yazdıqlarına görə Zülqərneyin Rum, İran və ya Məğrib və Məşriq adlanan Qafqaza gəlməsi, İranı Şimalın vəhşi tayfaların şərindən qorumaq üçün bir sədd çəkdirməsi və ya başqa tədirlər görməsi təəccüblü və ağıldan uzaq bir məsələ deyildir. İslam və başqa tarixçilərin bir çoxunun verdiyi məlumat Sədd xarabalıqlarının varlığı və xalq arasındakı şöhrəti başqa əlamətlər və Kvint Kurtsinin coğrafi cəhətdən rabitəsiz olsa da, İsgəndərin Qafqaza gəlməsi haqqındakı bəyanatı, onun bu ölkəyə (Qafqaza) gəlməsini və səddin onun əmirliyə tikilməsini aydın bir surətdə göstərir. Bəzi tarixçilər və alimlər bu xüsusda şübhələnmişlər, onlar dünyanın vəziyyətindən lazımi dərəcədə xəbərdar olmadıqları və öz təsəvvürlərini başqalarının fikri ilə qarışdırdıqları üçün belə olmuşdur. Buna görədə əxbar kitablarını və tarixi əsərləri qarışıq bir hala sal-

mışlar. Misal olaraq bir neçə nümunə göstərmək olar. Katib Çələbi "Cahannüma" adlı əsərində deyir ki, aparılan tədqiqata görə, Makedoniyalı İsgəndər Zülqərneyn deyildir. O, (Zülqərneyn) İbrahim (peyğəmbərin müasiri olub,) Yəmən həmyerlilərindən biri padşah idi. Zülqərneyn dünyanın Şərq və Qərbini dolandı və səddi dünyanın sonunda bina etdi. Bu bina ehtimala görə Şimal Şərq tərəfdə, bəlli olmayan bir yerdədir. K.Çələbi Dərbənd səddi haqqında deyir: "Bu İsgəndər səddi ola bilməz. Çünki padşah olan Makedoniyalı İsgəndərdir." O, Afrikanı, Qıpçaq çölünü fəth etmişdir. Deyirlər, onun tacında iki buynuz var idi. Qızıldan daş-qaşdan hazırlanmış iki buynuz o qədər qiymətli və gözəl olmuşdur ki, buna görə də valeh edici şəkildə "İsgəndərin buynuzu var, buynuzu" deyirdilər. Bunu onun tacında olan buynuzuna görə deyiblər.

Zülqərneyn - iki qoşa buynuz deməkdir.

Eronim və başqalarının təsvirinə görə Məcuc Kaspii, yəni Xəzər dənizinin sahilləri yaxınlığında, Yəcuc isə bunlardan daha uzaqda, Şimalda yaşayırmış. Hər iki tayfa Skif hesab olunurdu. Əlbəttə tarixçi bu ərazini bilmədiyindən belə deməlidir. Əksinə "Qurani-Kərim"-də adı çəkilən bu xalqlar yaxın olmuş və Xəzər dənizi yaxınlığında olmuşdur ki, bu da Quba – Dağıstan ərazilərinə şamildir. Rus sözünə gəldikdə isə Rusiyah sözündən yaranmışdır.

1) Üzüqara, gunahlı, təqsirli, cibi boş, yoxsul. Belə qənaətə gəlmək olur ki, təkallahlıq yarandıqdan sonra, din günahkarlığı üzündən qovulanlar və ya inciyib gedənlərə şamil etmək olar. Müəllif qeyd edir ki, İsgəndərin Gilana gəlməsi Venedik dənizindən Qanıq çayına

qədər və Cənubi Okyanuş dənizindən Qara dənizə və Xəzər dənizinə qədər ölkələri istila etməsi isbat edilmişdir. O zaman bu yerlərə yaxın olub, eyni zamanda keçmişdə bir çoxları tərəfindən dünyanın axrı sayılan və İsgəndərin qəribəliklər yurdu sayılan yerin sahibi Nurşirəvanın, Şirvan və Azərbaycan vilayətlərində qətl, qarətlərlə məşğul olan Xəzər tayfasının və s. türklərin qarşısını almaq üçün bu səddi bina etdirmişdir. Fars padşahları daim onlarla müharibə edirdilər. Deyirlər ki, onu əvvəlcə Güştasib oğlu İsfəndiyar bina etmişdir. Hüzhətülub müəllifi səddin bina edilməsini Güştəsibin atası Güştasibə nisbətən verir və onun Nurşirəvan tərəfindən ancaq təzələndiyini bildirir. Katib Çələbi kimi bir alimin fikrinə təəccüb edilməlidir. O, öz iddiasının doğrulduğuna heç bir dəlil və sübut gətirmədən bu məsələni açıq – açığına inkar edir. İmam Fəxrəddin Razi də Şərqdə yetişən büyük alim və filosoflardan biridir. (1159) Rey şəhərində anadan olmuş 1209-cu ildə Heromda vəfat etmişdir.

Qazi – Beyzavi (tarixçi olmaqdan artıq bir məfsirzi kimi şührət tapan Beyzavi, İranın Beyzovi şəhərində anadan olmuş 1292-cı ildə Təbrizdə vəfat etmişdir. Onun yazdığı əsər dünyanın yaranmasından 1275-ci ilə qədər olan hadisələr təsvir edir) və başqaları Makedoniyalı İsgəndərə Zülqərneyn və Dərbənd hasarına da Yəcuc və Məcuc səddi dedikləri üçün onların fikrini doğru hesab etmir. Bunu təsəvvür etmir ki, səddin binası Nurşirəvandan əvvəl İsfəndiyara nisbət verdiyi kimi, İsgəndərə də nisbət verə bilər. Fərz edək ki, Zülqərneyn Himyəri bina etmiş və sonra dağılmışdır. İsgəndərin yenə onu təmir etməsi ağıldan uzaq deyil-

dir. Çünki İbrahimin peyğəmbərliyə çatması hicrətdən 2543 il əvvəl, İsgəndərin taxta oturması isə 958 il əvvəl olmuşdur. Arada 1500 ildən artıq bir müddət vardır. Yenə etimal edilir ki, bu padşahlardan hər biri, vadilərdə və dağlarda binalar tiktirmiş və ya xaraba qalanları təmir etdirmişdir.

Nurşirəvan isə indiki hasarın (Dərbənd səddinin) hamsını sonradan tiktirmişdir. O, (Katib Çələbi) türk tayfalarını fəsad türədən, soyğunçu, vəhşi Yəcuc və Məcuc adlandırmaq istəmir, çünki bəzi tarixçilərin istinad etdikləri əsassız nişanələr onlarda yoxdur. Ola bilər, onlar bunu yalnız kinayə ilə söyləmişlər. Mövcud səddi burada qoyub, əsla olmayan bir möhkəm səddi güstərir. Tarixçi Plutarx və Strabonun yazdıqlarına görə, Albanyadan Ponpeyə qarşı göndərilən qoşunun miqdarını nəzərə aldıqda təsəvvür etmək olar ki, Albaniya İsanın anadan olmasından təqribən 65 il əvvəl əzəmətli və qüvvətli bir dövlət imiş.

Məhəmməd Əbbabi Aktaşi (Ağdaşlı) hicri IX əsrin əvvəllərində Şamxal Çoban bəy Gəray xan oğlunun xahişi ilə İndiri kəndində ixtisarla farscadan türkcəyə tərcümə etdiyi Dərbəndnamədə deyir: "Türklərlə iranlılar arasında daima müharibə getdiyindən Şirvan və Azərbaycan ölkələrinə onlardan zülüm və təxribat yetişirdi. İran padşahı Qubad Firuz oğlu Sasani, paytaxtı Attil zayı kənarında olan Xəzər padşahı Xaqan ilə barışıb onun qızını aldı. Xaqanın 400 min nəfər qoşunu var idi.

Bu yerdə bir maraqlı məqamı da qeyd etmək yerinə düşərdi. Belə ki, Moskva adı çox ehtimal ki, Novqorod sözünün kökündəndir. O vaxtlar Moskva və

Novqorod knyazlıqları ona (Xaqana) xərac verirdilər. Bundan sonra Qubad elçi göndərib, istədi ki, iki ölkənin arasında bir səddi çəkdirsin. Xaqan da buna razı oldu. Qubad tarixlərdə görmüşdü ki, müqəddəs hesab edilən Dərbəndə də İsgəndər Zülqərneynin səddi olmuşdur. Deyirlər bu səddin bir milə qədəri Xəzər dənizinin içində olub. Qalan hissəsi isə Qara dənizə qədər uzanıb getmişdir. Qubad əmr edir ki, hasarı torpağın və qumun altından çıxarıb təmir etsinlər. Hasarı Təbərstanın yuxarısına qədər çəkib, ona dəmir qapılar qoydular. Bundan sonra Dərbəndin Cənub tərəfindəki divarı çəkdirdi və şəhərin binasını qoydu. Bu işlərin hamsı yeddi ilə tamam oldu. İş bitdikdən sonra Xəzərlərin çox qüvvətli olmasına baxmayaraq, onların bu möhkəm hasara yol tapa bilməyəcəyinə arxayın oldu. Xaqanın qızını atasının evinə geri qaytardı ki, nəslin qarışması üzündən ölkənin işlərinə ixtilaf yol tapmasın. Deyirlər bu səddi Qubaddan əvvəl Bəhram – Gurun oğlu Yəzdicird Sasani də təmir etdirmişdi. Bu təmir Nurşirəvan dövründə tamam oldu. Qubad və Nurşirəvan hər ikisi İran vilayətlərindən müxtəlif xalqları köçürüb bu ölkədə bir çox şəhər və kənd bina etmişdilər. Nurşirəvanın atasının səltənəti dövründə xeyli zaman bu ölkədə yaşamışdır. O, Dərbənd səddindən əvvəl (Xəzərlər səddi də adlanır) İsfəndiyar Güştasib oğlunun dənizdən dağa qədər çəkdirdiyi Alğon səddinin uçub dağılmış yerlərini təmir etdirdi. Ona Babi-Alan adlı bir darvazada qoydurdu.

Bab - qapı 3) Padşah və hakimlərin qapısı.

Babi – Babi mənsəbinə mənsub adam. Nurşirəvan özü də burada sakin olurdu. Sonralar atasının icazəsi

ilə Dərbənd ətrafında 360 qala və şəhər bina etdirdi. İran vilayətlərindən bir çox əhalini köçürüb buralarda sakin etdirdi. Alğon səddindən Əhranə qədər olan yerləri yeddi vilayətə böldü və hər birinə ayrı-ayrı əmir təyin etdi.

Beləliklə "İsgəndər səddi" haqqında müxtəlif mənbələrdən bir neçə nümunələr gətirdik. Hərə öz mövqeyindən yanaşaraq ziddiyyəili fikirlər ortaya qoyub. Lakin bizim söylədiyimiz arqumentlər "Qurani Kərim"-dəki ayələrdə göstərilənlərlə və N.Gəncəvinin əsərlərində yazılanlarla üst-üstə düşür. "Qurani-Kərim" də göstərilən təsvirlər bir tarixçi kimi bizi qane edir. Dünyada minlərlə səddlər tikilib, əfsanələşdirilib. Ancaq səddi İsgəndər birdənədir. İsgəndər Zülqərneyn də məhz Makedoniyalı Aleksandır, yəni dünyanın fatehləri izində yeganə fateh olan İsgəndərdir.

İsgəndər sərkərdə kimi ilk addımını atarkən xeyir duasını Axillesin ruhundan almışdır. O, Axillesin məbədinə gedərək, onun qalxanını əlinə götürmüş və onu əlləri ilə göyə qaldırmış, üzünü onun davamçısı saymışdır. Dövrünə görə İsgəndər dünyanın bütün gedişatlarından xəbərdar idi. Fəaliyyətə başlamamışdan qabaq, o bütün dünyanın möbüdlərini (keçmişdən və gələcəkdən xəbər verən öncə görənlər). Hüzuruna toplamış, harada nə, hansı sirlər varsa, hamsını onlardan öyrənmişdir. Onun üçün dünyada gizlin bir şey qalmamışdır. Bəzən sual verirlər ki, İsgəndər olduğu kənd və şəhərlərdə yerli əhali ilə hansı dildə danışırdı? O dövrdə Firdovsinin, Nizaminin bilgilərinə əsasən yetmiş iki adda xalq var idi. Buna o vaxtlar gəmi deyirdilər. Müasir düvrdə hamı gəmi sözünü suda üzən gəmi – qayıq

kimi başa düşür. Əslində isə gəmi xalq deməkdir. (Nuhun gəmisi buna misaldır) **(Şahnamə, səh 126.) Dəniz üzrə yetmiş iki gəmi seyr edər.** Yetmiş iki gəmi yer üzündə yaşayan yetmiş iki xalq deməkdir. İsgəndər yaşadığı dövrdə otuz dil bilir və qeyri-adi yaddaşa malik idi. Sosialist inqilabının banisi V.İ.Lenin isə, iyirmi dildə danışıb, on dildə yaza bilirdi. İngilis, F.Engles də bir o qədər dil bilib və yazırdı. Firdovsinin sözləri ilə desək.

Bəzək verdi dünyaya başdan-başa,
Dönər altuna əl vursa Daşa.

Allah dünyanı, maddi Aləmi qələm ilə necə tərtib etmişdisə, İsgəndər də yer üzünü lazımlı bir sistem halına salmaq istəyirdi. Səkkiz İsgəndərin olması yer üzündə İsgəndərə sevgidən yaranmışdı. Əslində şöhrət və əzəmət sahibi, "Qurani-Kərim" də də adı çəkilən İsgəndər bir nəfər olub.

Oturmuş o, taxt üstə bir hökmdar,
Başında cəvahir dolu tacı var.
Ə.X.

Onun tacında cəvahir dolu, göz qamaşdıran və adamı heyran qoyan iki buynuz var idi. Buna çıqqa deyirdilər. O qədər qiymətli, o qədər gözəl idi ki, hamı ona "İsgəndərin buynuzu var, buynuzu" - deyirdi. Budur Zülqərneynin mənası. İsgəndər isə, tarixdə yek və əvəzsiz olub.

Pələng ovladı, əldə etdi dəri,
Geyindi zəri şah o gündən bəri.

Firdovsiyə görə Pələng dərisindən paltarı dünyada ilk dəfə məhz İsgəndər geyib. Sanki Allah-Təala onu anadan şah kimi dünyaya gətirmişdi.

Böyüklər hamı baş əyirdi ona,
İtaət edib "şah deyərdi" ona.

Tarixdə ilk dəfə İsgəndər hamı üçün belə bir qayda tədbiq etmişdir ki, hər bir adam həyətində bir neçə qoyun, bir ulaq və bir südlü inək saxlamalıdır. Tükü yumşaq heyvanların da saxlanılmasına hökm vermişdi. İsgəndərdən sonra dünyada digər insanlarda xəz dəridən paltar geyinməyə başladı.

Bu minval ilə soydu heyvanı,
Geyindirdi xəzlərlə insanları.

Bütün bunlar bir daha göstərir ki, İsgəndər dövrünün ən büyük islahatçısı olub.

Müəllim olub div şah oğluna,
Həvəslə otuz dil oxutdu ona,
Ərəb, Pəhləvi, soğd, zin, rum dəri
Bütün dillər oldu şahın əzbəri.

Bir sözlə İsgəndər ensiklopedik biliyə malik bir şəxsiyyət idi.

Çatınca əcəl, közdü, getdi o da,
Yaşar zəhmətinin barı dünyada.

İsgəndər dünyanın hökmdarı sandı özünü. Birinci

məqsədi dünyada pisliyin kökünü kəsmək idi. "Dünyada nə yaxşı şey var, xalqa xidmət etməlidir" – şüarını o verdi dünyaya.

Dedi: - Qırxın hər yerdə vardır qoyun,
Qoyunlar ki, qırxıldı ayrıldı yun.
O, yundan hazırlatdı xalqa libas,
Döşətdi yerə çoxlu, xalça, palaz,
Atı, eşşəyi tutdu, ram eylədi,
Ot, arpa, saman toplayıb yemlədi.

İsgəndər dünyada ilk dəfə qırğını, şahini əl quşu etmişdi. O, deyirdi: "Mənim əmrimə siz itaət edin, itaət etməklə yanaşı, ibadətdə edin, onda xoşbəxt olacaqsınız". O, elimlə dini həm fərqləndirir, həm də vəhdətdə qəbul edirdi. Məhz bu idi İsgəndərin ən büyük fəlsəfəsi və müdrikliyi. Yəni o demək istəyirdi ki, din olan yerdə hökmən ədalət olmalı idi.

Ev quşları olan xoruz, toyuq cücə saxlamağı da məhz ilk dəfə İsgəndər hamıya məsləhət görmüşdü.

Gətirdi, dedi: - Saxlayın bunları,
Toyuq saxlayan xalqın artar varı.

Dəmiri dünyada xəmir halına salan onun biliyi və bacarığı olmuşdur. Ona görə də dövrünün ən müasir silahları onda və qoşununda olmuşdur. Döyüşlərdə qalib gəlməyinin əsas səbəblərindən biri də məhz bu amil idi. Xüsusi hazırlanmış qəlibələrə palçıq doldurub kərpic düzəltməyi dünyada ilk dəfə İsgəndər icad eləmişdi. Bunun da əsasında uca qəsrlərin, xanimanların,

möhtəşəm tikililərin əsası qoyuldu. Təbabət eliminin əsasının qoyulması da İsgəndərin adı ilə bağlıdır. Dünyanı getdikcə sivil bir yola çəkirdi.

O, çox sirləri xalqa etdi əyan,
Belə padşah görməmişdi cahan,

Şahlara məxsus hündür taxtı dünyada ilk dəfə o, düzəltdirmiş və həmin hündür taxta ilk ayaq basanda özü olmuşdur. İran ona " Xavər – Xuda" adı vermişdi. (Şərqin çıxan Günəşi) İsgəndərin adlarından biri də bu idi. İranı məğlub etməsinə baxmayaraq, onu ən çox sevən də elə İran xalqı idi. Ədalətli rəftarına görə İsgəndər sanki bir lövhü qələm yaratmışdır.

Lövhü qələm – dini rəvayətə görə kainatın yarandığı gündən yer üzündə olan bütün müvcudatın təsvir və sərgüzəşti yazılmaq üçün göydə xüsusi bir lövhə (səhifə və qələm) yaradılmışdır. İsgəndərin bəşəriyyətə əxlaqi müraciəti bundan ibarət idi:

Elə ömür sür doqquz pərdədə,
Sənə aşkar olsun doqquz pərdə də.

Astrologiyada göylərin gah yeddi, gah da "ərş və kürsünü" buna əlavə edib doqquz qatdan ibarət olmasını göstərilir. Beytin mənası doqquz qat göylərin altında elə ömür sür ki, doqquz qat göylərin sirri sənə aşkar olsun.

İsgəndər həyatın inkişafını bir məqsəddə gördü. Yəni hamı bir məqsəd əsasında yaradıb qurmalıdır.

Xurmanın şirəyə şadlanmağı var,
Xurma yoldaşlıqda şirə yaradar.

Bildiyimiz kimi xurma ağacı təklikdə bar vermir. Bir nezə ağac bir yerdə olanda bar gətirir.

İsgəndər Yunanıstandan Hindistana qədər neçə şəhərlər salmış və həmin şəhərlərdə yunan mədəniyyətinin inkişafına təkan vermişdi. O, sanki dünyanın zinətləndirilməsindən ləzzət alırdı və o, bilirdi ki, qurub yaradanlar əbədi yaşayırlar. Səmərqəndə Zivər adını verən ilk şəxs məhz İsgəndər olmuşdur. Dərbəndin və Bulqar şəhərinin əsasını da o qoymuşdur. O, şəhərin adı Bunqar olmuşdur üzü, də Şah dağının ətəyi nəzərdə tutulur ki, bu da indiki Quba şəhəridir.

Bulqar şəhərini o etdi bərqərar
O, şəhərin adıdır əslində Bün – qar,
Bağlayıb dağları biri- birinə,
Yəcuc hasarını o zəkdi yenə.

Sühbət Quba Dağıstan ərazisindən gedir. Dünyaya hələ xaçpərəstlik gəlməmişdən qabaq, dünyada ilk xaç xəttini o, zəkmişdir.

Tanı, Xızır kimi özünü gəl sən,
Dirilik suyundan bəlkə içəsən?

Burada Xızır peyğəmbərin dirilik suyu içib əbədi yaşaması haqqında rəvayətə işarə edilir. Şair demək istəyir ki, özünü dərk edən adam əbədi dirlik suyundan içənlər kimi əbədilik qazanır. N.Tusi deyib ki, ölümdən o şəxslər qorxur ki, ölümü dərk etmir. Ömər Xəyyam isə deyib:

Ey dördlə yeddinin məhsulu insan,
Bu dördlə yeddidə nə qovrulursan?

(Dörd: su, günəş, hava, torpaq, yeddi isə planetlər nəzərdə tutulur. Dünya bu dördlə, yeddidən yaranmışdır). Sədi Şirazi yazırdı: "İstəmədən doğuluruq, əzabla yaşayırıq, həsrətlə ölürük". İsgəndər ən büyük xoşbəxtliyi özünü dərk etmədə görürdü. Xızıra gəldikdə isə o peyğəmbərlərdən biridir. Bizim xalq nağıllarında Xıdır Nəbi kimi təqdim olunur. Onun haqqında bir çox rəvayətlər vardır. Ədəbiyyatda və əfsanələrdə Xızırın zülmətə getməsi və abi həyatdan (dirilik suyundan) içməsi hekayəsi gah İsgəndərə, gah da İlyasla bağlanır. Başqa bir məlumata görə, Xızır, əsatirə görə İsgəndərlə zülmətə dirilik suyunu axtarmağa gedəndə İsgəndər qoşununun bayraqdarı olmuşdur.

Sən ey Xızırın bayrağı, ucal, cihad eylə sən,
Nuhun qeyzi, namərdi batır, bərbad eylə sən.

Beyitin mənası: ey Xızırın bayrağı, məni əbədiyyətə qovuşmağa qoymaq istəməyən düşmənləri məhv etmək üçün ucal, ey Nuh! Məni görməyə güzü olmayan kafirlərə bir bəd dua eylə ki, tufanda məhv olsunlar.

Əbədiyyət yoluna kim yolçusa cahanda,
Odur Xızırın yoldaşı, odur Musa cahanda.

Qəza və qədərin fəlakətli yoluna yalnız möhkəm iradəli, sabit qədəm fəlakətə düçar olmuş insanları xilas etmək üçün Xızır kimi çalışqan müqəddəs bir adama Musa peyğəmbər kimi mətn və möhkəm bir

insan yoldaşlıq edə bilər. Bütün yuxarda çəkilən adların Qubada (keçmiş Qabıssan, sonra Şirvan) olan bir diyarda ziyarətgahları var. Onlardan birinə Xıdır Zində baba ziyarətgahı deyirlər. Zində - diri qalan, heç vaxt ölməyən mənasındadır. Bayraqdar həmişə ən ləyaqətli adam olardı ki, Xızır da İsgəndərin bayraqdarı idi. Beş barmaq dağıda bu adlarla bağlıdır. Beş peyğəmbərə, müqəddəsə işarədir. Bu yerlər tarixən, lap qədimlərdən ziyarətgahlar olub. (ehtimallardan biri)

Bu peyğəmbərlər Beşbarmaq dağın da namaz qılmışlar və onların ayaq basdıqları yerlər bu gün də xalqın üz tutduğu müqəddəs ziyarətgahlardır. Xüsusi isə Şirvanlıların. Çünki hadisələr əsasən Şirvan çöllərini əhatə edən yerlərdə cərəyan etmişdir. Xızıra, onun müqəddəsliyinə dair A.A.Bakıxanovun da əsərlərində xüsusi yer verilir. O, deyir:

Nəfsin İsgəndər olub zülməti – təb üzrə.
A.Qüdsi

Təb - məkan deməkdir. Eşq oldu həyat çeşməsi, Xızır oldu həvadar.

Dini rəvayətə görə ancaq İsgəndər Zülqərneyn ilə Xızır Zülmətdə dirilik suyu axtarmış və Xızır suyu tapıb içmiş, İsgəndər isə ondan məhrum olmuşdur.

Beytin mənası: Nəfs – İsgəndər kimi təbin zülməti izərsində yolunu itirmişdir.

Eşq – dirilik suyudur. Xızır isə şairin eşqə olan həvəsidir. Həmin ərazidə Qaraxan baba adlı bir ziyarətgah da var. O, ad da müqəddəslikdən xəbər verir. Ancaq heç kim maraqlanmayıb ki, bu şəxs, müqəddəs adam, kim olmuşdur?

Hind sərkərdəsi İsgəndərin ən yaxın və güclü silahdaşlarından olub və dirilik suyu dalınca gələnlərdən biri o idi. Xıdır İlyas adında ziyarətgahı və müqəddəs yerlər Quba şəhəri ərazisindədir.

İlyas – dini rəvayətə görə peyğəmbərlərdən biridir. Yəhudiləri (Quba yəhudiləri) bütpərəstlikdən əl çəkməyə təbliğ etmiş və bunun üstündə təqib olunduğundan qaçıb mağaralarda yaşamışdır. Bir çox möcüzələr göstərmiş, sonra qeyb olmuşdur.

Başqa bir rəvayətə görə, İlyas da Xızır ilə (demək İsgəndər ilə) Zülmətə getmiş, abu həyatdan içmiş, (dirilik suyu) indi də guya Xızır quruda, İlyas suda yaşayır. İsgəndərnamə səh. 406

Gedər gəlməzə atını çapdı Xızır,
Ətəyini isladıb Çeşməni tapdı Xızır.

Burada başa çatdırılmayan səfəri nəzərdə tutulur. Xızır zülmətdə tapdığı dirilik suyuna alüdə olub, öz ətəyini yaş etdi. Ətəyini yaş etmək – islatmaq ifadəsinin məcazi mənası "günahkar" deməkdir.

Yəni əbədi həyat naminə Xızır peyğəmbərlik toplusunun arxasınca getməyib. Dirilik suyunun dalınca qaçdı və beləliklə Allahın qabağında günahkar oldu. Səh.162.

Nə üçün Xızırın balağı islandı və günahkar oldu? Əgər N.Gəncəvi dahi şair Baba dağında olsaydı, bu məsələni daha qabarıq şəkildə verə bilərdi. Baba dağının hündürlüyü 3690 m-dir. Təxminən 4 km-ə yaxındır. Dağın zirvəsində Nuhun ayağının dəydiyi yer var. Ziyarətçilər bu yerlərə hər il avqust ayının 7-dən 20-dək olan müddətdə ziyarətə gəlirlər. Sonradan iqlim

şəraitinə görə bu dağa çıxmaq qeyri-mümkündür. Maraqlıdır, bu dağ yeganə ziyarətgah zirvəsidir ki, buradan bütün Azərbaycan görünür. Dağın zirvəsində nə qədər yorğun olsan da orada oturmağa yer yoxdur, ancaq dövrə vurursan. Hər adam, ya ziyarətçi bura qalxa bilmir və peşiman geri qayıdanlarda olur. Dağın zirvəsinə 2-3 km qalmış yolun solunda təxminən 20-30 sm diametrində iki ovuc yerləşə bilən kiçik bir çala var. Ziyarətzilər ovuclarını bura tutub su içirlər. Əslində dirilik suyu budur. Bu sudan hər adam içə bilməz. Bəzi adamların istəyini ödəyir. Bəzilərinin isə başa çatmasına səbəb olur. Bax bu mənada Xızır balağını islatdı, yəni peyğəmbər ola bilərdi, lakin günah işlətdiyi üçün ola bilmədi. Əslində isə, suyu birinci İsgəndər içməli idi, nədənsə Xızır içdi. Beləliklə İsgəndər dirilik suyunu tapa bilmədi məsələsi bununla bağlıdır.

Bəli, bu müqəddəs adlar buradakı, əməllərlə bağlıdır. Onlar buraya, Azərbaycana ziyarətə gəlmələri fakdır. O vaxtlar dünyanın 72 xalqın və ya yeddi ölkənin qibləgahı, müqəddəs ocaqları Qabıssan və Dağıstan ziyarətgahları idi. İsgəndər bura düyüşə yox, məhz ziyarətə, İbrahim ocağına, Nuhun ocağına, babası Uveysin ocağına gəlmişdir. Onların şərəfinə burada xeyirxax işlər görmüşdür. Ona görə də onların adalrı bu dağlarda, qayalarda əbədiləşib, müqəddəsləşib.

Diriliyin çeşməsi qaynar zülmət qoynunda

Əfsanəyə görə dirilik suyu yerin altında, zülmətdə yerləşir. İsgəndərlə bağlı olan bu peyğəmbərlərin tarixi

ilə əlaqədar İsgəndərin şəxsi həyatının bəzi çalarlarına diqqət yetirmək düşərdi. Əlbəttə, burada bələdçimiz yenə də N.Gəncəvinin sehrli söz dünyasıdır.

Yunanıstan idi onun məskəni,
Makedoniyadı onun vətəni.
Qanunlar qoyardı yeni və parlaq,
Ulu babasıydı Eys İbn – İshaq.

İshaq – dinlər tarixinə görə peyğəmbər sayılır. İbrahim Peyğəmbərin oğlu, Eysin isə. atasıdır. Ərəb tarixinə görə İsgəndər Zülqərneyn Eysin nəslindəndir. Bəli, Atəşpərəstlər, İbrahim məkanının övladlarıdır. Atəşpərəstlərin vətəni Qabıssan və Təbriz olmuşdur. Sonradan Atəşpərəstlər Misirə və Hindistana yayılmışlar. Romalıların (XII legionun) Qabıssan qayalarındakı çəkdikləri xaç şəkli Ərəblərin zəkdiyi qövs işarəsi əcdadlarının buradan olmasına işarədir. N. Gəncəvi əsərlərində fikrimizi təsdiq edən başqa beytə nəzər salaq:

Sarıydı Musanın danası, əlbət,
Çox verdilər ona odur ki, qiymət.

Tövrat əfsanəsinə görə, Musa peyğəmbər yəhudiləri Misirdən Fələstinə gətirdikdən sonra onlar üzün qızıldan bir dana büt düzəldib ona sitayiş edirlər. Sonradan o büt, Musanın peyğəmbər olmasına şəhadət vermişdir. Yəhudiləri Misirdən Fələstinə gətirdi ifadəsi olduqca maraqlıdır. Əvvəla, öküzün ən qədim təsviri Qabıssanla bağlıdır. İnsanların bürc altında doğulması kimi hər bir məkanın da öz bürcü var. Qabıssan adlanan

məkanın bürcü buğadır (Öküz). Şirvan isə şir bürcüdür. Ötən yazılarmızda öküzün yeddi mənası olması barədə məlumat vermişik. Mənaların çoxsu dini mahiyyət daşıyır. Yəhudilərlə söhbətimizdə "Quba yəhudiləri qədimdir, yoxsa Fələstin yəhudiləri" deyə verdiyimiz suala "Quba yəhudiləri daha çox qədimdir" cavabını almışıq.

İsgəndər Daranı məğlub etməklə dünyanın birinci və axrıncı hükmdarı oldu. O, dünyada Qərblə Şərqin yeganə hükmdarı idi.

İki qərn sahibi qoymuş hamsını,
Çünki Şərqdən, Qərbdən almış kamını.

Ərəb dilində "Qərn" süzü həm ölkə, həm əsr, yüz illik, həm də buynuz deməkdir. Bu beytdə İsgəndərin Şərqi və Qərbi fəth edib iki qərn sahibi olduğu üzün Zülqərneyn (iki buynuz) adlandırılması göstərilir.

Deyirlər qərn qoşa hörüyü varmış,
Onu kürəyinə daim atarmış.

Misradakı "qərn" sözü saç, hörük mənasındadır. Guya İsgəndərin hörüyü olduğu üçün "hörüklü" ləqəbini almışdır. Məlumatlara görə büyük Hun sərkərdəsi Atillanın isə bir hörüyü varmış. O, dövürlərdə belə bir fikir varmış ki, vergili adamlar qüvvəni saçdan alır.

Səbdizə vurunca gündüz qızıl nal,
O dünya günəşi atlandı dərhal.

Bu beytdə Səbdiz – gecə, qızıl nal - günəş, dünya günəşi isə, İsgəndər şah əvəzinə işlədilib. Beytin məna-

sı belədir: səhər açılıb günəş doğacaq, İsgəndər atlanıb, yola düşdü. İsgəndər dünyada yeganə sərkərdə olub ki, yeddi gün at belində, yatmadan yol gedə bilirdi. Onu qeyri-adi vərdişləri olmuşdur. Hamı İsgəndərin biliyinə, bacarığına həsəd apardığı halda İsgəndər həyatda yalnız bir şəxsə, onun müdriklüyünə həsəd aparmışdır.

Bir dəfə büyük filosof Diogenlə üz-üzə gəlir. Diogen rəvayətlərə görə, meşədə, ağac koğuşunda yaşayırmış. Çünki onun fəlsəfəsinə görə insan təbiətdən yaranıb, təbiətdə də yaşamalıdır. Bir gün yaşadığı ağacın qarşısında oturub özünü günə verirmiş. Bu zaman qoşunu ilə yol keçən İsgəndər Diogeni görür və yaxınlaşıb mehribanlıqla, nəvazişlə ona deyir:

- Ey büyük alim, sən nə üçün meşədə yaşayırsan, gəl mən sənə ev, saray bəxş edim, orada yaşa, sənin yerin bura deyil.

Diogen ona cavab verir:

- Sən mənə heçnə verə bilmərsən

İsgəndər təəccüblə:

- Deyəsən, sən məni tanımadın... mən Makedoniyalı İsgəndərəm, dünyanın yarısı mənim əlimdədir, nə istəsən sənə verə bilərəm.

Diogen:

- Sən mənim qullarımın qulusan mənə nə verə bilərsən ki? (qızıl mənim qulumdur, sən qızılın, şöhrətin qulusan, məndə sənin qulun ola bilmərəm).

Dünyanın altını-üstünü bilən İsgəndər bu sözlərdən heyrətlənir:

- Ey büyük alim, axı mən başa düşmədim...

Diogen izah verir:

- Mənim içimdə nə qədər desən arzu, istəklər var. Ancaq mən onları boğuram. Çünki Allah onları insana qul olmaq üçün verib. Sən İsgəndər isə, arzu və istəklərinin qulusan. Onlar nə istəyir, onu da edirsən. Qul olası bir şeyə özün qul olmusan. Deməli, sən mənim qullarımın qulusan, sən mənə nə verə bilərsən ki? Xeyirin o ola bilər ki, günün qabağından çəkiləsən.

İsgəndər müdrikin bu büyük fəlsəfi məna daşıyan sözlərindən heyrətə gələrək deyir:

- Ey büyük alim, çox sağ ol. Əgər mən İsgəndər olmasaydım, hökmən Diogen olardım.

Haşiyə:

Bir gün elmə və təhsilə büyük qiymət verən Atatürkdən soruşurlar:

- Sən baş bakan olmasaydın, kim olardın?

Atatürk cavab verir:

- Mən baş bakan olmasaydım, hökmən təhsil naziri olardım.

Bir dəfə İngiltərənin baş naziri Çörçilə gözəl bir xanım yaxınlaşıb deyir:

- Mən sənin arvadın olsaydım, şərabına zəhər töküb öldürərdim.

Çörçil cavabında:

- Mən sənin ərin olsaydım, o şərabı tərəddüd etmədən başıma çəkərdim.

İsgəndərində həyatında elimlə, alimlərlə bağlı maraqlı hadisələr çox olub. Özünün təmkinli davranışı, ağıllı rəftarı ilə ətrafdakıları həmişə heyrətləndirirdi. Məsələn, İsgəndər Daranın məktubunu alıb oxuyan kimi dərhal onun evinə getdi. Hamı ilə xoş rəftar etdi. Heç kimin qəlbinə dəymədi. Vəzir Daranın ailəsini və

camaatı başa saldı ki, Daranın ölümündən onun xəbəri olmayıb. Bununla da kini və küdurəti aradan götürmüş oldu. Daranın fərmanını onun ailəsinə oxudular. Fərmana əsasən, Daranın qızı Rövşanənin onunla ailə qurmasına könüllü razılıq aldılar.

Elziyə tərcüman belə süylədi:
İşi tez bitirin durmayın geri!
Şahın kölgəsində yaşa əbədi!
Bu evə uca şah nəslindən yarar,
Yel ilə gələni yel də sovurar.
Qızıldan yazılsın gərək bu sözlər!
Çarvadar əkəni dəvəçi biçər.

Çarvadarla dəvəçi eyni rütbədə və eyni hüquqdadırlar. Birinin əkdiyini ona bərabər və tay olan ikisi biçə bilər.

Atalar rəsmi ilə uca tacidar
Eylədi özünə Rövşanəni yar.
Kəyan rəsminə də riayət etdi,
Ürəkdən çox hörmət, məhəbbət etdi.
Şənlənsin deyə bu ömrün bağı,
Kəbinə yazıldı İran torpağı.

Rövşanənin anası yaxın gələrək, hər ikisinə xeyirdua verdi. Kövrək – kövrək İsgəndərə bu sözləri dedi:

Mehriban anası gəldi irəli,
Dənizə tapşırdı incə gövhəri:
"O, uca padşahlar nəslindən nişan,

Yalnız bu boy atmış, sərvətdir qalan.
Mən ona demirəm qiymətli gövhər,
Ya da ki, ərinə adlı – şanlı ər.
Atasız qalmışdır, dərdə salınmış,
Yetimdir, əlindən mülkü alınmış.
Əmanət tapşırdım sənə bir çiçək,
Bir sən bil, bir əqlin, bir də gələcək."

İsgəndərin Daranın qızı Rövşənəyə böyük hörməti olmuşdur. Rövşənə isə öz müdrik ağlı, bacarığı ilə İsgəndərin dərin məhəbbətini qazanmışdır. Hətta İsgəndər bir gün onu görməyəndə darıxırmış. Şahlıq sarayının bütün açarlarını ona tapşırmışdı. Nəhayət İsgəndər Rövşanə ilə evlənmək qərarına gəlir. Toy zamanı İsgəndər büyük dövlətin şahlıq rəmzi olaraq, belinə yeddi qızıl kəmər bağlamışdı. Kəyanda adət belə idi. İsgəndərində bu adət xoşuna gəlmiş və buna əməl etmişdir. Bütün ölkələrin padşahları İsgəndərin toyuna, öz adlarına, İsgəndərin adına layiq qiymətli hədiyyələrlə gəlmişdilər.

Nilin mənbəyindən ta Gərdə qədər,
Çin dənizlərindən ta Zəndə qədər.
Elçilər axışdı xərac verməyə,
Taxtına, tacına alqışlar deyər.

Bu göz qamaşdıran hədiyyələr İsgəndərin gözündə heç nə idi. Onun qızıla həvəsi yalnız islahatlarını həyata keçirmək üçün idi. İsgəndərin təfəkkürünə yalnız bir ideya hakim idi: dünyanı öz fikirləşdiyi kimi görmək.

Pəhrizə çalışdım varlığımla mən,
Nə aciz qarınca, nə də güclü fil,
Əlimdən bir zərər görməz, onu bil.
Ovcumun içində olsa da, yenə,
Tikmərəm gözümü özgə mülkünə.
Xalq mənə versə də əziyyət kədər,
Qıymaram incisin məndən bir nəfər.
Əlimə keçşrsə, xəzinə, sərvət.
Hər kəsə verərəm, layiq bir qismət.

İsgəndər hamını varlı görmək istəyirdi. Bunun üçündə hamıya şərait yaradırdı. Eyni zamanda hamının bu ideya ətrafında birləşməsinə çalışırdı. Tənbəlliyin, haram yeməyin əleyhinə idi.

Düşgünlər, dilsizlər tapacaq aman,
Qurtulmaz əlimdən boş yeyib yatan.
Vücudu sağlamlar bunu bilməli,
Sənətdən gərək boş qalmasın əli.

İsgəndər eşidəndə haradasa bir nəfər çox zalışır, lakin yaxşı qazana bilmir, dərhal həmin şəxsə öz xəzinəsindən pay verir ki, onun əziyyəti batmasın. İsgəndər ümumiyyətlə ehtiyacı olanlara yardım edirdi. Buna görə ətrafındakı əyyanlar da ona baxıb belə etməyə çalışırdılar. Ona görə də hamı onu sevir, hər yerdə əfsanələşdirir, adına böyük rəğbət bəsləyirdilər. Bütün bunlarla yanaşı İsgəndər dinə büyük hörmət bəsləyirdi və hər işində dinə istinad edir, hər an Allahı başının üstündə görürdü:

Din ilə ağılla tutaram işi,
Yoluna qoyaram alış-verişi.

İsgəndər faydasız adamların və satqınların düşməni idi. Yuli Sezar hakimiyyətə gələn kimi ətrafındakıları dinlədikdən sonra satqınların siyahısını tutdu. Sonra həmin şəxləri həbs etdirdi və hamsını bir otağa yığıb od vuraraq yandırdı. Məhz belə satqınlıqlar bir çox şahları xalqdan uzaqlaşdırdı (yəni satqınlara meylillik).

İskəndərin əlli min muzdlu qoşunu Pars qızları ilə evləndi. Bunlardan törəyənlərə Haylar dedilər.

Dəyirman yemidir fayda verməyən,
Əfvə layiqləri bağışlayaram mən.
Dünyaya baxışla vurmuşam bəzək,
Əli açıq kimsəyə edərəm kömək.
İsgəndər kimsəyə verməz əziyyət,
Zalımı qəhr edər, məzluma hörmət.
Kim günah işləsə cəzaya çatar,
Peşiman olursa, əqlim bağışlar.
Qılıncla hər nə ki, keçirsəm ələ,
Paylaram yenə də qamçı uciylə.

Bütün bunlar İsgəndərin həm islahatçılığından, hər şeyə diqqətlə yanaşmasından və onun hikmətli bir şəxs olmasından xəbər verirdi. Təbii ki, bu əməllər İsgəndərin həm tələbkar, həm də mərhəmətli olmasından irəli gəlirdi. "Allah bağışlayandır" – hikmətinə həmişə riayət edirdi.

Məşhur sərkərdə Teymurləng də bu ideyalara sadiq qalıb. Əlbəttə, dövrünə görə O, deyirdi: "Dünyanın bir Allahı, bir qanunu və bir hökümdarı olmalıdır. Hamı bu qanunlara və hökümdara tabe olmalıdır. Onda dünya öz axarı ilə inkişaf edər". Bütün hökümdarların İsgəndərin islahatlarından xəbəri var idi və hamı ona oxşamaq istəyirdi.

HAYLARIN VƏ FARSLARIN KÖKÜ HARA BAĞLANIR?

Ermənilərin və farsların kökü hara bağlanır? Bu vurğulu sözlər, dünya tarixinin açılmayan tarixi səhifələrindən xəbər verir. Özlərini tarixin əcdad xalqlarından adlandıran bu nəsillər tarixi həqiqətləri özlərində əks etdirirmi? Haradan, hansı tarixdən doğulub bu nəsillər? Bu iki xalqın toponimləri və adlarının mənaları onların dediklərini təsdiq edirmi? Nə üçün kəyan, İran oldu? Nə üçün Pars 1930-cu illərdə Fars oldu? İrəvan Erevan oldu. Bu adlar və bu adların tarixi mənaları nəyə görə açılıb beynəlxalq aləmə göstərilməyib? Tarixə görə, toponim baxımdan mənalar açıldıqca istər-istəməz tarixin açarları tapılmış olur. Toponimlər tarixin güzgüsü və açarıdır. Bax, bu məsələlər prizmasından yuxarıda qeyd etdiyimiz məsələlərin mahiyyətini açıqlamağa doğru istiqamətlənək. Ermənilər özləri də daxil olmaqla bütün dünya onları, "Haylar" (Haystan) adlandırır. Sual olunur ermənilər, həmçinin qeyd etdiyimiz dünya xalqları "Hay" adının hansı dildə olmasını və mənasını bilirmi? Bundan əlavə natiqcəsinə danışanlar özləri də bu sözün mənşəyini və mahiyyətini bilirmi? Əlbəttə yox, bilsəydilər tarixin hansı səhifəsindəsə bunları işıqlandırardılar. Əğər ermənilər özləri də, bu sözün mənasını bilsəydilər, əlbəttə çoxdan bu adı dəyişdirib özlərindən kənar edərdilər. Onların və onların havadarlarının da türk dünyasına qarşı böhtanları da məhz "hay" sözü ilə bir bağlılıq təşkil edir. Haradan doğuldu "hay" Hayıstan sözü? Hansı

xalq tərəfindən ilk dəfə işlənildi bu söz? Bunları açmaq üçün tarixin dərin qollarına baş vurmalı oluruq. E.Ə 331-ci ildə M.İskəndər (Məqduniyyə, Makedoniyanın əzəl adı bu olub) "Kəyan" şahı Daranın üstünə hücum çəkdi. Səbəb bu ilə qədər dünyanın yeddi ölkəsi və yetmiş iki xalqı olmuşdur. Bu xalqlar və dövlətlər Daraya illik xərac verərdilər. Ancaq M.İskəndər zəncilərlə ilkin qabiliyyətli döyüş apardıqdan sonra xeyli qızıl əldə etməklə, güclü muzdlu əsgərlərə və qoşuna sahib ola bildi. Bundan sonra Daraya bac verməkdən imtina etdi və ona qarşı müharibəyə hazırlaşdı. Dara bunlardan xəbər tutduqdan sonra, ona xəbərdarlıq etmək üçü iki predmet yazısı göndərdi (əşyalar). Bunlardan biri top (kos), ikincisi isə bir topba küncüt idi. Mənası, mənim qoşunum o qədər çoxdur ki, sənin qoşunların ona cavab verə bilməz. (küncüt bunaişarə idi). Top isə bütün dünya mənim tərəfimdədir. Ona görə də bu cəfəng fikrindən vaz keç. İskəndər isə, topu özünə çəkərək bu mənimdir, yəni_artıq, dünya mənə xidmət etməlidir. Küncüt topbasını isə çölə, həyətə səpir. Çox keçmir ki, quşlar bu küncütləri dənləyir. Bununla demək istəyir ki, mənim muzdlu qoşunlarım, sənin qoşunlarını bax, beləcə udacaq. Əvəzində isə İskəndər Daraya bir torba üzərlik göndərir ki, quşlar onları yemir,-demək istəyir ki, sən məğlubsan. Bu ideoloji döyüşdən sonra, həqiqi döyüş başlanır. Döyüş bir neçə gün davam etdi. Xüsusi sövdələşmədən sonra, Daranın sərkərdələri xəyanət yolu tutaraq, ikisi sağdan və soldan qılıncı onun böyrünə sancdılar. Dara xəyanətin, daha doğrusu öz adamlarının qurbanı oldu. Elə buna görə də Dara özünü Pars budağının (Fars yox, o zaman farsların izi-tozu

olmayıb) doqquzuncu budağı adlandırıb.

Parslar qədim, Azəri adı ilə atəşpərəstlər olub. Azər-od ildırım, mələk (İlkin oda işarə, atəşgah), Azəri isə oda sitayiş edən atəşpərəstlərə deyilib. Qabıssan qayalarında bunun əyani işarəsi vardır ki, indiyə qədər açılmayıb. Dilləri isə "Quran" da qeyd edilən dağlı qövmünü dili olub.

Alban dövlətinin 26 tayfa dillərindən ən qədimi və böyüyü indiki Bakı kəndlərinin dili olub. (Balaxanı, Buzovna və s.). Bunların əcdadı isə Parslar olub. (Parslar atəşpərəstlər və zahidlər məkanın xalqı). Bütün dünya bu ölkəni, yəni otaylı-butaylı Azərbaycanı Pars ölkəsi kimi tanıyıb, dünya xəritəsinə də "Persiya" kimi tanınıb. Bunu bütün dünya bilir. Buna qədər tarixdə nə haylar olub, nə də farslar, bunu da dünya bilməlidir. Mən bunları açmaqla heç bir xalqa kin münasibəti bəsləmirəm. əksinə, həmin xalqların zatını özünə tanıtdırıram ki, qoy bilsinlər zatları haraya bağlanır. Bütün bunlar heç də pis iş deyildir. Bu yönümdən "hay"ların mahiyyət tarixinə istiqamət alaq. Yəni 30 min qoşundan doğulan nəslin 1-ci qoluna istiqamətlənirik.

M.İskəndər Daranı məğlub etdikdən sonra Daranın qızı Rövşanə ilə evləndi. İskəndərin əmri ilə onun 30 min qoşununun hər biri pars (Atəşpərəst) qızları ilə evləndi. Bu fərman dərhal həyata keçir. Bununla da Iskəndər ağlagəlməz bir səhv buraxır. Nədir bu səhv? Bəs nədə idi bu səhvin sonrakı ağla gəlməz faciəsi? Dünyanın ən qədim məkanı olan Azərbaycan üçün (əslində Azərbeycan olmalıdır. İzahı verilib) bu səhv hansı bəlalara səbəb olub?

Əvvəlki yazılarda qeyd etmişdik ki, N.Gəncəviyə

görə İskəndər 600 min, Avropa mənbələrinə görə 50-70 min əsgəri var idi. Məna baxımından say fərq etməz. Bu əsgərlər o dövürdə 72 xalqı birləşdirən dünyanın muzdlu qoşunları idi.

Bu muzdlu əsgərlərin hər biri pars qızı ilə evləndi. Nəticədə bir ildən sonra 50-30 min uşaq dünyaya gəldi. Müasir dövürə qədər bu nəsil milyonlarla olmalıdır. Sual edirik, hara getdi, necə oldu bu nəsil? İtdimi, batdımı bu nəsil? İtib- bata bilməzdi axı bu qədər nəsil.

Bəli, qətiyyətlə deyə bilərik ki, müasir dövrdə Zaqafqaziyanın, həmçinin şərq dünyasının, bəlkə də Avropa dövlətlərinin bəlasıdır bu nəsil. Parslar (Atəşpərəstlər) bunlara "hay" adını verdi. Bəli, haylar, yəni indiki ermənilər. Fikir verin, ermənilər dünyanın harasında bir qara millət görsə, dərhal sual edirlər: " Hayest, Türkest" yəni ermənisən, yoxsa Türk? Onların olmayan fəlsəfəsi belə idi, hayestdirsə, demək heç, türkestsənsə deməli, düşməndir.

Beləliklə, oxucunu yormamaq üçün "hay" sözünün ərəb və fars lüğətində mənalarına baxaq. Onda bu sözün tam dəqiqliklə mənasını açmış olarıq. Bu söz dünyada birinci dəfə təhlil olunur.

1) Hayyə - yəni həyadan doğulmayanlar. Mənası - kəbinsiz doğulanlar... Iskəndər əsgərlərinin əmrlə pars qızları ilə evlənməsinə işarə edilir.

2) Həyy(il)- 1) dəyişmiş, dəyişilmiş, dəyişdirilmiş, 2) maneə, 3) çəpər, hasar, 4) əngəf maneə.

Dəyişdirilmiş, dəyişilmiş (bialoji dillə desək calaq olunmuş)

3) Hay(il) - 1) qorxunc, hövlank. 2) azmış, azdırılmış.

4) Hay(ilə) - Nəticəsi qorxunc və faciə ilə qurtaran.

5) Hay(ir) - çaşan və çaşdırıcı.

6) Hay(ic) - 1) həyacanlandıran, narahat edən. 2) Qızdırıcı coşdurucu. Bax. ə.f.lüğəti 709

Budur hayların söz tənliyi, söz silsiləsi. Yetmiş iki millətdən əmələ gəldiklərinə görə ermənilər hələ də hara ayağını basırsa, deyirlər bu yer bizimdir. Çünki onların kökləri dünyanın hər yerindən yığılmış muzdlu əsgərlər olub. Bu dünyada onları ən çox müdafiə edən İran və Yunanıstandır. Çünki onların əmiləri yunanlar, siğə qardaşları isə farslardır. Burada qeyri-təbii heç nə yoxdur. 1828-ci il Türkmənçay sülh müqaviləsindən sonra Rusiya, xüsusi ilə İran gələcəkdə onların dövlətçiliyinə maneə olacaq bu qüvvəni özündən uzaqlaşdırmaq üçün Rusiyanın müttəfiqliyi ilə məhz Azərbaycana sürgün etmiş və ya köçürmüşlər. Rusiya isə Türk dünyasına qarşı bunları alət kimi özünə tərəf çəkib, ağuşuna aldı. Bəli, bax bu idi fateh İskəndərin tarixi səhvi. Məqsədli və ya qeyri-məqsədli, fərqi yoxdur, hər halda haylar - ermənilər bu gün demək olar dünyanın başına bir bəladılar.

İndi isə lüğəti terminlərin həqiqi mahiyyətini sistemləşdirək və açıqlayaq.

1)Hay(yə) yəni həyadan doğulmayanlar, kəbinsiz doğulanlar. Dünyada ilkin nəsil idi ki, kəbinsiz doğuldu Haylar.

2)Həy(yil)- dəyişmiş dəyişdirilmiş (bioloji dillə desək calaq edilmiş). Bəli gələcəkdə şərqi təsir altında saxlamaq üçün bu nəsillər məqsədli şəkildə, dünyaya gətirildi. Yerli xalqın fəaliyyətini və idarəçiliyini məh-

dudlaşdırmaq üçün.

Bu türk dünyası üçün əngəl, mane törədən ilk mənfi mənəvi hasar idi.

3)Hay(ül) qorxunc azmış, azdırılmış.

Bəli, bu nəsil, azdırılmış, süni yaradılmış nəsil idi ki, başqalarına gələcəkdə bəlalar gətirmək üçün dünyaya gətirildilər.

4)Hay (ilə)- Nəticəsi qorxunc və faciə ilə qurtarar. Bəli bu lüğəti termin necə müdrikcəsinə deyilmişdir ki, bu gün özünü real şəkildə göstərir.

Haylar, farslardan başqa, bütün qonşularının haradan olmasından asılı olmayaraq həqiqi mənada bəlasıdır.

5)Hay(ir) –Coşan və çaşdırıcı. Yəni birinci növbədə təsir altında olması ilə bağlı, öz xalqına əzablar gətirməklə, ətrafdakıları da, çaşqın vəziyyətə salır.

6)Hay(ıc) –həyəcanlandıran, narahatlıq gəzirəm. Bəli Türk dünyasında dünyaya gələn haylar (qol kimi suni şəkildə) Türk dünyasına qənim kəsilib, onları narahat edir: Müharibələr dalğalarını çoşdurur, ətrafını narahat edir.

Bəli, bunlardır hayların ana mahiyyəti: İskəndərin qoşunları düz bir ildən sonra, kəyanı tərk etdilər. Bax, buradan doğuldu hay-hayın getdi, vay-vayın qaldı.

Yəni hay-hayın getdi, calağ edənlər, ata haylar getdi, analar isə uşaqları ilə yetim qaldılar. Vay-vay deyədeyə. Bu zərb məsəlin elə tarixi məhz bu dövrə aiddir. Hər şey səbəbdən və mahiyyətdən doğulduğu kimi, bu misalın da zərurət səbəbi məhz budur. Bunlardır əziz oxucular Hayların ideoloji teoremləri. Əks arqument varsa qoyulsun oraya “hay” sözünə bağlamaq şərtilə.

Beləliklə, İskəndər qoşunlarının məcburiyyətdən doğulan bəxş etdiyi birinci nəsil haylar oldu.

İkinci nəsil isə farslar oldu. Nədir fars sözünün lüğəti mənası? Sözün- adının kökü Far-Fərdir.

1)Far–Fər- 3-cü məna budaq, qol budaq, əsas olmayan.

2)Fər (ağ)-vaz keçmə, əl çəkmə, ehtiyacı olmama mənasındadır, ə.f.lüğ 669.

Si

Si- otuz bax.ə.f.lüğ 569

Bəli, fars, ərəb və fars lüğətində far-farsi kimi (Fəri) yer tutur, məna açıqlanmır.

Belə halda açaq bu mənaları.

Fər-budaq, damar, yəni kökü olmayan. Bəz onda kök hara bağlanır? Lüğəti terminə əsasən, özlərinin yazdığına görə təbii ki, "si"yə. Si isə otuz mənasında İskəndərin otuz min qoşununa demək bu qol da adlanmalıdır. Fərsilər (Farsilər) Yəni siğədən doğulan farsiğələr. Bəli, dünyada kütləvi siğənin əsasında ilk dəfə İskəndər qoydu. Dünyada yeganə ölkədir ki, İranda siğəlik dövlət səviyyəsindədir. Sual olunur bəs onda, Şimali Azərbaycanda bu yoxdur? O, zaman iki Azərbaycan bir olub. Din məkanı (İbrahim dini) Alban, Şahlıq məkanı isə Kəyan olub. İskəndər də Kəyanı məğlub edib, Alban dövlətinə ziyarətə gəlmişdir. Buna dair istənilən qədər faktlar var.

And olsun o İbrahim Sufiyə,
İman gətirdiyim haman Sufiyə.

Və yaxud

Aqillər məsləhət gördülər ona,
Tərpənsin oradan Azərbaycana.

Bəli, buradan sual doğulur, İskəndər Kəyanda (İran) bütün atəşgədələri yandırdı, ancaq Azərbaycan Atəşgahına toxunmadı, onu ziyarət etdi. Çünki, Kəyan (İran) atəşgədələri süni, yalançı atəşgədələr idi. Həqiqi Atəşgah Baki (Bakı) Atəşgahı olduğu üçün onu ziyarət etdi. (buna dair istənilən qədər faktlar var).

Elə bu baxımdan da, farsla, ermənilər siğə qardaşlardır. İran özünü İslam ölkəsi adlandırır, ancaq islamın əksinə ermənileri müdafiə edir. XII əsrdə Şirvanşahlar dövlətinin, XIV-XV əsrlərdə Qara-Qövmlü (Qaraqoyunlu), Aq-Qövmlü (Ağqoyunlu) dövlətlərinin paytaxtları Şamaxı və Təbriz olub. Dilləri də, yazıları da məhz parsların (farsların) dili və yazıları olub. Mənə bu dövrlərdə də xəritələrdə Parsi (Persiya) yazılıb, Fars yox. Belə olan halda bu dil necə Fars dili ola bilər. Parsların dövləti və dili ən qədim türk dili və türk nəslinə mənsub olub, bunu dünya bilməlidir və müəyyən qism bunu əla bilir. 1930-cu illərdə sünü şəkildə Pars dönüb Fars oldu, Kəyan isə İran oldu. Təəssüflər olsun ki, bizim rus mənbələrinə söykənən tarixçi alimlərimiz bunları unutdular. Bunula da, qədim tariximiz zənci tükləri kimi bir-birinə qarşılamışdır. N.Gəncəvi, Ə.Xəqani və b. Bu dildə dünyaya məxsus əsərlərini yazıb yaradıblar, öz ana dillərində. Tarixin qarışdırılmasından istifadə edən Farslar isə məharətlə nəzakətlə bunları özəlləşdirdilər, əlbəttə havadarlarının köməyi ilə. (1828 dən).

Bəli, əziz oxucular, bunlardır Haylar və Farsilərin tarixi kökləri.

XXI əsrdə Ə.Xəqani yana-yana yazırdı:

Pars odu püskürür sinəmdən,
Hind xəncəri qəlbimi edim şan-şan

Xəqani Pars yazır, Fars yox, bəlkə bunları danmalıyıq? T.Heyerdal fikrinə görə; "ən pis əməl tarixi dəyişdirməkdir". Bunlardır mənim yazacağım acı həqiqətlər. Şübhə varsa bu iki adın toponimik mahiyyəti ortaya qoyulsun. Onlarla farsdan adının mənasını soruşmuşam, cavab birmənalı olub, bilmirəm.

İsgəndər bütün ölkələri qol gücünə almamışdı. Bəzi ölkələr onun tərəqipərvər bir adam olmasını nəzərə alıb, könüllü onun tərəfinə keçirdi. Onlar görürdülər ki, İsgəndərin idarəçiliyi güclü inkişafa xidmət edir. Müdrik dinə söykənən bir siyasət başqalarından daha üstündür.

İsgəndər dünyanı tutduğu zaman,
Şəxsi istəyinə uymadı bir an.
Çalışdı dünyanı islah etməyə,
Onunçün yetişdi bu böyüklüyə,
Həbəş və Xorasan, Qurban da Çinə,
Qol gücü görmədən keçdi əmrinə.

Hər yerdə İsgəndərin adına sikkələr vurulurdu. Lakin İsgəndər İran xalqına inanmadığından orada qalmaq istəmirdi. Dünyanı seyr etmək məqsədi ilə İranı tərk etmək fikrini ətrafındakılara bildirdi. İranda olan

Zərdüştün dini kitabının bir cildini, başqa lazımı kitabları tərcüməsi ilə bərabər, dostu məşhur filosof Aristotelin rəhbərliyi ilə Rövşanəni də Yunanıstana yola saldı. Artıq İsgəndərin Rövşanədən bir oğlu olmuşdur. Onun da adını İsgəndərus qoymuşdular. Bəzi məlumatlara görə, İsgəndər öldükdən sonra, onun düşmənləri həmin uşağı gələcəkdə fəlakətlər türədəcək bir qüvvə kimi gözdən salıb timsahlara atmışdılar.

Yüzlərlə gəlmişdir böylə gözəllər,
Onu torpaq yemiş qalmamış əsər.

İsgəndər harada bir şəhəri dağıdarsa, sonradan həmin yerdə ondan da gözəl bir şəhər saldırardı. İsgəndərin çətinə düşərkən işlətdiyi fəndlər bunlar idi. Çətinlik məqamında birinci qızılın gücündən istifadə edirdi. Məsələni qızıl tək təmiz həll edərdi.

İşi qızıl həll edə bilməsəydi, onda qılınca əl atardı. Qılıncla məsələni həll edə bilmədikdə əfsunçulardan istifadə edirdi. Əgər əfsunçular da bir iş görə bilməsə onda, natiqləri, filosofları bir yerə yığırdı. Nəhayət sonda Allaha yalvarırdılar.

İsgəndəri yunanlar çox sevirdilər. Rəssamlar bu sevgini şəkillərində əks etdirmişdilər. Şəkillər qanadlı çəkildiyi üçün ərəblər, onu mələklərlə səhv salmışdılar. Heykəllərin başında həm buynuzlar çəkirdilər, həm də deşiklər azırdılar. Axşamlar ora yanar qələmlər taxırdılar ki, bu da qeyri-adilik yaradırdı.

İsgəndər həm elm sevən həm də elm yaradan insan idi. Dünyada ilk dəfə dənizin en və uzunluq ölçülərinin təyin etməyin üsulunu məhz İsgəndər kəşf etmişdi. Bu

məqsədlə o gəminin birini sahildə saxlar, ona bağlanan ipin ucunu isə digər gəmiyə bərkidib dənizin üzərilərinə hərəkət edərdi. Bununla da dənizin eni və uzununu ölçə bilirdi.

İsgəndərdə olan səxavət də, dünyada heç bir hökmdarda olmamışdır. Onun səxavəti də həyatı kimi rəngarəng idi. Çünki büyük filosoflardan ayrılıqda səxavət dərsi almışdı. İlk müəllimi və yaxın dostu, qədim yunan filosofu Aristotel ona demişdir:

Yaxşı pis nə etsən, həmişə bil sən,
Yaxşını Allahdan, pisi özündən.

Ona görə də İsgəndər yaxşını özünə həmişə bayraq etməklə peyğəmbərlik zirvəsinə qalxmışdır. Ona görə də rəssamlar onu mələk kimi təsvir etmişlər.

İsgəndər Peyğəmbərlərin yolu ilə getmişdir

Əvvəlki yazılarda qeyd etmişdik ki, yəhudilər məhz qədim Qabıssandan Misirə getmişdilər. Bunun da köklü səbəbləri var. Bunlardan biri A.A.Bakıxanovun qeydlərində öz əksini tapır.

Xət yazı saldı dərdə necə ki, Ali Sami.
Yafəslə ham nəsli gətirmişdi fəğanə.

Sam, Ham və Yafəs dinə görə Nuh peyğəmbərin övladları olub. Sonra bunların arasında nifaq düşmüş və dünya üzərində müxtəlif tayfaların əmələ gəlməsinə guya onlar səbəb olmuşlar.

Beytin mənası: Yazın xətti dünyanı qarışdırıb, qırğın törətdi. Əvvəlki qeydlərmizdə göstərmişdik ki,

Dağıstana yaxın ərazidə olan Yəcuc və Məcuc, Yafəsin törəməsidir. Bu beyt də göstərir ki, bunlar arasındakı nifaq bu ərazidə olmuş və bundan sonra onlar dünyanın başqa yerlərinə istiqamət götürüb getmişdilər. Dünyanın bütün qütblərində qayalarda əks olunan öküz, qayıq, qayığın ortasında olan günəş şəkli, məhz Qabıssan qayalarındakı işarələrin və şəkillərin davamıdır. Yəni oradan gedən nəsillərin tarixi yaddaşıdır. Dünya səyyahı Tur Heyerdal bütün bu şəkillərin hamısına baxmışdır. Hansının daha qədim olmasını təsdiq etmək üçün uzun axtarışlar, səyahətlər etmiş. Nəhayət, Qabıssana dürdüncü gəlişində əllərini göyə qaldırmış və "mən təslim" sözlərini demişdir. Yəni Norveçin, Skandinaviya ölkələrinin kralı Aser – Odi-nin (mənası Azər odu) əcdadlarının Qabıssandan olmasını təsdiq etmişdir. Bu faktlar sübut edir ki, dünyaya yayılma Nuh tufanından sonra məhz bu ərazidən başlanmışdır. İsgəndərin ulu babası Uveysin İsakın əkiz oğlu Yaqub peyğəmbərin qardaşı Uveysin vətəni məhz Qabıssan olmuşdur. Bu barədə büyük Azərbaycan şairi Əfzələddin Xəqani üz əsərlərində də qeyd etmişdir.

Şah xələti geyinən mömin hanı dünyada,
Zənbil hörən görüblər Süleymanı dünyada.

Açması belədir ki, zərxarə qızıl saplardan toxunmuş qumaşdan libas geyinən sultanlar zahidlik etsələr, Süleyman kimi məşhur, möhtəşəm, adlı sanlı olarlar. Çünki Süleyman peyğəmbər bütün dünyada hakim və hamıdan varlı olduğuna baxmayaraq, öz əlləri ilə hördüyü zənbillərin hesabına yaşayırdı.

Yanan şamın zər səpən görüb hamı gecələr,
Gəba kimi bürünən piltə şamı gecələr.

Açması: hər gecə qızıla bənzər nur saçan şam əslində əba altında gizlənmiş zahiddir. Çünki onun Qəbayə oxşar piltədən, göz yaşları kimi tökülən yanğından başqa heç bir şeyi yoxdur.

Müqəddəslik – azandır xarabata qapılar,
İnci dolu xəzinə xarabada tapılar.

Meyxanədə zahidlik etmək, daha büyük qəhrəmanlıqdır. Bütün dünya neymətlərindən məhrum olan zəhmətkeşlərin zahidlik, tərki-dünyalıq etməsi heç təəccüblü deyil. Zahidliyi gərək dünya nemətləri ilə var dövlət içərsində yaşayanlar edib, kasıblar haqqında düşünsünlər. Xəzinə olan yerdə viranəlik kimi zahidlik etmək daha şərəflidir. Meyxanə və zahidlik, Qabıssan-Baki və Abişüruna (Bakı və Abşerona) məxsusdur. Bunun əlamətləri məhz bu məkanlardır.

Çoxdan yoxa çıxıbdı ədalətli Süleyman,
Haqsızlıqdan görünməz pəriyə dönüb insan.

Süleyman peyğəmbərin ədalətli, insanpərvərlik və pak zəmanəsi gedib, indi isə zülm, əsarət, qəddarlıq düvranı hökm sürür və buna görə əsl adam, həqiqi insan pərilər kimi gözə görünmür.

Quş dilində danışma, bələdəm mən quşlara.

Quş dili danışmaq – yəni mənasız, boş-boş danışmaq anlamındadır.

Türbətinin qübvrı döndü ənbər ətrinə,
Yurdun ənbər Vətəni, oldu sənin xətrinə.

Yəni sənin məzarının sazdığı müşkdən sənin vətənin olan Hicaz ətrafa ətir yağdırır.

Torpağın ətirlidir Süleymanın mehindən,
Cənnət də ətirlənir gülzarın şehindən.

Dini əsatirə görə Süleyman (Bibliyada – Solomon) peyğəmbər təbiətin bütün ünsürlərinə hakim idi. O, əmr edərkən külək gül-çiçəkli zəmən və bağların üzərindən keçərkən ətir saçırmış. Bəli, bu Qabıssanın qovuşmasıdır. Bu hava əvəzsiz və cana dərmandır. Qabıssan mehi Xəzərin, dağın və Aranın birgə gətirdiyi mehdir və incan üçün ətirdən də güclüdür. Bu gözəl ərazi Qabıssandan başlayır, Dağıstana kimi uzanır. Süleyman Davudun oğludur, yəhudilərin qədim peyğəmbəri sayılır. Yəhudilərin ilk məkanı qədim Qabıssan adlanan məkanın, Quba ərazisidir. Onlar sonradan Misirə və oradan Musanın təklifi ilə Fələstinə gediblər. Eyni zamanda Süleyman peyğəmbər onların padşahı olub. Tarixindən də məlumdur ki, Süleyman peyğəmbər heyvanların, quşların, balıqların, ağacların, çiçəklərin, canlı və cansız nə varsa, hamsının dilini bilib, eyni zamanda onları idarə etmək qabiliyyətinə malik olub. Hətta əsən yel də Süleymanın ixtiyarında olub. Səyahət edərkən taxtını və ordusunu yelə bağlayıb gedərmiş. Süleymanın bir üzüyü (möhürü) (möhür üzük ondan qalıb ta xanlıqlara qədər varmış) ki, guya bunun vasitəsi ilə bütün aləmə hökm edərmiş .

Daim ədalətindən nəşə duydu Süleyman,
Peyğəmbərlik tacına sanma uydu Süleyman.

Dini əsatirə görə Süleyman peyğəmbər yəhudilərin ən qüdrətli şahı olub. O, peyğəmbərlik topunu udmağa qabil idi, lakin peyğəmbərlik tacı üzün şahlıqdan əl çəkə bilmədi. Əsatirə görə Süleymanın atası Davud nəğmə yaradıcılığının əsasını qoymuşdur. Lakin o, Uryayla evlənəndən sonra səsini itirdi. Peyğəmbərlik topunu aparmaq üçün o, gərək zil səslə Allaha yalvaraydı. Lakin o, səsini itirdiyi üçün bəmə keçdi və duası qəbul olunmadı.

Davudun boğulanda, tutulanda nəfəsi,
Zilə qalxa bilmədi, inlədi bəmdə səsi.

Ə.Xəqani Süleyman Peyğəmbər haqqında daha sonra yazmışdır:

Süleymana bərabərdir hər hümmət sahibi Dərviş,
O, "Rəbbi həbli" təblinin səsindən titrər eyvanı.

Rəvayətə görə Süleyman həm peyğəmbər, həm dövlətə malik bir padşah olmuşdur. Dərviş isə kasıb və dilənçi həyatı keçirən adama deyilir. Xəqani burada deyir ki,məndəki günəş hümməti hansı dərvişdə olsa, o Süleymana bərabərdir. Bu cür hümmət sahibi olan dərviş meydanının qabağında: "Ey insanlar, qoyun keçin!" (Yəni dünya malına əsir olmayın), yaxud "Ey yatanlar, oyanın!" deyə qışqırır.

İncə sapla arlibasın əzəldən,
Bürün doqquz pərdəyə-var libasın əzəldən.

Dini əsatirə görə Allah doqquz fələyi insanların günahlarının üstünü örtmək üzün pərdə yaradıb ki, mələklər günahları görməyib yalnız savab işləri müşahidə etsinlər. Mən İsgəndəri özünə layiq şəkildə zirvələrə qaldırdım. O, buna layiq idi. Buna baxmayaraq, onun səhvini olub-olmamasını açıqlamamışdan əvvəl bir çox peyğəmbərlərin də səhvlərinə toxunmaq və həm də onlar haqqında lazımı məlumatlar vermək yerinə düşərdi. Hansı ki, bunlar oxuculara az məlumdur.

Ondan əvvəl pəriydi, əcinnəydi həyatda. Pəri, cin və mələklər Adəmdən əvvəl yarandığı üçün Adəm pərilərin axırıncı uşağı hesab olunur. Bu misranın məzmunu "Qurani-Kərim"in "Əl-hücr" (15) surəsinin 27 ayəsindən alınmışdır: "Cinləri biz əvvəl səmum atəşindən xəlq etdik".

Güvhəri tutqunsa da, güvhər kimi safdı o,
Zərdi məhək daşıdı, zərgərdi, sərrafdı o.

Adəmin cövhəri, zatı bulanlıqdır. Çünki onun cismi torpaqdan yaranıb. Təmiz və safdır. Çünki ruhu vardır. Məhək daşı isə ona görədir ki, savab və günah işləri yoxlasın. O, qızıldır. Çünki insanlıq surətinə malikdir. Sərrafdır, çünki yaxşını pisdən, xeyri şərdən seçə bilir.

Uçub qondu dəninə fələklərin quşları,
Səcdəsindən nə qədər ləngidi uçuşları.
Səxavəti ucundan mənimsədi bir dəni,
Atdı gözəl cənnəti, dünya oldu məskəni.

Fələyin quşları-mələklər. Mələklər Adəmə ona görə səcdə ediblər ki, Adəm mərhəmət və kəramət naminə buğda yeyib cənnəti atıb, dünyaya gələndən sonra Tanrının ona öyrətdiklərini mələklərə öyrədib. Mələklər hamısı ona səcdə etdi, amma İblisdən başqa. İblis Allaha deyir: "Mən sənin quru torpaqdan, dağılmış gildən yaratdığına səcdə etmərəm".

Saman kimi sarıydı, qaraldı dərisi də,
Çillikdən ay üzünün xal- xaldı dərisi də.

Yəni Adəm behiştdən çıxandan sonra onun bədəninin zərif dərisi günün altında yanıb saman rəngi aldı və ayın üzü qara ləkəsinə bənzər qara arpanı öz bədənindən dünyaya tökdü.

O zamandan ki, bəşər buğda dəni yeyəndir,
Buğda açıb ağzını: " Yeyim səni" – deyəndir.

Yəni buğda insanları cəzalandırmaq üçün ağzını azıb onları yemək istədi. Buğdanın ağzı deyərkən buğda dənəsini iki yerə bülən xətti nəzərdə tutulub.

Həyat verdi həyatsız, növraqsız yer üzünə,
Gərəndabda şahənə çadır qurdu özünə.
Günahkar, üzüqara gəlib çatdı bu yurda,
Bədmanlıq ləkəsini yuyub atdı bu yurda.

Biabırçılıqdan Sərəndibə - Seylona qaçıb orada onun günahından solmuş ismət gülünü tövbə ilə suladı. Sərədibə qazarkən günahdan saralmış üzünün

qarasını orada yerə tökdü. Dini əsatirə görə hindli və seylonluların üzləri həmin səbəbdən qaradır.

Dini əsatirə görə Adəm Hindistanda qırx il güy paltar geyərək tövbə edərək o qədər göz yaşı tökdü ki, nəhayət, fələyin fəlakəti ondan uzaqlaşdı və onun ayaqları altında göy otlar bitdi. Dini əsatirə görə Adəm cənnətdə olarkən oranın xəzinədarı güllərin, meyvə ağaclarının və başqa bitkilərin toxumunu ona vermişdi. O, isə yer üzünə gələndən sonra o toxumların hamısını çöllərə səpdi. Alim İsak Cəfərzadəyə görə Qabıssan qayaları dünyada yeganə yerdir ki, indi də orada arpa, buğda, nar, əncir, alma, üzüm və b. bitkilər yabanı şəkildə bitir. Göy paltara gəldikdə, Adəmin paltarı, Nuhun da əbası göy rəngində olub. İslamın rəmzi olan göy (yaşıl rəng) buradan götürülmüşdür.

İbrahim peyğəmbər

İbrahim kəcavədə xəcalətdən sıxıldı,
Yarı yolda üç dəfə kəcavədən yıxıldı.

İbrahim peyğəmbərlik topunu öz çovkanı ilə götürmək istədi, lakin onun vicudunun beşiyi atdan üç dəfə düşdü. Beytin məzmunu Məhəmməd peyğəmbərin hədislərinin birindən gütürülmüşdür. Həmin hədisdə İbrahim peyğəmbərin həyatda üç dəfə yalan deməsindən söhbət gedir. İbrahimin iki - üç dəfə yalan deməsindən söhbət gedir. İbrahim peyğəmbərin iki üç dəfə atdan yıxılması həmən yalanlara işarədir. Davud, Süleyman və Xızır peyğəmbərlərin səhvindən söhbət açmışıq.

Musa peyğəmbər

Camı boşdu həqiqət sorağında Musanın,
Sındı ümüd şüşəsi Tur dağında Musanın.

Musa qəbul camını götürmək istədi. Lakin buna müəyəssər olmayıb ümid şüşəsini Tur dağında çırpıb Allaha yalvardı: "Özünü mənə göstər", lakin Allahdan cavab gəldi: "Lən tərani," – yəni "sən məni heç bir vaxt görə bilməzsən" .

Niyyət bais deyildi tələşına insanın,
Atasızlıq qaxıncdı öz başına İsanın.

Yəni İsa peyğəmbər qəbul təamını, qidasını arzulamadı. Çünki atası məlum olmadığı üçün xalq tərəfindən ləkələnmişdi.

Şaha xütbə oxumaq natiqlərə nəsibdir,
Adəm İsa xətrinə asqırığı kəsibdir.

Adəm asqırağı İsa peyğəmbərə nəsib olub. Dini əsatirə görə Adəmin birinci asqırığını Cəbrayıl gizlədərək onu Məryəmin libasının qoluna üfürür və bunun da nəticəsində Məryəmdən İsayi – Məsih dünyaya gəlib.

Fələk boyaq küpüdür, sanma boyası azdır,
İsa bir boyaqzıdır, günəş də ki, rəngsazdır.

Günəş öz hərarəti və şüaları ilə bütün rəngləri ağardır. Günəş kimi göyün dördüncü qatında qərar tu-

tan İsa peyğəmbər isə boyaqzıdır. Dini əsatirə görə İsa peyğəmbərin möcüzələrindən biri də küpə bir rəng töküb ondan istədiyi əlvan rəngləri çıxara bilməsiymiş. Beytin mənası isə: insanın sazları istər qara, istərsədə ağ olsun, ikisi də bir şeydir. Biri cavanlığın hesabına qara, biri isə zəmanənin sel-sularına yuyularaq ağ olmuşdur.

İsatək bu zarığı sündür öz nəfəsinlə,
Onsuz yanan zıraqsan eşqinlə, həvəsinlə.

Dini rəvayətə görə İsa peyğəmbər günəş çırağını öz nəfəsi ilə üfürüb keçirmək və insanları atəşpərəstlikdən xilas etmək üçün göyün dördüncü qatına qalxmışdır. Bu beytdən aydın olub ki, İsa atəşpərəstliyə və ya atəşpərəstləri təkallahlığa çağırmışdır. Buradan belə qənaətə gəlmək olar ki, atəşpərəstlər Qabıssan-Təbriz (Nimruz - indiki Sistan (İran)) və Misirə, oradan Qırmızı dəniz və Avropaya yönəlmişlər. Beləliklə İsa, İbrahimin yolunu davam etdirmişdir. Musa da onun kimi dinləri bir-birinin sivil davamı kimi qəbul etmək lazımdır.

Din elimini bilmək şəriət olar,
Ona əməl etsən təriqət olar.
Sidq ilə bağlasan əməli, elmi
Həqqin rizasilə həqiqət olar.
İ.Nəsimi

Allah ilk dəfə Adəmdə görünüb. Ondan sonra gələn peyğəmbərlər onun sələfləri və davamçısıdır.

Sonuncu peyğəmbər:

Ruhunu Mustafanın anacağsız,
Və salatı ki, şərtü adətdir.
İ.Nəsimi

Mustafanın (Məhəmmədin) ruhunu hər anmada şərt və adət olduğu üzrə salavat ver. Məhəmməd adı ərəblərdə ilk addır. Əvvəlki adı Mustafa olub. Məhəmməd peyğəmbərin əmisi Əbu-Talib islamı qəbul etmədiyi üçün cəhənnəmə getməlidir. Lakin Məhəmmədlə qohumluğu onu səhnə kimi cəhənnəm odundan qoruyur. Çünki Allah tərəfindən qəbul olunmuş xoşbəxt peyğəmbərin həqiqəti görən nəzəri saf və xeyirxah adamları qoruyub əzabdan xilas edir. Əbu-Talib islamı qəbul etmədiyinə baxmayaraq alicənab və xeyirhaq adam olmuşdur. Dini əsatirə görə Adəm peyğəmbər Allahın tikdiyi bu cavan, təzəcə bəzədilmiş dünya ev divarının birinci layı, Məhəmməd isə, axırıncı kərpici və bəzəyidir. Məhəmmədin hədisindən alınmışdır: "Mənimlə məndən əvvəlki peyğəmbərlərin məsəli ona bənzəyir ki, bir kişi ev tikir, onu bitirir, bəzəyir, lakin bircə damının tağının (Frontonundan) başqa. Mən peyğəmbərlərin sonuncusu olaraq həmin damın tağıyam".

Adəmin də, Nuhun da kələfləri dolaşdı,
O dolaşıq düyünü sənin əllərin açdı.

Dini əsatirə görə Adəm cənnətdə buğda (Bibliyada – alma, Quranda isə ağac və onun meyvəsi yazılıb). Demək bu buğda deyil, almadır. Buğda yeyilmir, un edilir, sonra çörək kimi yeyilir. Bax.ƏrafSurəsi) yeyib günaha batandan sonra onun tövbəsi yalnız Məhəm-

mədin şəfaəti nəticəsində qəbul olunmuş, Nuh da tufandan Məhəmməd peyğəmbərin vasitəsi ilə zıxmışdır. "Sirlər Xəzinəsi" səh. 161

Məhəmmədin " daşı", yəni vəzni, qədr və əzəməti o qədər ağır və böyükimiş ki, tərəzinin onu çəkməyə qabiliyyəti olmamış və başını onun qabağında yerə əyib səcdə etmişdir.

Varlığın lüvhəsində ilk söz yazanda qələm,
Əhmədin " əlif " ini yazıbdır onda qələm.

Lövhü – məfhuzda yazdığı birinci hərf "əlif" olmuşdur. Ərəbcə Məhəmməd – şərəfli, şanlı deməkdir. Əhməd də həmin kökdən (həmədə) və həmin mənada olduğu üçün peyğəmbər bu adla məşhurdur.

Turuncun adətdir: Gül açmaz ilk baharda,
Meyvəsi yetişəndə yetişər ilk baharda.

Turunc ağacının meyvəsi baharın əvvəlində yetişir, üzü isə baharda yenidən gül açır.

Məhəmməd ə. s. bütün peyğəmbərlərdən sonra gəlməyinə baxmayaraq, lövhü – məhfuzda o, birinci peyğəmbər yazılmışdır. Yəni onun peyğəmbərlik rəsaləti bütün Tanrı elçilərindən əvvəl olmasına baxmayaraq, özü bütün peyğəmbərlərdən sonra dünyaya gəlmişdir.

İsgəndər sanki ömrünün xəzan çağının yaxınlaşdığını hiss etmişdir. Ona görə də dünyaya sığmayan arzularını yaşadığı ömrünə sığışdırmaq üçün var gücü ilə sanki tələsirdi. Onun həyatı sanki əvəzsiz bir əsər

idi və onu tamamlamaq istəyirdi. Hər kəsin, hər el-oba öz işində - gücündə, toy – bayram idi, İsgəndəri isə bu təmtəraq maraqlandırmırdı. Onu ancaq ali məqsəd düşündürürdü. O, məqsəd isə dünyanın istədiyi mənada, istədiyi rəngdə görmək idi.

Şair dediyi kimi;

Ömrünün piyaləsi artıq dolmuşdur,
Onun özünə də yol dar olmuşdur.

Dünyaya gələn hər bir insan üçün, həyatda iki qapı var, birindən girər digərindən çıxar.

Bu yeddi budaqlı, altı cəhətli,
Dövrəsi meydanı, yeri vüsətli
Sərvdən ucaldı bir qiyabi səs:
"Daha fatehlikdən əl çək, bəsdir bəs!
Bəsdir, bu dünyanı gəzməkdən əl çək,
Daha ilk mənzilə dönəsən gərək."

Yəni, bu yeddi qat fələyə, altı cəhətə (sağ, sol, ün, arxa, üst, alt) malik geniş dünyadan bir səs eşitdi ki, daha ölkələr fəth etməkdən əl çək.

Pəncəni bu dünya işlərindən çək,
Qayıt öz evinə, get beş ayadək.
Yunan torpağına dönməlisən sən!
Ayıldı İsgəndər sanki məstlikdən.
Məhrəm dostlarına açıb bu sirri,
Ordan Ruma sarı qayıtdı geri.

Ölümünə beş ay qaldığı ona ayan oldu. Ölümün qoxusunu alan İskəndər ah çəkib çox məyus oldu.

İsgəndər dərhal qoşunu ilə vətənə döndü. Dəyişkən hava şəraitində şəhərlər, kəndlər keçdi. Zur şəhərinə zatanda onu halı pozuldu (Zur Babilin yaxınlığında bir şəhərdir).

Onun can köhləni artıq pozuldu,
Taqətdən düşərək, yol getməz oldu.

İsgəndər həm fateh, həm peyğəmbər, həm də böyük bir səyyah idi. Onun həyatı lazimi şəkildə araşdırılsa məlum olar ki, o elmə bir çox töhfələr vermiş böyük şəxsiyyət idi.

Ümumiyyətlə, səyahların həyatı çox vaxt gözlənilməz hadisələrlə dolu olur. Məsələn, XVIII əsr səyyahı Zeynalabdin Şirvani gəmidə vəfat edib. A.A.Bakıxanov Məkkədən geri dönərkən Fatmeyi-Zəhrada dünyasını dəyişib. Amerika səyyahlarından birini isə, okeanda Akulalar parçalayıb. Bunların sayını artırmaqda olar. Bəli, əbədiyyətlə müqayisədə ömür bir andır. Ölüm isə onun bir addımlığındadır.

Həyat dediyiniz bir aşsüzəndir,
Bil hamı oradan süzüləcəkdir.
Həyat dediyiniz ətirli çiçək,
Əzrayıl əlilə üzüləcəkdir.
Ş.Q

İsgəndərin ölümünün səbəbləri müxtəlif şəkildə yozulur. Bunlardan biri də onun sətəlcəm olması idi ki, bu da yüksək hərarətə malik qızdırma idi. İsgəndər bu qəfil xəstəliyi gözləmir və ucuz ölümə səbəb olan xəstəliklə barışmaq belə istəmirdi. O, qasidi Yunanıs-

tana, yaxın dostu və müəllimi Aristotelin dalınca göndərir. Tapşırır ki, özünü İsgəndərə çatdırsın. Özü ilə gələndə isə yüz və ya əlli həkim və alim gətirsin. Dərhal onun arzusu yerinə yetirilir. Həmin adamlar gəlirlər, lakin artıq gec idi, həkimlər çox çalışsalarda onun xəstəliyinin çarəsini tapa bilmirlər.

Artıq hökümdarın işi bitmişdi,
Əbədi dincəlmək vaxtı gəlmişdi.
Daha can köhlənib asta gedirdi,
Gedər gəlməz yola səfər edirdi.
Ayı yəhərləyən həmin İsgəndər,
Ölüm yatağında baş qoyub inlər.

İsgəndərin dünyada bilmədiyi bir şey yox idi. O,həyatda heç bir çətinliyin qarşısında aciz qalmamışdı. Xəstəlik onu çaşqın bir vəziyyətə salmışdı. O.bütün gücü ilə bu problemi həll etmək istəyirdi. İsgəndər ölümdən yox , həyata keçirə bilmədiyi arzulardan qorxurdu. Nəhayət , məğlubedilməz fateh, ölümə məğlub olacağını duyduğunu hiss edib, vəsiyyət etməyə başlayır:

Əlac eləsə də təbib nə qədər,
Ömür tükənibsə, nə fayda verər?
Əcəl yetişəndə tapıb bəhanə,
İnsana min əzab verər zəmanə,
Ruzigardan o qədər inciyər insan,
Özü ölümünü istər Allahdan.

Buna baxmayaraq həkimlər, alimlər təslim olmaq istəmir. İsgəndəri həyata qaytarmaq istəyirdilər. Lakin İsgəndər bədəninin tük kimi incəldiyini görüb anlayır-

dı ki, edilən cəhdlər əbəsdir. Bəli, həyatda ən qorxulu şey bu dünyadan nakam getməkdir. İsgəndərin qısa ömründə qazandığı uğurlara, şan-şöhrətə, dünya fatehi olmasına, qoyub getdiyi bir çox yeniliklərə və özündən sonra min illərdir yaşayan ad-sanına baxanda, onun 33 il yaşadığı həyatdan nakam getmədiyini söyləmək olar. Heç kim nakam ölümlə barışmaq istəməz. Ancaq həyatda yaşayan hər bir şəxs ətrafında bu acı "meyvəni dadır". Lakin həyatın üz qanunları var. Allah ölümü verməmişdən qabaq səbr də verir.

Çırağın əcəli çatıbsa əgər,
Ona öz yağı da yetirər zərər.
Çürümüş bir meyvə ağacda durmaz,
Düşəcək, tərpənsə budaqda bir az.
O, öz ölümünü gözüylə görcək,
Özü öz halına ağladı şam tək.

Şamın yanarkən əriyib damla-damla tükülməsi nəzərdə tutulur. İsgəndər qızdırmada qovrulurdu. Artıq onun danışığı fatehlikdən uzaq idi. Dildən süzülən kələ-kötür sözlər başqa bir İsgəndər dünyasından xəbər verirdi. Bunu dahi şair N.Gəncəvi çox gözəl təsvir edərək yazır:

Hardadır, çatdırın xəzinədara,
Bəlkə rüşvət verib məni qurtara.
Mənim od qılınclı qoşunum hanı?
Qovsun canımdakı bu qızdırmanı.
Ən qorxunc divləri tutub ram edən.
Təxt-tac sahibi İsgəndərəm mən.

Böyüdüb çoxunu etdim hükmran,
Çox qoyun almışam qurdlar ağzından.

Son anda İsgəndər bütün alimlərin adını çəkir. Düzdür, adlarını çəkməklə onlardan imdad istəyir, lakin bu, ilk baxışdan belə görünür. Əslində isə bütün bunlar xəstə yatan İsgəndərin arzusu idi. İsgəndər bu alimlərin adını çəkməklə onlarla sadəcə vidalaşırdı. Dünyanı hər işini bilən İsgəndər çaşdırıcı xəstəlik olmasaydı, ölümü də asanlıqla qarşılayardı. İsgəndərin son sözlərindən hiss olunur ki, beyinlə can bir – birinin əksinədir, baş bədənə tabe olmur.

Hanı yollarına qızıl səpdiyim,
Dərin düşüncəli yüzlərlə həkim.
Hardadır Ərəstun? Tapa bir dərman,
Min biliyilə qurtara dardan.
Hanı əfsun bilən həkim Bəlinas?
Gəlib İsgəndəri eyləyə xilas.
Hanı bəs Əflatun, o təmiz insan,
Mənim bu dərdimə eyləyə dərman.
Hardadır o böyük bilici Valis?
Desin bu mərəzə nə oldu bais?
Çağırın Sokratı bəlkə əqlilə,
Bu bağlı qapını o, aça bilə.

Bəli, bu adlar sonuncu dəfə səslənirdi İsgəndərin dili ilə. Onlardan ayrılmaq istəmirdi İsgəndər. Sokratın tələbəsi Platon idi. Platonun tələbəsi Aristotel ideyada müəlliminə əks getdiyi üçün, Platon onu dayça adlandırmışdır. Dayça, bildiyimiz kimi, ansını əmdikdən son-

ra ona təpik atır. Lakin Platon ondan incimirdi. Aristotelin tələbəsi isə İsgəndər olmuşdur. İsgəndərdə bu alimlərin ümumiləşmiş gücü var idi. Nəhayət, İsgəndər son vəsiyyətlərini dostlarına çatdırır. O, deyir: "Bir quş dağa qonub qalxarsa, o dağ nə artar, nə də əksilər. Mən də bir quş idim, ölkəm isə, bir dağ, Getsəm ölkəm qara geyib, yasa batacaq."

Çoxuna mərhəmət, lütf eyləmişəm,
Görən də olubdur əlimdən sitəm.
Zalım olmuşamsa, əvf edin məni,
Tabutum torpağa olanda təslim,
Pak ruhum paklara qovuşar mənim.
Başa kül sovurmaq əvəzində siz,
Mənimçün Allaha dua edərsiz.

Bu işarələr atəşpərəstlərə aiddir. O, zamanla kiminsə əzizi öləndə adamlar ehtiram əlaməti olaraq başlarına kül qoyardılar. İndi dilimizdə işlənən "Kül başına" – sözləri də o vaxtdan qalmışdır. Ölən insanlara "Öldü" – yox, "Geri qayıdanlar" – deyərdilər.

Bundan sonra İsgəndər mirzələrdən birini çağırıb anasına məktub yadırır: " Ana, mənim ölüm xəbərimi eşitsən, nə badə fəryad qoparasan. Bu acizlik İsgəndər anasına yaraşmaz, sən fateh anasısan."

Ən büyük sərkərdələr, hökümdarlar, böyük ölkələrin rəhbərləri həmişə analarını hədsiz dərəcədə seviblər. Məsələn, dünyanı – faşizmlə lərzəyə salmış Adolf Hitler deyirdi: "Mən adi bir kəndli ananın oğluyam. Lakin onun oğlu anasını dünyaya tanıtdırdı." V.Lenin də öləndə anasının yanında dəfn olunmasını vəsiyyət

etmişdi. Fransanın sabiq prezidenti Fransua Mitteran da anasının yanında dəfn olunmasını istəyir. İsgəndər də ansını hədsiz dərəcədə sevirdi . O, səfərə çıxarkən, Yunanıstanın idarə edilməsini anasına həvalə etmişdi.

Məndən – İsgəndərdən bu namə getsin,
Dörd yox, bircə olan anama yetsin.

Dürd ana deyərkən, həyatın yaranmasında əsas sayılan dörd ünsür (su, od, hava, torpaq) nəzərdə tutulur. Beytin mənası: məktubum təbiət hadisələrinə görə ləngiməyib, yeganə əziz anama çatsın. Bu xəbəri eşidən bütün Yunanıstan sarsıldı. Ölkə başdan – ayağa qara geyindi.

İsgəndər anasına yazdığı məktubda deyirdi:

Anacan, qətrəyə döndüsə çeşmə,
Su qabı suda da sınar, qəm çəkmə.
Ağacdan düşdüsə, bir qızıl alma,
Narınctək rövnəqdən düşüb saralma.
Soldu, sarı gülün getdi növrağı,
Qalsın qızıl gülün yaşıl budağı.
Yanma, bəslədiyin bala qayıtmaz,
Əlini oyana ürəyinə bas.
Zaman etsin səni bu addan kənar,
Sənə səbr versin o pərvərdigar.

Anacan, məktubum sənə çatanda qaşlarını çatıb kədərlənmə. Bu fani dünyada mənim üçün yas tutub, qara bağlama. Dünyanın axırı budur, qamətini əymə, mətanətlə dur. Bəli, insanların əksəriyyəti ölərkən son

anda bu sözləri deyir, bu da axırı. Lakin axırıncı bu üç söz hamıya eyni cür şamil olunmur. Hər bir insan üçün ayrı-ayrı mənalar daşıyır. N.Tusi deyir ki: «Þlümdən o, şəxslər qorxur ki, ölümü dərk etmir. Ölümün içində yüz cür ölüm var.» İbrahim peyğənbər buyurur: «İki dünya var, birinci maddi, ikincisi mənəvi. Bunlar iki gövhərdir. Birinci gövhəri elə cilala ki, həm bu dünyada, həm də o dünyada onu boynundan asa biləsən.» İsgəndər bu gövhəri bu dünyada nəinki cilalamışdı, hətta o dünyanın özünü bu dünyada yaxşı cilalamışdı. Özü də əvəzsiz cilalamışdı. İsgəndər çox gözəl başa düşürdü ki, o, ölümüylə ölmür, o, ölməklə yenidən doğulur. Bəli, insanlar nə dünyaya gəlməyini, ilkin olaraq, nə də dünyadan köçməyini bilmir. Çünki bu sirr, yeri-göyü və insanı yaradan Allaha məxsusdur. Bəli, bunlar İsgəndərin son vəsiyyəti idi.

Məktubu yazdırıb o, yola saldı,
Özü də cənnətə sarı yol aldı.
Köçüb bu dünyadan getdi İsgəndər,
Ona ən yüksəkdə təxt düzəltdilər.
Həyat səhnəsində o düşdü dərdə,
Nəhayət, üzünə çəkildi pərdə.

İsgəndər beləcə bu həyatla vidalaşdı, özü də müqəddəs həyata yol aldı.

Qədim Yunanıstanda bir məbəd var. Bu qədim məbədə hər il minlərlə turist səyahətə gəlir. Nədir bu məbədin sirri, mənası? Məbədin baş tərəfində cəmi dörd söz yazılıb. Məhz bu dörd sözdədir məbədin gücü. Yazılıb: «İnsan, özünü dərk et.» Böyük şairimiz B.Vahabzadənin bu barədə gözəl sözləri var:

Hamını dərk edib başa düşən mən,
Bircə an özümü başa düşmədim.
Könlümün qırıq telli sazıyam,
Dünyada bir şeydən razıyam.
Özümdən narazıyam.

Bəli, həyatın qəribəliklərindən də biri budur ki, insan yaşayır, lakin son ana qədər özünü axtarır və özünü dərk edə bilmir.

Bəli, bu məbəddən içəri girən insanlar qəribə bir mənzərənin şahidi olurlar. Görürlər ki, burada böyük bir qəbristanlıq var. Lakin qəbirlərin hər birinin üstündə (baş daşının) müxtəlif rəqəmlər yazılıb. Məsələn, üç ay, beş ay, üç il, beş il, səkkiz il və s.yaşamışdır. Lakin doğum və ölüm tarixinə baxanda görürlər ki, bu insanların yaşı çoxdur və çaşqın qalırlar. Bələdçi onlara yaxınlaşıb deyir: «Təəccüblənməyin, burada dəfn olunanlar altmış, yetmiş, hətta yüz il yaşayanlardır.» Sual olunur bəs nə üçün bunların yaşı az göstərilib? Bələdçi cavab verir ki, bu insanların yüz il yaşamasına baxmayaraq, onların mənalı yaşadıqları ömür məhz göstərilən qədərdir. İnsanlar hər gün eyni həyat yaşayırsa, o, həqiqi həyat sayılmır. Əsl insan bir günü də təkrar yaşamamalıdır. Təbiət də belədir. Məsələn, hamı xoruzun banlamağını sabahın açılmağı kimi qəbul edir. Xoruz isə səhər, günorta, hətta axşam da banlayır. Ömər Xəyyamın fikrincə desək, xoruz banlamağı ilə insanlara bildirir. «Ey ulu Tanrı, Sənin dediklərini insanlara çatdırdım. Ey insan, ayıq ol, ömründən bir gün də ötdü. Başqa bir misal. Bülbül bir və ya beş dəqiqədə üç yüz və ya üç yüz əlli zəngulə vurur. Maraqlı burasındadır ki,

bu zəngulələrdən heç biri, biri-birinin üstünə düşmür, ayrı-ayrı xallardır. Bunu cəmiyyətə şamil etdikdə məna belə alınır ki, insan ömrünün heç bir günü də təkrar olmamalıdır. Çünki insan Allahın yaratdıüı varlıqların ən qiymətlisi və alisidir. O, bir gününü də mənasız yaşamamalıdır. Bəli, əsərimizin qəhrəmanı İsgəndər cəmi 33 il yaşadı. Lakin o, bu 33 ilin bir gününü belə, demək olar təkrar yaşamadı. O, bu dünyaya yaradıcı bir fateh, peyğənbər kimi gəldi və özündən sonra böyük ad-san qoyub getdi.

Dünyada min cürə yaxşılıq etdi,
Özüysə dünyadan incimiş getdi.
Dolanıb görmüşdü o bir çox yeri,
Başqa bir yerəydi indi səfəri.
İsgəndər bənzərdi yaşıl yarpağa,
Kəyan ağacından düşdü torpağa.
Açıldı belindən qızıl kəməri,
Çərrin bir beşikdə düzəldi yeri.

İsgəndər qızıl tabutun içinə qoyuldu və tabutun içərisi zərlə doldurulduldu. O bütün varidatı ilə bir yerdə dəfn olundu. Onun dəfni və harada basdırılması haqqında gələn yazımızda söhbət açacaüıq.

Ruma gəlib çatdı bu qara xəbər,
Getdi bu dünyadan böyük İsgəndər.
Tayfa başçıları yığılıb dedi:
Cahan sahibsizdir, başsızdır indi,
Hər kim barigaha töhfə yollasa,
Gərək təqdim etsin İsgəndərusa.

İsgəndərus onun Daranın qızı Rövşənədən olan oüğlu idi.

Oxuyub məktubu ana ağladı,
Matəmə büründü, qara bağladı.
Baxdıqca oğlunun bu məktubuna,
Tumartək qıvrılıb açıldı ana.

Tumar-məktub deməkdir. Beytdə onun burularaq bağlanması nəzərdə tutulur. Yəni ana məktubu oxuyarkən dərddən tumar kimi qıvrılıb açılmağa başladı.

İsgəndər öldükdən sonra onu rəvayətə görə, Misirə, çürüməsin deyə, balın içərisində gətirmişdilər. Onu qızıl tabutda, varidatı ilə birlikdə dəfn etmişdilər. Ümumiyyətlə böyük hökmdarların dəfni çox qaranlıq şəkildə təşkil edilir. Üstündən min illər keçsə də, onları tapmaq olmur. Elə bil bu üsulları xüsusi təfəkkür təşkil edir. İsgəndərin dəfninin yazmamışdan qabaq bir neçə hökmdarın dəfnini nəzərdən keçirək.

XIII əsrin Monqol hökmdarı Temuçin (Çingiz xan-Allahın elçisi) qəflətən ölərkən, onun dəfni gizli və ağlagəlməyən bir formada təşkil olunmuşdur. Çingiz xan ölümündən qabaq Çinin məşhur həkimini yanına çağırıb onunla söhbət aparır. Ona çoxlu vədlər verir. (Xəzinə, mülk, kəndlər) lakin əvəzində bir şey istəyir, mənə ölməzlik bəxş et. Çingiz xan qəribə tərzdə həkimin üzünə baxır. Ondan həyacanla cavab gözləyir. Baxır ki, həkim qaş-qabağını düyünləyib. Bilir ki, bu mümkün deyil. Sonra deyir eybi yoxdur, bu mümkün deyilsə, onda, elə et ki, həmişə belə qalım. Həkim cavab verir ki, bu mümkün olan şey deyildir. Çingiz xan başa düşür ki,

ölüm labüd və qaçılmazdır. Onun dəfni haqqında cürbəcür mülahizələr var. Bunlardan biri budur ki, Çingiz xana hansısa 60 hektarlıq bir ərazidə böyük bir qəbir qazırlar (düzənlik yerdə). Ehtimal olunur ki, onun qəbrinə bir tona qədər qızıl əşyalar qoyublar. On iki nəfər gizli şəkildə onu dəfn edir. Əlbəttə bunun müqabilində onlar xüsusi ənam alacaqdılar. Həmin əşyaları tabutla birlikdə onun qəbrinə yerləşdirilir. Çingiz xanın çox qiymətli, daş-qaşla bəzədilmiş bir əsası olub. Əsanın içərisində xüsusi materialdan hazırlanmış dünyanın xəritəsi olub. Həmin əsanı da tabuta qoyublar. Sonra at ilxılarının bu qəbir ətrafında o qədər çapdırılıblar ki, atların dırnaqlarından çıxan torpaq hesabına qəbir dolur. Bir, iki dəfə yağış yaüdıqdan sonra, onu təyin etmək qeyri mümkün olur. On iki nəfər işlərini qurtarandan sonra, geri dönüb hesabat verirlər. Hər şey lazımi şəkildə bitəndən sonra on iki nəfər ənam almaq məqsədi ilə lazımi otaüa göndərilir. Həmin otaqda on ikisinin də başı kəsilir. Beləliklə 60 hektarlıq ərazi dünyanın hər bir yerinə şamil edilir. Bunun tapılması qeyri-mümkün olur.

Bundan əlavə ta qədimdən fironlardan bəri, belə qəbirlər bir neçə ay ərzində ofsunlar oxumaqla sanki tilsimlənir. Münəccimlərin dediyinə görə o, əraziyə daxil olan şəxs, əlbəttə, təsadüfən özünü pis edib oradan tez uzaqlaşmaq istəyir. Qvineyanın prezidenti xalqın başına min oyun açmışdı. O, öləndə yaxınlarının qulağına nəsə pıçıldadı. Hamı fikirləşdi ki, onun son sözləri görəsən, nə oldu? Dəfn olunandan bir neçə gün sonra, onun pis əməlləri üzə çıxdı. Hamı bel, külüng götürüb onun qəbrini dağıtmağa getdi. Qəbri açanda

gördülər ki, orada tabut əvəzinə daş-kəsək qoyublar. Demək naməlum ərazidə dəfn olunub.

Çariça Tamaranın qəbri deyilənə görə, Qax rayonunda «Güllülük» adlanan bir yerdə, meşədə bir ağacın altında basdırılıb. Hələ də axtarılır. Ümumiyyətlə monarxist hökmdarların əksəriyyəti bu şəkillərdə gizlədilib.

Teymurləng isə müsəlman qaydası ilə Özbəkistanda Oğlanları ilə yanaşı dəfn olunub. 1941-ci ildə antropoloq Gerasimovun rəhbərliyi ilə onun qəbri açıldı. Ancaq bir çox öncəgörənlər, tədqiqatçılar Stalinə bildirmişdilər ki, Teymurləngin qəbri açılarsa, müharibə başlayar. Stalin isə, buna əhəmiyyət verməmiş və qəbrin açılmasını əmr edir. Doğrudan da qəbir açılandan sonra 1941-ci ilin müharibəsi başlayır.

Alim qəbri açmaqla heyrətini gizlədə bilmədi. O, qeyd edir ki, qəbr açılarkən orada qeyri-adi, valehedici xoş bir ətir ətrafa yayıldı. Mən həyatımda belə bir xoş ətir duymamışam. Onun nəşi Moskvaya aparıldı, tədqiq olunandan sonra isə, Stalinin əmri ilə geri, Vətəninə qaytarıldı. Qaytarılmamışdan əvvəl, almanlar artıq Moskvanın 25 km-də idilər. Teymurləngin nəşi xüsusi təyyarədə üç dəfə Moskvanın ətrafında dövrə vurdurulur. Təsadüfdən və ya zərurətdənmi, ondan sonra almanlar sürətlə geri otuzduruldu.

Bəli, bütün bunlardan bəlli olur ki, böyük fatehlər sadə şəkildə dəfn olunmurlar. Onlar münəccimlərin məsləhətləri və göstərişləri əsasında dəfn olunurlar. Ona görə də onların qəbrinin tapılması qeyri-mümkün olur. Açılarsa da, ondan sonra orada iştirak edən adamların həyatında xoşagəlməz hadisələr, xüsusilə faciələr

baş verir.

İsgəndərə gəldikdə onun dəfni barədə cürbəcür fikirlər, mülahizələr var. Bunlardan biri Avropa və Ərəb mənbələrinə əsasən onun dəfni xüsusi qayalar arasında olub. Uzun müddət hətta bura ziyarətə gəliblər. Sonralar zəlzələlər nəticəsində bu qəbr və ya məqbərə itib-batıb. Başqa bir mülahizəyə görə İsgəndərin dəfni uzaq məsafədən atılan dərin lağım əsasında Nil çayının altında dəfn olunub. Əlbəttə bu lağımın mənbəyi düzlənib ki, tapılması qeyri-mümkün olsun. Ehtimal olunur ki, onun varidatı da yanında qoyulub. Fironlar kimi İsgəndər o dövrə aid edilən 72 millətin, xalqın bilgiləri, sehrləri əsasında dəfn olunub. Ona görə də bu dəfnin sirlərini açmaq çox çətindir. Məşhur şair, münəccim, filosof Ömər Xəyyama tələbələri sual edirlər, əziz müəllimimiz, işdir, biz uzaq səfərə gedib, geri qayıdarkən müəllimimizi bu dünyada görməsək, onu harada axtaraq? Bu hadisə Ömər Xəyyamın ölümündən 18 il qabaq olub. O, cavab verir: «Məni bu dünyada tapmasanız, bilin, mənim qəbrim o yerdə olacaq ki, hər il yazda səba küləkləri mənim qəbrimi ətirli güllərlə örtəcək.» Nəhayət, bu hadisə gözlənilən və deyilən kimi də olur. Tələbələrdən bəziləri Vətənə dönərkən müəllimini arayırlar. Məlum olur ki, Ömər Xəyyam dünyasını dəyişib və Nişapur (İranda) qəbrəstanlığında dəfn olunub. Dərhal onlar müəllimlərinin qəbrini ziyarətə gəlirlər. Gəlib nə görsələr yaxşıdır? Ömər Xəyyamın qəbri qəbristanlıq çəpərinin lap yaxınlıüındadır. Çəpərdən o tərəfdə bir armud və ərik ağacları var. Doğrudan da hər il yazda bu ağaclar gül açır, səba küləkləri də bu gülləri şairin qəbrinin üstünə səpir.

Bəli, dünyanın qeyri-adi insanları həmişə olub və olacaq. Bütün bunlar son ömür paylarının qeyri-adi sərgüzəştləri idi.

Artıq İsgəndər son mənzilinə təhvil verilmişdir.

İsgəndərdən sonra İsgəndərus da,
Qovğa eləmədi təxti tac üstə.
Şahların içində heç onun qədər,
Yoxdu şah olmağa layiq bir nəfər.
Beş günlük dünyaya tamah salmadı,
O, uca mənsəbə mayıl olmadı.
Güldən ayrı düşmüş şeyda bülbül tək,
Ahu-zar eylədi gecə sübhədək.
Sanki anasını bir bala ceyran,
Kabab olmuş gördü o yanan zaman.

Bütünlüklə hamı hakimiyyətin qəbul edilməsini oğlundan xahiş etdilər. Ona bildirdilər ki, İsgəndər kimi bir fatehin yerində yalnız sən otura bilərsən, sən buna layiqsən. Əlbəttə, bunu İsgəndərin ən yaxın adamları istəyirdilər. Düşmənlər isə kənardan məqam gözləyirdilər. Ëakin İsgəndərin oğlu bu şahlıqdan imtina etdi və ibadətlə məşüul olmaüı üstün tutdu.

Öz ilə onlara dedi ki, «gedin»,
Təxti başqasına həvalə edin.

Bütün yunanlar matəm içindəydilər. İsgəndərin yaxın silahdaşları ah-fəğan edirdilər. Onlar başa düşürdülər ki, İsgəndərlə keçən günlər bir daha olmayacaq. Bu səhnəni Əbülqasım Firdovsi çox gözəl təsvir edərək yazır:

Hamı baxdı o nəzənin peykərə,
Fəğan yüksəlib, saldı od göylərə!
Cırıb paltarı, tökdü sərkərdələr,
Tozu, torpağı başlara səpdilər.
Tabut qəsri tutmuşdu çün sərbəsər,
Gömülmüşdü sandığa bir şiri nər.
Sanırdın İsgəndər, belə boy atıb,
Döyüşdən çıxıbdır, yorulmuş yatıb!
Qızıldan dedi tikdirin məqbərə,
Qara müşk, ənbər səpin hər yerə.
Deyil daimi ömür, bel bağlama!
Gecikmə, hazırlaş, ayaq saxlama!
Tutaq ki, atan verdi möhlət sənə,
Çatar, bil ki, tezliklə növbə sənə.
Həyatın belə gizli bir sirri var,
Əbəs gəzmə bu gizli sirrə açar.

Bəli, dünya tərəfindən sevilən və heç zaman yaddan çıxmayan Fateh, Peyğəmbər İsgəndər haqqında mən yazımı sona çatdırıram. Mən ona olan rəğbətimi bacardıüım qədər göstərdim. İsgəndər bizdən çox uzaqdadır. B.Vahabzdənin sözləri ilə desək, biz hər gün sənə bir addım yaxınlaşırıq. Aləmi Bərəxdə görüşənə qədər. Aləmi Bərzəx (ruhların Bərzəx aləmində müstəqil şəkildə yaxud «misal» qəlbinə daxil olmaqla toplaşdığı dərk olunmayan və görünməyən yerdir). Qiyamətə qədər hamının ruhu orada qalır. Qiyamət günündən sonra mizan tərəzi qurulur və hər bir kəsin layiq olduğu yer təyin olunur.

EPİLOQ

1996-cı ildə mən Respublikanın Xalq artisti mərhum, Baba Mirzəyevlə iki saat müddətində söhbət etdim. O, deyirdi mən Fransada olarkən, Fransa məktəblərinin birində oldum. Şagirdlərlə görüşdə dedim: "Əgər dünya ədəbiyyatı yandırılsa, təkcə Viktor Hüqonun əsərləri saxlanılsa, bilin ki, dünya ədəbiyyatının yarısı var. Uşaqlar bu sözlərə əl çaldılar. Sonra söylədim, əgər dünya ədəbiyyatı yandırılsa, təkcə N.Gəncəvinin "Xəmsəsi" saxlanılsa bilin ki, dünya ədəbiyyatının hamısı var. Şagirdlər daha yüksək əl çaldılar". Bəli N.Gəncəvi "İsgəndərnaməni" təkcə şair təxəyyülü ilə yox, həm də orcinal tarixi ərəb mənbələrinə istinadən yazmışdır. Ona görə də əsərdə göstərilən qeyri adi hadisələr şair təxəyyülü ilə yox, tarixi mənbələr əsasında yazılmışdır.

Makedoniyalı İsgəndərin qəbri haradadır?

Fironlar kimi İsgəndər o dövrə aid edilən 70 və 72 millətin, xalqın bilgiləri, sehrləri əsasında dəfn olunub.

NUHUN TUFANI HARADA, HANSI AYDA VƏ HANSI SAATDA BAŞ VERMİŞDİR

Nuhun tufanı harada olubsa, Adəm və onun nəsli də orada olub. Nuhun tufanı harada sona çatıbsa, İbrahim p.ə.s. və onun dini də orada zühur edib.

Nuhun tufanı haqda çox fikirlər və mülahizələr deyilib, yazılıbsa da, tufanın həqiqi mahiyyəti, çaları və maddi-mənəvi şərtləri əfsanələrdən kənara çıxmayıb. İlkin olaraq bu tufanın olub-olmaması da sual şəklində qalmaqdadır. Bu haqda konkret olaraq onu demək olar ki, bu tufanın danılması dörd dini kitabın danılması olardı desək, heç də yanılmarıq. Deməli, dini kitablara, İncilə və "Qurani-Kərim"ə üz tutsaq, tufanın baş verdiyini tərəddüdsüz qəbul etməliyik. Dünyanın ilkin yazılı dastanı olan "Dədə Qadir" ("Dədə Qorqud") dastanında da Nuhun adı çəkilir (Ol Nuhun eşşəyi nəslindən qız alma. Sual olunur: kimlərdir Nuhun eşşəyi nəsli? Sual altında da saxlayıram, açmıram). Deməli, bu mənəvi və maddi varlıq mövcud olub. Əgər Nuh tufanı haqda yazırıqsa, ilkin olaraq nədən və haradan başlamaq olar zərurətini ortaya reallıqla qoymalıyıq. Nuhun tufanının ilkin əlamətini bu baxımdan, hələ bəşəriyyətə sirrini açmayan, yeddi min işarəsi olan Qabıssan (Qobustan) qayalarına üz tutmalıyıq. Hansıdır bu işarələr? Muzeyə giriş hissədə ilkin olaraq Nuhun tufanının işarəsi ilə üz-üzə dururuq. Nədir bu işarə?

"Əyri qayıq", uc hissədə günəş və alt hissədə səkkiz yan-yana düzülmüş xətt. Bəli, bu Nuhun inkar edilməz ilkin maddi sübutudur. Açar kimi biz bu işarədən isti-

fadə etməklə, ideoloji tənliklər əsasında Nuhun tufanını aydın və inkaredilməz şəkildə əcdad, svilizasiyanın ilkin qapısı kimi ortaya qoya biləcəyik. Bu işarənin və Nuhun tufanının açılmayan qapılarını açmağa çalışaq. Onu da qeyd edək ki, Nuh tufanı harada sona çatıbsa, deməli, svilizasiya da oradan başlayıb.

Əyri qayıq, T.Heyerdalın fikirlərinə görə, qamışdan hazırlanıb. Məşhur alim B.Budaqovun söylədiyinə görə, həmin qamışlar Hacıqabuldan tapılıb. Uc hissədə Günəş dünyanın ilkin qayığının işarəsidir. T.Heyerdala görə, başqa yerlərdə Günəş qayığın uc hissəsində deyil, dorda çəkilmişdir (ortada). Bu işarələrin yerlərinin fərqi onların tarixinə və tarixin fərqlərinə işarədir. Alt hissədə səkkiz xətt işarəsi isə onların, yəni sağ qalanların sayını bildirir. İncildə də qeyd edilir (səh. 273). "Onlar çox deyildirlər, cəmi səkkiz nəfər idilər". Tövratda qeyd edilir ki, Nuh arvadını, gəlinlərini və oğlanlarını özü ilə götürdü, başqa şəxslər haqqında heç bir məlumat verilmir.

Təkcə bu ayə Nuhun tufanında neçə nəfər olmasına dair müxtəlif, yalançı, yabancı fikirlərə və hədislərə son qoyur. Buna baxmayaraq, biz bu təsdiqi sübut etmək üçün fikirlərimizi davam etdiririk. Qabıssan qayalarından başqa qaya işarələrinin sivil davamı olan Qabıssan xalçalarında da bu işarə daha güclü və aydın şəkildə qədim nəsillərimiz tərəfindən çox aydınlıqla verilib. Nədir bu işarələr?

1) Əyri qayıq, uc hissədə Günəş. 2-ci dorda isə quş şəkli, dimdiyində ot. 3-cü ayrı formada əyri qayıq, qayığın ortasında səkkiz xətt. 4-cü ayrı şəkildə ikiyə bölünmüş əyri qayıq və ayrı-ayrılıqda dörd-dörd ayrı-ayrı

xətt. Bəli, bunlar Nuhun tufanının danılmaz işarələridir, əlbəttə, açmaları ilə. Bu lal və ecazkar işarələrin açılmayan sirlərini açaq və yalançı, yabancı deyimləri, yazılanları təkzib edək.

1) Əyri qayıq, ortada səkkiz və ayrı-ayrı dörd-dörd xətt. Tufanda salamat qalanların geniş formada təsdiqidir. Dörd-dördə gəldikdə, bunlar dörd kişi və dörd qadın olub. Bu səkkizlik və dördlüklər kimlərdir?

1) Dörd kişi və dörd qadındır bu işrələr. "Nuh", "Yafəs", "Sami" və "Hami" yəni Nuh və onun üç oğlanları.

2) Dörd qadın - Nuhun arvadı və üç gəlini. Bunlardır qaya və xalçalarda olan səkkizliyin mənaları. 9-cu şəxs - Nuhun oğlu isə dəryada qərq oldu. Quranda yazıldığı kimi: "Rəbbdən nida gəldi, getmə onun dalınca, o səndən deyil deyib araya dalğanı sədd kimi çəkdi". Əgər doqquzuncu nəfəriniz və ya şəxsiniz varsa, adı və işarəsi ilə ortaya qoyun. Ə.Xəqaninin, N.Gəncəvinin XXI əsrdə davamçısı, AMEA-da yüksək səviyyədə müzarikəsi olunan, lakin hələ üzə çıxarılmayan Bilal Şirvaninin yazdığı kimi, Rəbbimiz bu səkkizliklə Adəmdən sonrakı svilizasiyaya sanki möhür vurub.

3) Tufanda salamat qalanların geniş formada təsdiqidir. Dörd-dördə gəldikdə, bunlar dörd kişi və dörd qadin olub. Kimlərdir bu səkkizlik və dördlüklər?

Bilal Şirvani: ("Leyli və Məcnun" əsərindən).

Tarazlıq mərkəzin qoşa aləmdə,
Səkkizlik yaradır damğasın vurur.

Şüurlu aləmdə başqa gu görmə?
Nuru cıraq edən bil ki onundur.

Gu - başqa xəyalə düşmə, fikrə düşmə mənasındadır. Bunlardır səkkizliyin mucərrəd bəşəriyyətə məlum olmayan fəlsəfəsi. Ulu babalarımızın müdrükcəsinə mifologiya dediyimiz mifoloji-fəlsəfi görüntüləri ki, bizlərə miras qoyub gediblər. Biz isə bunları bir kənara qoyub yalançı alim Stanislavskidən yalan misallar çəkirik. Qayalarda bu işarənin ətrafındakı işarələr isə bunların kimə, hansı nəslə və svilizasiyanın buradan başlanmasını cox aydınlıqla özündə göstərir ki, bunlar da ayrı mövzunun açmalarıdır. Bax bunları bu səkkizliyə dedilər. "Muği" (bax: Udin-Azərbaycan lüğətinə), yəni səkkizlik, səkkiz gun.

Bəli, tufan yeddi gün neçə saat olub (bax: T.Heyerdalın əsələrinə). Bəşəriyyətin ilkin nəsli Zənd-Əvəstada yazıldığı kimi, "Muğlar" olub (səkkizlər). Bunların da ilkin vətəni Qabıssan və Təbriz olub (atəşpərəstlər - parsilər, Abidlər ölkəsi). 2-ci işarə qayığın dorunda olan quşdur ki, bu işarələr də çox dərin məqamlardan xəbər verir. Sual olunur: hansı quşdur ki, bu quş tufanın sonu olmağını, dimdiyindəki otla müjdəçi kimi xəbər verib? Bu sualı, işarəni açmaq üçün istər-istəməz xalq mahnılarına üz tutmalı oluruq. Əsas şərt kimi onu da bilməliyik ki, qayaüstü rəsmlər xalça işarələri, xalq mahnıları, bayatılar və folklorla vəhdətdə daha aydın şəkildə öz sirlərini açır. Qeyd etdiyimiz işarəni açmaq üçün "Sona bülbüllər" xalq mahnısına istinad edək, beytlər əsasında ağla gəlməz sirləri açmağa istiqamətlənək.

Su atdım Yara dəydi,
Əlim divara dəydi.
Dilim, ağzım qurusun,
Nə dedim Yara dəydi.

Burada su içdiyimiz su mənasında deyil, "şər" mənasındadır. Yəni şər atdım Allaha toxundu (Yar burada yaradan, yəni Allah mənasındadır). Bununla da Nuhun qövmü (nəsli) Allahın qəzəbinə düçar oldu. Dilim, ağzım qurusun, nə dedim ki, Allahın qəzəbinə gəldik. Bəli, bu şər addımı Ə.Xəqani öz əsərlərində real şəkildə verib ki, bu şeirin bir qismini qeyd edək.

Oğurluda yox işləri, ataları bilinmir,
Nə Adəmdən törəmişlər, nə İsadan budur sirr.
Məscud evi onlar üçün olmuş uşaq beşiyi,
Həm yatırlar orada, həm də bulayırlar hər şeyi.
Açar ilə qıfıl kimi erkək, dişidir onlar,
Tutduqları fəna işdən bağlılıq hasil olar.

Bunlar idi bu nəslin su (şər) addımları ki, tufanın baş verməsi danılmaz idi.

Dəryada gəmim qaldı,
Biçilməmiş zəmim qaldı.
Ay sona bülbüllər.

Gəmiqayadan söhbət açan ziyalılara onu çatdırmaq istəyirəm ki, gəmi sizin düşündüyünüz "qayığa" yox, xalqa deyilir. Bunları qarışdırmayın və reallıqdan özünüzü uzaqlaşdırmayın. Gəmiqaya isə xalqın yaradıcılıq

qayasına deyilir, qayığa (lotkaya) yox. Bəli, dəryada qərq olan Nuhun gəmisi (xalqı) idi, qayıq sağ-salamat gəlib mənzilə çatmışdır ki, bu qayıqdan ilkin düşən də Nuhun arvadı olub (hörmət əlaməti olaraq).

Biçilməyən zəmi də onun xalqının zəmisi idi. Bəli, biçilməyən zəmi dedikdə, ağlagəlməz bir sual, yəni Nuha bağlı fikri ortaya çıxır. Deməli, hadisə yazda baş verib. Zəmi biçilməmiş qalıb. Söhbət may-iyun ayından gedir. Bu da dorda olan quş şəklinin işarəsinin mahiyyətinə qapı açır. Sual olunur: hansı quşdur ki, insan olan yerdə, evdə yuxarı hissədə yuva tikir, əlbəttə, qaranquş.

Yuxarı hissə isə dordur. Deməli, qaranquş da dorda yuva qurmaq istəyir. Xalçadakı quş şəklinin quyruq hissəsinin haça olması da təsdiq edir ki, bu quş qaranquşdur. Ona görə də qədim atəşpərəstlərdən üzü bəri insanlar qaranquşu müqəddəs sayıb. Yadda saxlamaq lazımdır ki, X.Kolumbun gəmi heyəti də onları aldatdığı üçün öldürmək istəyirdilər. Sonda Kolumb onlardan üç gün möhlət istəyir. Bu istək onlar tərəfindən ödənilir və onlar üç gün ərzində sahilə çatırlar. Bunun səbəbini Kolumbdan soruşanda o deyib: "Mən quşları səmada görərkən dəqiq təyin etdim ki, dəniz sahilinin yaxınlığındayıq". Quşların görünməsi səyyah düşüncəsi ilə Kolumbu xilas edib.

Tufanda hamı məhv oldu. Salamat qalan suyun üzündə qalan yalnız və yalnız bu qayıq və bu qayığın içində olan səkkiz nəfərdir.

Evləri köndələn Yar,
Bizə gül (gün) göndərən Yar.

Bəli, Rəbbin evi köndələn olan göy qübbəsidir. Onun evi ərşi-fələkdə, göyün 9-cu qatındadır (7-ci qat göy qatı, 8-ci qat mələklər olan qat, 9-cu isə Rəbbin dərgahı ərşi-fələkdir.)

Bizə gül və ya gün göndərən odur. Yəni tufanın qurtarmasına işarədir. Gül isə müqəddəslik, bizim varlığımıza hakim olan həyat çeşməsidir ki, yeni svilizasiyanı bizə bəxş etdi.

Nuh və onun qayığını Quran ayələrinə görə, ayrıca dalğalar arasında aparıB, tufan təhlükəsindən onları qoruyub.

Mahnının davamında qeyd edilir:

Elə Yar, Yar deyirlər,
Heç məni demirlər.
Ay sona bülbüllər.

Bəli, tufanda batan Nuhun qövmü (nəsil) Yar-Yar, yəni Allah-Allah deyirlər, xilas olmaq üçün. Heç məni demirlər. Yəni mən sizə yalvarırdım ki, qayıdın Allahın dediklərinə, lakin siz məni məsxərəyə qoyur, təhqir edirdiniz.

Tufanın baş verməsinin səbəblərini aydın şəkildə Ə.Xəqani çox gözəl təsvir edib. Tufanın baş verməsinin əsas qayəsi Ə.Xəqaninin yazdığı kimi, bu nəslin erkəyi ilə dişisi bilinmir. Ən mühümü isə, mifologiyada deyildiyi kimi, çörək vəhşicəsinə təhqir edilib.

Bunlardır beytin ana kod açarları. Mahnının başqa beytinə nəzər yetirək:

Çox çəkdim Yar cəfasın,
Axırda mənə qəmim qaldı.

Bəli, yüz iyirmi gün Nuh "növhə" oxudu Allaha (yəni dua edib yalvarırdı ki, dəymə mənim nəslimə, bağışla onları). Rəbbindən səda gəldi: "Bağışlayıram onları sənə. Ancaq on nəfər salamat, əməli saleh adam tap mənim üçün nəslindən Ey Nuh!"

Cəmi səkkiz adam sadiq qaldı ona (yazdığım şəxslər - səkkizlik). Nuh razılıq verdi Rəbbinə. Təslim olmağını bəyan etdi Rəbbinə. Ona görə də mahnıda qeyd edilir: "Çox çəkdim yar cəfasın, axırda mənə qəmim qaldı", yəni nəslim suda qərq oldu, özünə biganə qalan övladı ilə birlikdə. Bunlardır Qədir Rüstəmovun "Sona bülbüllər" mahnısından, avazından doğulan qəmli mahiyyətlər.

Mənim araşdırmalarım, çəkdiyim şəkillər (Qabıssan - Xızı arasında) təsdiq edir ki, yerdən su qaynadı, göydən fasiləsiz yağış yağdı. Göydən yağan yağış adi su deyil, kimyəvi maddə olub (məsələn, kislata). Bütün bunları bir dərviş kimi gəzib, araşdırıb tapmışam, əlbəttə, Allahın bəxş etdiyi güc imkanları hesabına, bunlar danılmazdır. Çox maraqlıdır ki, Nuhun tufanı haqda "Avropa, Asiya, Amerika və başqa xalqlarda "200"-dən artıq əfsanələr mövcuddur. Şumer əfsanələrində də yer kürəsini su basması haqqında danışılır, lakin tufanın əlamətləri cılız fikirlərdən kənara çıxmamışdır". Açıq yazıram: Nuh tufanının "Ağrı" dağında, Gəmiqayada olması fikirləri rus, ingilis, fransız alimlərin cəfəngiyyatından başqa bir şey deyil. Misal üçün, bizim çəkdiyimiz filmdə qeyd edilir: "Stanislavskinin Naxçıvana gəlməsi,

(Nuhla bağlı) Nuhun bacısı ilə burada olması haqda fikirləri uydurmadan başqa bir şey deyildir. Stanislavskilərin (yalançı, uydurma alimlər) itmiş din xadimləri Semionu da, Mərəzədə "Diri baba"da axtamaları süni uydurmalar sırasındadır".

Jak Şirakın 2006-cı ildə Ermənistandakı çıxışına istinadən "Mən bilirəm Nuh xristian olub Ararat dağında qayığı parçalanmışdır" deməsi ilə ermənilərin əcdad nəsil olmasına bağlı fikirlərdir. Məqsəd, nəticə bu ərazilərin qədim türklərə deyil, ermənilərə bağlanmasını önə çəkməkdir. Ermənilərin "Naxçıvan bizimdir" məkrli fikirlərinin nəticəsinə bağlanır bu ideya. Onların fikirlərinə görə, gələcəkdə bildirəcəklər ki, bax, özünüz deyirdiniz Nuh Naxçıvandadır. Bütün bunların acı nəticələri Qəbələdə, Nijdə, Odin (Udin) kilsəsindəki saxtalaşdırmaları görüb tətqiq edib əsərlərimdə yazmışam. Bunları sübut etməyə əlimdəki faktlarımla hazıram. Qayığın Ağrı (Ararat) dağında parçalanması isə tamamilə absurd, cəfəngiyyatdan başqa bir şey deyil. Qayıq salamat son mənzilə gəlib çatıb. İnsanlar qayıqdan yerə düşüblər. Su çəkildikcə qayıq da çəkilib "Beşbarmaq" dağı ilə üzbəüz dənizdə qayaya dəyib parçalanıb (indi də o qayaya salavat çevirirlər). İngilislər özləri son zamanlar bildirirlər ki, "Ağrı" dağının (Ararat) burada tufanla bağlı geoloji əlamətləri yoxdur. Məsələn, balıqqulağı. Balıqqulağılar isə Baki ilə Quba arasında mövcuddur.

Qısa arayışdan sonra qayıdaq Nuh tufanının araşdırılmasına. İlkin olaraq Nuh adının mənasını, formasını və hansı dildə olmasını sual kimi irəli çəkək.

Əvvəla, deyim ki, Nuh dülgər, İbrahim və İbrahimin

atalığı Azər isə büt düzəldən dülgər olublar. İbrahimə duyma vəhyi də məhz bütləri yonarkən gəlib. Sual olunur: bu ağac bütlər başqa mənbələrdə göstərilən dağlardamı, səhralardamı və yaxud meşə olan yerdə olub? Əlbəttə, meşə olan yerdə ki, bu da göstərdiyim yerlərə (Qəbələ, İsmayıllı, Xızı və Quba) bağlanmalıdır.

Nuh hansı ərazidə olmuşdursa, deməli, Adəm və İbrahim də həmin ərazilərdə olub. Bunlar vəhdətdə eyni ərazilərin peyğəmbərləridir desək, heç də yanılmarıq. Xıdır, İlyas, Xızır ilə vəhdətdə Xızır Musa ilə səddi Dərbənddə əl-ələ veriblər. Musa Dərbəndə nə üçün gəlib və ya Misirə və Yərusəlimə buradan getməyibmi? İbrahim dininin davamçısı kimi. İbrahimi yəhudi sayanlara isə bu ayəni xatırladıram:

Bəqərə-140

Deyirsiniz ki, İbrahim, İsmayıl, İsak, Yəqub (Yəqubun nəvələri olan) Əsbat Yəhudi ya da xaçpərəst olublar?

De: siz daha çox bilirsiniz, yoxsa Allah (ki onların Yəhudilik və xaçpərəstlikdən uzaq olduğuna şəhadət vermişdir və siz bunu bilir və gizlədirsiniz?). Allah etdiyiniz əməllərdən əsla qafil deyildir.

Hədid-26

Həqiqətən biz Nuhu və İbrahimi göndərdik və peyğəmbərlik (məqamını) və (səmavi) kitabı o ikisinin nəslində qoyduq. Beləliklə, onların bəziləri doğru yola düşdülər, çoxu isə itaətsiz idilər.

Bəli, bu ayələr də Nuhu və İbrahimi bir məkana bağlayır ki, bu da dediklərimizə əsaslı təsdiq gətirir.

Doğurdanmı bu vurğu "Nuh" kimi olmalıdır? Xeyr! Əslində bu ad "Nuh" deyil, "Nöh" olmalıdır (Ruslarda bu ad Noy kimi yazılır). Bəli, Nöh adı ilə bu ad qədim,

ilkin nəsil olan Muğlara - parsilərə (farslara yox), onların dili olan "tat" dilinə bağlanır. Bayandur xanın, Qazan xanın dilinə, daha doğrusu, "Dədə Qadir" ("Dədə Qorqud") dastanında olan dilə. O zamanlar farsların izi-tozu olmayıb, haylarla birlikdə.

1) Nöh - doqquz, qədim astronomiyaya görə, göyün doqquzuncu qatı.

2) Nöhasiman - göy, onun doqquzuncu qatı. (Bax: Ə.f.lüğ. səh: 486)

Yəni doqquzuncu qat ərşi-fələk, Allahın dərgahı. Allaha bağlı, onun elçisi Nöh (Nuh).

Ağdaş rayonunda Nehrə Xəlil, Nöhrə Xəlil olmalıdır. Yəni Allaha bağlanan, onun elçisi Xəlil İbrahimə bağlı kənd.

Deməli, Nuh haqqında yazanlar adın özünü belə, düzgün vurğulaya və yaza bilmirlər. Hər bir ad zamanında müqəddəs fikirlərə bağlanmışdır.

Mifologiyaya görə, Adəmin 1250 yaşı tama oldu (zaman etibarı ilə), tufan baş verdi. Bu nəsil Allah tərəfindən lənətlənmiş, doğub-törəməyənlər nəsli kimi qiymətlənmişdir (Bax: "Qurani-Kərim"ə). Adəm və Həvvanın 1250 ildə nəslinin artıb-azalmasını riyazi üsulla hesablayıb əhalinin nə qədər olmasını təyin etmək olar (1250 ildə əhali o qədər də çox olmayıb, kiçik bir ərazini əhatə etməlidir). "Qurani-Kərim"də qeyd edildiyi kimi, "kimi yapan yerdə, kimi yatan yerdə" tufan baş verdi. Ə.Xaqanini dili ilə desək:

Nə zall Mədainin Kufə Qarrısında kəm...

Zalı Mədain - Nuşirəvan sarayında evi olmuş bir qadındır ki, bu evini heç vəchlə satmaq istəməyib. Kufə qapısı - Nuh dövründə yaşamış bir qadın məşğul olub.

Guya tufan onun ocağından başlayıb. Bu fakt da (Nuşirəvan) sübut edir ki, tufan hansı məkana məxsusdur.

"Qurani-Kərim"ə görə, tufan sübh tezdən çörək təndirə yapan zaman, kimlərisə yatan zaman - yazda baş vermişdir ki, bu da folklorda, klassik ədəbiyyatlarda öz əlamətləri ilə vardır ki, min illər keçərək bizlərə gəlib çatıb. Bəs, tufan harada baş verib? Bu suala isə toponim və folklor əlamətləri ilə aydınlıq gətirə bilərik. Mənim araşdırmalarıma görə, tufan Baki Bilgahdan başlayıb, Quba Bilgahında başa çatıb. Yeddi gün, neçə saat tufan davam edib.

1) Bil - işarə mənasında olan vurğulu sözdür.

2) Gah - isə zaman və məkan mənasındadır.

Yafəs oğlu Türk Nuhun ilk nəvəsi olub, Bilgah ilə vəhdətdə onun vətəni də Türkan olub. Xaçmazdakı Türkçay, Ağdərə (Mərəzə, Xızı) yaxınlığındakı Türkçay ilə vəhdətdə. Toponimşünaslıqda bunlardan qədim və ilkin adlar olmayıb.

Qayıq dənizdə hazırlanmış (dağda yox) və sonda tufan qurtardıqdan sonra su çəkilərək qayıqla birlikdə dənizdə də qərq olub. "Dədə Qadir" ("Dədə Qorqud") dastanında da Qazi (Qazan) Xan (İgid, qalib, fateh mənasında) oğlu Uruzun dalınca atla Qaradağdan (Umbakı) Dərbəndə yeddi günə gedib. Bu zaman ideyası bir-birinə işarə baxımından bağlanmalıdır. Bakı Bilgahından Quba Bilgahına da qayıq öz axarı ilə yeddi günə çata bilər.

Fikrimizi təsdiq etmək üçün İncilə istinad edək:

"Qayıq Bəhreyndə qərq olmuşdu".

1) Bəhr - dəniz;

2) Bəhr (ən) dəniz yolu ilə su yolu ilə dənizlə;

3) Bəhr-məhsul, xeyir, mənfəət. (Bax: ə.f.lüğ. səh: 58)

Xəzərin 200 adı olub ki, A.A.Bakıxanova görə, bunlardan Bəhri Xəzər, Bəhri Gürcan adları olub. Qayığın son mənzili Cəddi dağı adı ilə Baba dağına, Həzrət babaya (Həzrət ilk dəfə Nuha, İbrahimə deyilib, əlbəttə, Adəmdən sonra) bağlanıb (Həzrət cənab mənasındadır).

Bu dağa İsmayıllılar "Nuh dağı", Qubalılar isə "Nuh" Baba deyir.

Novruz dastanında deyilir:

Dağlardan uca "Nuh dağıdır",
Çahar ətrafı Cənnət bağıdır.

Qəbələdə Soltan Nuha (Nuxa), Şəkinin digər bir adı "Nuha" adları təsdiq edir ki, Nuh burada olub. Dünyanın ilk Soltanı da məhz Nuh olub ki, dediklərimizi "Qurani-Kərim" ayəsi tərəddüdsüz təsdiq edir. İlk dəfə olaraq Nuhun arvadı maralı sağıb, Şəki düyüsündən sıyıq bişirib ki, dünyanın ilkin xörəyi sıyıq olub.

Şair Sənani yazır :

Öküzü Allah bilib ona inandılar,
Amma Nuhun peyğəmbərliyinə inanmadılar.

Və ya naməlum bir şair yazır:

Allahı seçə bilən gözün yoxsa,
Barı öküzpərəst olmayıb, günəşpərəst ol.
(A.A.Bakıxanov)
Günəş İbrahimin ilk dəfə qəbul etdiyi səcdədir.

Saxta mənbələrdən köçürmə üsulları, elmi əsərlərə "80" ildə ondan da qabaq Moskvanın nəzarəti, alimlərimizin sərbəst araşdırmalardan məhrum edilməsi həqiqi tarixin açılmasına sanki Çin səddi çəkib. Antik tarix bu baxımdan, yenidən araşdırılmalı, təhlil edilməli, yeni fikirlər ortaya qoyulmalıdır. Yeni təfəkkürə qayıtma isə köhnəliklə yeniliyin qanlı müharibəsindən keçməlidir. Təbii ki, heç kim sükanı əlindən vermək istəməz. Bəşər tarixinin ilkin qapısı Qabıssan (Qobustan) qayalarındakı yeddi min işarədən, onların açılmasından başlanmalıdır. Antik dünyanın tərcümeyi-halı oradan başlamalıdır.

Mömün surəsi-29

Və dedi: "Ey Rəbbim (bu gəmidə sonar yerdə) xeyir dolu (çox bərəkətli) məkanda endir. Sən yerləşdirənlərin ən yaxşısısan".

Göstərilən bu yerlər Baba dağı (Cəddi), Həzrət Baba, Nuh dağı deyilən və ətrafı dörd tərəfdən əhatə edilən "Cənnət bağı" olan bu yerlər deyilmi? Göstərilən ərazilərlə bu yerləri müqayisə edin. Hansı düzdür, özünüz təyin edin.

Cəddi - baba deməkdir.
Cəddə - nənə deməkdir.

Baba dağında Nənə pir, Baba pir və Ana pir vardır. Nuhun gəmisi nişanəsi də oradadır.

Adəm də dörd qoşa çaydan biri olan "Kür-Araz" ətrafına düşüb. İncildə göstərilən Cənnət bağına. Ona görə ki, onun kompleks şəkildə Cənnət meyvələri vardır (nar, üzüm, alma, armud, zeytun, heyva, gilənar,

ərik və s.). Göstərilən ərazilərdə bunlar vardırmı? Bayatılarda deyilən:

Çıxdım Kəpəz dağına,
Baxdım Cənnət bağına.
Bənövşə calaq olub,
Qızılgül yarpağına.

Bunları necə danmaq olar və necə inkar etmək olar məntiq əsasında?

Hud-38

Və o gəmi düzəltdirdi. Qövmün böyükləri hər dəfə onun yanından keçəndə ona məzxərə edirdilər. Dedi: "Əgər siz bizə istehza edirsinizsə, şübhəsiz biz də məsxərə etdiyiniz kimi sizə (ağaclara divarlara və təpələrə pənah apardığınız vaxt) məsxərə edəcəyik".

Deməli, Nuh hadisələrin olacağını əvvəlcədən bilirdi. Gizli səs bunu ona bəyan etmişdi.

Hud-40

Nuh və onun qövmü gözləyirdilər. Nəhayət, bizim əmrimiz (bizim mələklərə əmrimiz ya bizim icrası qəti olan icazəmiz) yetirən və (su) təndir (dən) qaynayan zaman dedik: "O gəmiyə hər bir heyvandan bir cüt (bir erkək və bir dişi), həmçinin həlak olması barədə (Bizim əzəli) hökmümüz verilmiş (zövcən və bir oğlun) istisna olmaqla öz ailə üzvlərini və iman gətirənləri mindir." Və onunla qövmünün çox az qismindən başqa (heç kəs) iman gətirməmişdir.

Ayədən aydın olur ki, məkanın böyükləri onu inkar edirsə, onların himayəsində olanlar da onu inkar etməlidirlər. İman gətirənlər öz arvadı, oğlanları və onlara bağlı gəlinləri oldu.

Hud-41

Və (Nuh) dedi: "Onun hərəkət və sükunət halında bismillah deyərək o gəmiyə minin və Bismillah" onun hərəkəıt və sükunətidir. Doğurdan da mənim Rəbbim çox bağışlayan və mehribandır.

Hud-42

Və həmin gəmi onlara dağlara bənzər dalğalar arasında apardı. Nuh (onun etiqadından və ya məkanından bir kənarda olan oğlunu səslədi: "Ey mənim oğlum, bizimlə birgə (gəmiyə) min və kafirlərlə olma!"

Hud-43

O, dedi ki; "Mən, məni sudan qoruyacaq bir dağa çıxacağam". Nuh da "Bu gün Allahın mərhəmət etdiyindən başqasını, Allahın bu əmrindən qoruyacaq kimsə yoxdur" dedi. Bu zaman bir dalğa ikisinin arasını kəsdi: Və Nuhun oğlu boğulanlardan oldu.

Hud-44

(Və Allahın qəti iradəsi ilə kafirlər suda batıb boğulandan sonra) deyildi: "Ey yer, suyunu ud! Ey göy, yağışını saxla!" Su çəkildi, iş bitdi və gəmi Cudi dağı üzərində qərar tutdu. Və (Allaha yaxud onun mələkləri tərəfindən deyirdi: "Ölüm olsun zalımlara!") (haqqın rəhmətindən) uzaq olsun zalımlar.

Çox maraqlıdır, əgər tufanın sonluğu "Cudi"dirsə, bəs nə üçün İncil "Ararat" yazır. Dünya alimləri Ağrı, Ararat və ya Gəmiqaya adlarını önə çəkirlər? Mollalar isə Cudi deyib, möhür vururlar. Hallandırmaya gələndə, heç nə ortaya çıxmır.

Cuy - axar suya, arxa deyilir.

Cudi adlı dağ yoxdur. Əgər varsa, Nuhun əlamətləri orada olmaya bilməz. Təbii ki, hərf dəyişikliyi burada

özünü göstərir. Məsələn, "Kəyyan" (şahənşah məkanı) Quranda Kənan kimi verilir, Bəki Bəkkə kimi verilir. Bu baxımdan da, Cəddi dağı hərf dəyişikliyi ilə Cudi olmuşdur. Nuhun məkanının müxtəlifliyinə səbəb də məhz bir hərfdir.

Sadəcə, belə bir mövhumla rastlaşırsan "Get ora, gətir bura", bilmirəm nəyi? Təkrarçılığa qayıtmıram, dünyanın iki, müqəddəs məkan başlıqlarını tanıyıram. Qabıssan qayaları Ümbakı adı ilə bir başı, digər başı isə Baba dağıdır ki, Daş ağaz və İç ağaz (Oğuz) ağaz başlanğıc məkan mənasında başa düşülməlidir.

Bu yerləri qarış-qarış gəzmişəm. Sadəcə, "Dədə Qadir" ("Dədə Qorqud)" dastanındakı "59" qalanı bir-bir müşahidə etməyim məni tərəddüdsüz bunları yazmağa bağladı. Mən bu ana mövzuların həqiqi, əlçatmaz, ilahi aşiqiyəm. Bunları araşdırmaqdan heç vaxt yorulmuram. Sizlər bunları (ona qədər bu sahədə çəkdiyim albom şəkillərim var, bəlkə də 200-dən çoxdur. Hamısını özüm görüb, dərk edib çəkmişəm) görsəniz, tam əminliklə mənim yazdıqalarımla razılaşarsınız.

Qabıssan qayalarında və xalçalarında olan xərçəng və ağac şəkilləri təsdiq edir ki, dünyanın şəcərə yolları bura olub. Ağac predmet yazılarına görə şəcarə funksiyasına işarə verir. Daha doğrusu, ağac şəcərə mənasındadır, ona görə də Dədə Qorqud dastanında müqəddəslik simvolu kimi səcdə edilir və ağaclara etiqad edib onlardan budaqlarına düyünlər bağlayırlar.

Xərçəng isə "Mədar" (Midiya) mənası ilə, xərçəng tropikinə, yəni dünyanın başlanğıcına işarədir. Yəni dünya buradan başlayıb, xərçəng kimi hər tərəfə yayılıb. Qabıssan qayalarında bu mahiyyətin işarəsi var.

Nədir bu işarə? Şaman başında papaq. Papağın bir tərəfində yeddi xətt, digər tərəfində altı xətt. Bu işarə təsdiq edir ki, dünya əhalisi şəcərə kimi buradan yeddi iqlim boyunca, altı istiqamətdə dünyaya səpələniblər. "Dədə Qadir" ("Dədə Qorqud") dastanında Beyandır (Bayandır) xan deyir: "Şamı künlüyü (yəni bizim nəsil) dünyaya səpələnmişdir". Bütün bunlar sübut edir ki, dünyaya paylanma (şəcərə) buradan başlanıb. Bütün bunlardır Nuhun, Nuhun tufanının mahiyyəti və sonluq nəticələri. Etirazı, əks arqumentləri olanlar varsa, özlərinin tarixi, coğrafi və fəlsəfi mənəvi reseptlərini ortaya qoya bilərlər. Ancaq bu ideoloji tənliklər mənim baxışlarıma və tədqiqatlarıma görə 2+2=4 məntiqi nəticəsidir. Qayaüstü rəsmlər, işarələr, yazılar və Qabıssan xalçalarındakı heroqlif işarələr ilkin tarixin məntiqi nəticələrini silsilə tarixi mərhələlərlə keçilən tarixin zaman yollarını fəlsəfi fikir, baxışlarla təkzib edilməz şəkildə bizlərə çatdırır. Məhz Azərbaycan, onun qayaüstü rəsmləri türk dünyasının başlanğıc, ana tarixi açılmasın deyə hər vəchlə "1300" il dondurulub. Təsadüfi deyildir ki, T.Heyerdal bura baxış keçirmək üçün prezidentlərin işə qarışmasından sonra icazə verilib ki, bu da mənim fikirlərimin təsdiqi nəticəsidir. Demək olar ki, Qabıssan qayaüstü rəsmlərinin açılmasına hələlik dərin mənada baxılmayıb.

Baba dedim, hay verdi,
O dəryadan boy verdi.
Baba, baba, can baba,
Əyinində yaşıl əba.
Adəmin də əbası yaşıl olub.

XAÇ DÜNYANIN İLKİN DİNİ NİŞANI VƏTƏNİ AZƏRBEYCANDIR

Bəqərə-130

İbrahim dinindən öz qədir-qiymətini bilməyən və özünü nadanlığa vurandan başqa kim üz döndərər?! Şübhəsiz ki, biz onu dünyada (peyğəmbərlik, imamlıq və hikmət üçün) seçdik və Onu axirətdə (də) mütləq saleh (bəndə) lərdən olacaq.

Hədid-26

Həqiqətən biz Nuhu və İbrahimi göndərdik və peyğəmbərliyi (məqamı) və (səmavi) kitabı o ikisinin nəslində qoyduq. Beləliklə, onların bəziləri doğru yola düşdü, çoxu isə itaətsiz idi.

Sual olunur, hanı bu din, nə üçün üzə çıxarılmır 2-ci tərəf hanı bu səmavi kitab, bəlkə bu ayələri danıb bunlar olmayıb deməliyik?!

Bəli, mənim yazacağım məqalə məhz bu ziddiyyətli suallardan doğulacaq. Ana tarixin təhrif olunmasından, bəşəri amillərindən doğulan bir yazı olacaq bu. Şərqin klassiklərinin, demək olar ki, hamısında İbrahim dininin ali din kimi olması xüsusi şəkildə vurğulanırvə işıqlandırılır. Fikrimizi təsdiq etmək üçün dünya şairləri N.Gəncəvi və Ə.Camiyə üz tutaq. Bax. «İsgəndərnamə».

And olsun İbrahim sufiyə,
İman gətirdiyim haman sufiyə!.

və yaxud

İbrahim dinini doğru yol bildi,
Atəş tüstüsünü dillərdən sildi.
Aqillər məsləhət gördülər ona,
Oradan tərpənsin Azərbaycana.

Ə.Camiyə görə isə, bax. «Yusif və Züleyxa».

Uçduqda göylərə İdrisin ruhu,
Din keşikçisi etdilər Nuhu.
Elə ki tufana Nuh düşüb batdı,
Xəlillah gəlib bir din yaratdı.

Bəli, bu əvəzsiz şairlərlə yanaşı, Ə.Marağalı, Ə.Xəqani və b. İbrahim dininin olmasını əsərlərində dönə-dönə vurğulayır və təsdiq edirlər. Bu ali din min illər bəşəriyyətin əvəzsiz dini olmuşdur. Üstəlik, İbrahim dini yeganə dindir ki, zamanında bütün dünya bu dini qəbul etmiş və xidmət etmişdir. Fikrimin təsdiqi üçün Amerika və Avropa alimlərinin çoxlu fikirlərinə istinadən amerikalı alim Vitneyin ümumiləşdirilmiş ideyasında dayanıram. Bax.Avesta. səh.21.

İran (əslində Kəyan olmalıdır) Kuruş dövründən sonra Marafon (Yunan-Kəyan (İran) müharibəsinədək yüksək mədəniyyəti və qüdrətli dövlət, xalqı isə yer üzünün böyük xalqı olmuşdur. Yunanıstan vahid bir ölkə olmayaraq xalqları bir neçə tayfalara bölünürdü. Kəyan (İran) isə o dövrdə bütün dünya üçün əxlaq qanunları qəbul etdi və Zərduşt dinini yaratdı (yəni İbrahim dinini). Sonra İsa onun izi ilə gedərək həmin qanunları təbliğ etməyə çalışdı, nəhayət dar ağaçında canını fəda etdi. Lakin Zərdüştün gözəl bəyan etdiyi «uğurlu

düşüncə», «uğurlu söz» və uğurla əməl prinsiplərini İsa ondan yaxşı açıqlaya bilərdimi? Bü üç prinsip hər şeyi aydınlaşdırmırmı? Bütün dinlərin əsası deyildimi? Bu prinsiplərə artıq bir şey qoşmaq olarmı?

Bəli, bu nüfuz (belə fikirlər çoxdur) təsdiq edir ki, Zərdüştlərin (Peyğəmbər İbrahim olub) dini dünyanın alı dini olub. Ə.Xaqaninin fikri ilə desək:

Zərdüştün adının əvvəlidir «zər»,
Zərə arxalanır atəşpərəstlər.
O, büt sındırmağı öyrənib çoxdan,
Atəşpərəstliyin qaçmış odundan.

«Zər» burada taxıla deyilir. Atəşpərəstliyin odundan da qaçan (qurtaran) İbrahim olmuşdur. Bütü də o sındırmışdır.

Məşhur hind yazıçı və filosofu Rabindranat Taqor yazdığı əsərdə qeyd edir ki, «Kəyan» (İran) tarixində ən əhəmiyyətli məqam Zərdüşt dininin ortaya çıxmasıdır. Zərdüşt (İbrahim) ilk şəxsiyyətdir ki, dəyişilməz əxlaqi prinsiplər əsasında din yaratmış və düzgün yol göstərmişdir. Beləliklə yuxarıda göstərdiyimiz ayələrlə müxtəlif klassik alimlərin fikirləri üst-üstə düşərək göstərir ki, bu din ilkin dünyanın, ilkin svilizasiyanın qəbul etdiyi vahid din olmuşdur. Dinin rəhbəri peyğəmbərlərin imamı, Məhəmməd peyğəmbərin əcdadı, bütün müsəlmanların əcdadı və atası İbrahim olmuşdur. Bu dini avpopalılar öz mənbələrində Zərdüşt kimi qəbul etmiş və işıqlandırmışlar (Zərdüşt əslində Zərduş olmalıdır. Bax. Şakir Qabıssanlı «Bəşəriyyət başlanğıcını haradan götürmüşdür» əsəri, «Muğamat və İbrahim

Peyğəmbər» əsərlərinə 2009-2010 illər). Yazdıqlarımızdan belə bir məntiqi sual doğub: bəs bu dinin nişanı nə olmuşdur. Bu nişanın əksi nə şəkildə olmuşdur.

Sualımızın cavabını tapmaq üçün dünyaşöhrətli alim T.Heyerdalın Azərbaycan alimlərinə göndərdiyi (yazılı şəkildə) altı sualın, altıncısına diqqətimizi ayıraq. (1990-1996-cı illər) alim sual verir:

«Doğrudanmı Azərbaycanda ilk xaçpərəstlər təcrid edilmiş, dağlı qəbilə yaşamış özlərini «Azər» (Aser) adlandırmışlar? Lakin alimin suallarına cavab verilməmişdir. Bəli, mərhum alim Azərbaycanda «Dədə Qorqud» dastanına istinadən və Qurana görə, dağlı qövmü olmuşdur. Onlar özlərini «Azər» yox «Azəri» adlandırmışlar. Ona görə ki, Azər-od deməkdir, Azəri isə oda sitayiş edən Atəşpərəstlər deməkdir. Dünyada ilk dəfə oda sitayiş məhz Azərbaycanda olmuşdur.

«Dədə Qorqud» dastanında təhrif olunmuş şəkildə yazılır: «Saqqalı Dağlı keşiş səhər-səhər banlayırdı». Hörmətli tərcüməçi keşiş banlamır yazmaq lazımdır ki, Saqallı keşiş səhər-səhər əzan verirdi və ya səsləyirdi».

«Kiş» din məzhəb deməkdir. Kişiş isə diniicra edənə deyilir. Oradakı dini ocağ düşündüyümüz kilsə yox Məbəddir. Kilsə-sözünün mənası isə kəric daşı ilə əhəng tozunun qatışığıa deyilir. Demək bu materialdan tikilən Məbəd. Belə olan şəkildə bunların xristianlığa aidiyyatı necə ola bilər? Bunlar qədim Azərilərin, Atəşpərəstlərin dili olan Fars yox, Pars (Zahidlər məkanı, atəşpərstlər) sözləridir. Yəni qədim Tatarilərin sözləridir. Taət-ilk dəfə itaət edənlər.

Ari-isə Adəm nəsli deməkdir. Məkanı Quba (Qabıssan) ərazisidir. Udinlərdə isə Arii-Adəm nəsli Saqilər-

dir yəni zamanın ilkin insanları. (Təhrif olunmuş Arsaklar) Həmin xalqların din nişanı Xaç dediyimiz, Xak olmuşdur. Yazılı mənbələrə əsasən «Dədə Qorqud» dastanı VII əsrə məxsus dastandır. Demək müsəlmanlığa bağlı. Müsəlmanlığın ilkin zamanı İbrahim dininə, ikinci zamanı Məhəmməd Peyğəmbərlə bağlıdır. Belə isə VII əsr qəhrəmanı Qazan xanın oğlu Uruz necə ola bilər ki, altun xaçı öpür? Axı müsəlman xaçı öpmür. Demək dastan həmin Dağlı Qövmünün tarixinə bağlanmalıdır. Uruz ona görə Xaçı öpür ki, Xak (Xaç) İbrahim dininin müqəddəs nişanı olmuşdur. Xaçın düşündüyümüz Xaçın 2000-ci il yaşı varsa, Xakın səkkiz min il yaşı var. Buradan belə bir sual doğulur. Xak-torpaq deməkdir bəs onda Xaç nə deməkdir. Ruslara gəldikdə Kres deməklə hansı mənalar ortaya çıxır. Maraqlıdır heç bir dini kitabda Xaçın mənası ortaya qoyulmur. Həmçinin hər şeydən xəbər verən Ensiklopediyalarda. Məgər bu müqəddəs varlığa bağlanan nişanın mənaları olmayıbmı. Bəli əziz oxucu maraqlandığımız sualın cavabı məhz burada axtarmaq lazımdır. Ona görə də bu mənalar Xaç təhrif olunmuş sözdə yox müqəddəs mənaları ilə zəngin olan «Xak» sözündə axtarmaq lazımdır. Misal üçün Xaçmaz adını necə başa düşək Xaç (xristianlıq) maz nə mazı maraqdıdır? Əslində Xak (torpaq) Məaz (müqəddəs Osmanlıdır. Yəni müqəddəs torpaq Baba dağına işarə mənasında, yaxud Xak Mazi, yəni qədim torpaq.

T.Heyerdalın axtardığı Azər-Azəri adları da məhz öz həqiqi mənasını Xakda tapır. Dünyanın ilk Xakının (Xaçın) üstündə iki qanad və iki qanadın üstündə, ortada od şəkli olmuşdur (indi də var qədim Udinlərin abidələrində) Qədim Alban dövlətinin dünyada ilkin dini

nişanı olub Xak (torpaq). Alban Adı bu nişanla vəhdətdə tapır özünü.

Al-ocaq, nəsil. 2) sülalə bir nəsildən olan adamlar. Al(i) Nəbi peyğəmbər ocağı. Bax.ə.f.lüğ.səh.17.

Ban(i) quran tikən, binasını qoyan. Səbəbkar təşəbbüsçü Ba.ə.f.luğ.səh.35. Bu lüğəti terminlər sübut etmirmi ki, Alban adının mənası peyğəmbər ocğı deməkdir. İbrahim, İsmayılın bünövrəsini qoyduğu ocaq. Nij -kəndinin adının mənasının soy kök olması buna təsdiq gətirmirmi.

(Nijad-nəsil, soy, nəcəb bax.ə.f.lüğ.səh.478). (Nicat adı da bu mənaya bağlanır). Bəli bütün bunların qayəsini özündə birləşdirən ana Xak (Xaç) ilkin işarəli - mənaları ilə buradadır. Bunları əyani şəkildə göstərməmişdən əvvəl Xakın (Xaçın) ana mahiyyət formalarını açaq və göstərək sizə əziz oxucular.

1) Xak - a) torpaq; toz; b) Yer kürəsi; v) ölkə, diyar; q) çürümüş, yox olmuş, torpaq olmuş. (Yəni zərrə, zərrələrdən yaranan yer, dünya sonda zərrələrə dönür) (Xak (bus) - birisinin qabağında yerə döşənərək torpağı öpmə.

Xak (dan) 1) zibillik, küllük (yəni sonda külli küf olma). Bəli bu ilkin dördlük dünyanın yaranmavə məhv olmasının ilkin nişanələri və ilahi vurğularıdır ki, özünü Xaç dediyimiz dörd xətlə özünü təsdiq edib göstərir.

Xak (sar) 1) torpağa çevrilmiş, çürümüş, 2) Zəlil, xar olmuş. Bax.ə.f.lüğ.səh.683.

«Xak»ın bu əlamətlərinin mahiyyətini musiqinin əcdadı «Muğam»da da, öz əksini tapır. Yegah muğamı buna bariz misaldır?

1) Yek -vahid allah. Yek-bir, tək, vahid.

Yekayek zərrələrdən yaratmış, hər bir yaranmış varlığın öz zərrəsi olmuşdur. 2) Bu zərrələrdən yarandı yekbədən sözü. Yekbədən - bir bədən kimi birləşmiş. Bu birləşmələrdən yaratdı Allah varlıqları. Yekbir-bir dəfə, birdən, bir dəfədə. Yəni Allah qəflətən, bir dəfəyə «var ol» deməklə dünya yarandı. Bununla da Xak (ın) Xaçın) ilkin musiqi yolu yarandı, avazda. Mənəvi dördlükdə təcəssüm etdirdi özünü. (Açaq bu tənliyi)

1) Tayı olmayan, misilsiz tək. (Yəni əvəzi olmayan bu dünyamızı Allah bizə ehsan olaraq bəxşeyiş etdi);

2) Yekruzə - Yəni insan bilməlidir ki, ona verilən bu misilsiz varlıq ötəri və keçicidir.

3) Buna görə də insan axirət hesabına hazır olmalıdır. Axirət yadda saxlayaq ki, bizi həyatımızın nəticəsidir, buna hazır olmalıyıq.

4) Yeksan - düz bərabər. Dünyanı tozdan, zərrədən yaradan Ulu Tanrı, sonda bu əvəzsiz dünyanı toza döndərib Yeksanəyə qovuşduracaq.

Bu gələn arabadı,
Yol Verin arabadı.
Dünənki gözəl həyat,
Bax bu gün xarabadı.

Bununla ilkin formada Xakın (xaçın) ilkin nidalarını qismən də olsa duyduq. İndi isə «Xak»ın 2-ci məna formalarına nəzər yetirək.

2) Xaki(i) - a) torpağa məxsus, torpaqdan olan; b) torpaq rəngli; v) dünyəvi, dünyaya aid; q) adam, bəşər (dini) Bax.ə.f.lüğ.səh.683.

Yəni maddi həyat varlıq torpaq üzərində qurulub.

Hər bir insanın da rənginə uyğun torpaq mövcuddur. Elə bir insan yoxdur ki, onun rənginə uyğun torpaq olmasın. Bütün bəşər torpaqla madiyyət təşkil edir. Başqa cür mümkün deyildir. Bütün canlı aləmin varlığının, həyatının əsasında torpaq. Bəşəriyyətin mövcudluğunun əsasıdır torpaq.

Bəli, bütün bunlar dördlüyün mənəvi tənlikləridir ki, bizə bunları miras qoyan qədim Atəşpərətslər olmuş, vətəni Qabıssan (Kabrıstan-Kabıstan) və Təbriz olmuşdur. Təsadüfi deyildir ki, e.ə. 96-84-cü illərdə XII Legion Azərbaycanda olmuş Qabıssan qayalarında xatirə yazıları ilə bərabər Xaç şəkli çəkmiş bununla da predmet yazısı (işarə yazısı) ilə Xakın (Xaçın) Vətənini ziyarət etdiklərinə işarə vurmuşlar. Ərəblər isə VIII əsrdə buraya gəlmiş həmin işarəni başqa formadla, yəni qövslə əvəz etmişlər ki, əcdadlarıın buradan olmasına işarə vurmuşldar (qövs əkiz qardaş cövza) mənasındadır. Zamanında böyük fatehlər buraya Qabıssan qayalarına ziyarətə gəlmişlər. Qoruğda olan sınaq daşı və Günəşi qəbul etmə dövarı bunları bir daha təsdiq edir. Qədim Yunanların da qılınca oxşar Xak (xaç) şəkilləri də dediklərimiz bir daha təsdiq gətirir. Təsdiq üçün lazımi çəkilmiş foto şəkillər var. Şəkillər Qabıssan ərazisində çəkilmişdir.

Xakın (xaçın) digər bir forması da Alman xaçıdır ki, onun da müxtəlif forma ilə mahiyyəti də müqəddəs mənalarda qədim Atəşpərəstlərin mifoloji fikirlərində öz təsdiqini tapmışdır. Həmçinin bu müqəddəs mənalar predmet yazıları ilə Qabıssan qayalarında və xalçalarında geniş şəkildə işıqlandırılmışdır. Bu forma isə rus dilində «Svastika» kimi, qədim Atəşpərəstlərin dilində

isə «Çərxi fələkdə» də dördlük dini mifoloji tənliklərlə verilmişdir. (Yəni fələkin çarxı mənasında).

Çərx - 1) Çarx; 2) dolanma, dövr etmə; 3) göy, asiman mənasında; 4) Tale, bəxt mənasında.

1) Çərxi-ətləs qədim astranomiyaya görə - yeddinci fələk; 2) çərxi-kəcmadar-zəmanə, ruzigar; 3) çərxi-kəcrov-tund göy rəngində olan göy. Nəhayət, 4) Çərxi pir-qarımış fələk, qoca dünya. Bəli bu dolanma, gərdişi dövranı andıran fikirlər istər qayaüstü rəsmlərdə, istərsə də Qədim Qabıssanın xalçalarında müxtəlif çeşnilərlə toxunmalarda işıqlandırmaqla yanaşı qədim musiqi, rəqslərdə də həmin mənalarda öz əksini tapmışdır. Həmin rəqsin bariz nümunəsi (Yallı dediyimiz) Yahu rəqsdir. Həmin rəqsin mənalarından biri, ən vacib düşündürücü amillərdən biri, dövr etmədir daşın ətrafında. Yahu-Yarai yəni Ay allah, aman allah əllər yuxarı palxır, mənə cürət ver qüvvət ver (Yarai) əllər aşağı salınmaqla irəli dövr edir. Sonra isə həmin sözlərlə, nidalarla geriyə dövr etməklə bildirirlər ki, göyün, fələkin qüdrətindən yarandığımız kimi, sonda axirət dünyasına qayıdacağıq. Hansı ki, bu nidaları, fikirləri bütün dini kitablar da bizə əyan edir. Məgər bunlar sübut etmirmi ki, bu dini nişanlar və onların müqəddəs fəlsəfələrlə bağlı mahiyyəti burada Qədim Qabıssanda (Kabrıstan Kabıstan), Azərbaycanda yaradılmışdır. Sual olunur «Dədə Qorqud» dastanında Beyandır (Bayandır) xanın yerə döşətdirdiyi xalçalarıfn çeşnləri, heqolifləri, şəkilləri hansılar və yaxud nələr olmuşdur. Əlbəttə göy və yer vəhdətini özündə birləşdirən, işarələr, ulduzlar, bürclər olmuşdur. Muğamdakı «Qatar muğamı» ilkin olaraq bürclərin onların təsirindən yaranan həyatın

gedişatları əks etdirilmişdir.

2) Çərxi fələk - a) dünya; b) göy, fələk; v) bəxt; q) çərxi çənbəri - dairəvi səma; çərxi cəfacı-vəfasız fələk, zülm və əziyyətli dünya. Yəni istəmədən doğuluruq, əzabla yaşayırıq, nəhayət sonda həsrətlə ölürük.

Bəli bu səkkizlik hələ heç kimə sirrini açmayan Qabıssan xalçalarında (Qobustan) qabarıq şəkildə öz əksini tapmışdır. Dünyanın ilkin ana fəlsəfəsidir bunlar. Bütün bunlar öz təkanını Qədim Qabıssandan başlayıb, Dağıssan Altay və Alyaskaya qədər gedib çıxmışdır. 2-ci yol Təbriz, Misir və Hindistana yol açıb getmişdir. Getməyə də bilməzdi. Ona görə ki, bunlar dünyanın ilkin əcdad mifoloji həyat nişanları olmuş, gedənlər də bunları əcdad əxlaqi, dini ideyaları kimi özləri ilə aparmışdır.

Dünyada Xakın ilkin simvolu qılınc olmuşdur. Qabıssanda olan yunan qəbrlərində xaç məhz qılınc formasında çəkilmişdir. (əsaslar var). Buradan bir sual doğulur. Qılınc ilk dəfə Şərqdə və yaxud Qərbdə yaranmışdır. Əlbəttə cavab belə olacaq ki, qılınc Şərqdə icad edilmişdir. Məgər qılınc xaçın rəmzi əlaməti deyilmi. Xaçın dörd forma mahiyyətilərindən biri də bunlardır:

1) Göy; 2) Yer; 3) İnsan; 4) Çürümə. Qılıncın da dəstyi (üçlük) göyə məxsus (Yəni Göy, insan, çürümə ruhun göyə bağlanması) üc hissəsi isə yerə məxsusdur, yəni torpaqdan yaranan insan sonda xakə (torpağa) gömülür. Qılıncın altından keçmə də torpağa baş əyməklə bağışlanmasını istəməkdir. Avestanın şah mifoloji-fəlsəfi fikirlərdən bir maddi həyatın əsas şərtlərindən biri də Xak mahiyyətindən doğan su, od, külək və torpaqdır ki, bu da xalq dastanlarında öz əksini tapmışdır.

Məndən salam olsun ay aşıq qardaş,
İnsan olan necə şeydən hasildi?
Dünya nə üstündə bərqərar oldu?
O nəydi ki, dördü beşdən asılıdı.

Al cavabın verim danaçı qardaş,
Ağ danalar, göy danalar əsildi.
(Yəni Yer, Göy aləminin törəməsidir).
Aldı Məhəmməd.

Al cavabın verim danaçı qardaş,
İnsan olan dördcə şeydən hasildi.
Abu, atəş, xaki baddan xəlq oldu,
O ruhdur ki, dördü beşdən asılıdı.

Beləliklə Xaç kimi işlətdiyimiz sözün, bir ana mahiyyəti də, həyatımızın maddi əsası olan su, od, torpaq və küləkdən ibarətdir ki, Xakda (xaçda) öz təcəssümünü tapmışdır. Tarixi qaynaqlardan məlumdur ki, bütün bunlar bizə Atəşpərəstlərdən qalmışdır ki, onların da vətəni Qabıssan və Təbriz olmuşdur. Şair B.Şirvaninin sözləri ilə desək.

Cəm olub toplanıb, xaliqindən bar,
Cəmiyyət bir nardır, aləm iftarı.
Aləmin mayası onda tamlanır,
O, dörd ünsür içrə tutub Çaharı,
Hər zaman fırlandı başıma mənim,
O qurban olduğum pərvanəm olub.
Bülbüləm, gülümdən ahəstə oldum,
Ətri saxlayan gül təranəm olub.
Dörd ünsür bənd olmuş «nöqtə»sindən «tək»,
Od, torpaq, su, hava mövlanəm olub.

Baxın əziz oxucular xaç dediyimiz Xakın əlçatmaz mənalarına. Bunların sayını istənilən qədər artırmaq olar. Bütün bunları yazmaqda bir məqsədim var, dünyanın əvəzsiz dini İbrahim dinini, bu dinin ana simvolu olan Xakın (xaçın) dünyaya məhz Azərbaycandan təbii olaraq getdiyini, yayıldığını dünyaya çatdırmaq, Allahın dərgahına gedən haçalanmayan bir yol olduğunu çatdırmaqdır.

Dinləri parçalamaq, onları bir-birinə zidd şəkildə qarşılaşdırmaq bağışlanılmaz bir istəkdən başqa bir şey ola bilməz.

Şəkildə qanad, od və Xaç göstərilmişdir. Şəkil qədim Udin qəbirindən çəkilmişdir. Udin əslində Odi (Odlar diyarı) deməkdir. Qəbələ isə əslində Qəblə (qədim), Qabilə (ana) Qiblə deməkdir.

Nij-soy kök (sual olunur kimin soy kökü, əlbəttə qədim Alban xalqının (Al-ocaq, sülalə yəni peyğəmbər ocağı). İbrahim, İsmayıl ocağı, qədim Atəşpərəstlər olacağı) İndii isə şəklin açmasına yönələk.

1) Qanad - Mələklərə işarədir.

2) Qanadın üstündə od (ortada) ilkin oda və onun məkanına işarədir.

3) Xaç isə ilkin həyatın maddi şərtləridir ki, buna da qədim Atəşpərəstlər.

Məna Mələklərin işarəsindən, istəyindən, ildırımın çaxmasından, yerdən çıxan qaza toxunmasından təbii yaranan ilkin od.

İndii isə lüğğəti terminlər əsasında fikrimizə təsdiq gətirək.

1) Azər - a) od, v) atəşgah; v) oda qulluq edən mələk (dini)

2) Azər (əxş) - ildırım, şimşək.

3) Azəri - oda sitayiş edən atəşpərəst (oda aid olan) Azərbaycanlıların bir adı.

4) Qədim Kəyanda günəş ilinin 9-cu ayı (22 noyabr-21 dekabr).

Böyük alim T.Heyerdal bu xaç şəklinə baxmış, mahiyyətini açа bilməmiş abidənin böyür başının ermənilər tərəfindən primitiv şəkildə saxtalaşdırılmasına təəssüf ki, əhəmiyyət verməmişdir. Ancaq Qabıssan qayalarındakı balta şəklini Norveçin balta rəsmini müqayisə etmişdir.

Baxın əziz oxucular şəkil əlamətləri ilə birbaşa üstüstə düşmürmü? Axı bunları necə inkar etmək olar.

Tarixi mənafe xatirinə açmaq yox, Allahın istəkləri ilə açmaq daha məqsədə uyğundur.

«Öz əməli fəaliyyətini Allahın istəkləri əsasında qurmayan şəxslər istər İslamiyyətçi, istərsə də xristian olsun bütpərəstlik köləliyindən azad olmayan məzlum qullardır».

DÜNYANIN İLK HACILIĞI AZƏRBEYCANDA OLUB

Hacıqabuldan başlanan dünyanın ilk hacılığı, üç müqəddəs od məkanından keçib, Babadağında, şeytana daş atma mərasimi ilə başa çatardı

Əziz oxucum, bilirəm ki, bu başlıq səni çaşqın və təəccüb doğuran bir aləmə aparacaq. Ancaq bu düşündürücü başlıq, sözlər, hərflər, vurğular ümumilikdə bizim qaranlıqlarda, dumanda, çəndə itib-batmış, mən deyərdim, acı, əzablı yollardan keçmiş, şikəstə üstündə vay-şüvən qoparan acı həqiqətlərimizdəndir. Adəmin düşündüyü uca zirvə, Nuhun gəmisinin lövbər saldığı uca dağ, Peyğəmbər İbrahim və oğlu İsmayılın şeytana daş atdığı, indi müqəddəs ziyarət məkanı olan (ulu ziyarət məkanı) baba dağ (Cəddi) Həzrət baba (Həzrət-cənab deməkdir). Nəhayət, sonda dağların şahı müqəddəs Şah dağıdır, saydığımız müqəddəs əlamətlərin hamısı öz düsturu, tənliyi ilə həllini tapan, məntiqə söykənən nəticəsi bu yerə istiqamətlənir və həllini bu yerdə tapır. Hacıqabuldan başlanan dünyanın ilk hacılığı, üç müqəddəs od məkanından keçib, Bibiheybətdə şeyxlərin xeyir-duasını alıb (indiki Şıxov deyilən yer şeyxlər məkanı olub). Bakı Bilgahı və Quba Bilgahından keçib Suqayıtdan (Sumqayıt) keçib, sonda Baba dağında şeytana daşatma ilə başa çatıb. Bəli, bu mifoloji xəritə tənliyini xırdalamaqla, açmaqla son nəticəni tam əminliklə əldə edə bilərik. Firkimizə təsdiq gətirmək üçün N.Gəncəvi, Ə.Xəqani, M. Füzuli irsinin davamçısı

məşhur «Leyli və Məcnun» əsərinin müəllifi Bilal Şirvaninin söz karvanına diqqət yetirək.

Ya Rəbb, bu yerin yaşı nə qədərdir?! Yerin yaşı Qabıssandadır. Ya Rəbb, bu sirri olmuş aləmlərin qapıları nə vaxt üzümüzə açılacaq? Bəndənin aləmi-varlıq məkanında öz xüsusi mərtəbəsini tutanda? Bəs o nə vaxtdır? Onu zaman göstərəcək. Yerin canı mənəm, ruhu Allah, onun mülkü Qabıssandır.

Təklif var ki, oxunsun, qoy hər gözəlin bəhri cəmi,
Övliyalar yurdunda o gəlmiş canın öz xətrinə.
Qabıssanın çıraqlarını yandırın, qoy yansın aləm,
Bu gecəni zikr eyləyək, o əzanın öz xətrinə.

Bəli, şairin söz dünyası sanki fikrimizə bir təsdiq gətirir. Göstərdiyimiz peyğəmbərlərin məkanı (bəşəriyyətin anası, qayalarında hələ sirri açılmayan 7000 işarəsi olan (artıq bu işarələr oxunur) ana Qabıssandır. Qabısaan adının mənası Allaha yaxın müqəddəs məkan deməkdir. (Qobustan təhrif olunmuş addır, əgər Qobustan olsaydı, onda «Qabusnamə» də, Qobusnamə kimi yazılardı). Məhz buna görə də dünyanın ilk ziyarətgahını və hacılığını burada axtarmağa dəyər. Qabıssan qayalarındakı işarələr və müqəddəs sözlər tam şəkildə təsdiq edir ki, kəbəsi Beytüllətiq olan (qədim Kəbə) ilk hacılıq burada olub. XII Legion, romalılar, yunanlar, hindlilər, çinlilər buraya ziyarətə gəlib. Bu kəbə Peyğəmbərlərin imamı, atası İbrahim peyğəmbərlə bağlı olub. N.Gəncəvinin dili ilə desək, «İsgəndərnamə» əsərində:

And olsun o İbrahim Sufiyə,
İman gətirdiyim haman sufiyə.

Yaxud başqa bir beytdə.

İbrahim dinini doğru yol bildi,
Atəş tüstüsünü dillərdən sildi.
Aqillər məsləhət gördülər ona,
Oradan tərpənsin Azərbaycana.

Bəli, dünyanın dahi şairi çox ustalıqla vurğulayır ki, İbrahim dininin ibadət yeri, bu dinin dünya tərəfindən qəbul etdiyi kəbəsi Azərbaycandadır. İsgəndər də buraya ziyarətə gəlib. (O zaman, dünya 7 ölkədən və 72 xalqdan ibarət olub. Bax Avesta), Məhz buna görə də bu yerə Azərbeycan adı verilmişdir.

Azər-od məkanı.

Bey-Beyləqan, Bombey Beyrək, beylə başlanan bu qədim adlar işarə verir ki, beyin vətəni çox-çox qədim tarixi olan Azərbeycandır.

Beyt-ev. Beyti Xudavənd Allahın evi (Kəbənin digər bir adı).

Beytülətiq-qədim ev. Kəbəyə verilən ad.

Beytüləhzan-hüzn evi. Yaqub peyğəmbərin Yusifin həsrəti ilə qapıldığı ev.

Beytülhəram-indiki kəbə. Bax. ə.f.lüğ. səh.39. Demək, qədim Kəbəni burada axtarmaq lazımdır. Buna görə də bu yerə, məkana "Azər-Bey-Can" demişlər. Can-işə-ürək, qəlb, ruh deməkdir. Demək, ruh verilən məkan. Bu müqəddəs işarə zəmanət verir ki, Adəmin adı da sırf Azərbaycan adıdır. Məhz buna görə də 80 mil-

yonluq əhalisi olan Türkiyə buraya "Can Azərbeycan" deyir.

Bəzi hallarda tədqiqatçılar Azərbaycanı dövlət adı kimi qəbul etmək istəyirlər ki, bu da düzgün deyildir. Azərbaycan respublika və dövlət kimi 1828-ci il Türkmənçay sülh müqaviləsindən sonra hallanmağa başlayıb. Adın tarixi mahiyyəti sivilizasiyanın əvvəlinə şamil edilməlidir. Müqəddəs dini ad kimi Azərbeycan adı məhz dünyanın ilk qibləgahı kimi qəbul edilib, zamanın ilkin 7 dövləti buraya ziyarətə, hacılığa, gəlib ki, həmin ziyarət məkanının dövləti Alban olub. Fikrimizi təsdiq etmək üçün dünyanın ilkin hacılığı olan bu yerin mənbəyindən, mənsəbinə, yəni son intəhaya qədər olan mifoloji, toponimik xəritəni sistemləşdirmək xüsusi bir məqsəd kimi zərurət doğurur. Bu mifoloji xəritəni nəzərdən keçirək.

İlkin hacılığın qapısı adından göründüyü kimi, Hacıqabildən başlanmışdır.

Qabil-qəbul edən, mümkün ola bilən, qarşılayan, Qabili ehtiram-hörmət edilmədi. Bax. ə.f.lüğ. səh. 101.

Hacıqabildən sonra ikinci məkan Novaidir.

1) Nov-təzə, yeni.

2) Novayi (n) - yeni adət və yeni din qəbul etmiş. 2) yeni gəlmiş, bəzəkli gözəl.

Lüğəti terminlərdən göründüyü kimi, bu iki ad bir-birini təsdiqləməklə yeni dinin, yəni bütpərəstlikdən sonra ilkin təkallahlığın, İbrahim dininin təcəssümü kimi özünü göstərir. Məhz hacılığın, ilkin İbrahim dininin ilk xanəgahı da buradadır (Piri Xanəgah).

Pir-Qoca, təriqət banisi, ziyarət edilən ocaq.

Piri-muğan yəni muğların, atəşpərstlərin piri.

Xanəgah- bir şeyx və ya mürşüdün rəyasəti altında olan dərvişlərin yaşadıqları və ibadət etdikləri yer, təkyə. Bax. ə. f. lüğ. səh.684.

Novaidən sonrakı əsas hacılıq məqamlarından biri məhz ziyarət yeri. Bax. ə. f. lüğ. səh 659- səh 34.

Əsas ziyarət yerlərindən biri. XII Legionun, İsgəndərin, Sezarın, hindlilərin və başqalrının ziyarət etdikləri işarələr və sözlər qeyd etdikləri məkan, Qabıssan qayaları. Bu əraziyə Duvannı, Səngəçal, Çeyr ****və sair aiddir.

Bəli bu adlar toponimik baxımdan düzgün açıldıqda fikirlərimiz, hacılığa gedən yollar bir daha təsdiqini tapır.

Alyat (ələt) ali mənsəb sahibləri olan yer. Qazi xanın (Qazan) Haruzun, Uruzun, Banu Çiçəyin vətəni Alyat bax.ə f.lüğ. səh 19. Mübaliğəsiz deyərdim ki, Qabıssan qaya işarələri məhz bunların zamanında sivil bir məqsəd kimi, mifoloji bilik məcmusu kimi istedadlı adamları tərəfindən yazılmışdır. Dünyanın ilkin yazılarıdır bunlar, qalanları isə bu yazıların davamıdır. Bundan əlavə, ilkin olaraq ilk iplər diş və dırnaqla burada əyrilmişdir. (Çörəyi dişlə-dırnaqla qazanmışam misalı buna aiddir). İlkin xalçalar da bu məkanlarda toxunmuşdur. Daş ağaz, yəni başlanğıc həyat (Oğuz deyirik buna) bu məkanlardır.

Xalça-xaliq sözündən götürülmüşdür yəni xalq yaradıcılığı deməkdir. Muğamın da vətəni buradır. İlkin başlanğıc muğam Bərdaştı öz adı ilə məhz Novai yaxınlığındadır. Dünyanın ilk dağ səhnəsi də bu yerdədir.

Bütün bunlar göstərir ki, XII Legion, ərəblər öz əlləri ilə yazdıqları Qabıssan qayalarındakı yazılar ümu-

mi, dünya ziyarətinin mənbəyi olmuşdur. Bunlar əsərlərimdə xırdalıqlarına qədər açıqlanıb. Sınaq daşının (daşın ortasında çətin keçilən dairədən hər adam keçə bilməz) məhz buradadır. Qədim, qoca Qabıssanda. Bütün bunlar buranın dünyanın ana ziyarətgah məkanı olmasını sübut edir. Sal qayaların arasında bitən yabanı alma, armud gavalı, əncir, üzüm, nar və b. meyvələrin bitməsi Allaha bağlanan zərurətlərdir əziz oxucu. Habilin, Qabilin ilkin taxıla əl vurması bura ilə bağlıdır. Dünyanın ilkin sədaları buradan ərşi-fələkə yüksəlmişdir. Qaval (Qəbail daşı, yəni qəbilə daşı) daşı buna inkaredilməz bir sübutdur. Bəli, kiçik bədii gəzintidən sonra qayıdaq toponimlər aləminə.

1) Divanı - dua olunan yer deməkdir. Bəli, dünyanın ilk hacılıq duaları buradan başlanmışdır. İbrahim namazları burada pak yerdə Həzər sahillərində qılınmışdır (Xəzər).

Həzər-ilkin oturaq təsərrüfata keçid. Şəhər həyatı bax. ə.f.lüğ. 718.

2) Divanni - haqq-ədalət duanı olan yer. Dünyanın ilkin şəfa arzuları, tövbələri burada olmuşdur.

3) Divanni-dərvişlər, divanələr olan yer. 1. Nəsimi dahiyanə şəkildə bildirmişdir, sözün açarı sözün özündədir. Onun hərflərindədir. Naşı tədqiqatçılar bəsit şəkildə bəzən adları tayfa adı ilə bağlayıb məkanı, həqiqəti sanki təhrif edirlər. Divanı türk ölkələrinin əksəriyyətində var. O cümlədən Alyat adı.

Alyatın başqa bir adı Manasdır. Manas adının da mənası ali mənsəb sahibləri deməkdir.

Səngəçar (Səngəçal).

Səng-daş, sınaq daşı deməkdir. Səngə-sitəm-daş

kimi ağırdır. Bax. ə.f.lüğ. səh.551.

Lüğəti ad göstərir ki, 1-ci variant Səngə sınaq daşı məhz buradadır. Dünyanın ilkin sınaq daşı.

Səngəxarə - çaxmaq daşı ilkin vətəni məhz buradır.

Ca-yer, məkan məhəl deməkdir. 1-ci variant.

Səngə - (Çar) dörd 2) fəlsəfədə dörd ünsür (torpaq, su, hava, od).

Çar (pa) dördayaqlı heyvan, mal-qara, qışlaqlara işarə. bax. Ə.f.lüğ səh 743.

Səngəçar yaxınlığında Çehr (Çeyl) üz, sifət, çöhrə. İlkin insana işarədir. bax. ə.f.lüğ. səh 744.

Ziyarətçilər bu yerləri ziyarət etdikdən sonra Bibiheybətə doğru getmişlər. Şeyxlər toplanan bir məkana. Dünyanın ilkin olaraq günəşə sitayiş etdiyi yer, məkan. (təhrif edib Şıxov deyirik bu müqəddəs yerə).

Bi-inkar bildirir, inkar edir, bi-bi qəti inkar edir. Sual olunur: nəyi inkar edir, əlbəttə, Heybəti.

1) Heybət-qorxu, dəhşət, heybətamiz-qorxunc, dəhşətli.

2) Heybət - hörmət, izzət, ləyaqət, etibar, nüfuz. bax. ə.f. lüğ. 712. Demək Bibiheybət qorxulu, dəhşətli bütpərəstliyi inkar edib Beyə hörmət, izzət, yəni beyə-beyyət günəşə sitayiş etməklə İbrahim dininə baş əymək, səcdə etmək deməkdir. Buradan ilkin zamanlarda içəri indiki "İçərişəhər"ə yol ayrılmışdır. Buna görə bu tarixdən İçərişəhər adı öz yerini tutmuşdur.

Bu ziyarətdən sonra istiqamət od məkanlarına yönəlmişdir. Hansıdır bu od məkanları? 1) Pir və ya Pirallahı, 2) Ağəşgah, 3) Yanar dağ (Məhəmmədli). Bəli bu üç ad dünyanın əlbəttə zamanında ilkin oda sitayiş məkanları olmuşdur. Odlar diyarı Azərbaycan adının

bir mənası da bunlarla bağlıdır. Dünyanın ən məşhur alimlərindən olan T.Heyerdal bizim alimlərə 1990-cı illərdə belə bir sualla yazılı şəkildə müraciət etmişdir. Azər və ya Azəri bir addır və yaxud ayrı-ayrı mahiyyət daşıyan adlardır. Bizim alimlər ona cavab yazmışlar ki, bunlar bir və ya eyni adlardır.

Əslində bu adlar ayrı-ayrı mənalar daşıyır.

Azər-od deməkdir.

Azəri isə oda sitayiş edən atəşpərəstlər deməkdir.

Azərbaycanda üç od olduğu üçün, bura odlar diyarı deyilmişdir.

Atəşgah - zənd əvəstaya (Avesta) görə ilkin od Gəzənə düşdü.

1) Gəz - yolğunluq olan yer.

2) Gəz - uzunluq ölçüsü, genişliyə işarə.

3) Gəz - dəfə, kərə (yəni fasiləsiz gediş-gəliş yeri, ziyarətgah). Bəli, bu atəşgahdır. Atəş-od, gah-işə, zaman və ilkin məkan deməkdir. Yəni ilkin od və onun məkanı.

Budur atəşgahın ideoloji tənliyi.

Pirallahı

1) Pir - ziyarət edilən qəbir, ağac, ocaq.

2) Piranəsər - qoca, çox qoca

3) Pirü cavan-cavanlı, qocalı hamı. Ziyarətə gələnlərə işarə. bax. ə.f. luğ. Səh 500-501.

1) Pirab - çox sulu, ilə dolu (Dənizə işarə).

2) Püratəş- odlu, odla dolu, çox kədərli, qəmli (dini mənada).

3) Pürnur - çox nurlu, çox işıqlı bax. ə.f. lüğ səh 504-55. Bəli, bu söz tənlikləri də, bu ad yerinin müqəddəsliyinə işarələr verir. Bu ziyarətgahlara sonuncu tanıdıqlarımdan İndira Qandi gəlmişdir. Hind alimlərindən

biri, atəşgahı ziyarət edərkən onun ürəkdən ağladığını görən şəxs soruşur, nəyə görə belə ürəkdən ağlayırsan, səbəbi nədir? Cavabında bildirib ki, mən buranı əvvəldən belə bilsəydim, evdə və siyyətnaməmi yazıb buradaca özümü odlayıb behiştə qovuşardım. Əlbəttə, bu mötəbər şəxslərin buraya gəlməsi əcdadlarının tarixi ilə bağlı olan məsələdir.

Nəhayət 3-cü od məkanı. «Yanar dağ», Məhəmmədli?

1) Məhəmməd -bəyənilmiş, mədh edilmiş dini mənada

1) Məd-id-uzun, çox sürən, davam edən.

2) Məd-in (ə) tərifəlayiq.

3) Məd-rək (bax Beyrək) sübut olunan, təsdiqini tapan.

4) Məd-xəl başlanğıc. bax.ə.f.lüğ. səh 340.

Məhz bu od məkanlarına görə rus və Avropa mifologiyasında odlar diyarı adı öz təsdiqini tapmışdır.

Ümumilikdə atəşpərəstlərin dilində bu yerlər Azərkiş adını almışdır.(Atəşpərəst)

Azərkiş-od, İldırım Mələk.

Yəni mələklərin təsiri ilə, ildırımın çaxmasından yerdə çıxan qaza toxunuraq ilkin yaranan təbii od və ya odlar.

Bəli, bu odlar məkanı olan yerlərə ümumilikdə ad verilmişdir Baki (Bakı yox) yəni ağlayan, hüzn yeri ələm yeri. Ziyarətgahlar məkanı. Ümbakidən sonra ziyarət edilən yer. Bax. ə.f.luğ səh. 34.

Hacıqabildən başlanan ziyarət məhz bu dövretmədən keçmiş və həmin yerlərə bu adlar verilmişdir. Bu adlar arxeoloji deyil, məhz mifoloji adlardır. Təəssüflər olsun ki, bu adlar arxeoloji adlar kimi tarixə düşmüş

həqiqi tariximiz isə kölgədə qalmışdır. Buna səbəb tədqiqatların məhz Avropa mənbələrinə söykənməsindən doğulmuşdur. Bakidə olan Nardəran adı isə Günəşin qapısı kimi qəbul olunmuşdur. (Nar-Günəşin bir adı, dər isə qapı deməkdir). Bilgah isə Nuha bağlanan addır. Bakı Bilgahı, digəri isə Qüva (qüvvətlər mərkəzi, Baba dağına, Dədə Qorqudda deyilən qışda da, yazda da, buzu əriməyən müqəddəs Qazılıq dağı məhz Baba dağıdır, arzu, dilək, istəkdağı) buradan yeni ağlagəlməyən bir məntiq doğulur. Nuh tufanı olanda Adəmin yaşı 1250 ilə təsadüf edir. Adəmin yerə enməsindən 1250 il sonra mənbələrə əsasən, tufan baş vermişdir. Riyazi üsulla hesablananda iki nəfərin törətdiyi nəsil o qədər də çox olmamışdır. Məntiqi hesablamadan sonra aydın olur ki, Bakı Bilgahından başlanan tufan, yeddi gün neçə saatdan sonra Qüva (Quba yox) Bilgahında başa çatmışdır. Bil-işarə, müqəddəsliyə işarədir.

Gah-isə zaman və məkan mənasındadır. Baxın bu ziyarətlərdən sonra hacılığın son intəhası Baba dağına doğru istiqamət alınmışdı.

Turkiyədə səslənən fikir: «Ay Allah-təala Azərbeycana gələn qada-bəla Qabıssana gəlsin. Qabıssan övliyaları onu məhv edəcək. Mən isə deyirəm Türk dünyasına gələn qada-bəla qoy Qabıssana gəlsin. Qabıssanın 172 övliyası və peyğəmbərləri onu məhv edəcək»

Beləliklə Baki Bilgəhından başlanan ilkin dünyanın Hacılıq yolu, Qüva (Quba) qüvvətlər məkanına doğru yol alır. (Qüvvətlər mənbəyi məhz Baba dağına görə verilən addır). Dədə Qadir (Qorqud) dastanında bu dağ Qazılığ dağı adlanır. Qışda da, yazda da buzu əriməyən dağ. Dünyada yeganə dağdır ki, mart ayında bu dağda

qarın içindən novruzgülü çıxır ki, bunu ilahi müqqədəsliklə bağlamaq olar. Anxa südü, dağ çiçəyi yarana məlhəm olacaq mahz söhbəti məhz burada Qüva (Quba) ərazisində olub. Xıdırzində baba, Xıdır, İlyas, Xızır bu ərazidə olub. Nuh İbrahim dövrünün peyğəmbərləridir bunlar. Xızırın namazgahı indidə Çiçi kəndindədir deyilməkdədir. (Bilgah ərazisində).

Qazılığ, əslində Qazüyülhacət dağıdır - dini əqidəyə görə hər kəsin ehtiyacını yerinə yetirən (allah) bax. ə.f. lüğət. 102. Məhz bu müqəddəsliyi verən Adəm, Nuh, İbrahipm p.ə.ların gücüdür, onlara olan müqəddəslik işarəsidir. Diqqətlə izləyin damla-damla acaçayıq bu qızıl düyünləri. Hacılığa gedən yol iki istiqamətdə olmuşdur.

1) Bakını ziyarət etdikdən sonra, oradakı bütün ziyarətgahları bir-bir ziyarət etdikdən sonra, istiqamət Sumqayıt yolu ilə Baba dağına səfər başlanırdı. Geri qayıdanda Aqsu (Axsu), Şamaxı Dədəgünəş yolu ilə Mərəzə Safinovruz xanəgahını ziyarət edib geri qayıdardılar.

2) Mərəzə indiki torpaq yolu ilə Ümbakidən (Səngəçardan) başlanan yol Qara qaya yolu ilə, (Dədə Qorqudda bu dağ Qaradağ adlanır ki, bu da Xanəgaha görə xüsusi qeyd olunur). Diri baba ziyarət edilib istiqamət baba dağına yol açar. Makadoniyalı İskəndər məhz Axsu-Şamaxı yolu ilə Baba dağına gedib. O, öz atı ilə birlikdə burada dirilik sularından olan istisuda çimmişdir. (İskəndərnamə əsərində bunu geniş şəkildə izah etmişəm. Bax. Ş.Qabıssanlı «Bəşəriyyət başlandığını haradan götürmüşdür» kitabına). Axsulular haqlı olaraq bildirirlər ki, İskəndlərin xəzinəsi buradadır?

Ancaq bu xəzinənin açılmasının və ya bəlli olmasının xüsusi şifrləri vardır ki, təəsüf ki, Axsulular burada bir az yanılırlar. Bu xəzinə Daranı məğlub edəndən sonra (İskəndər və onun qoşunlarının payına düşən qızıllardır. (Ləl Cəvahirlərdir). N.Gəncəvi ona görə də yazır İskəndərin dili ilə, götürün və götürməyin qızılları, götürən də peşiman olacaq, götürməyəndə. Götürənlər başına vurdular ki, niyə görə az götürmüşük, götürməyənlər başına vurdular ki, niyə biz götürməmişik. Bunun səbəbi İskəndər qoşunu ilə Şivan yolu ilə Baba dağına gedib, geri qayıdanda Sumqayıt yolu ilə geri qayıdılar. Baba dağını onlar ziyarət etdikdən sonra, şeytana Daş atma mərasimindən sonra, (Son intəha) Dağıssana, ondan o tərəfə hücum edib istəniləndən də artıq Xəz-dəri və Qızıl əldə etdilər ki, Şirvanda basdırılan qızıllara ehtiyac qalmadı. Maraqldıdır ki, bu xəzinə xüsusi ağıla gəlməyən yer üstü, şifrlərlə xüsusi metodla basdırılıb?!

Yunanların Şirvana qədim Qabıssana (Qabıssanın ilkin adı Şam olub) ziyarətə gəlməsini təsdiq edən xeyli praktik sübutlar var ki, tarixi əsərlərdə bunlar zərrə qədər də işıqlanmayıb, ərsəyə çıxarılmayıb. Ona görə ki, tariximiz avropa yamsılamalarından kənara çıxmayıb. Ə.Cami «Yusif və Züleyxa» əsərində xüsusi vurğularla dahiyənə şəkildə qeyd edir ki, kim Şamda bir ay qaralardısa, bir il ona baş əyərdilər. Əlbəttə bu qədim Qabıssanın ilkin hacılığına olan işarədən başqa bir şey deyildir. Təəssüflər olsun ki, şam deyəndə hamı Suriya ölkəsinin Şamını nəzərdə tutur. Xeyr dünyanın ilkin «Şami» və Şəmi Günəş olan atəşpərəstlərə məxsus olur ki, bunun da vətəni qoca, anna, ən qədim Qabıs-

san və onun Təb-isti məkan, Riza (Təbriz) bir döndən süd əmən mənasını daşıyan Təbrizdir. Fikrimizi təsdiqləmək üçün qədim Azərbaycan folokloruna (Azərbaycan) müraciət edək və fikrimizin təsdiqinə qovuşaq.

Əzizim damda mələr,
Urumda Şamda mələr.
Aşiqin göz yaşları,
Mərmərə axsa dələr.

və yaxud

Əziziyəm, Şama gəl,
Rəpvanətək Şama gəl.
Günorta vədəliyəm,
Get dolan axşama gəl.

Günorta günəşə sitayiş, axşam isə aya, ulduza stayiş olunur.

Əzizim hara gəlsin,
«Şama» nahara gəlsin.
Qışı zəhlə tökəndi
Deyin bahara gəlsin.

Baxın, oxuyun diqqətlə oxuyun bu müqəddəs vurğulara…

1-ci bayatıda

Əzizim damda mələr,
Urumda Şamda mələr.

Dam-ev heyvanı, ev quşu.
Urum-Vizantiya, Türkiyə
Şam isə Qabıssan, indiki Azərbaycandır.

2-ci bayatıda

Əziziyəm Şama gəl,
Pərvanətək Şama gəl.

Bəli dunyanın ilkin, Şamının pərvanəsi İbrahim olmuşdur. Günəşə aşiqliyinə görə butpərəstlər onu da atmış, Rizvan mələyinin bazubəndinin oda atılması nəticəsində, soyuqluq yaranmış, İbrahim oddan salamat qurtarmış, ətrafı tər bənövşələrlə əhatə olunmuşdur.

3-cü bayatıda:

Əzizim hara gəlsin,
Şama nahara gəlsin.
Qışı zəhlə tökəndi,
Beyin bahara gəlsin.

1-ci variantda Suriyanın deyil, bütün bu beyyətilər (bayatılar), sırf Azərbaycan bayatılardır.

2-ci variant Suriyada zəhlə tökən qış olmur axı. Bu Qabıssan qışıdır ki, arabalar keçə bilməyən palçıqlı yolları olur. Qarı az hallarda olur. Ona görə də qışı zəhlə tökəndi. Baharda isə, dərələr, yamaçlar da güllərdən sanki yerə xalçalar sərilir. Bunların sayını artırmaq olar. Bütün bunlar sübut edir ki, İbrahim p.ə. Şama üz tutmasının vəhdədir (Bax.Məryəm surəsinə), şeyta-

na əks getməsinin vəsfidir bunlar. A..A.Bakıxanovun, «Gülüstani frəm» əsərində də Qabıssanın Şam kimi ad daşımasına bir neçə dəfə işarə vurulur. (İndii də Qabbısanda Şamı qışlağı, Şamlı tayfalar, məhəllələr və ya Şamil adlı insanlar vardır) Suriyadan heç zaman bizə Şam adlı mənalı sözlər töhfyə edilməyib.

Bilgahdan başlanan yol Sumqayıta yol aldı. Sumqayıt adı indiyə qədər mübahisəli və həllini tapmayan bir yer adıdır. İnanın əziz oxucular bu ad olanda orada bir dənə də ev olmayıb. Bu ad və ya çəkdiyim bütün adlar arxeoloji yox, hamısı mifoloji adlardır ki, bunları hamısı müqəddəs mənalar və ən qədim mahiyyət daşıyır. Bu ad əslində Sumqayıt yox, Suqayıt olmalıdır.

Su-şərə deyilir. Yəni Şər qayıdan yer. Yəni istiqamət müqəddəsliyə doğru yönəlir. (Suqayıt olmalıdır). Bunun dalınca gələn Şurabad dediklərimizi təsdiq edir.

Şur-çox mənalı sözdür, Suqayıta başlanarsa onda, 2-ci məna eşq, sevgi işarəsi isə Abada bağlanır. Abad-gələcəkdə sonu olmayan, həmişəlik olanlar. Yəni Cənnəti qazanmaq istəyinə gedən yol, məkan. Baxın adlarımızın mənalarına, bu mənalardan doğan tarixə. Bunlardan qədim adlar yoxdur yaşadığımız dünyada. Suqayıtdan, Surabaddan gedən yol, Siyəzəndə sanki bir tufan qoparıb məni kəhf surəsinə Qurana bağlayır. Bu şəhərdə (Siyəzəndə) böyük bir mağara var. İskəndər bu mağara ətrafında lövbər salıb, atlarını burada saxlayıb beşbbarmaq dağına qalxıblar. İskəndər iki qaya arasında gizli səslə əlaqəyə girib burada.

Bunlara mən inanıram və N.Gəncəvinin ideyalarına tam şərik oluram. Ona görə də yazdığım əsərlərdə qeyd etmişəm ki, «İskəndər fatehdir, yoxsa peyğəm-

bər»? Bəli mənim yazı dünyamda İsgəndər həm fateh, həm peyğəmbər, həm də dünyanı azdırıb, səf istiqamətinə yönəldən bir sərkərdədir. İsgəndər dünyanın şahən-şahı (o zamanlar yeddi ölkə olub ki, yeddisi də Daraya xərac verməklə, müharibələr aləmindən uzaq olublar. Bunu dünya alim T,Heyerdal da təsdiq edib, sivilizasiyadan öncə azad sivilizasiya olub). Acaq Siyəzən sözünü. Bu adı ancaq düğğəti terminlərlə və mifoloji yazxdığımız adlarla bağlamaqla açmaq olar və belə məsləhətdir.

Sözün kökü siyahla bağlanır.

1) Siyah-qara, pis xoşagəlməyən

2) Siyah (bəxt) bəxti qara, bədbəxt

3) Siyakar - günahkar, təqsirkar. (Yəni hacılığa gedənlər ancaq və ancaq günahkar kimi gedir, günahlarının bağşlanmasına gedir o yerlərə)

4) Siyəhri - təqsirli gunahkar

2-ci qoşma, bağlantı ilə zən və ya zənndir.

Zən (b) günah, qəvvahət, təqsir (Təqsirkar kimi gedir insanlar hacılığa)

2 Zən (adıq) zındıqlar, dinsizlər.

Bəli lüğəti terminlər istər-istəməz fikirlərimizə tam təsdiq gətirir Adın dinlə bağlanmasına bir işarə verir.

Beləliklə, Siyəzən mağarasına, böyük bir mağaraya, Beşbarmaq dağının aşağısından olan mağaraya istiqamət alırıq. Açaq bu mağaranın sirrini.

Buna görə də, Qurani Kərimin kəhf surəsinin 22-ci ayəsinə üz tutaq.

Tezliklə (sənin qövmünün kafirləri) deyəcəklər: «Onlar üç nəfərdir, dördüncüsü itlərdir». Və deyə-

cəklər: «Beş nəfərdir, altıncısı itlərdir». Dəlil olmayan söz! Və deyəcəklər: «Yeddi nəfərdilər və səkkizincisi itlərdir! De: «Mənim Rəbim onların sayını daha yaxşı bilir». Onları (n sayını kitab əhlindən və sənin ümmətindən) az (bir qism) istisna olmaqla (heç kəs bilmir). Buna görə də onların barəsində yalnız (Quranın bəyan etdiyi miqdar və çərçivədə) zahiri söhbətdə mübahisə et və onlar (mağaradakılar) barəsində onların heç birinin nəzərini soruşma!» Demək burada üç, dörd, beş və yeddi nəfər olmaları və onlardan birinin olması zərurət doğurur. Bəli bu rəqəm beş olmalıdır ki, onların da rəmzi Siyəzən mağarasının üstü olan «Beş barmaq» dağıdır ki, bu beş peyğəmbərə işarə verir. Müqəddəs dağıdır bu, arzu istək dağıdır ki, bu dağın da çox müqəddəs sirləri vardır ki, tədqiqata ehtiyac doğurur. Şimalı N dairəsində olmasına da işarə edilir ki, bu dairə Quranda bir neçə dəfə hallanır ki, bu da qədim İç ağaz (Oğuz) deyilən məkan Xızırdan o tərəfə olan Qüva (Quba) və Dağıstan tərəfdir. M.İsgəndər və b. buraları ziyarət etmiş ziyarət şərtlərinə əməl etmiş Baba dağına istiqamət almışlar.

Bundan əlavə Həzrət babaya gedən yol Dəvəçi və Xaçmaz istiqamətlənir. Dəvəçi dəvələr karvansarası olmuş çox vaxt ziyarətçilər dəvə ilə yollarına davam etmişlər. Şabrana gəldikdə isə bu ad mifoloji yox, orta əsrlərə aid olan addır. Bu yer zindanı ilə məşhur olmuşdar. Ə,Xəqani də bu zindanda (Şirvanşahların) 11 il həbsdə qalmışdır.

Şab-igid, cavan.

Ran-isə-boyunun əyilməsinə deyilir.

Demək igidlərin, cavanların həbsxanada saxlanıl-

ması ilə bağlanan addır.

Xaçmaza gəldikdə bu haqda bir neçə məlumat yazmışam. Bu ad təhrif olunmuş addır. Ancaq ad müqəddəsliklə bağlıdır.

Xaç əslində Xak olmalıdır. (Yəni torpaq mənasında. İnsan və dünya zərrələrdən, tozdan, torpaqdan yarandığına görə Xak adını almışdır. Maz isə əslində Məazdır. (Bax. Avesta əsərinə) Yəni müqəddəs torpaq. (Xak Məaz). Bu da Baba dağı ətrafında olmasına görə verilən addır. Son addım Lahıcda tamalanır ki, bu adın da böyük tədqiqata ehtiyacı vardır. Lahıcda olan gizlintilər fikirlərimizin təsdiqinə çox böyük təkanlar verəcək ki, bunları da aramla açacağıq. Bunları açmazdan əvvəl Hacılığa gedən Şirvan yoluna və bu yolda olan toponimlərə, adlara nəzər yetirsək fikirlərimiz bir daha təsdiqini tapmış olar.

Ən ilkin məsələ Hacılığın son intəha yeri olan Baba dağına qədər Şirvanda (Qoca Şirvan) üç Xanəgah və onların məkanı olmuşdur.

1-ci Hacıqabul Piri Xanəgah (Pimrxənəgə deyilir)

2-ci Ümbaki və Mərəzə arasında Safi Novruz (Sof-Novruz)

3-cü isə Qəbələ və Şəki Xanəgahlarıdır ki, bunlara Azərbaycan Ensiklopediyasında təhrif edib xalkedan deyirlər. Bunlar da Nicdə və kişdədir. Ən qədim xanəgahlar.

Nic soy, kök deməkdir. Qədim atəşpərəst, Azərilərin dilində. Həmin kənddə Abdal məhəlləsinin, yəni dərvişlər məhəlləsinin olması bunu təsdiq edir. Üstəgəl burada Soltan Nuhanın (Nuxa) olması bir daha buna təsdiq gətirir. Alban adı isə dediklərimizə sanki inkar

edilməz möhür vurur.

Al-ocaq, peyğəmbər ocağı. (Ali Nəbi).

Ban (i) isə onun əsasını qoyan. Yəni Peyğəmbər ocağı bu da birbaşa Adəmə, Nuha və İbrahim p.ə. istiaqəmətlənir. (Altay, Alyaska isə ad mahiyyəti açıldıqda Albana bağlanır) onunçun da, İ.Nəsimi dahiyanə şəkildə bildirir ki, sözün açarı, sözün özündədir. Yaxud sözün mahiyyətini, sözün özündə axtarmaq lazımdır.

Qəbələyə gəldikdə belə bir ad olmayıb. Təhrif olunmuş addır bu. Üç mənalı adlar bu.

1-ci Qəblə-yəni miladdan qabaq.

Qəbl sözün kökü yəni - əvvəl qabaq.

2-ci Qabilə - yəni ana mənasında

3-cü isə Xanəgaha görə Qiblə deməkdir. Ad birbaşa Peyğəmbərlərə və Baba dağına istiqamətlənir.

Yəni ümumi məna qədim-ana-Qiblə deməkdir. Qəbələ sözünün mənası tapılsa onda mənim lüğğəti terminlərim istəyimlə öz əhəmiyyətini itirmiş olar. Onun yanında olan İsmayıllı isə birbaşa İbrahim p.ə. oğlu İsmayıla bağlanır. Girdman adı da dini ad olmaqla fikrimizi tamamlanır.

Gird-Gərdman. (Yəni gərdişi dövran, dini) (şəhər ad). Onunçun da N.Gəncəvi İsgəndərnamədə yazır.

Çindən Zəndə qədər,
Nildən Gərdə qədər.

Zənd od, ilkin od mənasındadır. (Atəşpərəstlərə, Azərilərə görə).

Badi Kubə də bu mənadadır. Yəni küləklər şəhəri yox, Badi-güzar (dini) şəhər.

Budur toponimlər güçü, əgər bunlar vaxtında düzgün araşdırılsaydı onda Azərbeycan dönüb Azərbaycan olmazdı. Onun paytaxtı Badi kubə küləklər şəhəri kimi yox, dini ziyarətgah (Atəşgah) məkanı kimi qiymətləndirillərdi. İndii isə dünyanın Ən qədim Xanəgahlarından olan «Kiş» kəndinə və ya «Kiş» məbədinin təhlilinə, «İlkin məkanı Şəki» yox, Nuha olan müqəddəs məkana istiqamətlənək.

İndi isə kiş (Nuha) (Şəki), Axsu, istiqamətlərlə son intəhaya Çəddi dağına (Baba dağına) yan alaq. Kiş din məshəb deməkdir (bax.ə .f.lüğ. səh 291.) Kişdəki Alban məbədi son Xanəgahlardan olub, həm də ilkin. Yəni Bakidən Baba dağına (Çəddi) gedən yolda Hacıqabul, Mərəzə (Safi Novruz) sonda Nıç Qəblə (Qəbələ) və Kiş xanəgahları olmuşdur. Dədə Qadir (Qorqud) dastanında yazılır: «Saqqallı dağlı kişiş (Keşiş) banlayırdı səhərsəhər). Hörmətli tərcüməçi din təbliğatçısı banlamır, əzan verirdi yazmaq lazımdır. Dağlı keşiş bütpərəstlərə aid olub ilkin zamanlarda, biz isə onu naşıcasına xristianlaşdırmışıq. Bununla da tariximizin kökünə balta vurmuşuq. Kilsə sözünə gəldikdə kilsi-əhəng və kəric daşına, ondan tikilən, o materiallardan tikilən məbədə deyirik ki, bu da Ensiklopediyamızda Xalkedan kimi qeyd edilir əslində Xanəgah deməkdir. Bunlardır tariximizə alağlar kimi daxil olan yabançılıqdır. Fikrimi təsdiq etmək üçün iki qədim xalq mahnısına istinad edirəm.

Kişmiri şahin (şalın) ollam,
Dad aldı məni
Ağ üzdə xalın ollam yad aldı məni

Burada kiş-din məzhəb
Mir-işə din başçısına deyilir.

Yəni Rəbbim sənin dininin (ilkin dininin) rəisi olaram. Dad aldı məni, yəni ədalətsizlik, haqsızlıq, bütpərəstlər incidir məni.

Ağ üzdə yəni səmada, onun üzündə xal kimi görünən Günəş tək, sənin rəmzini əks etdirən günəş tək, nümayəndən və ya nişanən olaram.

Yad aldı məni.

Yəni bütpərəstlər incidir məni.

Mahnıdan göründüyü kimi kiş sırf atəşpərəst sözüdür, ilkin dini andırır.

«Pinəçi mənəm» mahnısında isə ilkin dinin məkanı, dünyanın əzəli məkanı əks etdirilir.

Pinəçi mənəm, pinəçi mənəm,
İşləmişəm mədarım, keçmir ay Aman.
Bu qışı burda, bu qışı burda,

Qışlamışam, mədarım keçmir, ay aman (xalq mahnıları).

Bu qışı burda, bu qışı burda deməklə təkrar həyatın qışlaqlara, Qabıssanın qışlaqlarına işarə vurulur.

Mədar-mərkəz, istinad nöqtəsi, özül təməl, xərçəng tropiki bax. ə.f.luğ.səh. 338.

Yəni dünyanın mərkəzi həyatındayam. Dünyanın başlanğıc nöqtəsi buradır. Buradan çıxır dolanacağım. Xərçəng tropikidir bura. Xərçəng dünyanın bir nöqtədən paylanmasına, qol budağına, artmasına işarədir.

Bu qışı burda, bu qışı burda

Yəni eyni həyat tərzi, mənim imkanımın, inkişafına Mane olur. Söhbət qışlaq və oturaq həyat tərzindən gedir. Yüzlərlə xalq mahnıları dünyanın ilkin dininin burada qoca, qədim Qabıssanda yaranmasına, doğulmasına açıqlamalar verir. (Sarı gəlin, Nargilə, Üç gül və s.). Beləliklə, İbrahim dininin xanəgahlarıdır ki, bunları Xalkedan kimi qələmə verirlər. Nic kəndin yaxınlığında Soltan Nuha, Abdal (dərvişlər) məhəlləsi buna əyani misaldır. Abdal məhəlləsi, Aluen məclisləri Al-ocaq, peyğəmbər ocağı deməkdir. (bax.Ensiklopediya bunu da Aquen ediblər). Bu da ilkin din İbrahim dininə aiddir. Xaça gəldikdə təhrif olunmadan başqa bir şey deyildir. Əslində bu «Xak»dır. Xak torpaq deməkdir. Dörd hissəyə bölnümə isə aşağıdakı cədvəl üzrə bölünmüşdür.

1) Xak. 1) Torqaq, toz (yəni dünya özü zərrələrdən yekbədənə dönüb) 2) Yer kürəsi, 3) Ölkə, diyar, 4) Çürümüş, yox olmuş torpaq olmuş. (Yəni zərrədən yaranan böyük varlıqlar, o cümlədən insan sonda zərrəyə və toza dönəcək).

2) Xaki. 1) torpağa məxsus (yəni insan torpaqdan yoğrulmuşdur) torpaqdan olan; 2) torpaq rəngli. (Elə bir insan yoxdur ki, onun sifətinin rəngində torpaq olmasın). 3) dünyəvi, dünyaya aid; 4) adam, bəşər (dini), bax.ə.f.lüğ.683. Əks getmək istəyən bu şəkildə «Xaç» sözünün və əlamətinin mənasında ortaya qoysun. Yoxdur belə adın mənaları heç bir ensiklopediyada. Sadəcə svastika vardır ki, bu da ilkin azərilərə aid olan çərxi fələk deməkdir, onun da səkkiz dördluk mənaları var-

dır. Fikrini təsdiq etmək üçün Xaçmaz adını təhlil edək. Xaç-xristianlığa başlanır təhrif olunmuş formada, maz isə ona qovuşmur. (Nə mazı, ayaqqabı və ya üz mazı qəribədir). Əslində bu ad qədim Azəri dilində, atəşpərəstlərin, Parsların dilində Xak-Məazdır. (Xak torpaq, məaz isə müqəddəs deməkdir). Yenə də Baba dağına işarədir. Beləliklə istər toponimik, istər etnoqrafik, istərsə də mifoloji təhlil baxımından, dövretmə gəzintidən sonra Axsuya gəldikdə bu adda təhrif olunmuş, Aqsudur. Aq bağlanmayan, tabe olmayan, su-isə şər deməkdir. Yəni müqəddəsliyə, Baba dağına istiqamətlənən yer deməkdir.

Bu da Suqayıtla, Aqsu kimi xətt üzrə, hacılığa gedən yollarla sanki uzlaşır. (su-şər, qayıt, yəni müqəddəsliyə getməklə buradan təkan alınır).

Beləliklə ziyarətçilər Baba dağının ətəklərində Lahıcda oturaq məskənində toplaşırlar. Buradan maraqlı, qəribə, ağlagəlməyən bir sual doğulur. Qədim Alban dövlətində, Girdman dövlətində, ondan sonra gələn Şirvanşahlar dövlətində kanalizasiya yoxdur və ya olmayıb, ancaq Lahıcda olub, saxsı borularla. Üstəgəl bu çirkab suların hara töküldüyü də məlum deyildir. Mən deyərdim ki, müasir alimlər və onların elmi bu sirri açа bilmir. Mənə gəldikdə bu sirri mənim mülahizələrimə görə açmaq heç də çətin deyildir. Bu sirri mən əziz oxucularım Lahıc sözü və ya adı ilə açmağa nail oldum. Adın özü bu açılmayan qaranlıq düstura sanki işıq saçaraq sirli qapılarI üzümüzə açır. Sözün və ya dini kökü Lah(ut) dır. Nə deməkdir bu? Lah(ut) ilahiyyət, yəni Allaha bağlı bax.ə.f.lüğ. səh.312. lahutmənzər-İlahi görünüşlü, nurani görkəmli, gözəl mənzərəli (Birbaşa Baba, Həzrət baba, Cəddi (baba) dağına bağlanan mütləq

işarədir.

2-ci "hıç" yox əslində Həccdir bu. Yəni Allaha bağlı, Peyğəmbərlərə bağlı Həcc məkanı. Hər il yayda qədim dünyanın müxtəlif ölkələrindən 20 iyul 10 avqust minlərlə insan buraya ziyarətə gəlib. Pak yer olsun deyə burada kanalizasiya yaratmaq zərurəti doğulurdu. Bu paklıq olmaq üçün, yer təmiz olmaq üçün mütləq şəkildə lazım idi.

O zamanlar burada kənd olmayıb. Kənd üçün də bu kanalizasiya tikilməyib. Sual olunur əgər burada minlərlə insanlar iyirmi günlük məskunlaşırsa, bu zərurətdə kanalizasiya yaradılıbsa, bu çirkab sular haraya axıb tökülüb. Bunları təhlil edərkən təcübdən heyrətlər yarandı məndə. Bəli bu çirkab sular müxtəlif mənbələrdən bir növtədə müəyyən məsafədən sonra qovuşur. Bu qovuşma enli saxsı boru ilə xeyli uzaq məsafəyə doğru surətlə axır. (Təxminən 10-20-40 km). Sonra müəyyən yarğanlar, dərələr məkanında xüsusi quraşdırılmış sxemlərlə (30-40-50) müxtəlif hissələrə, yollara parçalanıb axıb gedir. Ona görə də bura da göl və ya gölməçə yaramayır. Torpağa hopur azlıqda qaldığı üçün və yaxud buxarlanır. Budur lahəcin gizli, açılmayan sirləri. Miskərliyə gəldikdə buraya əlbəttə zamanında imkanlı, tacirlər, sərkərdələr, hətta padhaşlar gəlib bunların da mis və ya dəmir, saxsı əşyalara ehtiyacı var idi ki, güclü sənətkar pul qazanmaq üçün buraya gəlir, sonda isə burada məskunlaşma gedirdi. İpəkin də Vətəni bura olmuşdur. Mən deyərdim ki, gələcəyin şirvanın dünyaya, dünya bazarına çıxan sənətkarlıq məmulatlarının əsası idi bu. Dilləri də qədim atəşpərəst Alban dövlətinin 26 dilinin biri idi. Qədim Alban qəbirləri, yazıları bunları

təsdiq edir. Qədim Tat-Ari dilinə mənsub dilidir (Pars yox). Tat-itaət, ilkin itatə edənlər deməkdir (Qədim Pars, atəşpərəstlər). Arii-isə çılpaq, yalun; 2) Adəmin, onun övladlarının nəsli. Arii-təsdiq edir Adəmi bax.ə.f. lüğ.22-23.

Ona görə də Avropanın havadarlığı ilə ermənilərə sırınır təhrif olunmuş Arsak adı. Əslində Arisaqi Udinlərə məxsus addır. Bu da həmin Arilərdir.

Yəni Arii-Adəm övladları, Saqi isə zaman deməkdir. Yəni zamanın, ən qədim Ariləri.

Beləliklə əziz oxucular müəyyən tarixi gəzintidən sonra nəhayət Baba dağının, (Qızılığ dağının, Cəddi dağının, Həzrət babanın) şeytana daş atma mərasiminə, Adəm peyğəmbərin dörd qoşa çaydan birinin ətrafında olan Cənnət bağının zirvəsi olan Baba dağının sehirli-sirli dünyasının açılmasına, əlbəttə İncilin, Qurani-Kərimin ayələri əsasında açılmasına istiqamətlənək.

İlkin olaraq Cənnət bağı, dörd qoşa çaydan biri olan (Hind-Qanq, Fərat-Dəclə, Amu dərya-Sır dərya, Kür-Araz) Kür Arazın ətrafında olmasının sübutuna çalışaq. Üç qoşa çayın adı məqsədi təsdiq etmir. Ona görə ki, adın mahiyyəti adın özünün mənasında olmalıdır.

Kür (ə) - yer altı su yatağı. (Təbiətin adəmi)

Kür (ə) - girdəşəkilli (Yerə istiqamətlənir)

Kür (ə) - vilayət ölkə

Kürr (ə) - yer kürəsi

Kür (nəş) - əlini döşünə qoyub təzim etmə

Kür (ur) - təkrarllanma, bir şeyin bir-birinin ardınca olması. (Yəni həyatın bir nöqtədən başlayıb davam etməsi, təkrarlanması. Xərçəng tropiki). 2) Yarım milyon. (Yəni əhalinin fərdlərdən, çoxluğa artması)

bax.ə.f.lüğ. səh.295.

Bu ad ən qədim adlardandır. Mənalar özündə təsdiqini tapır. Araz əslində Ariz olmalıdır.

Ariz-təbii və əsli olmayan, sonradan əmələ gələn. (Təbiətin Həvvası). Adəmin məkanını tapmaq üçün, məhz təbiətin adəmini tapmaq lazımdır. Təbiətin adəmini isə elmin adəmi fəlsəfədə onun qolu olan mifologiya və folklor da tapmaq olar.

Fərat-Dəclə isə qaça-qaç mənasını verir. O biri adlara isə siz özünüz toponimik halda yanaşın və təhlil edin.

Mən öz araşdırmama görə məhz Kür və Arazı dörd çaydan olan biri kimi qəbul edirəm. (Avropa da bunu təsdiq edir). Bəs «Cənnət bağı» haradadır. Avropa alimləri «Cənnət bağı»nın dalınca Adəmin izini tapmaq üçün Cənubi Azərbğaycana qədər gəlib çıxıblar. Lakin məsələ qəti şəkildə həllini tapmayıb. İndii isə bizim ölkəyə tarixi müdaxilə edirlər. Ancaq Adəmin düşdüyü məkanın vətəndaşı olmadan bu mürəkkəb sirri açmaq mənim mülahizələrimə görə qeyri-mümkündür. Gərək Adəmin məkanının elindən obasından çıxasan ki, bu sirri açmaq olsun. Azərbaycan Folklorunu, etnoqrafiyasını bilmədən, Qabıssan qayaüstü yeddi min işarəni bilmədən, Qabıssan xalça heroqliflərini açmadan bu sirri dürüst açmaq qeyri-mümkündür. «Cənnət bağı» İncildə qeyd olunan bu bağ məhz Qarabağdır. Qara böyük deməkdir. Bu böyüklük əraziyə görə yox, həcmə görə yox, əvəzsiz, misli olmayan bağ kimi götürülür. «Cənnət bağı» adına gəldikdə cənnət meyvələrinə görə belə adlanır. Nar, üzüm, əncir, gilanar, zeytun, alma armud, heyva və b. meyvələr toplusu olan bağ. Görstərin bir

bağ ki, orada bu meyvələr toplusu olmuş olsun. Yoxdur belə bir bağ. Hindistanda da, belə bir bağ yoxdur. Qarabağ şikəstəsindəki sözlər və vurğular bunu təsdiq edir. Bunu babalarımız, əcdadlarımız deyib:

Əziziyəm Qarabağ,
Şəki, Şirvan-Qaraağ.

Fikir verin, Şəki, Şirvan, Qarabağ. Şamaxı Çuxuryurdundan başlanan bu bağ, İsmayıllı, Qəblə (Qəbələ), Şəki, Ağdam, Şuşa ərazisindəki meşələrdir Qarabağ. Qədim Qabıssanın ərazisidir bu. Bakıdan Dağıstana, Şəkidən Qırx çırağa (Əlibayramı, indiki Şirvana) qədər olan ərazi qədim Qabıssan adlanır. Rus tarixşünaslığında Kabrıstan-Kabıstan adlanır bu yer. (Bax Lətif Kərimovun əsərləri). Qabir, Gabir-qədim deməkdir. Demək Qədim Qabıssan. İlk dəfə qədim adı məhz bu məkana verilib. Qurani-Kərimə, İncilə və b. dinlərə görə Adəm torpaqdan, Quranın möcüzələri kitabına görə vulkan palçılığından yoğrulub. Adəm Allah üfürməklə ona həyat verib, Ruh və Can verib. Sual olunur haranın, hansı məkanın vulkan palçılığındandır. Cavab tapmaq üçün yenə toponimikaya üz tutaq. Bu palçıq indiki Apşeron dediyimiz Abişurun vulkanlarından götürülmüşdür

(əgər yer torpağından götürülübsə).

Abi-göy (rəng) həm də dəniz mənasındadır. Suya aid olan su rəngində bax.ə.f.lüğ.səh.12.

Şurun-səs-küy, qalmaqal hay küy, gurultu, patıltı. Göy rəngində olan, dəniz yaxınlığında vulkan məskəni. Bəli Abişurun vulkanlar, qeyri-adi mənzərəyə malik vulkanlar məskənidir. Müəyyən ərazilərdə həmin yer-

də bu vulkan gözəlliklərini, mənzərəsini görmək olar. Xəzər ətrafında olan vulkanlar. Bunlar inkarolunmaz mifoloji bağlantılardır Beləliklə mənim mülahizələrinə görə Adəm məhz Baba dağına dörd km. Yüksəkliyə endirilib. Baba dağından işə bütün Azərbaycan görünür. Qeyri-adi mənzərəsi var. Oradan Adəm Cənnət bağına düşüb. İl boyu oradakı təbii meyvələr, heyvanlar hesaböına yaşamaq olar.

Çıxdım kəpəz dağına,
Baxdım Cənnət bağına.
Bənövşə çalağ olub,
Qızılgul yarpağına.

Babalarımızdan yadigar qalan bu bayatı bir daha təsdiq edir ki, Cənnət bağı buradadır, qədim Azərbaycanda ana məkan Qabıssanda. Baba dağından Cənnət bağı sübutsuz, cənnət kimi görünür. Bu bayatıların sayını artırmaq da olar. Mağaralara gəldikdə düşündüyümüz mağara qar, gar deyilir.

Ma-isə su deməkdir. Yəni su üstündə olan mağar insalar o daş mağaralarda yox, zağalarda, yeraltı qazma mağaralarda yaşayıb. 1-ci mağarlar dənizlərin də də dibində en qədər var. Bunları bir-biri ilə qarışdırmaq azmaq deməkdir. Həqiqətdən uzaqlaşmaq deməkdir. Budur Cənnət bağının Adəm p.ə. yaşadığı ilkin məkan. 1250 ildən sonra Adəm nəsli Nuhun tufanından yekdilliklə məhv oldu. Səkkiz nəfərdən başqa. Nuh, arvadı, üç oğlu və üç gəlini. Adəm övladları Allahın istəklərinə uyğun yaşamadığı üçün məhv olma cəzasına layiq görüldülər.

Tufan günorta baş verib, Quranda deyildiyi kimi

təndirə çörək yapan yerdə, kimi yatan yerdə geidi. Tufan, iyun aylarında olub (yazda). Fikrimizi təsdiq etmək üçün folklora üç tutaq.

Dəryada qəmim qaldı balam,
Biçilməmiş zəmin qaldı balam

və yaxud başqa formada:

Dəryada qərq olub Nuhun gəmisi,
Biçilməmiş qalıb onun zəmisi.

Ay sona bülbüllər.

Elə Yar-Yar deyirlər, heç məni demirlər. Yəni hamı batanda Allah-Allah deyir, heç məni demirlər. Mən sizi haqqa çağıranda, məni məsxərəyə qoyurdunuz.

Su addım Yara dəydi,
Əlim divara dəydi.

Dilim, ağzım qurusun,
Nə dedim yava dəydi.

Yar-Allaha deyilib ilkin olaraq.

Su-şər addımım Allaha dəydi, yıxıldım əlim divara dəydi. Dilim-ağzım qurusun, nə pis iş tutdum Allahın qəzəbinə düçar oldum.

Bizə gün göndərən Yar

Bəzən gül kimi deyirlər. Əgər gül olsaydı deyərdi mənə gül gönldərən yar. Qeyd edim ki, Nuh dediyimiz

müqəddəs ad əslində:

1) Nöh olmalıdır. (Ruslarda bu Noy adlanır). Nöh-doqquz; 2) qədim astronomlara görə göyün doqquzuncu qatı.

2) Nöhasiman-ərşi fələk bax.ə.f.lüğ. səh.485. Bəzi məlmutalara görə Stanislavski kimi yalançı alimin, uydurulmuş alimin burada Nuhu kəşf etməsi tamamilə cəfəngiyyat bir fikirdir. Nuhun gəmisi (əslində qayıq olmalıdır, gəmi qayığa yox, xalqa deyilir) İncildə yazıldığı kimi qayığ Bəhreyndə qərq olub.

Bəhreyn-Xəzər dənizinə, əslində Həzər dənizi olmalıdır. A.A.Bakıxanova gbrə Həzərin 200-ə qədər adı olub. Bunlardan: Bəhri Xəzər, Bəhri məçlan, Bəhi Gürcan adları xüsusi vurğulanır. (Bax. «Gülüstani İrəm» əsərinə). Baki Bilgahından başlanan tufan Qüva (Quba) Bilgahında başa çatmışdır (yeddi gün ərzində. Bax.T. Heyerdal əsərlərinə). Firimizi təsdiq etmək üçün, Quran ayələrinə üz tutaq. Mömün sur. Ayə 29.

Və dedi: «Ey Rəbim məni (bu gəmidə və sonra yerdə) xeyir dolu (çox bərəkətli) məkanda endir. Sən yerləşdirənlərin ən yaxşısısan».

Allahdan nida gəldi elə də edəcəyəm.

Ayədə göstərilən yer məgər bu bərəkətli yer, təbiətin bəxş etdiyi yer, il boyu təbii qidası olan Baba dağının önü, arxası cənnət bağı deyilmi. Dünyanın ilkin isti xörəyi maral südü, Şəki, Lahıc döyüşündən hazırlanmış sıyığ olmayıbmı? Bəli, belədir. Təsadüfü deyildir ki, Udinlər toyda yeyib-içdikdən sonra yekun dediklərimizin rəmzi olaraq məhz sıyığ verirlər ki, bunu hamı yekdilliklə qəbul edir, yeyirlər. Nuha (Nuxa, Şəki), Qəbələdə Soltan Nuha (Nuxa), məgər təsadüfən bura verilib?

Məgər yalın, çılpaq insanın yaşaması üçün ilkin təbii, münbüt şərait bura deyilmi. İsmayıllılar indi də bura Nuh baba dağı deyir. Xızılılar da bura Nuh dağı deyir. Dədə Qadirdə (Qorqudda) yazılar Nəbada Nuhun eşşəgi nəslindən qız alasan. Bu dastan da, düzgün tərcümə edildikdə addım ba addım Qabıssan və Dağıssan işıqlanır. Buna təsdiq üçün tam əsaslar var əziz oxucu. (Mən bu haqda əsərlərimdə geniş məlumat vermişəm). Cudi dağına gəldkidə belə bir dağ yoxdur. Əslində hərf dəyişlikliyi olmasaydı bu Cəddi dağı olmalıdır.

Cədd - (i) - baba

Cəddə - Nənə

Cəddbəcəd - ana bax. ə.f.lüğ. səh. 754.

Bəli, Baba dağında, ziyarətçilər üç piri ziyarət edirlər. Baba pir (Cədd), Nənə pir (Cəddə) və sonda ana pir. (Cəddəbəcəd).

Cudiyə gəldikdə məna alınmır.

Cud-Comərd, əliaçıq mənasındadır ki, bunun da tufana heç bir aidiyyatı yoxdur. Bax.ə.f.lüğ.766.

Nuhun zəmisi də buradadır. Yaxınlıqdakı göldə qara taxta parçası var ki, onu tutmaq qeyri-mümkündür. Qayıq salamat gəlib dağan zirvəsində dayandı. İnsanlar düşəndən sonra təbii ki, qayıq su axarı ilə dənizə qoşulmalıdır. Siyəzən yaxınlığındakı qara qayaya salavat çevirmə də qayığın qərq olduğu, parçalandığı yer olmalıdır.

Qayığın Ağrı dağda, ermənilərin qondarma ararat dağında qərq olması isə tam əks mövqedir. Avropalılar çəkdiyi filmdə bunu balıqqulağının bu yerdə olmamasına görə geoloji baxımdan inkar edir. Özləri yaratdıqlarını, özləri də inkar edir.

Balıqqulağına gəldikdə bunun da mükəmməl əlamətləri Mərəzədən baba dağına olan ərazidədir. Hətta buruq qazılarkən dörd min metr dərinlikdə çıxan torpaqdan, gildən, daşlaşmış balıq skletləri də bu ərazidən tapılmışdır.

Baba dedim hay verdi,
O dəryadan boy verdi.
Baba-baba can baba
Əynində yaşıl əba.
Quba, Şirvan yolunda,
İkrama gedirdi hamı.
Baba gördu Allahı.
Allah yol ver, baba yol ver.

Əziz oxucum Nöh (Nuh) haqqında əsərlərimdə lazımi məlumatları vermişəm bunu geniş yazmağa ehtiyac yoxdur. Sadəcə, mənim məqsədim bu üç peyğəmbərin burada olması əlamətlərini verməkdir. Sonda isə təkzibedilməz bir fikri açıqlayıram.

Qabıssan qayalarında, həm də xalçalarında olan yeddi müqəddəs işarə dediklərimi inkar etmədən tam təsdiq edir. Hansı ki, bu işarələr indiyə kimi açılmayıb, hətta buna təşəbbüs göstərilməyib. Otuz il tədqiqat aparmış alimlər İ.Cəfərzadə, C.Rüstəmov Qabıssanın tədqiqatçıları bunların açılmasını nə zamansa böyük kəşf kimi qiymətləndiriblər. Artıq bu işarələr oxunur sahibini gözləyir. (Yəni sahib duranını). Nədir bu işarələr.

«Əyri qayıq, başında günəş, altda səkkiz xətt, Xak (xaç) qövş; qayığın ortasında quş, orta-yuxarıda tək ulduz, ağac şəkilləri toplu halda Nöhün (Nuhun) mahiy-

yətini tam açıqlayır. Təsdiq edir ki, hadisə məhz Qabıssan və Dağıssan ərazisində olub.

İndi isə İbrahim p.ə. Baba dağında Qəbələ və İsmayıllı ərazisində şeytana daş atmasını və ilk peyğəmbər ocağını burada qurmasının təsdiqinə yönələk. Tarixi baxımdan, tarixin mifoloji baxımından VII əsrə qədər heç bir yerdə, heç bir məkanda şeytana daş atma mərasimi olmayıb. İncilə və Qurana görə, digər kitablara görə ancaq şeytana daş atma İbrahim və onun oğlu İsmayıla bağlanan bir hadisədir. Ancaq Baba dağına aiddir. Qabıssan qayalarındakı ərəblər tərəfindən yazılan müqəddəs sözlər VIII əsrdə yazılan sözlər tam təsdiq edir ki, ərəblər zamanında özləri bura ziyarətə gəlib bu həqiqətlər danılmaz və inkarolunmaz həqiqətdir. XIX əsrdə və XX əsrin əvvəllərində. Məkkəyə ziyarətə gedənlərə ərəblər özləri deyərdilər ki, siz nəyə gəlirsiniz (azərbaycanlılara) sizin ki, Həzrət babanız var, orada şeytana daş atılan dağınız var. Bunu mənə uşaqlardan bu günə qədər onlarla ziyarətçi məlumat verib. 1490 m yüksəkliyə səkkiz saat yol gedib şeytana daş atmaq məsələsinin hansı zərurətdən doğduğunu mənsiz özünüz təhlil edin.

Bəli, bu Peyğəmbərlər imamı İbrahimlə bağlı olan bir məsələdir. Sonuncu dünya şəxsiyyətlərindən Şah İsmayıl burada şeytana daş atıb. Qurani-Kərimdə də bu açıq yazılır ki, müsəlmanların iki dinə sitayiş etəsi Allahın istəyindən doğan bir zərurətdir. Bir neçə ayələrdə bu öz əksini tapır ki, bunları da öz əsərlərimdə geniş təhlil etmişəm.

İndi isə ayədələr üzrə fikrimizin təsdiqinə istiqamətlənək.

Bəqərə sur. 125 ayə.

Və (xatırlayın) o zaman ki, biz bu evi (əzəmətli kəbəni) insanların dönüş yeri və əmin-amanlıq məkanı etdik və (dedik) İbrahim məqamından (onun arxasından ya sağ və ya sol tərəfdən) namaz üçün bir yer seçsin və İbrahim ilə İsmailə tapşırdıq ki, mənim evimi itaət edənlər yaxınlıqda olanlar (Yaxud ibadətlə çəkilənlənlər üçün) çünki və səcdə edənlər üçün pak-pakizə edin.

Məgər bu məqam Qəblə (Qəbələ) İsmayıllı onun yaxınlığındakı Baba dağı və ətrafı pak yer deyilmi? Məgər bu yerin arxa tərəfi pak yer Həzər 9Xəzər) dənizi sağ tərəf safi-Həmd sol tərəf ibadət olunan yer Atəşgah və digər iki od məkanı deyilmi? Bəli, həmin yerlərdir verilən işarələr bura şamildir. (Şübhəsi olanlar göstərsin ki, Kəbə və onun arxasında sağ və sol, (pak yerin sağ solu) yerlər buradır. Buradan doğulur lahəc pak-yeri.

Bəqərə sur. 126 ayə.

Və (xatırlayın) o zaman ki, İbrahim dedi: «Ey Rəbbim buranı və diyarı təhlükəsizliyi və əmin-amanlığı olan bir şəhər və onun əhalisinə Allaha və axirət gününə iman gətirənlərə hər növ meyvə və məhsullardan ruzi ver. Buyurdu (elə də edəcəyəm) və kim kafir olsa onu bir az bəhrələndirəcək sonra isə odun əzabına düçar edəcəm və ora pis qayıdış yeridir.

Bəli bol meyvəsi, əhalinin bazar və ruzi meyvəsi olan yerlər bu yerlər deyilmi. Bəli buradır İsmayıllı Qəblə (Qəbələ) və Nuha, bunları necə danmaq olar?

Şübhəsi olan göstərin qədim kəbənin bol hər cür meyvəsi və digər məhsullar, o məhsullar ki, maralı sağıb südündən sıyığ bişirsin, maralı xışa qoşsun, bol əti olan (heyvnlardan) neçəsi olsun?

İbrahim sur. ayə 37.

Ey Rəbbimiz həqiqətən mənim övladlarımdan birini, (İsmayılı anası Həcərlə birgə) sənin möhtəşəm evinin yanında əkinsiz bir dərədə sakin etdim ki, - Ey Rəbbimiz namaz qılsınlar. Buna görə də elə et ki, insanların bir qisminin qəlbləri ona meyl etsinlər və müxtəlif məhsullardan onlara ruzi ver.

Əgər bu bərəkətli yer Bakidən Dağıstana, Şəkidən indiki Şirvana qədər ərazisi olan ana Qabıssan deyilmi? Onun üstü (yer üstü) nemətləri və tarixən yeraltı indiki iqtisadi strategiyamızın əsası olan neft Qabıssan nefti deyilmi. Təhlükəsizliyin Qurandakı kimi əsas verən Neft şəhəri deyilmi. Bəli odur əziz oxucu, bu danılmazdır. Şükr etsinlər. Bəli bu üç ayə mənim dediklərimi təsdiq edir. Avestada yazılara görə Muğlar Zərdüştün (əslində Zərduş əkinçilər, peyğəmbəri isə İbrahim olub) ölümünə fərman vermişdilər, şəraba qarşı çıxdığına görə ona görə də arvadlarından birini, övladlarından birini (arvadı Saranı, oğlu İshakı) götürüb kəsə yolla Kəyana getdi (Kənan) Kəsə yol İsmayıl Qələbədən 40-50 km Baba dağının o biri tərəfi Qüvadan (Qubadan) yəhudi qızı Saranı və yeddi yaşlı oğlu İsakın əlindən tutub gizli yolla Kəyana getdi. Həcər və körpə İsmayıl burada qaldı. Azərbaycanda.

Bəqərə 142 ayə.

Tezliklə səfeh insanlar deyəcəklər: onları (müsəlmanları) öz tutduqları qiblədən (Beytülmüqəddəsdən Kəbəyə tərəf) nə döndərdi. De: «Şərq və Qərb Allahındır, istədiyi şəxsi (bəşər cəmiyyətinin xeyrinə olan) doğru yola hidayət edir». «Bir müddət Qüdsə üz tutmaq məsləhət idi, ondan sonra isə Kəbəyə üz tutmaq məs-

ləhətdir. Bəli bu ayə də təsdiq edir ki, kəbələr müxtəlif yerlərdə olub (Qərb və Şərq işarəsi) hər ikisinə xidmət edənlər İbrahim dininə xidmət edənlərdir ilkin olaraq. Beləliklə əziz oxucular üç müqəddəs ilkin Peyğəmbərlər və onların məkanı haqqında sizə xeyli məlumatlar verdim. Bilin ki, Rəbin gücü olmasa elmi ədəbiyyatlarda olmayan bu məsələləri açmaq mümkün deyildir. Yəqin ki, bunları oxuyanda bir qisminiz mənimlə razılaşacaq. Sadəcə burada mənim bir məqsədim var, vətənim, müqəddəs vətnim Azərbaycanın müqəddəs və qaranlıqda qalan tarixini ortaya çıxarmaqdır. Qismən də osla buna nail olmuşam. Sonda onu bildirmək istəyirəm ki, məhz bu peyğəmbərlərə və onların məkanlarına görə əsrin əvvəllərində Türkiyədə bir axund uca səslə, Qabıssandan nümayəndə olan bir vaxtda deyib: «Ay Allah-Təala Azərbeycana gələn qada-bəla qoy Qabıssana gəlsin. Çünki Qabıssan övliyaları onu məhv edəcək». Övliyalar dedikdə məhz mənim işıqlandırdığım məsələlər öz yerini tapır.

Mən isə deyirəm ay Allah-Təala «Türk dünyasına gələn qada-bəla qoy Qabıssana gəlsin. Qabıssanın 172 piri və peyğəmbərləri onu məhv edəcək», Budur Qabıssan adının mahiyyəti (Təəssüflər, təəssüflər... biz onu Qobustan etmişik).

Ali İmran 97.

Onda (Allahın tövhid, hikmət və rəhmətindən) aşkar nişanələr (və həmçimnin o nişanələrdən biri olan) İbrahimin məqamı vardır. Kim ora daxil olsa amandadır. (Amanda olmalıdır). Allahın insanların əlbəttə ora getmək imkanı olan kəsin-boynuna düşən haqqı budur ki, o evə gedərək oranın həci əməllərini yerinə yetir-

sinlər. Kim nankorluq etsə (bilsin ki,) həqiqətən, Allahın aləmdəkilərə ehtiyacı yoxdur.

Ayəyə görə İbrahim nişanələrindən ən vacibi şeytana daş atmadır ki, tarixi baxımdan o, baba dağındadır. Tarixə görə bu mərasim dünyanın heç bir yerində olmayıb.

2. Nişanə xanəgahlardır ki, indi də ora ziyarət edilir.

3. Ulduzlara İbrahim p.ə. üz tutmasının, xüsusilə Günəşə (oda) üz tutaraq ilk dəfə Rəbbim (Allahım) sözünün əlaməti olan üç ziyarət od məkanı məhz Azərbaycandadır. (Bu odlara zamanın dünya ölkələri gəlib). Nəhayət sonuncu ayə ilə fikrimizi tamamlayaq.

Ali İmran 96.

Şübhəsiz, insanlar (in ibadət) üçün (təməli) qoyulmuş ilk ev, həmin Bəkkədədir ki, (o) xeyir və bərəkət dolu və aləmətdəkilər üçün hidayət vasitəsidir. Məgər Bəkkə, Bəki deyilmi (saf, təmiz müqəddəs torpaq). Aşıq Əhmədin yaxdığı:

Bir yanı Şah dağı, bir yanı Şəki,
Ruha qida verir günəş, ay təki.
Bir yanı payxatım o, gözəl Bəki
Bir də kür qırağı Şirvan deyilmi.

Bəli bu xəritənin mahiyyətindən doğulub Qabıssan adı. Qədim insanlar deyərdilər Bəkiyə gedirik. (Bakiyə yox). Baxı hərflərin qüdrətinə (a, ə).

Bu yazılardan sonra, necə düşünmək olarki, İsgəndər Azərbaycanda olmayıb və bu yerin ziyarətgahlarına baş çəkməyib?

Rüstəmxanlı İlahə Xudu qızı

Bu toponimləri vaxt sərf edib, toplayıb ülvü vətən məhəbbəti ilə mənə həvalə etdin.

Hörmət və pərəstiş etdiyim, əmək kollektivimin fəxri üzvü İlahə xanım, Vətəni özün qədər, hətta özündən də artıq sevdiyin üçün, "Yardımlı toponimlərinin" incilərini cilalamaq üçün butada olan zərlər kimi mənə həvalə etdin. Mən isə bu zərləri cilalayıb əbədi bərq vuran mənəvi incilər kimi sizə, və sizin çox sevdiyiniz elinizə, obanıza səmimi qəlbdən töhfə edirəm. İsgəndər dünyanı fəth etdiyi kimi, sən də Yardımlının məlum olmayan, müqəddəs mənasını, qədimlikdən bizlərə miras qalan dəyərli məna mahiyyətlərini fəth edib dogma vətəninə bəxş etdin. Buna görə də vətəninin fəxri övladı kimi, mənəvi zəri kimi belə bir əsərdə özünə məxsus yer tutdun. Siz buna qeyri şərtsiz layiqsiniz.

Şakir Qabıssanlı

YARDIMLI TOPONİMLƏRİ

Yardımlı adı bu formada heç vaxt öz məntiqi mənasını bizə bəxş edə bilməz. "yar" və "dım" sözləri heç cür birləşmir. Bütöv şəkildə isə, hara işarə olunduğunu bəyan etmir.

Yardımlı – hara yardım olunmağını, onun mahiyyətini, mənasını işıqlandırmır. Ona görə də ada başqa bir prizmadan yanaşmaq lazımdır. Bölünən söz kimi adı iki hissədə "Yar" və "Dım" yox, daim (li) kimi qəbul etmək olar.

1) Yar – yardımçı, köməkçi.

2) Yar (ai) – qüvvət, güc, qüdrət. Bax.ə.f.lüğ. səh.267

1) Daim – daim, həmişə. Bax.ə.f.lüğ.səh 134

Demək adın həqiqi mənası Yardımlı kimi yox, Yardaimli kimi qeyd olunmalıdır. Demək Yardaimli Allahın əli olan yardıma, köməyini əsirgəmədiyi güclü, qüvvətli, daimi, həmişəlik gözəlliyini saxlayan yer, mənkan mənasında olan söz və ya addır. Qədim adlar sırasına daxildir. İslama, orta əsrlərə bağlı ad deyildir. Ulu babalarımız hər bir məkanımızı ağıllı, şüurlu surətdə süzgəcdən keçirib, zəngin mənaları ilə bizə miras qoyub getmişlər. Zaman-zaman müstəmləkəçilik, işğallar bu adların təhrif olunmasına, mənaların itməsinə, tamam başqa zəif formalara gətirib çıxarmasına zəmin yaratmışdır. Əgər bu yerlərin ziyarət adları və kənd adlarının mənaları açılsa, Yardımlının ana tarixinə böyük təkan vermiş olar.

Yardımlının kəndləri

Abasavad

1) Aba - əcdad, ata-baba. Bax, ə.f.lüğ. səh.2

2) Savad – ölkə, vilayət. Bax, ə.f.lüğ.səh.531

Alban dövlətinin toponimlərinə məxsus addır. Qədim tarixə malikdir bu kənd. Savad Qəbələ və başqa yerlərdə də kənd adı ilə vardır. Qədim, əcdad məkan mənasında.

Bilnə

"Bil" və "nə" vəhdətdə ziyarətgahlara, müqəddəslərə bağlı söz işarələridir. Ziyarətgahlarına görə bu adı özündə daşıyır. Bilgahla vəhdətdə olan addır.

Alar

Al – ocaq, ziyarətgah ocağı kimi Albana, Al – peyğəmbər ocağına məxsusdur. İbrahim, İsmyıl ocaqlarına bağlanan addır. İlkin dinin İbrahim dininin daşıyıcısı olan addır. Ar isə, Arilərə yəni ilkin bəşəri nəslə aid olan söz və ya addır.

Seyidlər

İslama bağlı deyildir Seyidlər. Qədim zahidlərə bağlanan seyidlərə məxsusdur. İbrahim dininin seyidlərinə bağlanan addır. Alban dövlətinin 26 tayfasından biridir bu yerlərin insanları. Atəşpərəstlik tarixinə bağlanır bu yerlərin tarixi. "Ar", "Ər" – isə işarə bildirən sözlərdir.

Şıxseyin

Şıx Hüseyndir bu yerin adı. "Seyn" sözü bağlanmır "Şıx" mahiyyətinə. Çox yerlərdə vardır Şıxhüseynlə bağlı adlar. Hacıqabuldakı Xanəgahın Pirhüseyn ziyarətgahının tarixi mahiyyətində, ona bağlanan, vəhdətdə olan addır.

Şıx, Şeyx ilkin olaraq İbrahim dinindən doğulan, sufiliyə bağlanan sözlərdir, islama yox.

Anzo

An - üçüncü məna – gözəl, ürəyəyatan məkan mənasında olan addır. Bax.ə.f.lüğ.səh.5

1) Zail – daimi olmayan, müvəqqəti, fani, batan (Ay və Günəş haqqında)

2) Zair – ziyarətçi, ziyarətə gedən. Bax, ə.f.lüğ. səh.207

Ümumi məna ruh oxşayan ziyarətgah məkanı.

Solğay

Bir-birinə bölünən söz kimi bağlanmayan, təhrif olunmuş addır. Əslində, birinci söz "Sol" deyil, "Sövm" olmlıdır.

1) Sövm - oruc

2) Sövəə - ibadətgah, ibadət yeri, ibadət guşəsi. Bax.ə.f.lüğ.səh.572

İkinci söz isə "Ğay" deyil, "Qayə - Gayə" olmalıdır.

Qayə - məqsəd, arzu, niyyət. Bax.ə.f.lüğ.səh.102

Ümumi məna arzu, istəkləri həyata keçirən böyük ibadətgah yeri mənasında olan məkan deməkdir.

Zenqara

Hərfləri təhrif olunmuş addır. Bu yerin adı "Zen" deyil, "Zehiqara", yaxud Zən qara olmalıdır.

1) Zehi - nə yaxşı, nə gözəl, əcəb mənasında. Bax.ə.f.lüğ.səh.210

2) Qara – böyüklük və ya müqəddəs gözəllik məkanı mənasında. İkinci bir tərəfdən təbiət gözəlliyinə bağlı məkan mənasında.

İkinci məna "Zen" deyil, "Zən" gözəllik və müqəddəslik mənasında olan məkan mənasında. (yəni zənn et işarəsi ilə)

Bozayran – Bozeyran

Ad təhrif olunmuş addır. Əslində, bu yerin adı "Büzürgayin" olmalıdır. Din qanunlarına, bu qanunlara bağlı zinətli məkan mənasında. Təbii ki, ziyarətgahlarına bağlı addır. Dinə bağlı müqəddəs məkan.

Göründüyü kimi, Yardımlının digər adları və bu adların vəhdətindəki mənalar bu yerin çox-çox qədimliyindən, din və təbiət adlarında öz mahiyyətini üzə çıxaran gözəllik məkanı mahiyyətindədir. Yardımlı adları atəşpərəstlikdən gələn, o tarixə bağlı bir məkandır.

Hamar kənd

Hamar kənd, lüğğəti formada "Həmvar", yəni uyğun müvafiq, hamar yer mənasındadır. Ətraf yerlərlə müqayisədə düzən yerdə olan məkan mənasında Azərbaycanın fəxri ziyalısı Sabir Rüstəmxanlının doğma yurdu.

Talış

Talış, Talışnuri və başqa adlara Azərbaycanın müxtəlif yerlərində bu ada rast gəlinir. Lakin "Talış" adının, sözünün ana mahiyyət və manası təhlil edilib, konkret şəkildə ortaya qoyulmur. Hansı sözdən və hansı mənadan doğulur bu ad? Araşdıraq "Talış" sözünün məna çalarlarını. Talıq tayfa adı mənasında,yer adı mənasında ya bir başqa mənada kodlaşdırılmamış ad kimi sual altında qalır. Müxtəlif mülahizələr irəli sürünsə də, konkret məna mahiyyətinə bağlanmamışdır. Talışnuru adı isə bu adın təbiət gözəlliyinə bağlı olmasına işarə verir. Lənkəran ərazisindən başqa Zaqatala, Şamaxıda və o yerlərdə olan talışla bağlı adlar gözəllik məkanları kimi özünün təsdiqini tapır. Belə halda talış sözünün və ya adının lüğğəti terminlər əsasında təhlilinə istiqamət alaq.

"Tal" və "Təl" adın kökünə bağlı sözlərdir.

Tal (ış) kimi adı qəbul etsək, onda lüğəti terminlərə əsasən Tale sözünə bağlanırıq.

1) Tale – tülu edən, doğan, çıxan. Bax.ə.f.lüğ. səh.581

Bu baxımdan Talış sözü, doğan, çıxan tulu olan.

Tulu – doğmaq, çıxmaq (Günəç və s.) məcmusu zahir olma, görünmə. Bax.ə.f.lüğ.səh.654

Bu istiqamətdə Talış sözü Günəşə bağlanmaqla, Günəş nurlu, oparlaq məkan kimi öz məntiqi nəticəsini tapır ki, bu da lam – köhn (lam-kon), yəni, Lənkəran adı ilə bir vəhdətə bağlanır. Ümumi məna Talış – Günəş kimi parlaq, gözəl məkan deməkdir.

İkinci varianta "Təl" ilə bağlı sözlərə bağlanaq.

1) Təl (avəd) – gözəllik, gözə şirinlik.

2) Təl (vin) – rəngbərənglik, əlvan etmə.

3) Təl (əmmö) – işıqlanma, nurlanma, şəfəqlənmə, müxtəlif ənglərə boyanma. Bax.ə.f.lüğ.səh.610

Bu lüğğəti terminləri Tal və Təllə bağlı sözlərin məcmusunu özündə birləşdirən, ümumiləşdirən bir addır "Talış" adı ki, təbiət gözəlliyini özündə təcəssüm etdirir.

Talışnuri isə Günəşin bəxş etdiyi bərəkətli, gözəllik məkanı mənasındadır. Bərəkətli,nurlu torpaq. Ümumi məna "Talış" təbiətə bağlı bir toponimdir. Qaldı Talış qövmünə, Alban dövlətinin 26 tayfasından biridir. Seyidliyə gəldikdə ("Mir" sözü ilə bağlı). Bu seyidlik İslama deyil, İbrahim peyğəmbərin seyidliyinə bağlanan söz və onun mənasıdır. Ona görə ki, onlar da Günəşə, işığa və çırağa and içirlər ki, bu da onları atəşpərəstliyə bağlayırş Lam-köhn

Ərazilərini dünyanın ən qədim məkanları saymaq olmalıdır.

İsmayılova Rəna İsmayıl qızı

Kollecimizin sevimli, fəxri qızı Rəna xanım, sənin vətənin dünyanın, ən qədim mənalarındandır. Bu məkan, bu vətən Gəncədir. Vətənin Gəncənin sönməz vurğunu olduğun üçün, onun müqəddəslikdən doğan məna mahiyyətinin, məlum olmayan mahiyyətlərinin açmalarını lütfən sizə töhfə etməli oldum. Buna səbəb vətəninə, elinə, obana olan məhəbbətin və vətəninin tarixinə sevgi bağlılığın oldu. Vətənin Gəncənin tarixi yaddaşına düşmək hər bir insana nəsib olmur. Ancaq sən buna layiq və sahib oldun. Zamanında gələcək nəsillər Gəncənin ana tarixi və bu tarixin məlum olmayan sirlərini, sizin timsalınızda oxuyub, təbii ki, sizə vətən sevgisi hisslərini yaşadacaqlar. Arzu edirəm ki, bunlar vəhdətdə əbədi, tarixdən silinməyən mənəvi izlərin olsun.

Şakir Qabıssanlı

GƏNCƏNİN TARİXİ - TARİXİN GƏNCƏSİ GƏNCƏNİN TARİXİ YENƏ SAXTALAŞDIRILDI

- Topinimlər tarixin kod açarlarıdır desək, heç də yanılmarıq. Təəssüflər olsun ki, qırmızı bolşeviklər, sovet repressiyası bu mənəvi, tarixi açarlara elə pas vurmuşdur ki, onların açılmasına XX əsrin elminin gücü çatmamış, XXI əsr elmi isə yeni üsul metodunu hələlik ortaya qoymamışdır. Çox maraqlıdır ki, toponimlər adları ilə yanaşı, tarixi baxımdan da əcnəbi alimlərin mühasirəsindən kənara çıxa bilməmişdir. Elmin ən qədim qolu olan toponim və onların tarixinin meyar ölçüsu antik alimlərdən Ptolomeyin, Strabonun, Plutarxın və digərlərinin baxış prizmasından və arxelogiyanın elmi tarixi qolundan kənara çıxmamışdır. Məhz bu prizmadan toponimlərin yenidən klassik üslubda işlənilməsinə, araşdırılmasına dərin ehtiyac vardır. Bu haqda 2013-cü ildə 504 səhifəlik "Topinoimlərin açılmayan sirləri" əsərini töhfə kimi millətimə bəxş etmişəm. Buna baxmayaraq, bir neçə toponim haqqında ayrılıqda məlumat verməyi özümə borc bildim. Bunun da səbəbi dünyanın ən qədim toponimlərindən olan Gəncə, Tovuz, Şamaxı və Şəmkirin qədim məkanlara 2000-2500-4000 il tarix qoyulmasının yanlış olması zərurəti oldu. Sual olunur: əgər bu yerlərin adı və tarixi bu illəri əhatə edirsə, dərsliklərdə yazılan Misir tarixi 3000 ildirsə, bəs onda bunlardan qədim məkanlar hansıdır və ya deyəcəyiniz, yazacağınız, ortaya qoyacağınız adların ad mahiyyəti ilə onun tarixini bizə bəxş edəcəkmi? Əlbəttə, yox! Biz birdəfəlik bilməliyik

ki, arxeologiya elmi tarixin qədimliyini əks etdirsə də, ən qədim dövr ondan min illəri qabaqlayan mifologiya olmalıdır. Məhz dünyanın ən qədim toponimləri mifoloji adlar olmuş və mifologiya tarixi ilə də açılmalı, onlara aydınlıq gətirməlidir. Belə olan halda, dünyanın ən qədim toponimləri olan, qədim tarixə bağlanan bir neçə adı önə çəkməli oluram. İlkin olaraq Gəncə toponimində dayanaq. Aldığım məlumatlara görə, Gəncənin tarixini sonuncu olaraq dörd min il təyin ediblər. Mən bir mütəxəssis kimi buna etiraz edir və öz mövqeyimi ortaya qoyuram. İlkin olaraq İ.Nəsiminin müdrik və məşhur bir firkini qeyd edirəm: "Adlar və sözlər mahiyyətin açarıdır". Dahi şairin fikir prizmasından yanaşsaq, Gəncə adının lüğəti mahiyyəti, mənası elmi mənbələrdə, toponimşünaslıqda mütləq açılıb ortaya qoyulmuşdurmu? Xeyr, qoyulmamışdır? Əgər qoyulmuş olsaydı, ad öz tarixini özündə əks etdirməyə bilməzdi. Dünyanın ən qədim kitabı, yazılı əsəri olan "Dədə Qorqud" dastanında bu ad ilkin toponim kimi göstərilir. Naşı olaraq bu dastanı VII əsrə bağlasalar da, əslində bu dastan "Zənd-Əvəsta"dan da ("Avesta") öncə yazılmış ən qədim əsərdir. Ona görə ki, əsərədə VII əsrə aid yüzə qədər dövlətdən birinin də adı çəkilmir. Orada Gərdman (Girdman), Şamaxı, Şirvan adları deyil, məhz Alban adı üç dəfə çəkilmişdir (Drezden nüsxəsi). Bəli, "Dədə Qorqud" dastanı Qabıssan (Qobustan) qayaüstü rəsmlərin, qədim xalçalarımızdakı işarələrin sivil davamıdır desək, heç də yanılmarıq. Gəncə adı da qədim Alban dövlətinin ilkin toponimi kimi özünü göstərir və təsdiq edir. Alban dövlətinin və Gəncə adının mənası "Dədə Qorqud" dastanının açılmayan kodlarına əsasən

ən azı səkkiz min il tarixi var.

Klassik şairlərmiz olan N.Gəncəvinin, Ə.Xəqaninin əsərlərində qədim mifologiyaya görə, bəşəriyyətin (Yer kürəsinin yox) səkkiz min, onlardan da bəri min il keçməklə doqquz min il yaşı vardır. Mifologiyamıza görə, "yediddən-yetmişə" zərbi məsəli vardır. Yeddi, yəni Adəmin yeddi min il yaşı olanda İslam dini meydana gəldi. Yetmiş isə, yer kürəsinə yetmiş min il yaş verilmişdir. Mifologiyaya görə, on min ildən bir svilizasiya dəyişməlidir.

Öncədən görənlərin də fikri və müasir qlobal zidiyyətlər də sanki bunlara təsdiq gətirir.

- Gəncə toponiminin mənası və bu mənadan doğan tarixi qaynaqlara baxışınız necədir? Yaxud, bu haqda nə deyə bilərsiniz?

Bəli, Gəncənin tarixinin səkkiz min olmasına heç də şübhə ola bilməz. Zənd Əvəstaya (Avesta) görə, dünyanın ilkin qövmü muğlar olmuşdur. Muğlar isə, Muği (qədim Udin dilində) səkkizlik, səkkiz gün mənası ilə birbaşa Nuh tufanından sonra salamat qalan səkkiz nəfərə (Nuh, arvadı, üç oğlu və üç gəlini) bağlanır. Bax İncil və Tövrat dini kitablarına və Qabıssan xalçalarına. Azərbaycanın bir çox yerlərində olan Muğan və Muğal toponimləri də mənası ilə məhz bu mahiyyətə və bu tarixə bağlanır. Bundan arxaya tarix varmı? Əlbəttə, yox! Gəncə və onun tarixi də bu adlarda vəhdətə bağlanmalıdır. Qabıssan qayaüstü işarələri və xalça işarələri "Şumer" və "Orxan Yenisey" yazılarından öncə olan tarixi abidə və tarixin ilkin predmet (əşya) yazılarıdır. Sadəcə, Qabıssan işarələri (Qobustan), xalça işarələri oxunmadığı üçün onları qərb alimləri önə çıxarmışlar.

Xalçalarımızın adları da dediklərimizə təsdiq gətir. Ətbəttə, bölgələrdən asılı olmayaraq

1) Sumağ - su üç mənalı söz kimi tərəf mənasında, Mağ, Muğ, Müğ atəşpərəst, zərdüşt mənasında (Yəni Muğlar tərəifndən icad edilən, hasil olan);

2) Gəbə - Gəbr yenə də atəşpərəstlərə məxsus;

3) Pəlas (Palaz) - dərvişlərin üst geyimi, ev məmulatı, əşyası (Palaza bürün elnən sürün misalı buradan doğulub. Elnən sürünənlər İbrahim dinini təbliğ edən dərvişlər olmuşdur). Baxın, bunlardan arxaya, tarix yox, maddi mənəvi abidələr yox, Muğların vətəni bir ucu Qabıssan olmuş digər bir ucu Təbriz olmuşdur. İndi isə keçid alaq Gəncə, Tovuz, Şəmkir adlarının tarixinə bağlılığına.

Dastanda qeyd edilir ki, Dədə Qorqud sazını belinə keçirib, atını minib Bərdəyə, Gəncəyə gedib özünə vətən tutdu. Sual olunur: bu təhrif olunmuş Qorqud (Əslində ad "Dədə Qadir" olmalıdır) haradan Gəncəyə, Bərdəyə getdi, özünə vətən tutdu? Sualın cavabı dastanda kod şəklində aydın verilmişdir. "Bayandır xanın Şamı künhü dünyanın hər tərəfinə yayılmışdır". Yerlərin adını və onun tarixini açmaq üçün mifoloji fəlsəfi üsulla dünyanın ilk toponimini tapmaq lazımdır. Dastana görə, başqa klassik mənbələrə görə, dünyanın ilk toponimii Şam olmuş, həmin Şam məkanı da iki yerə bölünmüşdür. Bunlardan 1-cisi "Daş Oğuz, 2-cisi isə İç Oğuz olmuşdur. Daş Oğuz qışlaqlar, İç Oğuz isə Yaylaqlar olmuşdur. Əslində bu ad Oğuz deyil, "Ağaz" olmalıdır, yəni başlanğıc məkan, başlanğıc nəsil deməkdir. Qışlaqlar qədim Qabıssan (Qobustan) qışlaqları, yaylaqları isə quba Xızı yaylaqları olmuşdur. Oğuz sö-

zündə məna yoxdur. Dastanda qeyd edildiyi kimi, Bəkil Gürcüstan ağazına gedib, oranı nəzarətə götürüb, kafirlərin başını kəsib Bayandır xana göndərirdi. Bəli, bu, Oğuz deyil (tərcümədə bu belə alınıb_ Ağaz olmalıdır. "Şam"ın ilkin simvolu Günəşə bağlanmaqla yerdə simvolu Atəşgah oldu. Şam, Şaməxiyə bağlanmaqla 2-ci Dədəgünəşə bağlandı (Yəni Şamın qardaşı). 3-cü Şam Əqsayi Şamdır ki, Süryaya (Suriya) bağlanır (Sürya ulduz deməkdir, ulduza sitayişi ilkin muğlar etmişdir ki, bunun da bir mənası atəşpərəstlər deməkdir). Əqsayi Şam uzaq Şam deməkdir. Əqsayi Şam isə, Alyaskada Şamanlara bağlanır. Yəni Şərqdə doğulan Şam toponimii Alyaskada, yəni Qərbdə Şamanlarda tamamlandı. Şamanlar isə Mayalılara bağlanmaqda mahiyyətini muğamlarda "Mayə"yə bağlanır. Yəni zat, təməl, əsl, bünövrə.

Dastanda qeyd edilən Gəncəyə getmək, yəni dəmyə torpaqlardan münbit torpaqlara genişlənməyə işarədir. Bu baxımdan, Gəncə adının mənası da dediklərimizə bir daha təsdiq gətirir.

1) Gənc(ə) - xəzinə;

2) Gəncə bəxş - olduqca səxavətli;

3) Gəncinəcamal - xəzinə üzlü, gözəl (Bax:ə.f.lüğ. səh. 298).

Bəli, Gəncə zamanında ilkin svilizasiyanın həqiqi xəzinəsi, yəni qitymətli torpağı, məhsuldar torpağı və göz oxşayan gözəl məkanı olmuşdur.

Fikrimizi təsdiq etmək üçün, "Qurbani" dastanına bağlanaq.

Qurbani:

Könlüm qalxdı, Bərdə sarı yeridi,
Orda bir şəhər var adı Gəncə hey...
Gözəlləri, məhbubları, xubları,
Xub batıbdı mala, mülkə, gəncə hey...

Beytlərdən də aydın olur ki, Gəncə həqiqi mənada təbiətin bəxş etdiyi xəzinədir. Sonrakı beytlər isə, Qurbanı dastanının hansı tarixə bağlılığını Gəncə tarixi ilə vəhdətdə üzə çıxarır. Aldı Qurbani:

Ülkərdən də göydə o Mars qəlblidi,
İki dünya padşahı bir Alıdı.
İsmim Qurbanidi, kəndim diridi,
Qaradağdan Qarabağa gedirəm.

Beytlərdən kodlar (adlar kodu) ağlagəlməz bir tarixi mahiyəti ortaya çıxarır ki, bunlar da dastanların yenidən araşdırılmasına ehtiyac olduğunu önə çəkir. Fikir verin, Mars və Ülkər hər ikisi ulduzlara işarədir. İki dünya padşahı Alıdır (Əli), yəni peyğəmbəri, peyğəmbər ocaqlarını bəxş edən Allahdır. İlkin dinə İbrahim dininə işarədir.

İsmim Qurbinidi, kəndim diridi.

Qurbani - özünü fəda edənə deyilir.

Söhbət Marsdan, Ülkər ulduzundan gedirsə, demək, Günəşə üz tutb, özünü bu yolda fəda edənə, İbrahim və onun tarixinə bağlanır. Qurban sözünün ikinci mənası bir məqsəd üçün kəsilən qurbana deyilir ki, bu da ilkin olaraq İsmayıl qurbanıdır. Baxın, sətraltı dastan adlarına. "Qərib və Şahsənəm". Məgər Şahsənəm bütpərəstlərin səcdə etdikləri Sənəm, Günəş demək deyildimi?

"Abbas və Gülgəz" (Gəz dəniz sahili, geniş sahədə olan üç od. Atəşgah, Pirallahı, Yanardağ. Gül isə müqəddəslik mənasında. Aba - əcdad, əbədi, as isə nüfuz sahibi deməkdir.

"Tahir və Zöhrə". Tahir saf, təmiz, Zöhrə isə ulduz adıdır. Qurbani də həmçinin. Maraqlıdır, bunların hamısına yuxuda buta verilir. Bunlar hamısı "Leyli və Məcnun" da, "Əsli və Kərəm" də bir kökə bağlanır. Bunların hamısı buta alır. Buta isə tarixdə yalnız bir nəfərə verilib ki, o da İbrahim p.ə.-dır. Bütün dastanlar onun məşəqqətli, əzablı yollarına, məşəqqətlərinə istinadən yaradılıb.

İsmim Qurbanidi, kəndim diridi,
Qaradağdan, Qarabağa gedirəm.

Diri - burada "can" mənasında deyil, qədim deməkdir, qədimlik mənısındadır. Yəni dünyanın ən qədim məkanındanam.

Qaradağ qədim Qabıssanın Qaradağıdır ki, orada İbrahim Xanəgahı var, Hacıqabulda Pir Hüseyn xanəgahı var.

Xanəgah dərvişlərin böyüklərinin oturduğu yerə deyilir. Dərvişlər isə İslama deiyl, birbaşa İbrahim Sufiyə bağlanır. İslamda ocağ və pirlərə sitayiş yoxdur. Pirlərə sitayiş isə birbaşa İbrahim dininə bağlanır.

"Dədə Qorqud" dastanında Qazan xan oğlu Uruzun dalınca məhz Qaradağdan keçib, Qazi dağı, Ala dağı, Kərkli-Türklü sayı keçib bir həftəyə Dərbəndə çatır.

Həmin adlar silsilə olaraq indi də Ümbaki və Ağdərə (Xızı sərhədində) yaxınlığına qədər olan yerlərdir

ki, buradan Dərbəndə yorğa gedən at ilə düz bir həftəlik yoldur.

Qurbani isə Qaradağdan Qarabağa, yəni Bərdə və Gəncə tərəfə gedir. Qarabağ isə İncildə olan Cənnət bağı ilə vəhdətdə olan addır. Qara iyirmi altı mənalı söz olub, bir adı da müqəddəs bağdır.

Çıxdım Kəpəz dağına,
Baxdım Cənnət bağına,
Bənövşə calaq olub,
Qızılgül yarpağına.

Bu folklor nümunəsi də dediklərimi birbaşa təsdiq edir. Qarabağın sərhədi isə (Cənnət bağı mənasında) şikəstədə aydın verilir:

Əziziyəm Qarabağ,
Şəki, Şirvan Qarabağ.

Yəni ilkin dünyanın cənnət bağı məhz Çuxuryurddan başlamaqla, Şəki, Qəbələ İsmayıllı, Ağdam, Şuşa ərazilərini əhatə edir. Ona görə Cənnət bağıdır ki, onun kompleks cənnət meyvələri vardır (Alma, Armud, Heyva, Nar, Əncir, Gilənar, Zeytun və b.).

Qurbani der: Əslim Qaradağlıdı,
Yar üzündən ürək düyün dağlıdır.

Söhbət burada oğlan-qız eşqindən deyil, Yar-Allah eşqinə bağlanır ki, sinə dağlılığı bütpərəstlərlə döyüş dağlılığına işarədir.

Mən aşiq Gəncə haray!..
Tiflisdən Gəncəm haray!..
Qurbani öldü getdi,
Mənə bir əncam haray!..

Təbii ki, ilkin irəli sürülən fikir səs-küy doğurmaya bilməz. Mənim də bu fikirlərim çoxlarında təbii olaraq təəccüb doğuracaq.

- Siz Gəncənin yaşının səkkiz min il olmasını konkret olaraq hansı faktlarla sübut edə bilərsiniz?

- Gəncə və onun tarixi ilə bağlı fikirlərimi bir daha təsdiq etmək üçün Gəncədəki İmamzadə pirinə, ocağına bağlamaq zərurəti meydana çıxır. Sual olunur: nə üçün bizlər İmam Hüseyn, İmam Həsən və s. dediyimiz halda, bu ocağa İmamzadə deyirik? Bəli, İmam birbaşa İslama, zadə isə qədim dövrə şamil olunur. İslamda pirlərə sitayiş yox, bir olan Allaha sitayiş var. İmamzadə isə sırf zərdüştlərə, onların peyğəmbərləri İbrahimə bağlanır ki, ilkin ziyarət ocaqalrı, xanəgahlar bu dinlə bağlıdır və bu dindən doğulmuşdur. Zadə çoxmənalı söz olub: 1) Zadə - doğulmuş, hasil olmuş, törənmiş; 2) Zadeyi bəşər - insan övladı, insan oğlu (Bax: ə.f. lüğ. səh. 202). 2-ci bir tərəfdən bu pirə Cərcis piri də deyirlər. Cərcis piri Azərbaycanın bir çox yerlərində vardır. Bunlardan ən güclüsü Beyləqanda, Bərdədə və Nardarandadır. Kimdir Cərcis və hansı tarixi məqamlara söykənir bu pirin tarixi? Bunu açmaq üçün "Valeh və Zərnigar" dastanına bağlanaq. Dastanda ilkin olaraq belə bir fikrə rast gəlirik: "Adım çıxıb, Al-Osmanda sədayam".

"Dədə Qorqud" dastanında deyilir; "Bunu deyən

Al-Osman nəslindəndir".

1). Al - ocaq, peyğəmbər ocağı, bir nəsildən olanlar; 2). Ali nəbi - peyğəmbər övladı. Osman isə əslində Üssman olmalıdır. Üss - kök, təməl, özül, əsl bünövrə (Bax. ə.f. lüğ. səh. 681).

Demək, bəşəriyyətin ilkin nəsli, ilkin peyğəmbər nəsli İbrahim dastanında da, xüsusi vurğu ilə deyilir.

İbrahiməm, Al-Osmanın oğluyam.

İndi isə yekunlaşdırıcı təsdiq üçün "Valeh və Zərnigar" dastanından bir bəndə nəzər yetirək:

Valehəm, ulduzun bilməzlər sanın,
Şəhid olanların yumazlar qanın.
Əzrail alacaq özü öz canın,
O, Cərcisdir öldü, dirildi.

Burada Cərcis xüsusi kdolarla verilir. Demək, Cərcis əsilzadə olmaqla həm ölüb, həm dirilib. Kimdir, hansı peyğəmbərdir ki, ölüb, sonra da dirilib? Təbii ki, bu, İbrahim peyğəmbərdir bu. Yeddi gün əlçatmaz tonqalda yandı. Bütün bütpərəstlər onun yanmağına sona qədər tamaşa etdilər. Sonda dəhşətli səhnə ilə üzləşdilər. İbrahim sağ-salamat əli qucağında oturub, ətrafı da müxtəlif rəngli bənövşələrdir. Bax, budur ölmək və dirilmək. Xalq mahnılarında yazıldığı kimi:

Balışında gül bitsin, döşəyində bənövşə.

Təbii ki, balış burada hündür tonqal,döşək isə düzdə oturma mənasına bağlanır.

Bəli, bunlar sübut edir ki, İmamzadə piri İbrahim və onun dininə bağlanan pirlərdən biridir.

Pir - təriqət banisi, təriqət başçısı; Piri muğan - muğların ziyarətgahı; Piranə - qoca, çox qoca (Bax: ə.f.l. səh. 500). Bundan əlavə, bura Mövlanə də deyirlər. Mövla - sahib, yiyə, cənab, ağa (həzirət), hami, havadar, sufi təriqətinə məxsus (Bax: ə.f.l. səh: 392). Sufilik isə məhz İbrahim peyğəmbər dininindən doğulmuşdur. İcraçıları isə dərvişlər və zahidlər olmuşlar. Bütün bunlara əlavə təsdiq kimi Gəncə toponimlərinə üz tutaq. Məsələn, Tatlılar kəndi. Bu toponim Beyləqanda, Xaçmazda və digər yerlərdə də vardır. Tatoba, Tatallar formasında toponimlərimizdə xüsusi yer tutur. Çox maraqlıdır ki, yahudilər pasportlarında özlərini tat adlandırır. Bizlər isə antik toponimlərimizdə xüsusi yer tutan tat sözünü inkar edirik.

- Tat, tatar sözləri lüğəti mənası ilə açılıb ortaya qoyulmuşdurmu?

- Əlbəttə, yox. Tat dünyanın ən qədim sözlərindən olub, həqiqi yazılış forması "Taət"dir. Taət ilk dəfə Allaha "itaət" etmə deməkdir ki, bu itaətçilərə ilkin nəsil kimi Bayandır və Qazan xanın nəsli olmuşdur. Bu baxımdan, "tat"lar iki vurğuya bölünür. Taətarilər (tatarlar) və Arisaqilər (arsak). Ari - boş bihudə, yalın; ari - təsdiq edir Adəmi.

- Demək, Gəncədəki Tatlılar birbaşa Adəm nəslinə bağlanır? Çünki ilkin yazılı dastanda Adəmin, İbrahimin və Allahın bütün adları müxtəlif formalarda çəkilir.

- "Dədə Qorqud" dastanında Qıpçaq Məlikin arvadı təsadüfi deyildir ki, dustaq edilmiş Qazan xan üçün deyir: "Məlik, bu tatarı buradan rədd et, ölülərimizi incidir". Dastana görə, ilkin Taətari adını daşıyanlardan biri də, ilki də Qazan xan, Bayandur xan olmuşdur.

Taətariləri - ilkin Allaha itaət edən Ari, yəni Adəm nəsli; arisaqilər isə Ari Adəm nəsli, Saqi isə zaman mənasındadır. Yəni zamanın ilkin nəsli Arilər.

Bax, bunlardan Gəncədəki Tatlılar toponiminin mahiyyəti və onun tarixi birbaşa atəşpərəstlərə bağlanır. Təkallahlığın banisi və bünövrəsi dünyada ilkin olaraq Azərbaycan olub.

Çoban Abdallı kəndi

Tarixdə Udinlərdən qədim tayfa olmayıb. Onların da məhəllələrindən biri Abdallılıdır. Abdal - dərvişlərə deyilir, dərviş deməkdir. Çoban isə, əslində çar - dördayaqlı heyvana bir məna ilə; ban isə onu səsləyənə deyilir.

Demək, ilkin heyvanları otaran rusların dilində "çurban" bizdə isə çoban deyilir. Xalq mahnısında deyilir:

Bu yerlərin aslanıdı çobanlar,
Bu yerlərin sultanıdı çobanlar

Çoban Abdalın, bu adı daşıyan kəndin tarixi dörd min ildirsə, ondan qədim yer bəs hansıdır? Dərvişliyin Avesta təhlili ilə, səkkiz, bəlkə də daha artıq min il tarixi vardır. Samux - əslində bu yer Samux deyil, Sanmuğ olmalıdır. Ruslaşdırma dövründə təhrif edilib. San - burada həm işarə mənasında, həm də şan-şöhrət mənasındadır. Muğ isə - müqəddəs nəsil kimi atəşpərəstlərə, yəni Günəşə üz tutub ona beyyət edənlərə deyilib (Bəli, bundan o yana ad, bundan o yana tarix yoxdur).

Qarabağlılar - Qaradağ və Qarabağ vəhdətdə dünyanın ən qədim toponimlərindəndir. Azərbaycanın ilkin adlarından biri də məhz qarabağlılar olub ki, bu ad da, demək olar ki, Azərbaycanın bütün bölgələrində, hətta türk dünyasının bir çox yerlərində vardır. Adın həqiqi və bir mənası da "Cənnət bağı" olanlar mənasındadır ki, bu da bir çox formalarda folklorumuzda və şifahi xalq ədəbiyyatımızda vardır. Novruz dastanında deyilir:

Dağlardan uca Nuh dağıdır,
Cahar ətrafı Cənnət bağıdır.

İsmayıllılar və qubalılar şeytana daş atılan Həzrət babaya, Baba dağına Nuh dağı və ya Nuh baba deyirlər. Bax, bunlardır qarabağlılar adının mənası və sətraltı tarixi.

Totanlı (Gəncədə məhəllə). Bu ad da hərf dəyişikliyinə məruz qalıb. Tot sözü dilimizdə yoxdur. Əslində bu ad "Totanlı" deyil, Tatlılar ilə vəhdətdə "Tatanlı" olmalıdır. An burada qədim zaman mənasında, "Taət" isə itaət mənasındadır (Tat). Yəni zamanın ilkin itaət edənləri Beyə beyyət edənləri (Bey Günəş mənasındadır). Bağbanlar (Gəncədə məhəllə). Bu ad əslində Bağbanlı deyil, Baqibanlı deməkdir. Baqi - beş mənalı söz olub, beşinci məna axirət, o biri dünya (dini) mənasındadır. Adın ümumi mənası Allaha, onun axirətinə inam bəsləyənlər mənasındadır.

- Əgər belədirsə, sizcə, bu mahiyyətləri daşıyan adlara necə iki-üç, yaxud dörd min il yaş vermək olar? Əgər Gəncənin yaşı dörd min ildirsə, deməli, bəşər ta-

rixində dörd min ildən arxaya tarix yoxdur?

- Yadda saxlamaq lazımdır ki, dünyaya səpələnmə, genişlənmə insanların sıxlığına görə deyil, heyvandarlığın genişlənməsinə görə olmuşdur. Məsələn, Gəncə ətrafı toponimlərə müraciət edək. Tovuz - bu adı açmaq üçün "Dədə Qorqud" dastanına istinad etməliyik. Qamğan oğlu Bayandur xana doqquz tümən Gürcüstandan xərac gəlmişdir: bir at, bir qılınc, bir çomaq gətirdilər. Bayandır xan bunlara baxıb sütun qaldı, yəni solğun qaldı. İndi mən bunları kimə verim? Əvvəllər çoxlu məmulatlar gələrdi, mən də bəylərə verərdim, könülləri xoş olardı. İndi bunları kimə verim? Sağa və sola baxıb Bəkilə dedi: "Sən nə deyirsən? Oğlan razı oldu. Qılıncı belinə, çomağı Ummuzuna bağladı, yayı belinə keçirdi, şahbaz ayğırına minib Ağazdan (Oğuzdan) köç eylədi. Bərdəyə, Gəncəyə varıb özünə vətən tutdu.

Bəli, bu cümlələr sübüt edir ki, dastana görə, hələ əhali ətrafa geniş formada yayılmamışdır. Bax bu baxımdan, qeyri-münbit torpaqlara görə Gəncə xəzinə kimi müqəddəs bir adı almışdır. Bu baxımdan, Gəncə və onun ətrafındakı ərazilər eyni müxtəlif formalı mənalara və eyni tarixə bağlanmalıdır ki, tarixin ilk başlanğıc məkanları olmuşdur. Bu baxımdan da, Tovuz və Şəmkir, Ağstafa adlarının da təhlilə ehtiyacı var.

Tovuz - Tov könüllü olaraq itaət edən. Dastanda İbrahim p.ə-dən söz açılır. Bu dastanın ana qayəsi də onun dininə bağlanır. İbrahim ilkin dini ilə svilizasiyaya qapı açıb. Bu dinə ilkin itaət edənlərdən biri də Tovuz və onun camaatı olmuşdur. Tovuzda İbrahimhacılı və s. toponimlər və onların mahiyyəti bunu təsdiq edir.

Tov(ən) - könüllü, öz ixtiyarı ilə, öz xoşu ilə. Deməli,

ilkin insanlar bu müqəddəs yerə ilkin olaraq məcburi yox, könüllü gəliblər, gələcəkdə öz dövlətlərini qurmaq üçün. Tov(əm) - əkiz, oxşar münasib.

Zərduşların (zərdüşt) mənfəətli yerlərindən biri və alisi olan məkan mənasında.

Şəmkir. Şəm - Günəş mənasını daşıyan deməkdir. Kir isə bu müqəddəsliyə yamaqdır. Əslində bu "Kir" deyil, "kür" olmalıdır. Kür - ölkə, vilayət, məkan mənasında olan sözdür. Kür (dəmir) Kür (dəmiç) və b. Ümumi məna Şəm (atəşpərəst) ölkəsi, vilayəti, məkanı. Baxın, bir hərf mahiyyətə, ana mahiyyətə necə zərbə vurur. Yüzlərlə, minlərlədir toponimlərimizdə bu qara yaralar. İ.Nəsimi deyir: "Dünyanın zatı isimdə, bəyanı isə hərflərdədir". Bir hərfi dəyişsən eybəcərliyə düçar olacaqsan. Ağstafa - bərbad hala salınmışdır, heç bir mənaya oturmur bu formada adı. Ad bölünən söz olub iki mənada formalaşır.

1. Aq bağlanmayan, son, nəhayət, axır. 2. Təba - soy, nəsil. 3. Təba - uzaqlaşma, bir-birindən uzaq düşmə.

Dastanda yazıldığı kimi, Gürcüstan ağazına (başlanğıcına köç eylədi).

Ümumi məna, ucqar ərazidə olma, yəni sərhəddə məskunlaşma. Soy, nəsil məkanı mənasında olan söz və ya addır. Ucqar, gözəl, səxavətli məkan mənasındadır. Açdığım bu ideoloji tənliklər öz mənaları ilə tarixi baxımdan ən azı səkkiz minillik bir tarixə bağlanır.

Bunu təsdiq etmək üçün, Zənd Əvəstada (Avesta) olan tarixi rəqəmlərə istinad edək. "Avesta" Azərnəşr 1995-ci il.

1. Platon zərdüşt Dinin yaxşı öyrənmişdir. Zərdüşt Platondan altı min əvvəl yaşamışdır. 2. Zərdüşt "Troya"

müharibəsindən beş min il əvvəl olmuşdur.

3. E.Ə. III Dara özünü "Pars" (atəşpərəst) budağının doqquzuncusu saymışdır.

Dediklərimizə daha artıq sübutedici faktlar əlavə edərək, Gəncənin həqiqi tarixi haqqında çoxcilddli kitablar yazmaq olar.

Gəncənin tarixinə səkkiz min il yox, dörd min il yaş qoyanlar heç bir tarixi sütuna söykənmir, bolşevik tarixşünaslığı idrakından kənara çıxmır. Gəncənin tarixini daha dəqiq göstərmək üçün "Avesta"da 29 Yəsna 10-cu hadini sizə töhfə edirəm.

"Rəbbim mənə güc ver, sənin yaratdığın oda (Günəşə) üz tutmaqla, insanları bütpərəstlikdən xilas edib sənə tərəf döndərim".

Bəli, bu müqəddəs şəxs İbrahimdir p.ə-dir. İlkin olaraq biz atəşpərəstləri, Taəttariləri, Arisaqiləri (Saklar) öz arxasınca aparıb, Günəşə tərəf döndərdi, ona beyyət etdirdi. Dinin və ondan doğulan ilkin svilizasiyanın əsasını qoydu ki, bunlara, bu nəslə muğlarla vəhdətdə zərdüştlər dedilər. İlkin ibadətgahları Ümbaki (ana Baki), Qabıssan qayaları (Qobustan) və Atəşgah oldu (Yerdə Günəşin rəmzi). Zərdüştlər isə dünyanın ilkin əkinçiləri olmaqla svilizasiya deməkdir. Gəncənin tarixi isə bu tarixdən doğulan mahiyyət deməkdir.

Gəncəbasar adı da, Gəncə sözünə, adına bağlanan onunla vəhdətə olan addır. Bəsa (tin) sözünnən götürülüb bostanlar, dirliklər, xırlarla zəngin olan yer mənasında. Ümumi mənа meyvə, tərəvəz məhsulları üçün əvəzi olmayan, əhəmiyyətli yer mənasında.

MÜNDƏRİCAT:

Ön söz. Bəşəriyyətin beşiyi-qabıssandır-inkar edilməzlik sindromu 7
İsgəndər quran ayələrində 16
Müqəddimə..... 23
İsgəndərin dünyaya gəlməsi 38
İsgəndər fatehdir, yoxsa peyğənbər 44
Makedoniyalı İsgəndər ölümlə mübarizədə..... 55
İsgəndər daranın üstünə dinə görə getmişdi! 62
İsgəndərin dirilik suyu şirvandadır 73
İsgəndərin Nüşabə ilə görüşməsi 74
İsgəndərin Almazı kəşf etməsi..... 93
İsgəndərin rus ölkəsinə çatması və müharibəsi 105
İsgəndərin buynuzu olubmu?.....111
Diriliyin çeşməsi qaynar zülmət qoynunda.....140
Hayların və farsların kökü hara bağlanır?.....149
Epiloq 187
Nuhun tufanı harada, hansı ayda və hansı saatda baş vermişdir.....188
Xaç dünyanın ilkin dini nişanı vətəni Azərbeycandır 206
Dünyanın ilk hacılığı Azərbeycanda olub 219
Yardımlı toponimləri.....257
Gəncənin tarixi - tarixin Gəncəsi Gəncənin tarixi yenə saxtalaşdırıldı 263

Varlıların soyuq daşa döndülər,
Adamlıqdan çıxıb daşa döndülər,
Bilmədim mən ipəkdilər, göndülər
Onlara tutmadım mən üz, Qabıssan.

Kitaba sponsorluq etdiyi üçün, Şəmkirli Cəlilov Ramin Lətif oğluna öz minnətdarlığımı bilddirirəm. Bu xidməti mənə deyil, vətəninə, xalqına və peyğəmbərlərinə xidmət kimi dəyərləndirirəm.

Dizayner: Fariz Məhərrəmov
Korrektor: Aygün Adıgözəlova
Operator: Aytən Kərimova

~~~~~~~~~~~~~~~~~~~~~~~~~
Çapa imzalanmışdır: 04.06.2013.
Formatı: 60x84 1/16. Həcmi: 17,5 ç.v.
Sifariş 18. Tiraj 200.
«Təknur» MMC-nin mətbəsində
hazır elektron variantdan ofset üsulu ilə çap olunmuşdur.
~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~
Mətbəə kitabın məzmununa, yazı üslubuna, orfoqrafiya
və qrammatikasına görə heç bir cavabdehlik daşımır.
~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~
Mətbəənin direktoru: Ələkbər Məmmədov
~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~
Ünvan: Bakı ş., Qanlı Gölün Qərb sahili, 125
Telefon: 408-18-30.